**ISSN 1682-9123**

**AZƏRBAYCAN RESPUBLİKASI**
**ODLAR YURDU UNİVERSİTETİ**

# ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ

# THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

# НАУЧНЫЕ И ПЕДАГОГИЧЕСКИЕ ИЗВЕСТИЯ УНИВЕРСИТЕТА ОДЛАР ЮРДУ

№ 63

Bakı ✰ 2024 ✰ Baku

**Baş redaktor: f.r.e.d., prof.Ə.A.VƏLİYEV**

**Məsul katib**: f.-r.e.n., dosent F.K.Xudaverdiyev

**Humanitar elmlər üzrə baş redaktor müavini**: h.e.d.S.Ə.Vəliyev
**Dəqiq elmlər üzrə baş redaktor müavini**: prof.F.S.Məmmədov (Türkiyə)

**Redaksiya heyətinin üzvləri:** akad.A.M.Paşayev, AMEA müxbir üzvü prof.Q.C.İmanov, i.e.d.Ə.Q.Əlirzayev, tibb e.d.M.H.Əliyev, i.e.d.M.M.Bağırov, i.e.d.E.Y.Məmmədov, akad.N.Q.Cəfərov, psixologiya e.d.R.V.Cabbarov, tex.e.d.M.İ.Əliyev, tex.e.d.N.H.Cavadov, tex.e.d.T.S.Abdullayev, prof.A.Avey (Türkiyə), prof.M.Cəmşidi (ABŞ), prof.H.B.Meladze (Gürcüstan), Y.M.Morozov (Rusiya), i.e.f.d.M.Ə.Vəliyev, i.e.n.E.H.Hüseynov, f-r.e.n.M.B.Vəliyev, b.e.f.d. T.H.Kərimova, f.e.f.d. S.X.Abdurəhmanova

**Журнал рецензируется и реферируется в ВИНИТИ (№10211-5335/54-34)**

**Editor-in-chief: Prof. A.A.VALIYEV**

**Executive Secretary:** ass. prof.F.K.Hudaverdiyev

**Deputy Editors-in-chief:** prof.S.A.Valiyev (Humanities), prof.F.S.Mamedov (Exact Sciences)

**Editorial Board:** acad.A.M.Pashayev, correspondent member of the National Academy of Science of Azerbaijan prof.G.J.Imanov, prof.A.G.Alirzayev, prof.M.H.Aliyev, prof.M.M.Baghirov, prof.E.Y.Mamedov, acad.N.G.Jafarov, prof.R.V.Jabbarov, prof.M.I.Aliyev, prof.N.H.Javadov, prof.T.S.Abdullayev, prof.A.Avey (Turkey), prof.M.Jamshidi (USA), prof.H.B.Meladze (Georgia), prof.Y.M.Morozov (Russia), prof.E.H.Huseynov, M.A.Valiyev, M.B.Valiyev, T.H.Karimova, S.X.Abdurahmanova

**All the articles in this journal are peer-reviewed and include summaries.**

The address of editorial office:
General Department, Odlar Yurdu University, 13 Koroglu Rahimov St., Baku AZ1072, Azerbaijan
Tel.: (office) (+994 12) 465 82 62, (+994 12) 465 82 00
(mob.) (+994 55) 465 85 27, (+994 50) 378 86 30
Fax: (+994 12) 465 67 05
http://www.journal.oyu.edu.az
e-mail: journal@oyu.edu.az

OYU-2024

Az.073 «Odlar Yurdu» nəşriyyatı, 2024-cü il

Redaksiyanın ünvanı: Bakı AZ1072, Koroğlu Rəhimov küçəsi 13
Odlar Yurdu Universiteti, Ümumi şöbə

TƏSİSÇİ:

Odlar Yurdu Universiteti

Jurnal 1998-ci ilin dekabr ayından nəşr olunur

Dövriliyi ildə ən azı iki dəfədir

Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən rəsmi qeydiyyata alınmışdır. Qeydiyyat nömrəsi: AB022011, 27.11.1998

Jurnal Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən riyaziyyat, mexanika, iqtisad, texnika, tibb, əczaçılıq, biologiya, aqrar, hüquq, tarix, antropologiya, siyasi, psixologiya, pedaqogika və filologiya elmləri sahəsində tövsiyə edilən elmi nəşrlər siyahısına daxil edilmişdir



*Redaksiyanın ünvanı:* Bakı AZ1072, Koroğlu Rəhimov küçəsi 13, Odlar Yurdu Universiteti, Ümumi şöbə

Tel.: (+994 55) 465 85 27
Faks: (+994 12) 465 67 05
http:// journal.oyu.edu.az
e-mail: journal@oyu.edu.az



FOUNDED BY

Odlar Yurdu University

Published since December 1998

Issued at least twice a year

Registered by the Ministry of Justice of the Republic of Azerbaijan under reference number №022011 (AB series) on November 27, 1998

Included into the list of scientific periodicals recommended by the Presidential Higher Certifying Commission of the Republic of Azerbaijan in the fields of Mathematics, Mechanics, Economics, Technical Science, Medicine, Pharmacology, Biology, Agrarian Science, Law, History, Anthropology, Political Science, Psychology, Pedagogy and Philology.



*Editorial Address:* General Department, Odlar Yurdu University, 13 Koroglu Rahimov St., Baku AZ1072, Azerbaijan

Tel.: (+994 55) 465 85 27
Fax: (+994 12) 465 67 05
http:// journal.oyu.edu.az
e-mail: journal@oyu.edu.az



УЧРЕДИТЕЛЬ:

Университет Одлар Юрду

Издается с декабря 1998 года

Выходит не менее двух раз в год

Официально зарегистрирован Министерством Юстиции Азербайджанской Республики. Регистрационный номер: AB022011 от 27.11. 1998

Включен в перечень изданий, рекомендованных ВАК при Президенте Азербайджанской Республики для публикации основных результатов кандидатских и докторских диссертаций в области математики, механики, экономики, технических наук, медицины, фармакологии, биологии, аграрной науки, права, истории, антропологии, политологии, психологии, педагогики и филологии.



*Адрес редакции:* Баку AZ1072, ул. Кёроглу Рахимова 13, Университет Одлар Юрду, Общий отдел

Тел.: (+994 55) 465 85 27
Факс: (+994 12) 465 67 05
http:// journal.oyu.edu.az
e-mail: journal@oyu.edu.az

# İ Q T İ S A D İ Y Y A T
# E L M L Ə R İ   B Ö L M Ə S İ

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2024 - № 63

UOT № 339.9

# ASSESSMENT OF THE EFFICIENCY OF ATTRACTING FOREIGN INVESTMENTS TO THE ECONOMY OF AZERBAIJAN

**T.R.Aghayeva**
Odlar Yurdu University
13 Koroglu Rahimov St., Baku
e-mail: mayil_oruc@yahoo.com

***Açar sözlər:*** investisiya, investor, nizamnamə kapitalı
***Keywords:*** investment, investor, authorized capital
***Ключевые слова:*** инвестиции, инвестор, уставный капитал

In globalization, not only the attraction of foreign investments, but also the assessment of the appropriateness, rationality and efficiency of their use is of special importance. Therefore, determining the effectiveness of foreign investment answers the question of the appropriateness of their involvement and use.

The efficiency of investments is determined by the ratio of the received economic benefit to the amount of financial and production costs spent on its purchase. The main task of business development for any enterprise, organization or state is to increase the efficiency of investments. In other words, the main task facing investors is to ensure a significant increase in profit per unit of spent financial, material and labor resources, volume of production or national income.

The main criterion for evaluating the effectiveness of investments is the scale of income growth in relation to the used production and financial resources.

Investment efficiency is a very urgent problem. Not only experienced financiers and economists, but also scientists are engaged in its solution, so the search for ways to increase the efficiency of investments indicates a breakthrough in the financial sector, which will affect not only the development of a separate company, but also the growth of the economy of an entire state.

According to the theory, it is necessary to start determining the efficiency of capital investments already at the planning and project stage. In the design process, two main indicators are used in order to make a preliminary assessment of the efficiency of investments. First of all, it is the overall economic efficiency, which is determined by calculating the ratio between the economic efficiency achieved and the costs necessary for their acquisition.

The second indicator used during the calculation of investment efficiency at the design stage is the comparative economic efficiency indicator. Comparative economic efficiency of investments is a relative measure of how efficient an investment is compared to other investments in the same area. Here, the coefficient of economic efficiency of standard capital investments is often used.

With the help of economic evaluation of investments, it is possible to determine the period of full return of capital investments and their profitability. Currently, in practice, many management decisions in the field of investment are largely based on economic ana-

lysis, which reflects the ratio of costs and results, as well as evaluation methods for obtaining comparability of investment efficiency indicators. Economic evaluation of investments requires a uniform method and methodology of evaluation for the subsequent comparative analysis of individual investment projects.

In order to evaluate investments, it is required to develop criteria for making investment decisions. It is clear that the determination of important criteria for a specific company is subjective and depends on the company's goals. At the same time, it should be noted that any investment project, even if it is complex in nature, cannot be implemented by means of one criterion. In the economic experience, such an idea has been formed that it is more appropriate to make the investment under the following conditions:

- If the net profit obtained from capital investments exceeds the profit obtained from placing funds in a bank deposit;
- When the profitability of the investment is higher than the expected inflation level;
- When the profitability of the investment project during the period is higher than the profitability of other (alternative) capital investment projects;
- When the profitability of the company's assets increases after the completion of the investment project, and in any case, it is higher than the average settlement ratio for the borrowed funds;
- Concrete investment project rationalization of production structure, self-recovery of costs, availability of own sources to cover costs, provision of stable financial income, etc. from the point of view, when it is consistent with the company's development strategy.

Evaluating the effectiveness of investments is an extremely complex problem that requires both quantitative and qualitative approaches in all cases of investments in the country's economic and social sectors. Moreover, this situation is more relevant to foreign investments, where a number of additional factors arise that are important to take into account during the evaluation. Efficiency indicators of direct and other investments are created quite differently. Methods of evaluating efficiency at the macro level of the economy and at the level of enterprises and organizations as different as r. Evaluating the efficiency of any proposed investment project, including the one with the participation of non-residents, reflects a continuous process in itself. This process starts from the moment of technical and economic justification of the project, represents an element of project monitoring during its entire implementation period, and reflects the conclusion of the economic result after the completion of the process. In all these stages, the methods of obtaining the efficiency assessment are slightly different.

In modern literature, there is a whole spectrum of investment evaluation methods. Issues of their development and application were discussed by G. Alexander, V. Beris, E. Body, P. L. Vilisky, V. V. Kovalev, S. N. Maksimov, T. V. Teplova, V. V. Shermes, etc. as reflected in the works of many foreign and Russian economists.

Currently, generally accepted methodological recommendations are used for evaluating the efficiency of investments and selecting them for financing.

In the most general form, we can show the economic evaluation of the efficiency of investments as follows (Fig. 1).

In these methodological recommendations, the results of foreign and local studies in the field of methodology of efficiency assessment are reflected in a wide range. According to methodological guidelines, all indicators of investment project efficiency can be divided into the following groups:

- Commercial efficiency indicators showing the financial status of its direct participants in the results of the implementation of investment projects;
- Indicators of budget efficiency reflecting the results of the investment project for the budget;
- Not included in the sphere of direct financial interests of investment project participants. But economic efficiency results, which take into account the costs and consequences of project implementation.

In a certain sense, such a typology is somewhat artificial and is related to the determination of a general indicator of efficiency, but it can be applied to various levels and objects of the economic system, in other words, in the national economy as a whole (a global measure of efficiency), at regional and sectoral levels, at the enterprise level, or at a specific investment can also be applied at the project level.

According to methodological recommendations, the effectiveness of investments can be expressed by indicators that reflect the ratio of costs and results related to investments and allow to comment on the relative economic superiority of one capital investment over another.

Investment indicators are usually classified according to the following important characteristics:
- According to the type of summarizing indicator that acts as a measure of economic efficiency of investments. Here, absolute (here, the summarizing indicator is defined as the difference between the cost and results of the investment project and the value assessment), relative (here, the summarizing indicator is defined as the ratio of the value assessment of the project results to the total costs spent on its purchase) and time (on the basis of this, the duration of the project itself) it is necessary to differentiate the indicators;
- On the method of comparing results and money costs at different times. Here, it is necessary to distinguish between static methods in which cash flows at different stages of the project are evaluated as equivalent, and dynamic methods, in which cash flows are brought to a common basis by means of discounting, and which provide comparability of cash flows at different times, in connection with the implementation of investment projects.

Static methods include:
- Investment efficiency coefficient (Accounting Rate of Return - ARR);
- Investment payback period method (Payback Period - PP).

In turn, the most important dynamic methods can be attributed to:
- Investment profitability index (Profitability Index - PI);
- Net present value (Net Present Value - NPV);
- Discounted investment payback period (Discounted Payback Period - DPP);
- Internal Rate of Return (IRR);
- Net discounted income, net present value (Net Present Value - NPV).

In some sources, the net present value indicator is also referred to as "Net Present Value" or "Net Present Value". This indicator NPV (Net Present Value) reflects the difference between all cash inflows and outflows at the time of the investment project evaluation and shows the amount of cash that the investor expects to receive after paying the cash inflows, his initial investment costs and periodic cash outflows related to the implementation of the project. If this indicator is negative, then the investor will




Figure 1. Indicators and methods of evaluating the economic efficiency of investments

suffer losses, in other words, the project is ineffective. The importance of calculating net discounted income comes from the following factors:
- The available amount can be invested in profitable transactions and bring profit;
- Inflation - decrease in real purchasing power of money;
- There is a risk of not receiving the expected amount.

It should be noted that investments, apart from their commercial importance, also have the following effects:
- social;
- tax;
- budget;
- environmental.

All these effects of the project are no less important for the other three parties, as the company and the project are located in the environment of society, people, state and nature. If the project improves its environment, it is better for the company implementing the project:
- The social effect of the project is evaluated by its usefulness for people living or working in the area where the project is implemented, and consists of increasing the level of wages, developing the existing infrastructure in that area, and creating other opportunities for the population living around the area where the project is implemented;
- the tax effect of the project is assessed by the amount of taxes collected from the project to the local, regional and state budget;
- the budget effect of the project is evaluated if the project is fully or partially financed at the expense of the budget (state, regional, local) funds. At this time, it is determined how much money is returned to the budget through taxes a few years after the budget has been invested in the project;
- if the project affects the environmental situation in one way or another, the environmental effect can be determined.

It should be noted that attracting foreign investments to the Republic of Azerbaijan under specific conditions and operating in sensitive geopolitical conditions (due to the fact that Azerbaijan is in a state of undeclared war with Armenia), although their efficiency is quite high.

In recent years, due to the increase in foreign investment, a significant increase in wages and labor productivity has been observed in the GDP of Azerbaijan, so that, according to the calculations of the author of the dissertation, it has increased by 2.2 and 2.3 times, respectively. At the same time, it should be noted that the volume of production in the industrial and agricultural sectors has increased significantly. Improving the quality of infrastructure, especially in road construction, construction, processing industry, petrochemical, water management, etc. Investments made by the state from budget funds pay for themselves in time. At present, many oil mining enterprises maintain environmental standards.

The policy of further increasing the efficiency of investments of the Republic of Azerbaijan should be aimed at improving the following conditions and categories that have a greater impact on increasing efficiency:
- investment risk;
- improvement of the tax system;
- the level of inflation;

- political and social situation in the country;
- investment environment;
- normative-legal basis in the field of attracting foreign investments;
- the level of infrastructure development to attract foreign investments;
- already formed conditions for attracting foreign investments;
- efficiency of state investment policy, etc.

In conclusion, it can be stated that the socio-economic effect of foreign investments involved in the economy of the Republic of Azerbaijan is provided by the combined use of qualitative indicators related to the improvement of the structure of the economy, the placement of productive forces and the innovative renewal of the economy.

## References

1. “Xarici investisiyanın qorunması haqqında Azərbaycan Respublikasının Qanunu.” (1992) Bakı, 15 yanvar 1992-ci il
2. ”İnvestisiya fəaliyyəti haqqında”Azərbaycan Respublikası Qanunu.” Bakı, 22 iyun 2022-ci il
3. World Investment Report 2002. (2014) Transnational Corporations and Export Competitiveness. URL: http://unctad.org/en/Docs/wir2002_en.pdf 19.12.2014
4. Ozawa T. (2005) Institutions, Industrial Upgrading, and Economic Performance in Japan – The ‘Flying-Geese Paradigm of Catch-up Growth. Northampton, Massachusetts: Edward Elgar Publishing
5. Kasahara S. (2004) The Flying Geese Paradigm: A Critical study of Its Application to East Asian Regional Development, United Nations Conference on Trade and Development, Discussion Paper # 169
6. Dunning, J.H. (1973) The Determinants of International Production, Oxford Economic Papers. #25, p.289
7. M.M.Orucov. (2020) Milli iqtisadiyyatın müasir inkişaf modeli. OYU Elmi və Pedaqoji xəbərləri, №54

## AZƏRBAYCAN İQTİSADİYYATINA XARİCİ İNVESTİSİYALARIN CƏLB EDİLMƏSİNİN SƏMƏRƏLİLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

**T.R.Ağayeva**

## XÜLASƏ

Məqalədə Azərbaycan iqtisadiyyatına xarici investisiyaların cəlb edilməsinin səmərəliliyinin qiymətləndirilməsindən bəhs edilir. Aparılan təhlildən belə nəticəyə gəlmək olar ki, Azərbaycan Respublikasının iqtisadiyyatına cəlb olunmuş xarici investisiyaların sosial-iqtisadi effekti, iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi, məhsuldar qüvvələrin yerləşdirilməsi və iqtisadiyyatın innovativ yeniləşməsi ilə əlaqədar olan keyfiyyət göstəricilərinin birlikdə istifadə edilməsi ilə təmin edilir.

## ОЦЕНКА ЭФФЕКТИВНОСТИ ПРИВЛЕЧЕНИЯ ИНОСТРАННЫХ ИНВЕСТИЦИЙ В ЭКОНОМИКУ АЗЕРБАЙДЖАНА

**Т.Р.Агаева**

**РЕЗЮМЕ**

В статье речь идет об оценке эффективности привлечения иностранных инвестиций в экономику Азербайджана. Из проведенного анализа можно сделать вывод, что социально-экономический эффект от иностранных инвестиций, привлеченных в экономику Азербайджанской Республики, обеспечивается за счет комплексного использования качественных показателей, связанных с улучшением структуры экономики, размещением производительных сил и инновационным обновлением экономики.

*Məqalə redaksiyaya 1 aprel 2024 tarixində daxil olmuş, 2 aprel 2024 tarixində isə çapa qəbul olunmuşdur.*

**ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ**
**THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY**

**2024 - № 63**

UOT № 339.9

# İLHAM ƏLİYEVİN PREZİDENTLİYİ DÖVRÜNDƏ AZƏRBAYCAN İQTİSADİYYATI: 20 İLDƏ QƏT OLUNMUŞ UZUN YOL

**S.R.İbrahimova, M.M.Orucov**
Odlar Yurdu Universiteti
Bakı, Koroğlu Rəhimov küçəsi 13
e-mail: mayil_oruc@yahoo.com

***Açar sözlər:*** ÜDM, ixrac, idxal, sənaye, kənd təsərrüfatı, turizm, ərzaq məhsulları, yoxsulluq səviyyəsi, iş yerləri
***Keywords:*** GDP, export, import, industry, agriculture, tourism, food products, poverty level, jobs
***Ключевые слова:*** ВВП, экспорт, импорт, промышленность, сельское хозяйство, туризм, продукты питания, уровень бедности, рабочие места

"Əsrin müqaviləsi" sayəsində dirçəliş yoluna qədəm qoyan Azərbaycan iqtisadiyyatı son 20 ildə mühüm inkişaf yolu keçib. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş sosial-iqtisadi inkişaf strategiyası Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Ötən 20 ildə ölkəmiz bütün sahələrdə uğurlar əldə edib və onların hər birinin arxasında düşünülmüş, gələcəyə hesablanmış strateji addımlar dayanır.

Məqalədə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin rəhbərliyi ilə əldə olunan iqtisadi göstəricilərdə əksini tapan inkişaf dinamikası araşdırılır.

Sosial-iqtisadi inkişafın sürətləndirilməsinə dair verilmiş qərarlar iqtisadi artımı təmin etmişdir. Dövlət başçısının prezident kimi fəaliyyətinin lap əvvəlində qəbul etdiyi ilk mühüm qərar ölkənin sosial-iqtisadi inkişafının sürətləndirilməsi ilə bağlı olub. Belə ki, "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" 2003-cü il 24 noyabr tarixli fərmanla müəyyən edilmiş strategiya ölkənin hərtərəfli inkişafı üçün davamlı proqramların əsasını qoymuşdur.

Bu fərmana uyğun olaraq, 2004-cü ildən Azərbaycan Respublikasında regionların sosial-iqtisadi inkişafına dair 4 dövlət proqramı (2004-2008, 2009-2013, 2014-2018, 2019-2023-cü illər) qəbul edilmişdir. Proqramlar çərçivəsində 100 milyard manatdan çox investisiya qoyulmuş və regionların inkişafına mühüm töhfə verilmişdir.

Son 20 ildə iqtisadi artımla bağlı rəqəmlər bütün mənzərəni aydın şəkildə göstərir.



Bütövlükdə, 2003-2022-ci illər ərzində ölkə iqtisadiyyatı 3,4 dəfə, qeyri-neft iqtisadiyyatı isə 4 milyard ABŞ dollarından 41 milyard ABŞ dollarına qədər yüksəlmişdir. Dünya Bankının hesablamalarına görə, 2002-2022-ci illərdə Azərbaycan orta gəlirdən yuxarı olan ölkələr qrupuna daxil olub. Son 20 ildə ölkədə Ümumi Daxili Məhsul (ÜDM) 6,2 milyard ABŞ dollarından 78,7 milyard ABŞ dollarına qədər yüksəlmiş, real ÜDM isə dörd dəfə artmışdır. Bu dövrdə ümumi investisiyalar 300 milyard ABŞ dollarını ötmüşdür ki, bunun da 190 milyard ABŞ dolları qeyri-enerji sektoruna qoyulmuşdur.




Son 20 ildə dövlət büdcəsinin xərcləri də təxminən 30 dəfə artıb. Əgər 2003-cü ildə adambaşına büdcə xərcləri 150 manatdan az idisə, hazırda bu rəqəm 3500 manatdan yuxarıdır. Adambaşına düşən ÜDM 769 ABŞ dollarından 7 798 ABŞ dollarına qədər yüksəlmişdir. Qeyri neft - qaz ÜDM-i 4,1 milyard ABŞ dollarından 41,1 milyard ABŞ dollarına qədər yüksəlmiş, ölkənin xarici ticarət dövriyyəsi 3,8 milyard ABŞ dollarından 52,7 milyard ABŞ dollarına, ixracın həcmi 2,2 milyard ABŞ dollarından 38,1 milyard ABŞ dollarına kimi artmışdır. Qeyri-neft ixracı 0,26 milyard ABŞ dollarından 3,05 milyard ABŞ dollarına, xarici ticarət profisiti isə 0,5 milyard ABŞ dollarından 23,6 milyard ABŞ dollarına kimi artmışdır. 2003-2022-ci illər ərzində Azərbaycanda kənd təsərrüfatı 2,2 dəfə, nəqliyyat sektoru 4,9 dəfə, turizm və ictimai iaşə 18,9 dəfə, informasiya və rabitə sektoru 23 dəfə artmışdır. Ölkənin strateji valyuta ehtiyatları 2003-cü ildəki 1,4 milyard ABŞ dollarından 2022-ci ildə 58,5 milyard ABŞ dollarına qədər artmışdır. Yoxsulluğun səviyyəsi 2002-ci ildəki 46,7%-dən 2022-ci ildə 5,5%-ə enmişdir.

Ölkənin maliyyə imkanları yaxşılaşdıqca onun xarici borclardan asılılığı da azalmiş və nəticədə 2003-cü ildə xarici borcun ÜDM-də xüsusi çəkisi 21,6% idisə, 2022-ci ildə bu 9,5% təşkil edib.

Bütün bunlar İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi 20 il ərzində əldə edilmiş iqtisadi uğurların ümumi mənzərəsini əks etdirir.

Azərbaycanda özəl sektorun dəstəklənməsi də dövlətin iqtisadi siyasətinin mühüm istiqamətlərindən biridir. 2003-2022-ci illərdə Sahibkarlığın İnkişafı Fondu tərəfindən 43 minə yaxın investisiya layihəsinin maliyyələşdirilməsinə 2,8 milyard manatdan çox güzəştli kreditlər verilmişdir. Bu layihələr sayəsində 178 mindən çox yeni iş yerinin yaradılması mümkün olmuşdur ki, bunun da 80%-dən çoxu regionların payına düşür. Verilən güzəştli kreditlərin 75 faizi regionların payına düşmüşdür.




Son illər vergi sistemində aparılan əsaslı islahatlar nəticəsində iqtisadiyyatda şəffaflığın səviyyəsi yüksəlmiş, bunun nəticəsində 2022-ci ildə dövlət büdcəsinə vergi daxilolmaları rekord həddə - 15,5 milyard manata çatmışdır. Qeyri-neft-qaz sektoru üzrə vergi daxil olmalarında özəl sektorun payı isə 74%-i ötmüşdür.

Qeyri-enerji özəl sektorunda əmək bazarının "ağlaşdırılmasına" yönəlmiş islahatlar sayəsində 340 mindən çox yeni əmək müqaviləsi bağlanmış və ölkə üzrə əmək müqavilələrinin yarısıda məhz bu sektorun payına düşmüşdür.

Ulu öndərin neft strategiyasının uğurla davam etdirilməsi qarşıya qoyulan vəzifələrin həyata keçirilməsinə zəmin yaratmışdır.

Ulu öndər Heydər Əliyevin "Əsrin müqaviləsi"nin imzalanmasını özündə ehtiva edən neft strategiyasının uğurla həyata keçirilməsi nəticəsində Xəzər dənizini Qara dənizlə birləşdirən enerji infrastrukturunun əsasının qoyulması nəticəsində yaranan imkanlar və Aralıq dənizi, geniş miqyaslı vəzifələrin tam şəkildə həyata keçirilməsi üçün əhəmiyyətli bir zəmin yaratdı.

**Azərbaycan enerji körpüsünə çevrilir**




Azərbaycanın enerji ölkəsi kimi əhəmiyyətini və geosiyasi çəkisini artıran son nailiyyətlərin ardıcıllığı məhz Prezident İlham Əliyevin strateji baxışına əsaslanır. Yəni, dövlət başçısı özünün də bəyan etdiyi kimi, nəyi, necə, nə vaxt edəcəyini çox gözəl bilir, qərarlarını buna məharətlə uyğunlaşdırır, bununla da **onun sözü imzasına bərabərdir.**

Əgər 2007-ci ilə qədər Azərbaycan dünyada neft ixrac edən ölkə kimi tanınırdısa, 2007-ci ildən qaz idxal edən ölkədən, qaz ixrac edən ölkəyə çevrilmişdir. Ölkədə neft hasilatı 2010-cu ildə pik həddə çataraq 50,8 milyon ton təşkil etmişdir. Enerji böhranı döv-

ründə Azərbaycan Avropanın enerji təchizatının şaxələndirilməsini təmin edən ölkəyə və enerji təhlükəsizliyinin təmin edilməsində etibarlı strateji tərəfdaşa çevrildi. Bu, "Cənub Qaz Dəhlizi" (TAP) layihəsinin icrası nəticəsində baş vermişdir. Enerji təhlükəsizliyinin təmin edilməsində strateji rola Xəzər dənizindəki "Şahdəniz" yatağından hasil edilən təbii qazın yeni marşrut olan Trans-Adriatik Boru Qaz Kəməri (TAP) vasitəsilə Avropa bazarına ən kritik dövrdə nəql edilməsinə nail olunub. Bu layihə strateji baxışın, dəqiq proqnozlaşdırmanın, eləcə də böyük qətiyyətin məhsuludur.

Ümumilikdə, Trans-Anadolu Boru Qaz Kəməri (TANAP) və TAP istismara veriləndən bəri Türkiyəyə 27,5 milyard kubmetr, Avropaya isə 30 milyard kubmetr Azərbaycan qazı satılmışdır. Bu il ölkədə qaz hasilatı 48,7 milyard kubmetr, ixrac isə 24 milyard kubmetr proqnozlaşdırılır.

Hazırda Prezident İlham Əliyev Azərbaycanın "yaşıl enerji" ölkəsi statusunun möhkəmləndirilməsi istiqamətində ardıcıl iş aparır.







Səudiyyə Ərəbistanının ACWA Power və BƏƏ-nin Masdar şirkətləri ilə 240 MVt gücündə külək və günəş enerjisi pilot layihələri ilə 2020-ci ildən başlayaraq yaşıl enerji tərəfdaşlığı sürətlə genişləndirilmişdir. Masdar, ACWA Power, BP, Fortescue Future Industries, China Gezhouba Group Overseas Investment, Total Energies, Nobel Energy və A-Z Czech Engineering şirkətləri ilə ümumi gücü 28 GVt-dan çox olan layihələr üzrə əməkdaşlıq sənədlərinin imzalanması bu prosesə beynəlxalq marağın hansı səviyyədə olduğunu göstərir. Prezidentin həyata keçirdiyi "yaşıl enerji", Azərbaycanın yaşıl gələcəyinə olan inamdır.

Artıq bu sahədə potensial müəyyən edilib, böyük investisiyalar cəlb edilib, ixrac bazarı kimi Avropa İttifaqı ilə razılaşmalar da əldə olunmuşdur. Bundan əlavə, 3-4 ildən sonra Xəzər dənizində və onun ətrafında hasil ediləcək "yaşıl enerji"nin Azərbaycandan Gürcüstana, oradan isə Qara dəniz sualtı kabeli ilə Rumıniya və Macarıstana, daha sonra digər AB ölkələrinə ötürüləcəyi nəzərdə tutlmuşdur. Beləliklə, Azərbaycan üzərindən daha bir körpünün - Xəzər dənizi ilə Avropa İttifaqı arasında yaşıl enerji dəhlizinin yaradılması nəzərdə tutulur.

Ölkəmiz beynəlxalq nəqliyyat qovşağına çevrilir. Azərbaycanın təşəbbüskarı və iştirakçısı olduğu beynəlxalq layihələr arasında nəqliyyat və logistika sektoru xüsusi yer tutur. Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 ildə ölkənin ən böyük iqtisadi və siyasi uğurlarından biri Azərbaycanın beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişdiyi nöqtəyə çevrilməsi olub.

Bütün hava limanlarının yenidən qurulması, magistral yolların genişləndirilməsi, Xəzər dənizində üzən gəmi və bərələrin sayının artması, 2018-ci ildə Bakıda Beynəlxalq Dəniz Limanı Kompleksinin, 2023-cü ildə Ələt Azad İqtisadi Zonasının açılışı bunun bariz nümunəsidir. Azərbaycanın bu sahədəki uğurları statistik göstəricilərdə də öz əksini tapır.

Son illər sürətlə dəyişməyə başlayan geosiyasi reallıqlar fonunda müxtəlif regionlarda nəqliyyat zəncirlərinin qurulması Prezident İlham Əliyevin həyata keçirdiyi infrastruktur quruculuğu siyasətinin və xarici siyasət strategiyasının nə qədər uzaqgörən olduğunu sübut edir.

Məlum səbəblər üzündən Ukraynanın Qara dəniz sahilindəki limanları, eləcə də Rusiya ərazisindən keçən marşrutlar üzrə yükdaşımaların həcmi əhəmiyyətli dərəcədə məhdudlaşdırılmışdır. Uzun sürən müharibə ölkələri və gəmiçilik şirkətlərini alternativ yollar axtarmağa məcbur edir.

Koronavirus pandemiyası və regionda gedən müharibələr fonunda Xəzər dənizindən keçən Yaxın Şərq-Qərb dəhlizinin əhəmiyyəti daha da artıb. Çin-Qazaxıstan sərhədindən başlayan Orta Dəhliz Mərkəzi Asiya ölkələrindən və Xəzər dənizindən keçərək Azərbaycan, Gürcüstan, Türkiyə ərazisindən keçərək Avropaya keçir. Bu, Avropa ilə Asiyanı birləşdirən ən qısa və əlverişli marşrutdur.

Hazırda Orta Dəhlizin funksionallığının artırılmasında mühüm rol oynayan Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xətti 2017-ci ildə Azərbaycanın moderatorluğu ilə tikilib istifadəyə verilib. Hazırda BTQ ilə ildə təxminən 6-8 milyon ton yük daşınır. Növbəti illərdə dəmir yolunun ötürücülük qabiliyyətinin 17 milyon tona və ondan da yuxarıya çatdırılması nəzərdə tutulur.

Ələtdə yaradılmış Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Orta Dəhlizinin ən mühüm seqmentlərindən biridir. Buradan yüklər Şərq-Qərb və Şimal-Cənub marşrutları ilə göndərilə bilər.

Bu gün Azərbaycan regionda ən böyük mülki hava donanmasına və Xəzər dənizində ən böyük dəniz ticarət donanmasına malikdir.

Dövlət başçısının rəhbərliyi dövründə ölkədə 8 beynəlxalq hava limanı tikilib və yenidən qurulub. Laçın Hava Limanı istifadəyə verildikdən sonra beynəlxalq hava limanlarının sayı 9-a çatdırılacaq.

Ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi güclü iqtisadiyyata əsaslanır. 44 günlük Vətən Müharibəsində qazanılan möhtəşəm qələbə və 24 saat ərzində aparılan yerli antiterror tədbirlərinin uğurlu nəticələri Ermənistanın 30 ildən artıqdır işğal altında saxladığı Azərbaycan ərazilərinə Böyük Qayıdış üçün zəmin yaratdı.

Ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsinə yönəlmiş kompleks tədbirlərin - ordu quruculuğunun, Silahlı Qüvvələrin ən müasir silah, sursat, hərbi texnika və texnologiyalarla təchiz edilməsinin əsasını ölkə Prezidentinin yaratdığı qüdrətli iqtisadiyyat təşkil edir. Ən müasir silahların alınması, peşəkar ordunun hazırlanması güclü iqtisadiyyata malik ölkələr üçün xarakterikdir.

Əgər 2003-cü ildə Azərbaycanın müdafiə xərcləri cəmi 150 milyon dollar idisə, 2023-cü ilin dövlət büdcəsində müdafiə qabiliyyətinin gücləndirilməsi və milli təhlükəsizliyin təmin edilməsi üçün 5,3 milyard manat vəsait ayrılıb və gələn il bu xərclər daha 6 faiz artırılacaqdır.

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin ən mühüm istiqamətləri işğaldan azad edilmiş ərazilərdə bərpa və quruculuq işlərinin apa-

rılması, müasir sosial-mədəni infrastrukturun qurulması, kommunikasiya və nəqliyyat xətlərinin bərpasının həyata keçirilməsidir.

Azərbaycan Respublikasının ərazi bütövlüyünü, müstəqilliyini və konstitusiya quruluşunu müdafiə edərkən müharibə iştirakçılarının, şəhid ailələrinin, xəsarət almış və ya əlillərin sosial-məişət şəraitinin yaxşılaşdırılması dövlətimizin başçısının və ölkənin birinci vitse-prezidenti Mehriban Əliyevanın daima diqqət mərkəzindədir..

Hazırda keçmiş qaçqın və məcburi köçkünlərin ağır həyat şəraitinin yaxşılaşdırılması, sosial problemlərinin həlli proqramları çərçivəsində ölkədə 121 kənd və yaşayış kompleksi salınmışdır. Şəhid ailələrinə və döyüşlərdə iştirak nəticəsində əlil olmuş şəxslərə 14 mindən çox mənzil və fərdi yaşayış evləri verilmişdir.

Azərbaycanda sosial sahədə inqilabi islahatlar həyata keçerilmişdir. Azərbaycanda həyata keçirilən sosial siyasət nəticəsində insanların rifah halı yaxşılaşdırılmış, yoxsulluğun səviyyəsi azaldılmış və yeni iş yerləri açılmışdır. Dövlət başçısının uğurlu strateji inkişaf kursu sayəsində Azərbaycan 2002-2022-ci illərdə yüksək orta gəlirli ölkələr qrupuna daxil olub. Ölkədə rayon və şəhərlərdə su təchizatı sistemləri bərpa edilmiş, şəhərlərə yeni mənbələrdən su təchizatı təmin edilmişdir. Son 20 ildə regionlarda 380-dən çox su anbarı tikilib və yenidən qurulmuşdur.




Prezident İlham Əliyevin diqqət və qayğısı, o cümlədən Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın bilavasitə təşəbbüsü və dəstəyi sayəsində təhsil, səhiyyə və mədəniyyət müəssisələrinin tikintisi və yenidən qurulması sahəsində ölkə boyu irimiqyaslı layihələr həyata keçirilmişdir.

Hər il Azərbaycanda dövlət büdcəsi formalaşarkən onun sosial yönümlü olmasına xüsusi diqqət yetirilir. Nəticədə 2003-cü ildən 2023-cü ilə qədər sosialyönümlü büdcə xərcləri 20 dəfədən çox artıb. Belə ki, 2003-cü ildə dövlət büdcəsindən sosial yönümlü xərclərə 678,2 milyon manat ayrılmışdırsa, 2022-ci ildə isə artıq 11,6 milyard manat vəsait ayrılmışdır.

Ötən dövr ərzində dövlət başçısının siyasəti sayəsində əməkhaqlarının və pensiyaların artımında da müsbət dinamika qeydə alınmışdır.




Araşdırmalara görə, minimum və orta aylıq pensiyanın alıcılıq qabiliyyəti paritetinə görə Azərbaycan MDB ölkələri, Gürcüstan və Ukrayna arasında müvafiq olaraq birinci və ikinci yerləri tutur.

Ötən dövr ərzində ölkədə yoxsulluğun səviyyəsi 2003-cü ildə ki, 44,7%-dən, 2022-ci ildə 5,5%-ə enmişdir. Bu illər ərzində 2 milyondan çox yeni iş yerinin yaradılması sosial siyasətin əsas nailiyyətlərindən biri olmuşdur.

Son 20 ildə dövlət büdcəsindən təhsilə ayrılan vəsait 19 dəfə, səhiyyəyə ayrılan xərclər isə 33 dəfə artıb.

Azərbaycanda həyata keçirilən sosial siyasətin əsas istiqamətlərindən biri də müxtəlif dövlət xidmətlərinə əlçatanlığın təmin edilməsi, vətəndaş-məmur münasibətlərində şəffaflığın artırılmasıdır. Bu məqsədlə 2019-cu ilin may ayından Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində DOST Agentliyi (Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi) fəaliyyətə başlayıb. Hazırda 7 DOST mərkəzi yaradılıb, 2025-ci ilə qədər belə mərkəzlərin sayının 17-yə çatdırılması, 55 DOST filialının açılması və bununla da bütün ölkə üzrə xidmətlərin əhatə dairəsinin genişləndirilməsi planlaşdırılır.

2012-ci ildən başlayaraq Azərbaycan brendi - ASAN Xidmət əhalinin rahatlığının təmin edilməsi sahəsində dövlət siyasətini uğurla həyata keçirir.

Azərbaycan dünyada kosmik xidmətlər ixrac edən ölkələrdən birinə çevrilmişdir. Dövlət başçısının 20 illik fəaliyyəti dövründə informasiya-kommunikasiya texnologiyaları (İKT) sahəsində nailiyyətlər xüsusi yer tutur. Bu illər ərzində Azərbaycan beynəlxalq kosmik ailənin üzvü oldu ki, bu da tarixi bir uğurdur. Azərbaycanın “Azerspace-1”, “Azersky” və “Azerspace-2” peykləri orbitə çıxarılıb və bunun sayəsində ölkə kosmik xidmətlərin ixracına başlayıb.

2026 və 2028-ci illərdə orbitə iki yeni peykin buraxılması planlaşdırılır. Ölkəmizin Beynəlxalq Astronavtika Konqresinə ev sahibliyi etməsi bu sahənin ölkə rəhbərliyinin yaxından diqqətində olduğunu göstərir. Bundan əlavə, Azərbaycanın bütün guşələrində insanlar yüksək sürətli İnternetlə təmin olunub. 2003-cü ildə ölkə əhalisinin cəmi 5 faizi intrenetdən istifadə edirdisə, hazırda Azərbaycan əhalisinin 85 faizi İnternetdən istifadə edir.




Əgər 2005-ci ildə internet provayderlərinin abunəçilərinin sayı 400 min nəfər idisə, 2022-ci ildə bu rəqəm 8,3 milyona çatıb. Təsadüfi deyil ki, 2023-cü ilin mart ayında ölkə Qlobal Speedtest İndeksində mobil internet sürətinə görə dünyanın 140 ölkəsi arasında 54-cü yerdə qərarlaşıb.

Aqrar sahədə görülən işlər sahibkarlar üçün əlverişli şərait yaratmışdır.Aqrar sahədə sahibkarlığın inkişafına təkan verən bir çox qanunların qəbulu, dövlət başçısı tərəfindən çoxsaylı sərəncamların imzalanması və bu istiqamətdə dövlət proqramlarının təsdiq edilməsi bu gün öz effektini verməkdədir.

“Made in Azerbaijan” brendi altında məhsullar Çindən Amerikaya kimi onlarla ölkəyə ixrac olunur. Kənd təsərrüfatı və emal sənayesi məhsullarının ixracının dəyərinin 2003-cü ildəki 166 milyon ABŞ dollarından 2023-cü ildə ki, 912,4 milyon ABŞ dollarına yüksəldilməsi, dövlət büdcəsinin strukturunda neft gəlirlərinin qeyri-neft gəlirləri ilə əvəz edilməsi bu istiqamətdə aparılan siyasət nəticəsində görülən işlərin bəhrəsidir. Qeyri-neft sektorunun prioritet sahələrindən biri olan kənd təsərrüfatı məhsullarının istehsalı və emalının inkişafı hər zaman diqqət mərkəzində saxlanılmışdır.




Həmçinin, Prezident İlham Əliyevin iqtisadi siyasətinin prioritet istiqaməti regionların inkişafıdır. Ötən 20 ilin yekunları göstərir ki, bu siyasət dövlət proqramları çərçivəsində uğurla həyata keçirilib.

2003-2022-ci illər ərzində Azərbaycan turistlərin sevimli məkanına çevrilmişdir. Prezident İlham Əliyevin xüsusi diqqət yetirdiyi mühüm sahələrdən biri də iqtisadiyyatın aparıcı sahələrindən birinə çevrilmiş turizmdir.

Bu məqsədlərə nail olmaq üçün ölkənin hər bir bölgəsində turizm infrastrukturu yaradılır. Son 20 ildə Azərbaycanda turizm sektorunda mühüm irəliləyişlər əldə olunub.

Qarabağın işğaldan azad edilməsi ilə iqtisadiyyatın bu seqmentinin inkişafında yeni mərhələ başlandı. Dövlət dəstəyi olmadan turizm potensialının reallaşdırılması mümkün deyil. Azərbaycan rəhbəri bu potensialı üzə çıxarmaq, ölkənin mədəniyyətini, gözəlliyini, Azərbaycan xalqının qonaqpərvərliyini dünyaya çatdırmaq üçün qarşıya məqsəd və vəzifələr qoymuşdur.







Prezident İlham Əliyevin düşünülmüş və məqsədyönlü siyasətinin nəticəsidir ki, bu gün Azərbaycan qlobal böhrandan minimal itkilərlə çıxmış nadir ölkələrdən biri olmaqla yanaşı, həm də qlobal investorların diqqətini cəlb edir və beynəlxalq əhəmiyyətli strateji, enerji, nəqliyyat, logistika və kommunikasiya qovşağına çevrilmişdir.

Uğurlu, qətiyyətli siyasət, həyata keçirilən dövlət proqramları, iqtisadi layihələr Azərbaycanın davamlı inkişafına öz töhfəsini verir.

Sonda onu qeyd etmək istərdik ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən tədbirlər nəticəsində Azərbaycan 20 ildir ki, iqtisadi inkişaf parametrlərinə görə dünyada lider mövqedədir. Əminliklə vurğulamaq olar ki, dövlət başçısının uzaqgörən siyasəti nəticəsində bu inkişaf növbəti illərdə daha da güclənəcəkdir.

## Ədəbiyyat

1. Azərbaycanın Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı. (2014)
2. Azərbaycan Respublikasının milli iqtisadiyyat və iqtisadiyyatın sektorları üzrə strateji yol xəritəsi." (2016) Azərbaycan Respublikasının Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir. Bakı, 126 s.
3. Azərbaycanın statistik göstəriciləri. (2022)
4. M.M.Orucov. (2020) Milli iqtisadiyyatın müasir inkişaf modeli. OYU Elmi və Pedaqoji xəbərləri, №54
5. M.M.Orucov. (2020) Diaqnostics of the main threats to agro-food industry and food safety. OYU Elmi və Pedaqoji xəbərləri, №58

## ECONOMY OF AZERBAIJAN DURING THE PRESIDENCY OF ILHAM ALIYEV: A LONG WAY COVERED IN 20 YEARS

**S.R.Ibrahimova, M.M.Orucov**

**SUMMARY**

This article focuses on the economy of Azerbaijan during the 20-year presidency of Ilham Aliyev. The analysis of the development of Azeri economy in 2003-2023 is presented.

## ЭКОНОМИКА АЗЕРБАЙДЖАНА В ПЕРИОД ПРЕЗИДЕНТСТВА ИЛЬХАМА АЛИЕВА: ДОЛГИЙ ПУТЬ, ПРОЙДЕННЫЙ ЗА 20 ЛЕТ

**С.Р.Ибрагимова, М.М.Оруджов**

**РЕЗЮМЕ**

В центре внимания данной статьи - экономика Азербайджана в период 20-летнего президентства Ильхама Алиева. Представлен анализ развития экономики Азербайджана в 2003-2023 гг.

*Məqalə redaksiyaya 1 aprel 2024 tarixində daxil olmuş, 4 aprel 2024 tarixində isə çapa qəbul olunmuşdur.*

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2024 - № 63

UOT № 339.9

# DÜNYA İQTİSADİYYATININ UZUNMÜDDƏTLİ PROQNOZUNUN PARAMETRLƏRİ

**M.M.Orucov, E.E.Kasimov**
Odlar Yurdu Universiteti
Bakı, Koroğlu Rəhimov küçəsi 13
e-mail: elkhan.kasimov@hotmail.com

***Açar sözlər:*** ÜDM, ticarət dövriyyəsi, ixrac, idxal, investisiyalar, sənaye, qloballaşma
***Keywords:*** GDP, trade turnover, exports, imports, investment, industry, globalization
***Ключевые слова:*** ВВП, торговый оборот, экспорт, импорт, инвестиции, промышленность, глобализация

Hal-hazırda dünya iqtisadiyyatının inkişafında iki əsas tendensiya yaranmışdır. Onlardan biri qloballaşma tempinin yavaşlaması, digəri isə inkişaf etmiş ölkələrin yenidən sənayeləşməsi üzrə ilkin şərtlərin formalaşması ilə bağlıdır.

Qloballaşma ilə əlaqədar iqtisadi inkişaf dinamikasının aşağı düşməsi 2008-2009-cu illərdə baş vermiş qlobal maliyyə böhranından sonrakı dövrlərdə aydın şəkildə müşahidə edilir. İnkişaf etmiş ölkələrin sənaye məhsullarından, o cümlədən yüksək texnoloji məhsulların idxalından asılılığının artması, qlobal maliyyə məhdudiyyətləri ilə yanaşı xarici ticarətdə tarazlığın pozulması və artan sosial bərabərsizlik, beynəlxalq ticarətdə dünyanın ən böyük iqtisadiyyatlarını azad rəqabət ideyalarından uzaqlaşmağa məcbur edir. Praktikada bu, milli istehsalçıların rəqabətqabiliyyətliliyini valyuta məzənnəsini aşağı salmaq, əmtəələrin idxalına məhdudiyyətlər, müxtəlif növ sanksiyalar və digər süni maneələr yaratmaq vasitəsilə təmin etmək istəyində ifadə olunur. Qloballaşmanın daha da dərinləşməsi bir sıra fundamental məhdudiyyətlərlə qarşılaşır ki, bunlardan da başlıcası inkişaf etmiş ölkələrin öz daxili bazarlarının böyük bir hissəsini xarici istehsalçılara vermək istəməməsidir.

İdxal rüsumlarının azaldılması və daşınma xərclərinin ucuzlaşdırılması hesabına ayrı-ayrı bazarların beynəlxalq mübadilə üçün açıqlığının artırılması amili artıq tükənmişdir.

Bununla yanaşı, inkişaf etmiş ölkələrdə sosial-iqtisadi inkişafa məhdudiyyətlər formalaşıb ki, bunlar da daxili xarakter daşıyır. Bunlara, ilk növbədə, əhalinin uzunmüddət istifadə olunan mallar və daşınmaz əmlakla təmin edilməsi baxımından cəmiyyətin əsas tələbatının yüksək səviyyədə ödənilməsinə nail olmaq daxildir. Bir sıra ölkələrdə bu məhdudiyyətlər mənfi demoqrafik dinamika və əhalinin ümumi qocalması ilə tamamlanır. Bu isə o deməkdir ki, iqtisadi artım tempinin saxlanılması və ya artırılması əsasən bilik iqtisadiyyatının sürətləndirilmiş inkişafı və ya az inkişaf etmiş ölkələrdəki ticarət tərəfdaşlarının qiymət diskriminasiyası hesabına mümkün olalacaq ki, bu da pisləşən demoqrafik şəraitdə əmək məhsuldarlığının məqbul artım templərini saxlamağa kömək edəcəkdir.

İnteqrasiya proseslərinin yüksək intensivliyinin saxlanılmasının qeyri-mümkünlü-yü ilə bağlı məhdudiyyətlər dünya iqtisadiyyatının inkişafının, inkişaf etmiş ölkələrin yenidən sənayeləşdirilməsindən ibarət olan ikinci əsas tendensiyasını formalaşdırır. Bu ten-

densiya inkişaf etmiş ölkələrdə sürətləndirilmiş texnoloji inkişaf əsasında idxaldan asılılığın aşağı salınmasında və inkişaf etməkdə olan ölkələrdə xarici tələbin daxili tələblə əvəz edilməsində (iqtisadi dinamikanın əsas amili kimi) ifadə olunur. Nəticə inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında istehsalın səmərəlilik göstəriciləri arasına artan uçurumdur. Burada, sənayeləşmənin əsas məzmununu avtomatlaşdırma və elmi-tədqiqat işlərinə investisiyaların artırılması nəticəsində əmək xərclərinin azaldılması hesabına sənaye məhsullarının idxalının əvəzlənməsi təşkil edir. İnkişaf etmiş ölkələrin yenidən sənayeləşdirilməsinin texnoloji əsasını rəqəmsal iqtisadiyyatın qabaqlayıcı inkişafı təşkil edir.

Makroiqtisadi nöqteyi-nəzərdən inkişaf etmiş ölkələrin qloballaşma və reindustriallaşma tempinin aşağı düşməsi prosesinin həyata keçirilməsi bu ölkələr üçün xarici ticarət mübadiləsindən asılılığın azalması; yeni istehsal sahələrinin inkişafı və mövcud infrastrukturun yenilənməsini maliyyələşdirmək üçün yığım normasının artırılması; ÜDM-ə nisbətdə ETTKİ üzrə xərclərin artımı; ÜDM-də ev təsərrüfatlarının istehlak payının azalması; iqtisadiyyatın yüksək texnologiyalı sektorlarında investisiyaların və əmək məhsuldarlığının qabaqlayıcı artımı; daxili istehlakda idxalın payının artımının dayandırılması; ilkin resurslardan istifadənin səmərəliliyinin artırılması tendensiyalarının saxlanılması deməkdir.

İnkişaf etməkdə olan ölkələr üçün bu proses inkişaf etmiş ölkələrin bazarlarına məhsul ixracının dinamikasının ləngiməsini kompensasiya etmək üçün yığım normasının aşağı düşməsi və ÜDM-də istehlakın payının artması ilə nəticələnir. İnkişaf etmiş ölkələrdən xarici investisiya axınının azalması inkişaf etməkdə olan ölkələrə müasir texnologiyaların transferini ləngidir və bunun nəticəsində bu ölkələrdə əmək məhsuldarlığının artımı ləngiyəcəkdir. İnkişaf etməkdə olan ölkələrdə elmi-texniki inkişaf tempinin aşağı düşməsi ilkin xammal, xarici kompleksləşdiricilər və avadanlıqların idxalından asılılığın nisbi artması deməkdir.

Təsvir edilən bu ssenari dünya iqtisadiyyatının uzunmüddətli proqnozunu verərkən əsas hesab olunur. İnkişaf etmiş ölkələrdə yenidən sənayeləşmənin olmadığı şəraitdə qloballaşma tendensiyalarının saxlanmasının alternativ ssenarisi qlobal ticarət miqyasının inkişafından bir müddət əlavə gəlir əldə etməyə imkan verəcək. Eyni zamanda bu, inkişaf etmiş iqtisadiyyatlar daxilində gəlirlərin yenidən bölüşdürülməsi problemini aradan qaldırmır. Beləliklə, onun həyata keçirilməsi zamanı cəmiyyət daxilində gəlirlərin səviyyəsinin bərabərləşdirilməsi üçün artıq formalaşmış transmisiya mexanizmlərinin (o cümlədən vergi və büdcə siyasəti baxımından) modernləşdirilməsinə və iri korporasiyaların izafi mənfəətlərinin tutulmasının yeni mexanizmlərinin formalaşdılmasına ehtiyac yaranır.

İnkişaf etmiş iqtisadiyyatlarda əhali arasında gəlirlərin qeyri-bərabər bölgüsü problemi özünü son bir neçə onillikdə məhz aktiv qloballaşma dövründə, inkişaf etmiş ölkələrdə ən zəngin qrupların gəlirlərinin əsasən artdığı bir zamanda göstərməyə başladı. Bu, muzdlu işçilərin əmək haqlarının ləng artımı ilə bağlıdır ki, bu da, o cümlədən istehsalın inkişaf etməkdə olan ölkələrə “köçürülməsi” və idxalla rəqabətlə səciyyələndirilir. Bu proseslərin nəticəsi cəmiyyətin gəlirlər üzrə qəbuledilməz formada təbəqələşməsindən ibarətdir.

Dünya iqtisadiyyatında inteqrasiya proseslərinin yüksək intensivliyinin saxlanılması o şərtlə mümkündür ki, beynəlxalq ticarətin və kooperasiyanın genişləndirilməsi üzrə mövcud məhdudiyyətlər nisbətən tez aradan qaldırılsın. Bunun üçün, iqtisadi artımın borc

multiplikatorunun bərpa edilməsi, kapitalın beynəlxalq hərəkətinə məhdudiyyətlərin azaldılması, borc maliyyələşdirilməsinin və birbaşa xarici investisiya axınlarının dinamikasının bərpa edilməsi, nəqliyyat və kommunikasiyalara nisbi xərclərin daha da azaldılması vacibdir. Enerji daşıyıcılarına qabaqlayici qiymət artımının olmaması və inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə enerji tutumluğunun aşağı salınması üzrə trendlərin davam etməsi də mühüm əhəmiyyət kəsb edir.

Belə bir vəziyyətin həyata keçirilməsi inkişaf etməkdə olan ölkələrdə texnoloji tərəqqinin, istehsalın səmərəliliyinin və əmək məhsuldarlığının sürətlənmiş artım templərinin saxlanılması deməkdir. Bu zaman, əmək bazarında balansın pozulmasına və minimal iqtisadi artım tempinə ciddi tələbləri formalaşdıran əmək ehtiyatlarının əhəmiyyətli dərəcədə artıqlığının yaranmasına təhlükə yaranır. Bundan əlavə, dərinləşən beynəlxalq əmək bölgüsündən əlavə fayda əldə etmək inkişaf etməkdə olan ölkələrdən ixracın qabaqlayıcı artımı və ABŞ-da ticarət kəsirinin saxlanması deməkdir.

Uzun müddətli perspektivdə inkişaf etməkdə olan ölkələrin ucuz işçi qüvvəsi üzrə olan rəqabət üstünlüyü azalacaqdır. Beləliklə, inkişaf etmıkdə olan ölkələrin ərazisində sonradan ixrac ediləsi olan əmək tutumlu məhsulların ayrı-ayrı qruplarının istehsalı üzrə qoyulan investisiyaların rentabelliyi azalacaqdır. Nəticədə, qloballaşma tendensiyalarının saxlandığı halda belə, dünya ÜDM-i üzrə ümumdünya ixracının elastikliyi azalacaqdır.

İnkişaf etmiş ölkələrdə yenidən sənayeləşdirmənin olmadığı halda qloballaşma tendensiyalarının saxlanılması ssenarisi dünya iqtisadiyyatının mümkün potensialına yaxın templərlə genişlənəcəyini nəzərdə tutur və bu genişlənmə inkişaf etməkdə olan ölkələrə müasir texnologiyaların transferinə mane olan ticarət maneələrinin aşağı salınması, siyasi və iqtisadi amillərin olmaması şəraitində investisiya və əmək resurslarından daha səmərəli istifadə olunması ilə təmin ediləcək. İnkişaf etməkdə olan ölkələrdə artımın əsas amilləri investisiya və ixrac, inkişaf etmiş ölkələrdə isə son istehlak (yəni, mövcud əmək resurslarından daha tam istifadə və investisiyaların sürətli artımı gözlənilir) amili olacaq.

2000-2008-ci illərdə həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrdə müşahidə edilən yerli istehsalın idxalla əvəz edilməsi tendensiyaları gələcəkdə də davam edəcəkdir. Bu isə o deməkdir ki, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında xarici ticarət, əmanət və investisiyalar balansı, istehsal və istehlak üzrə disbalansın yığılması və möhkəmlənməsi davam edəcəkdir (Cədvəl).

Aparılan hesablamalara görə, baza ssenarisinə əsasən, 2021-2050-ci illər üçün ÜDM-in orta illik artım tempi dünya iqtisadiyyatı üçün - 3%, ABŞ və Avropa İttifaqı - 2 və 1,9%, Yaponiya - 0,7%, Çin üçün - 3,5%, Hindistan - 4,5% təşkil edə bilər. Proqnoz dövründə həm ayrı-ayrı ölkələrin, həm də bütün dünya iqtisadiyyatının ÜDM-in dinamikası artım templərinin azalması ilə xarakterizə olunur. Məsələn, 2046-2050-ci illərdə. dünya ÜDM-nin orta illik artım tempi 2016-2025-ci illərlə müqayisədə 0,4 faiz aşağı olacaqdır. Çin, Hindistan və İndoneziya kimi ölkələrin inkişaf etmiş ölkələrin artım templərinə nisbətən retrospektivdə müşahidə edilən üstün artım templəri proqnoz dövründə də davam edəcək, lakin 2050-ci ilə qədər bu fərqlərin miqyası indiki 3-4 faizdən 0,1-0,9 faizədək azalacaq.

Alternativ baxışda, inkişaf etməkdə olan ölkələrə kapital axınına,texnologiyaların transferinə və beynəlxalq ticarətə məhdudiyyətlərin olmaması səbəbindən inkişaf etməkdə olan ölkələr daha yüksək artım templərinə nail olacaqlar ki, bu da baza baxışına nisbətdə, bütövlükdə dünya iqtisadiyyatının artım tempinin artmasına kömək edəcəkdir. Eyni zamanda, inkişaf etmiş ölkələr iqtisadi artımın daha yavaş templərini nümayiş etdirirlər ki,

**Cədvəl**

**Proqnoz (əsas və alternative) çərçivəsində dünya iqtisadiyyatının inkişafı**

| | Göstəricilər | 2016-2020 | 2021-2025 | 2026-2030 | 2031-2035 | 2036-2040 | 2041-2045 | 2046-2050 |
|---|---|---|---|---|---|---|---|---|
| Baza baxışı. Qloballaşma və inkişaf etmiş ölkələrin yenidən sənayeləşmə sürətinin aşağı düşməsi | | | | | | | | |
| 1 | Kanada | 0.5 | 2.9 | 1.8 | 1.7 | 1.9 | 2.0 | 1.9 |
| 2 | ABŞ | 1.1 | 2.9 | 1.8 | 1.9 | 1.9 | 2.0 | 2.0 |
| 3 | Avstraliya | 1.5 | 2.6 | 2.5 | 2.4 | 2.8 | 2.8 | 2.8 |
| 4 | Yaponiya | -0.3 | 1.3 | 0.6 | 0.6 | 0.6 | 0.6 | 0.6 |
| 5 | Brazilya | -0.6 | 2.3 | 2.6 | 2.5 | 2.0 | 1.6 | 1.5 |
| 6 | Çin | 5.7 | 5.7 | 3.4 | 3.1 | 3.0 | 2.9 | 2.7 |
| 7 | Hindistan | 3.4 | 7.4 | 4.2 | 4.0 | 4.0 | 3.9 | 3.5 |
| 8 | Rusiya | 0.7 | 2.6 | 2.1 | 2.3 | 2.3 | 2.3 | 2.3 |
| 9 | İndoneziya | 3.6 | 5.3 | 4.5 | 4.2 | 3.6 | 3.2 | 2.9 |
| 10 | Meksika | -0.4 | 2.2 | 2.4 | 2.5 | 2.6 | 2.5 | 2.3 |
| 11 | Türkiyə | 3.3 | 3.2 | 2.9 | 2.7 | 2.8 | 2.8 | 2.8 |
| 12 | Azərbaycan | 2,3 | 2,6 | 3.6 | 3.1 | 3.0 | 3.1 | 3.2 |
| 13 | Avropa İttifaqı | 0.5 | 2.6 | 1.8 | 2.0 | 1.8 | 1.7 | 1.6 |
| 14 | Dünya | 2.0 | 4.0 | 3.0 | 2.9 | 2.8 | 2.7 | 2.6 |
| Alternativ baxış. İnkişaf etmiş ölkələrdə yenidən sənayeləşmənin olmadığı şəraitdə qloballaşma meyllərinin saxlanılması | | | | | | | | |
| 1 | Kanada | 0.5 | 2.8 | 1.5 | 1.5 | 1.7 | 1.7 | 1.7 |
| 2 | ABŞ | 1.1 | 2.7 | 1.6 | 1.6 | 1.6 | 1.6 | 1.7 |
| 3 | Avstraliya | 1.5 | 2.4 | 2.2 | 2.0 | 2.3 | 2.3 | 2.4 |
| 4 | Yaponiya | -0.3 | 1.1 | 0.5 | 0.5 | 0.5 | 0.5 | 0.5 |
| 5 | Brazilya | -0.6 | 2.8 | 3.2 | 3.0 | 2.4 | 1.9 | 1.8 |
| 6 | Çin | 5.7 | 6.0 | 4.7 | 4.2 | 4.1 | 3.9 | 3.7 |
| 7 | Hindistan | 3.4 | 7.9 | 5.5 | 5.0 | 5.0 | 4.9 | 4.4 |
| 8 | Rusiya | 0.7 | 2.9 | 2.5 | 2.5 | 2.4 | 2.4 | 2.3 |
| 9 | İndoneziya | 3.6 | 5.5 | 4.9 | 4.5 | 3.9 | 3.4 | 3.1 |
| 10 | Meksika | -0.4 | 2.2 | 3.6 | 3.2 | 3.4 | 3.2 | 2.9 |
| 11 | Türkiyə | 3.3 | 3.4 | 3.4 | 3.1 | 3.2 | 3.2 | 3.2 |
| 12 | Azərbaycan | 2.3 | 2.6 | 3.7 | 3.2 | 3.4 | 3.2 | |
| 13 | Avropa İttifaqı | 0.5 | 2.4 | 1.5 | 1.6 | 1.4 | 1.4 | 1.3 |
| 14 | Dünya | 2.0 | 4.2 | 3.4 | 3.2 | 3.1 | 3.0 | 2.9 |

Mənbə: BVF məlumatları; OECD; RAS İqtisadi Proqnozlaşdırma İnstitutunun hesablamaları

bu da ilk növbədə daxili bazarda idxalın payının artması və istehsalda emal sənayesinin payının azalması ilə əlaqədardır.

Nəzərə alsaq ki, hər iki baxış üzrə dünya iqtisadiyyatı 3%-ə yaxın artım tempi ilə inkişaf edəcək, hesablamalara görə, Azərbaycanda ortamüddətli iqtisadi artım tempi 3,5%-dən yuxarı olacaqdır. Bu proqnoz qiymətləndirmənin təfsiri ondan ibarətdir ki, qlobal iqtisadi artım tempi ümumən kifayət qədər yüksək olaraq qalsa da, Azərbaycan iqtisadiyyatının mövcud texnoloji bazada artımı, Şərq və Qərbi, Şimal və Cənubu birləşdirən ticarət yolları ona xarici bazarların genişlənməsinin yaratdığı imkanlardan istifadə et-

məyə imkan verəcək.

Dünya iqtisadiyyatının inkişafında son onilliklərdə müşahidə olunan əsas tendensiyalar xarici bazarların tələbinin Azərbaycanda iqtisadi artım tempinin artmasına şərait yaradacaq. Söhbət, ilk növbədə, qlobal ticarətin yavaşlamasına baxmayaraq Azərbaycandan ixracın artmasında maraqlı olmasından və elmi-texniki inkişafın sürətləndirilməsindən gedir. Bu amillər son nəticədə həm Azərbaycanın əsas ixrac məhsullarına qlobal tələbatın kifayət dərəcədə artmasına, həm də karbohidrogenlərin tədarükünün artmasına (ABŞ-da şist neft hasilatının sürətli artımı və qlobal LNG bazarının inkişafı) gətirib çıxardacaq. Bu amillər, mədənçıxarma və onların ilkin emalı sahəsində Azərbaycanın layihələrinin kapital tutumunun azalması ilə birlikdə yanacaq-xammal kompleksinə əsaslanan iqtisadi artım potensialını əhəmiyyətli dərəcədə artırır.

Üstəlik, 2020-ci ildə COVID-19 pandemiyasının inkişafı nəticəsində. Qlobal inkişafın bu tendensiyaları Azərbaycan karbohidrogenlərinin və digər ilkin resursların dünya bazarına tədarükünün cari və gələcək həcmlərinə öz təsirini gücləndirdi.

Dünya iqtisadiyyatının və Azərbaycandan ixrac olunan mallarının əsas istehlakçıları olan ölkələrin iqtisadi artım templərinin, eləcə də ticarət tərəfdaşlarımızın ÜDM-nin enerji tutumunun artım dinamikasını nəzərə alaraq, xarici tələbatın orta illik sürətinin artması nəticəsində gözləmək olar ki, Azərbaycan karbohidrogenləri və digər ixrac məhsulları üçün xarici tələbat ildə 3%-dən çox olacaq. Belə dinamika daxili yanacaq-energetika kompleksinin inkişafı və yanacaq-energetika kompleksindən iqtisadi artım tempinə əhəmiyyətli töhfənin təmin edilməsi üçün kifayətdir. Ancaq, uzunmüddətli perspektivdə həm tədiyə balansının tarazlığını təmin etmək, həm də davamlı iqtisadi artım templərini təmin etmək üçün təkcə karbohidrogen ixracına arxalanmaq artıq kifayət etm.

Nəzərə almaq lazımdır ki, yaxın 15 ildə hətta nisbətən aşağı neft qiymətlərinin saxlanması vəziyyətində belə (cari qiymətlərlə 65 dollar/barel) Azərbaycan mallarının ixracının strukturu əhəmiyyətli dərəcədə dəyişəcək.

Karbohidrogenlərin nisbətən aşağı qiymətlərinin saxlanılması fərziyyəsi reallaşarsa, ixracda xammalın payı 2022-cu ildəki 92.8%-dən 2035-ci ildə 63%-ə qədər azalacaq. Azərbaycanın ixracında karbohidrogenlərin payı nəzərdən keçirilən dövrdə 92.8%-dən 63%-ə qədər azalacaq. Aparılan qiymətləndirmələr ixracın, tədiyyə balansının cari əməliyyatlar balansının və bütövlükdə maliyyə sisteminin sabitliyinin formalaşmasında enerji sektorunun rolunun hələ də yüksək olaraq qalacağını göstərir.

Eyni zamanda, hal-hazırda qlobal enerji bazarlarının inkişafındakı uzunmüddətli tendensiyaların yaxın 10-20 ildə enerji istehlakçıları tərəfindən neft məhsullarına olan tələbatın əhəmiyyətli dərəcədə azalmasına səbəb olacağını ehtimal edir. 2040-cı ilə qədər üfüqdə. neft məhsullarına qlobal tələbatın pik həddə çatması ehtimalı var.

Neft məhsullarına, daha sonra isə digər karbohidrogenlərə qlobal tələbatın durğunluğuna və hətta azalmasına səbəb ola biləcək əsas amillər elmi-texniki inkişafla bağlıdır. Bunlara aşağıdakı amilləri aid etmək olar: avtomatlaşdırma və rəqəmsallaşdırma nəticəsində enerji səmərəliliyinin ümumi artımı, avtonəqliyyatda yanacağının digər növlərinə keçid və bərpa olunan enerji mənbələrinin payının artması.

Eyni zamanda, son illərdə qeyri-neft ixracının payının artmasına baxmayaraq, ən yaxşı halda, 2040-cı ilindən sonrakı dövrlərdə malların ümumi ixracının dinamikasında qeyri-neft məhsulları mühüm rol oynayacaqdır.

Beləliklə, yaxın gələcəkdə növbəti onilliklərdə dünya əmtəə bazarlarının nisbətən yüksək genişlənmə templərində ixrac sektoru əsasən Azərbaycanın iqtisadi inkişafı üçün

artım mənbəyi olacaq və xarici ticarət mübadiləsinin iqtisadi artıma töhfəsi iqtisadiyyatın artmasına səbəb olacaq. Öz növbəsində, xammal ixtisaslaşmasının iqtisadi artıma mənfi təsirinin azaldılması probleminin həlli daxili bazarda (ilk növbədə maşın və avadanlıqlar sektorunda) idxalın payının normallaşdırılmasını və sonradan qeyri-resurs ixracının artırılmasını tələb edəcəkdir. Beynəlxalq təcrübəyə əsaslanaraq qeyd etmək lazımdır ki, , daxili bazarda idxalın normallaşması mərhələsini keçmədən qeyri-resurs ixracının genişləndirilməsi çox vaxt mümkün olmur.

Hazırda dünya iqtisadiyyatının yaxın bir neçə ildə hansı proqnoz üzrə inkişaf edəcəyinin tam aydınlığı yoxdur. Qısa və orta müddətli inkişaf proqnozları sürətlə öz aktuallığını itirir. 2022-ci il may ayının əvvəlinə olan qiymətləndirməyə görə, dünyada miqyasında xammal əmtəələrinin qiymətlərinin artması və istehlak inflyasiyasının sürətlənməsi qlobal iqtisadiyyatın inkişafının yavaşlamasına səbəb olacaq, lakin müsbət dinamika davam edəcək. Bununla belə, inkişaf etmiş ölkələrdə pul-kredit siyasətinin sərtləşdirilməsi və yüksək inflyasiyanın saxlanması təkcə iqtisadi artımın ləngiməsinə deyil, həm də qlobal iqtisadiyyatda resessiyaya səbəb ola biləcək risklərin mövcud olmasını göstərir.

İstər bütövlükdə dünya iqtisadiyyatına münasibətdə, istərsə də Azərbaycan məhsullarının ixracı ilə bağlı vəziyyətin qısa müddətli perspektivdə necə inkişaf etməsindən asılı olmayaraq Azərbaycanın enerji resurslarına ehtiyac ən azı yaxın iyirmi il ərzində davam edəcək. Bu isə o deməkdir ki, Azərbaycan iqtisadiyyatı üçün ən az əlverişli olan tam autarkiya baxışının həyata keçirilməsi ehtimalı azdır. Bununla yanaşı, xarici iqtisadi əlaqələrin inkişafının əsas prioritetlərinə yenidən baxılması lzımdır. Söhbət ilk növbədə milli iqtisadiyyatla xarici dünya arasında qarşılıqlı əlaqələrin yeni reallıqlarında xarici kapitalın cəlb edilməsi şərtlərinin və ticarət balansının müsbət saldosunun saxlanmasının məqsədəuyğunluğundan gedir.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı
2. Azərbaycan Respublikasının milli iqtisadiyyat və iqtisadiyyatın sektorları üzrə strateji yol xəritəsi". (2016) Azərbaycan Respublikasının Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir. Bakı, 126 s.
3. Azərbaycanın statistik göstəriciləri. (2022)
4. M.M.Orucov. (2020) Milli iqtisadiyyatın müasir inkişaf modeli. OYU Elmi və Pedaqoji xəbərləri, №54
5. M.M.Orucov. (2020) Diaqnostics of the main threats to agro-food industry and food safety. OYU Elmi və Pedaqoji xəbərləri, №58

# PARAMETERS OF LONG-TERM FORECAST OF THE WORLD ECONOMY

**M.M.Orucov, E.E.Kasimov**

## SUMMARY

The article focuses on the parameters of the long-term forecast of the world economy. The analysis of the economic development of developed and developing countries in the long term is presented.

# ПАРАМЕТРЫ ДОЛГОСРОЧНОГО ПРОГНОЗА МИРОВОЙ ЭКОНОМИКИ

**М.М.Оруджов, Э.Э.Касимов**

## РЕЗЮМЕ

Статья посвящена параметрам долгосрочного прогноза мировой экономики. Представлен анализ развития экономики развитых и развивающихся стран в долгосрочной перспективе.

*Məqalə redaksiyaya 1 aprel 2024 tarixində daxil olmuş, 4 aprel 2024 tarixində isə çapa qəbul olunmuşdur.*

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

**2024 - № 63**

UOT № 339.97

# KƏND TƏSƏRRÜFATINDA İNNOVASİYA FƏALİYYƏTİNİN İNKİŞAFININ STİMULLAŞDIRILMASININ XARİCİ TƏCRÜBƏSİ

**S.R.İbrahimova, M.M.Orucov**
Odlar Yurdu Universiteti
Bakı, Koroğlu Rəhimov küçəsi 13
e-mail: mayil_oruc@yahoo.com

***Açar sözlər:*** innovasiya, idarəetmə, aqrar-sənaye kompleksi
***Keywords:*** innovation, management, agro-industrial complex
***Ключевые слова:*** инновация, менеджмент, агропромышленный комплекс

Dünya iqtisadi ədəbiyyatında "innovasiya" potensial elmi-texniki tərəqqinin (ETT) yeni məhsul və texnologiyalara çevrilməsi kimi şərh olunur. Dünya təcrübəsində müəssisələrin hesabat-vergi dövründə məhsulların ümumi həcminin pul ifadəsində 70%-dən çoxunun innovativ məhsulların istehsalı hesabına formalaşması halında onları innovativ müəssisələrə aid etmək qəbul edilmişdir.

Dövlətin innovativ inkişafını qiymətləndirmək üçün 2007-ci ildən müəyyən edilən və dünya ölkələrinin innovativ inkişafını xarakterizə edən 80 müxtəlif dəyişəndən ibarət qlobal innovasiya indeksi tətbiq edilir (Cədvəl 1). Qlobal İnnovasiya İndeksi iqtisadi inkişafın müxtəlif mərhələlərində olan dünya ölkələrinin innovativ inkişafını detallı şəkildə xarakterizə edir. Hər bir ölkənin iqtisadiyyatının müvəffəqiyyətliliyi həm innovasiya potensialının olması, həm də onun həyata keçməsi şəraitinin olması ilə əlaqədardır. Ona görə də İndeks iki qrup göstəricilərin çəkili cəmi kimi hesablanır:

1. İnnovasiyaların aparılması üçün mövcud resurslar və şərait ((*Innovation Input*).
2. İnnovasiyanın həyata keçirilməsinin əldə edilmiş praktiki nəticələri (*Innovation Output*).

Yekun indeks özlüyündə bu və ya digər ölkədə innovasiyaların inkişafı üzrə səylərin səmərəliliyini obyektiv qiymətləndirməyə imkan verən xərclər və effektin nisbətini əks etdirir.

İnnovasiya imkanları və nəticələrinə görə dünya ölkələrinin reytinqinə İsveçrə başçılıq edir. Ondan sonra Böyük Britaniya, İsveç, Finlandiya, Hollandiya, ABŞ, Sinqapur, Danimarka, Lüksemburq və Honq Konq gəlir. Bu ölkələr innovasiya infrastrukturu (informasiya və kommunikasiya texnologiyalarını da daxil etməklə), biznesin inkişaf səviyyəsi (göstəricilər: əqli əmək işçiləri, innovasiya və biliklərin mənimsənilməsi arasında qarşılıqlı əlaqələr) və innovasiya fəaliyyətinin nəticələri (göstəricilər: yaradıcı xarakterli əmtəələr, xidmətlər və onlayn rejimində yaradıcı fəaliyyətlər) kimi sahələrdə güclü mövqelərə malikdirlər.

Azərbaycan Respublikası 2022-ci ildə Qlobal İnnovasiya İndeksi üzrə (Cədvəl 1) ümumi reytinqdə 132 ölkə arsında 21,5 balla 93-cü yeri tutub. Onun üstünlükləri insan kapitalının keyfiyyəti (87-ci yer), biznesin inkişafı səviyyəsi (77-ci yer), bilik və texnologiyanın inkişafı (117-ci yer) ilə bağlıdır. İnfrastrukturun inkişaf göstəriciləri orta səviyyədə qalır (90-cı yer). İnnovasiyanın inkişafına qeyri-təkmil institutlar (46-cı yer), yaradıcı fəaliyyətin nəticələrinin aşağı göstəriciləri (105-ci yer) və daxili bazarın inkişafı səviyyəsi

(80-ci yer) mane olur [1, səh.6].

**Cədvəl 1**
**Qlobal İnnovasiya İndeksi üzrə ölkələrin reytinqi**

| № | Ölkələr | 2019 | | 2020 | | 2021 | | 2022 | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | bal | yer | bal | yer | bal | yer | bal | yer |
| 1 | İsveçrə | 67.2 | 1 | 66.1 | 1 | 65.5 | 1 | 64.6 | 1 |
| 2 | İsveç | 63.6 | 2 | 62.5 | 2 | 63.1 | 2 | 61.6 | 3 |
| 3 | ABŞ | 61.7 | 3 | 60.6 | 3 | 61.3 | 3 | 61.8 | 2 |
| 4 | Niderland | 61.4 | 4 | 58.8 | 5 | 58.6 | 6 | 58.0 | 5 |
| 5 | İngiltərə | 61.3 | 5 | 59.8 | 4 | 59.8 | 4 | 59.7 | 4 |
| 6 | Finlandiya | 59.8 | 6 | 57.0 | 7 | 58.4 | 7 | 56.9 | 9 |
| 7 | Danimarka | 58.4 | 7 | 57.5 | 6 | 57.3 | 9 | 55.9 | 10 |
| 8 | Sinqapur | 58.4 | 8 | 56.6 | 8 | 57.8 | 8 | 57.3 | 7 |
| 9 | Almaniya | 58.2 | 9 | 56.5 | 9 | 57.3 | 10 | 57.2 | 8 |
| 10 | İsrail | 57.4 | 10 | 53.6 | 13 | 53.4 | 15 | 50.2 | 16 |
| 11 | Cənubi Koreya | 56.6 | 11 | 56.1 | 10 | 59.3 | 5 | 57.8 | 6 |
| 12 | İrlandiya | 56.1 | 12 | 53.0 | 15 | 50.7 | 19 | 48.5 | 23 |
| 13 | Honq Konq | 55.5 | 13 | 54.2 | 11 | 53.7 | 14 | 51.8 | 14 |
| 14 | Çin | 54.8 | 14 | 53.3 | 14 | 54.8 | 12 | 55.3 | 11 |
| 15 | Yaponiya | 54.7 | 15 | 52.7 | 16 | 54.5 | 13 | 53.6 | 13 |
| 16 | Fransa | 54.2 | 16 | 53.7 | 12 | 55.0 | 11 | 55.0 | 12 |
| 17 | Kanada | 53.9 | 17 | 52.3 | 17 | 53.1 | 16 | 50.8 | 15 |
| 18 | Lüksemburq | 53.5 | 18 | 50.8 | 18 | 49.0 | 23 | 49.8 | 19 |
| 19 | Norveç | 51.9 | 19 | 49.3 | 20 | 50.4 | 20 | 48.8 | 22 |
| 20 | İslandiya | 51.5 | 20 | 49.2 | 21 | 51.8 | 17 | 49.5 | 20 |
| **21** | **Azərbaycan** | **30.2** | **84** | **27.2** | **82** | **28.4** | **80** | **21.5** | **93** |
| 22 | Rusiya | 37.6 | 46 | 35.6 | 47 | 36.6 | 45 | 34.3 | 47 |
| 23 | Türkiyə | 36.9 | 49 | 34.9 | 51 | 38.3 | 41 | 38.1 | 37 |
| 24 | Gürcüstan | 37.0 | 48 | 31.8 | 63 | 32.4 | 63 | 27.9 | 74 |
| 25 | Estoniya | 50.0 | 24 | 48.3 | 25 | 49.9 | 21 | 50.2 | 18 |
| 26 | Özbəkistan | | | 24.5 | 93 | 27.4 | 86 | 25.3 | 82 |
| 27 | Qazaxıstan | 31.0 | 79 | 28.6 | 77 | 28.6 | 79 | 24.7 | 83 |
| 28 | Ermənistan | 34.0 | 64 | 32.6 | 61 | 31.4 | 69 | 26.6 | 80 |

Mənbə: Qlobal investisiya indeksi-2023

İnnovasiya fəaliyyəti üzrə strategiyanı formalaşdıran zaman Dövlət siyasətinin təyinedici vektorunun seçimi prinsipcə vacibdir. Xarici ölkələrdə Dövlətin innovasiya siyasətini, formalaşdıran və stimullaşdıran müxtəlif strateqiyalar, təşkilati-iqtisadi elementlər, yaranir və realizə edilir (Cədvəl 2).

Xarici ölkələrdə elmi-tədqiqat işlərinə maliyyə dəstəyi mexanizmlərinə (dövlət, investisiya fondları, biznes və s.), habelə əqli mülkiyyət obyektlərinə sahib olma hüququ formalarına əsaslanan dövlət siyasəti ən geniş yayılmış hal almışdır.

Təhlil göstərir ki, elmi-tədqiqat işlərinin (ETTKİ) maliyyələşdirilməsi üzrə innovasiya sistemlərinin məlum modellərindən ən əsasları bu prosesdə biznesin iştirakı və elmi sahənin vergiyə güzəştli şərtlərlə cəlb edilməsidir.

**Cədvəl 2**
**Xarici ölkələrdə dövlət innovasiya siyasəti strateqiyaları**

| İnnovasiya siyasətinin istiqamətləri | Əsas təşkilati-iqtisadi elementlər | Ölkələr |
|---|---|---|
| 1 | 2 | 3 |
| Milli innovasiya sisteminin formalaşması | Elmin dövlət sektorunun yenidən qurulması. | Bolqarıstan, Polşa, Litva |
| | Elm və təhsilin inteqrasiyası | Latviya, Estoniya, Çex Respublikası |
| | İnnovasiya fəaliyyətinə kiçik və orta biznesin cəlb edilməsi | Rumıniya. Çex Respublikası, Slovakiya, Latviya, Estoniya, Türkiyə, Çili |
| | Yüksək texnologiyalar sahəsində ixracın prioritet istiqamətlərinin müəyyən edilməsi | Çex Respublikası, Rumıniya, Çili, Türkiyə |
| Milli innovasiya sisteminin strukturlarının optimallaşdırılması | Dövlət idarəetmə və planlaşdırma sisteminin innovasiya sisteminin xüsusiyyətlərinə uyğunlaşdırılması. | Yaponiya. Norveç, Hindistan, Çili |
| | Elm və innovasiya sahəsinin dövlət tərəfindən maliyyələşdirilməsinin optimallaşdırılması | ABŞ, Fransa, İngiltərə, Danimarka, Norveç, İsveç, Avstraliya |
| | Fundamental tədqiqatların inkişafı | İngiltərə, İsveç, Sloveniya |
| Biznes və elmin (Universitetlər) innovasiya əsasında kooperasiyasının stimullaşdırılması | Korporasiyaların, biznes və elmi sektorun (universitetlərin) yaxınlaşmasının stimullaşdırılması. | ABŞ, Finlandiya |
| | Elm və innovasiyaya sahəsinə böyük həcmdə dövlət investisiyaları, milli özəl kapitalın cəlb edilməsi | İsrail, Finlandiya |
| | Özəl sektorun innovativ fəallığının xarici kapitalın innovasiya sahəsinə cəlb olunması ilə stimullaşdırılması | İngiltərə, İrlandiya, Çin, Koreya, Malayziya, İsrail |
| | Elmi sektorun innovativ təşəbbüsünün stimullaşdırılması | Almaniya, Yaponiya, Yeni Zelandiya, Danimarka |
| | Milli regionların təşəbbüslərinin stimullaşdırılması | Fransa, Almaniya, Finlandiya |
| Daxili innovasiya şəbəkələtinin yaradılması | İnnovasiya sahəsində əlaqələrin yaranması üçün xüsusi şəraitin yaradılması | ABŞ, Norveç, İrlandiya |

**Birinci model** elmi-texniki proqramların və dövlət əhəmiyyətli layihələrin həyata keçirilməsinə yönəlib. Əsas məqsəd iqtisadiyyatın kənd təsərrüfatı sektoru və bütövlükdə ölkə üçün prioritet əhəmiyyət kəsb edən sahələrin inkişafının stimullaşdırılmasıdır.

**İkinci model** elmi-texniki biliklərin yayılmasına yönəlib. Əsas məqsəd yeni texnologiyalara yiyələnmək və iqtisadiyyatın sahələrinin texnoloji imkanlarının genişləndirilməsi imkanlarının artırılmasıdır. Çox vaxt bu, innovasiya infrastrukturunun, təhsil və təlim sistemlərinin təkmilləşdirilməsinə aiddir.

Elm və istehsalat innovasiyalarına dövlət dəstəyi kənd təsərrüfatına büdcə ayırmalarının ən səmərəli formasıdır. Bu sahəyə qoyulan investisiyalar uzunmüddətli perspektivə və kapital qoyuluşlarının 70% qədər özünü çıxartmasının ən böyük imkanlarına malikdir.

Elmi Texniki Tərəqqinin idarə edilməsinin Amerika strukturunun əsas xüsusiyyəti dövlət və özəl biznesin sıx qarşılıqlı əlaqədə olmasıdır. Dövlət və özəl mənbələrdən maliyyələşən qarışıq təşkilatların xüsusi çəkisi əhəmiyyətli miqdardadır. Onların arasında Milli Sənaye Araşdırmaları Mərkəzi, Milli Elmlər Akademiyası, Milli Mühəndislik Akademiyası və Elmin İnkişafı üzrə Amerika Assosiasiyası var.

ETTKİ sahəsində dövlət və özəl qurumlar arasında əlaqə innovasiya mexanizminin mühüm xüsusiyyətidir.

Dünyanın bütün böyük ölkələrində tətbiqi elmi tədqiqatların təşkili və maliyyələşdirilməsi maksimum dərəcədə qeyri-mərkəzləşdirilmişdir. ABŞ-da dövlət kənd təsərrüfatı elminin inkişafına ildə təxminən 1 milyard dollar yardım edir. Bu vəsaitlərin təxminən yarısı federal büdcənin vəaitləri və qalanı isə ştatların büdcəsinin vəsaitləri hesabına formalaşır. 1914-cü ildə qəbul edilmiş qanuna görə, federal vəsaitlər ştatlara bir şərtlə ayrılır ki, onların hər biri öz büdcəsindən dövlətdən aldığı məbləğdən az olmayan məbləğ ayırsın. Bəzi ştatlarda elmin regional maliyyələşdirilməsinin payı ümumi məbləğin 60%-ni keçir. Elmin inkişafı istiqamətlərinin seçilməsi ilə bağlı qərarlar dövlətin müəyyən nəzarəti altında olsa da, əsasən ştatlarda qəbul edilir. Qərarın qəbul edilməsində fermer təsərrüfatlarının nümayəndələri böyük rol oynayır.

Əksər inkişaf etmiş ölkələrdə dövlət büdcəsi aqrar sahədə tətbiqi elmi tədqiqatları tam həcmdə maliyyələşdirmir. Bir çox ölkələr artıq belə elmi işlərə dövlət sifarişləri verməkdən imtina ediblər. Dövlət göstərilən işlərin yerinə yetirilməsi üçün qrantlar ayırmaqla alim və praktiklərin təşəbbüslərini dəstəkləyir, bu bir qayda olaraq ümumi xərclərin üçdə ikisindən dörddə üçə qədərini əhatə edir. Onlar hesab edirlər ki, istehsalçıların elmi nailiyyətlərə marağı, onların tətbiqi elmi işlərin maliyyələşdirilməsində maddi iştirakları ilə dəstəklənməlidir.

Tədqiqat xərclərinin ən azı dörddə birini özünün inkişaf fondlarından ödəmiş və onun həyata keçirilməsi üçün dövlət qrantı almış fermerlər birliyi bu nəticələrin tam sahibi olur. Dövlət elmi və digər tətbiqi elmi işlərə qrant verərkən mülkiyyət hüququna sahib olmağa iddia etmir.

Bütün inkişaf etmiş ölkələrdə aqrar sahədə tətbiqi elmi işlərin maliyyələşdirilməsi probleminə həmişə onların istehsalda geniş miqyasda tətbiqinin təmin edilməsi problemi ilə yanaşı baxılır.

Danimarkada fermerlər assosiasiyası kənd təsərrüfatı istehsalının inkişafında fəal mövqe tutur və tətbiqi tədqiqatları özlərinin inkişaf fondlarından qismən maliyyələşdirir. Fermerlərin nümayəndələri ölkədə elmi təşkilatların fəaliyyəti strategiyasının hazırlanmasında və dövlət qrantları ilə bağlı qərarların qəbulunda iştirak edirlər. Bu fermerlər ittifaqı

Danimarkada kənd təsərrüfatı üzrə dünyanın ən inkişaf etmiş məsləhət xidmətlərindən birinin fəaliyyətinə tam nəzarət edir, burada alınmış nəticələr elmi tədqiqatların şərtlərinə uyğun olaraq sonrakı etaplara ötürülür.

Kanada və ABŞ-da dövlət yerli hakimiyyət orqanları ilə birlikdə universitetlərin qəyyumlar şuralarında iştirak edərək, fəaliyyətinə fermer assosiasiyalarının təsir etdiyi hər bir ştatdakı elm, təhsil və ekstemşının universitet sistemini maliyyələşdirir. Beləliklə, əsas əhəmiyyət əldə edilən yeniliklərin praktiki olaraq həyata keçirilməsinə və məzunların hazırlıq səviyyəsinə verilir. Bundan əlavə, yeniliklər tətbiq edən və fermerlərə təlim verən genişləndirmə (ekstenşn) kooperativ sisteminə daxil olan çoxsaylı kənd məsləhət mərkəzləri onların fəaliyyətlərinə nəzarət edən öz qəyyumlar şurasına malikdirlər. ABŞ-da genişləndirmə (ekstenşn) kooperativ xidmətinin fəaliyyətinə təxminən 28% - federal büdcə, 66% - ştatların büdcəsi, 16% - yerli büdcələr nisbətində 1 milyard dollardan çox vəsait xərclənir. Qeyd etmək lazımdır ki, ştatların büdcəsi sadəcə universitet sistemlərinə daxil olan ekstemşn xidmətlərinə deyil, əsasən fermerlər və onların ailələri üçün məsləhət və təlim dəstəyi verən konkret proqramlara vəsait ayırır.

Yaxın onilliklərdə qlobal iqtisadiyyatın inkişafının strateji istiqaməti kimi innovativ artım ilk növbədə əsasən texnologiyaların konvergensiyası hesabına təmin olunacaq. Bu prosesin gedişi zamanı mövcud olan innovativ istiqamətlərin kəsişməsində müxtəlif texnoloji istiqamətlər yaranır ki, bu da sıçrayışlı innovasiyalar üçün bazanı əhəmiyyətli dərəcədə genişləndirəcəkdir. Konvergensiyanın ən perspektivli sahələri informasiya-kommunikasiya texnologiyaları (İKT), bio- və nanotexnologiyalardır. Bu sahələrdə irəliləyişlər iqtisadiyyatın demək olar ki, bütün sahələri və ictimai həyatın sferaları üçün hər cür tətbiq və təsirlərə malik olacaqdır.

Əksər ölkələrdə elmi-tədqiqat və onun əsasında innovasiyaların (ETTKİ) bütün mənbələrdən maliyyələşdirilməsinin miqyası və eyni zamanda onların effektivliyi də artır. İnnovasiya fəaliyyətinin yüksək texnologiyalı növü intensiv inkişaf edir və eyni zamanda sənaye, xidmət sektorunun ənənəvi baza sahələrinin elmtutumluğu yüksəlir. İnnovasiyanın təsiri altında onların bütün görünüşü köklü şəkildə yeniləşir. Elm getdikcə daha çox iqtisadiyyatın ehtiyaclarına yönəlir və onun innovativ istiqaməti güclənir.

Sənaye baxımından inkişaf etmiş ölkələrin innovasiya sıçrayışında ən fəal rolu iqtisadiyyatın real sektoruna inteqrasiya olunmuş firmadaxili elm oynayır. Avropa İttifaqının (Aİ) Böyük Britaniya, Fransa, Çexiya, Avstriya, Belçika və Almaniya kimi ölkələrində elm xərclərinin ümümi həcmində onun payı 62-70%-ni, ABŞ-da – 70%, Çində - 71%, İsveç, Yaponiya və İsraildə isə 75-77% faiz təşkil edir [2, səh.118].

Tədqiqat işi elmi mərkəz və universitetlərin xidmətlərinin autsorsinqi ilə effektiv şəkildə birləşdirilir. Tədqiqat səylərinin bu şəkildə bölüşdürülməsi firmalara öz innovativ potensiallarını inkişaf etdirməyə və eyni zamanda elmi-texniki informasiya axınının mərkəzində qalmağa imkan verir.

Yaponiyanın elmi-texniki inkişafının müasir konsepsiyasının əsasları müharibədən sonrakı ilk illərdə qoyulmuşdur. Məhz bu dövrdə milli iqtisadiyyatın inkişafı üçün uzunmüddətli proqnozlar tərtib edilmiş, elmi-tədqiqat işlərinin prioritet sahələri və istiqamətləri müəyyənləşdirilmişdir. Elmi-texniki tərəqqinin dövlət tənzimlənməsinin Yapon modeli aşağıdakı mühüm prinsiplərə əsaslanır:

- Ölkənin elmi və texnoloji inkişafı üçün uzunmüddətli proqramın olması;
- Elmi-texniki siyasətin həyata keçirilməsində iri korporasiyalara arxalanma;
- Tətbiqi tədqiqat və işləmləri ilk növbədə üstünlüklər üzrə stimullaşdırmaq.

Aparıcı Avropa ölkələrində (Almaniya, Böyük Britaniya, Fransa) dövlətin elmi və texnoloji siyasəti iri korporasiyaların arasından ABŞ və Yaponiyanın aparıcı şirkətləri ilə rəqabət apara bilən az sayda şirkətləri stimullaşdırmağa əsaslanır. Onların payına sənaye üzrə ETTKİ üçün ayrılan dövlət vəsaitlərinin böyük əksəriyyəti düşür. Elmtutmlu məhsulların işlənib hazırlanması və istehsalı üçü istinad "nöqtələri" kimi Fransa, Almaniya və Yaponiyada elmi- texnoloji parkların və innovasiya mərkəzlərinin inkişafı üzrə genişmiqyaslı proqramlar qəbul edilmişdir. Nəticədə hələ 1990-cı illərdə bu ölkələrdə güclü innovativ fəallıq zonaları formalaşmış, bütün dünyada yüksək tələbatı olan elektron avadanlıqları, proqram məhsulları, ənənəvi istehsal üçün müasir maşınları və s. istehsal edən iri müəssisələr yaradılmışdır.

Elmi-innovativ fəaliyyətin (EİF) bütün proseslərinin idarə edilməsinin əsasında, onun məhdud xarakter daşımasına və maliyyələşdirmə (büdcələmə) ilə ayrılmaz şəkildə bağlı olmasına baxmayaraq planlaşdırma durur. İnnovasiya proseslərinin inkişafına yönəlmiş dövlət siyasətinin üsul və vasitələrinin seçimi, onun variantlarının, hərəkətverici qüvvələrinin və təşkilati həllərinin müxtəlif ölkələrdə özünıməxsus xüsusiyyətlərə malik olmasına baxmayaraq kifayət qədər genişdir. Əksər ölkələrdə işlərin təkrarlaması riskinin aradan qaldırılmasına, uzunmüddətli fənlərarası tədqiqatların uşotu, ümumi fondlardan (büdcədən) elmi-tədqiqat və layihələrin maliyyələşdirilməsinin müəyyən mütləq səviyyəsinin müəyyən edilməsinə yönəldilən elmi-texniki fəaliyyətin planlaşdırılması həyata keçirilir.

Dövlət kənd təsərrüfatında kiçik əmtəə istehsalçılarının tələb olunan həcmdə elmi-tədqiqat-tədqiqat işlərini maliyyələşdirə bilmədiklərini başa düşərək, bu funksiyanı, habelə kommersiya realizasiyasının uzun müddət çəkəcəyi ən kapital tutumlu fundamental tədqiqatların aparılmasına və kənd təsərrüfatı elminin dövlət sektorunda tədqiqatların strateji istiqamətlərini hazırlamaq üçün sənaye müəssisələri və tədqiqat təşkilatlarını cəlb etməyi öz üzərinə götürür. Dövlət həmçinin büdcədən və ya fermerlərin vəsaitlərindən maliyyələşdirilən, bütün fermerlərə və kənd sakinlərinə çatması üçün, dövlət sektorunun elmi təşkilatlarından alınan elmi nəticələrin və tövsiyələrin ixtisaslaşdırılmış tətbiq ximəti olan eksteşini yaratdı. Bunun nəticəsində, xüsusi ilə də elmi-texniki tərəqqinin və fundamental tədqiqatların strateji istiqamətləri, habelə elmi-texniki ideyaların yayılması üzrə dövlət dəstəyi innovasiya siyasətinin (İS) maliyyə "skeletinin" ən mühüm komponentinə çevrilmişdir. Bir çox inkişaf etmiş ölkələrdə kənd təsərrüfatının elmi-tədqiqat işlərinə dövlət xərcləri bu sahəyə ümumi xərclərin yarısını və ya daha çoxunu təşkil edir. Bazar iqtisadiyyatı şəraitində özəl investisiyalar bir qayda olaraq bəzi bahalı layihələrin, hətta ən böyük şirkətlərin iqtisadi və təşkilati imkanlarını üstələməsi səbəbindən ETTKİ-də maliyyə ehtiyaclarını ödəməsi üçün kifayət etmir.

İnnovasiya fəaliyyətinin dövlət stimullaşdırılmasının xarici ölkələrdə istifadə edilən üsulları arasında birbaşa və dolayı üsullar fərqləndirilir.

İnnovasiya proseslərinin dövlət tənzimlənməsinin birbaşa üsulları əsasən iki formada həyata keçirilir: inzibati-idarə və proqram-məqsədli [3, səh.85]. Birbaşa tədbirlərə kapitalın "qiymətin" azaldılması (ETTKİ-nin güzəştli vergitutmasının subsidiyalaşdırılmasının ümumi sisteminin istifadə edilməsi), habelə ona çıxışın asanlaşdırılması (vençur kapitalının, fond bazarlarının inkişafı) daxildir. ABŞ-dan fərqli olaraq, Qərbi Avropada sənayeydə innovasiya fəaliyyətinin stimullaşdırılması vasitəsi kimi aşağı faizli kreditlərin verilməsi geniş yayılmışdır. 90-cı illərdə maliyyə bazarlarının liberallaşdırılması perspektivli müəssisələrə öz kapitallarını birbaşa investisiya etməkdə maraqlı olan qeyri-ənənəvi

maliyyə mənbələrinin - həm institusional (pensiya fondları), həm də özəl şəxslərin kapitalını cəlb etməyə imkan verdi. Nəticədə vençur maliyyələşdirmənin həcmi əhəmiyyətli dərəcədə artmış oldu.

Dövlət innovativ biznesə dolayı üsullarla işçi qüvvəsinin hərəkətliliyini artırmaq və elmi-texniki infrastruktur yaratmaq yolu ilə xüsusən təhsil, peşəkar kadrların hazırlanması sahəsi və idarəetmə məsləhət xidmətlərinin formalaşdırılması vasitəsilə kömək edir.

İnnovasiya proseslərinin dövlət tərəfindən tənzimlənməsinin göstərilən bu üsulları ilə yanaşı, bütün səviyyələrdə dövlət dəstəyinin mühüm istiqaməti vençur sahibkarlığının inkişafına kömək etməkdir. Dünya təcrübəsində innovasiya fəaliyyətini stimullaşdırmaq üçün aşağıdakı vergi güzəştlərindən istifadə olunur:

● tədqiqat və investisiya vergi kreditinin verilməsi, yəni innovasiya məqsədləri üçün mənfəətdən əldə edilən xərclər üzrə vergi ödənişlərinin təxirə salınması;

● innovasiya xərclərinin artmasına görə verginin azaldılması;

● innovativ layihələrin həyata keçirilməsindən əldə edilən gəlirlər üzrə bir neçə il müddətinə "vergi tətilləri";

● texnoloji avadanlıqlara reinvestisiya edilmiş mənfəətin bir hissəsinin vergidən azad edilməsi şəklində amortizasiya ayırmalarına əlavə olaraq vergi güzəştləri;

● texnoparklar, texnopolislər, elmi və sənaye zonaları daxilində xüsusi güzəştli vergi rejimi tətbiq olunan vergi zonaları ("limanlar");

● əmək haqqı fondundan və şirkətin mənfəətdən vergidən azad edilmiş mənfəəti hesabına formalaşan xüsusi innovasiya və elm fondları;

● həyata keçirilən layihələrin prioritetliyindən asılı olaraq güzəştlərin verilməsi (məsələn, sıçrayış texnologiyaları üzrə);

● dövlət elmi-texniki innovasiya proqramlarının həyata keçirilməsinə töhfə verən özəl müəssisələr üçün vergi güzəştləri;

● sənayenin ən yeni sahələri üzrə müəssisələrin mənfəət vergisindən azad edilməsi (onların yaradıldığı tarixdən iki ildən üç ilədək);

● hüquqi və fiziki şəxslərin innovativ müəssisələrin səhmləri üzrə aldığı dividendlərin güzəştli vergiyə cəlb edilməsi;

● sifarişli və birgə ETTKİ-yə yönəldilmiş mənfəətin vergi dərəcələrinin azaldılması;

● yerinə yetirilən layihələrin prioritetliliyi nəzərə alınmaqla güzəştlərin verilməsi arasında əlaqə;

● patentlərin, lisenziyaların, nou-hauların və innovasiya sisteminə (İS) daxil olan digər qeyri-maddi aktivlərin istifadəsi nəticəsində əldə edilmiş mənfəətin güzəştli vergiyə cəlb edilməsi;

● universitetlərə, elmi-tədqiqat institutlarına və digər innovativ təşkilatlara verilən cihaz və avadanlıqların dəyərinin məbləği miqdarında vergi cəlb edilən mənfəətin azaldılması;

● fəaliyyəti innovasiyaların maliyyələşdirilməsi ilə bağlı olan xeyriyyə fondlarına ödəmələrin vergi tutulan mənfəətindən çıxılması;

Xüsusi vergitutma hesabına ETTKİ-nin stimullaşdırılması və onun nəticələrinin təsərrüfat fəaliyyətində istifadə edilməsi ETTKİ-nin digər vasitələrlə stimullaşdırılmasıyla müqayisədə bir sıra üstünlüklərə malikdir. Xüsusilə, vergi alətlərinin köməyi ilə ETTKİ-nin qiymətini onların büdcəsindən asılı olmayaraq xeyli dərəcədə azaltmaq olar ki, bunun sayəsindədə ETTKİ-nin layihələrinin prioritetliyi ilə bağlı sahibkarın qərarına mənfi təsir göstərmir. Qiymətin aşağı salınması ETTKİ sahəsində, həm də xüsusi vergi tutulması olmadan sərfəli olmayan layihələr üzrədə innovasiya fəaliyyətinin genişlənməsinə gətirib çı-

xarır [3, səh.94].

Tədqiqatlar göstərir ki, ABŞ, Kanada və ya Avstraliyada tətbiq olunan formada vergi tədbirlərinin tətbiqi kifayət qədər güclü stimullaşdırıcı effekt göstərmiş və müəssisələr ETTKİ-nin qiymətinin azalmasına bu sahəyə xərclərini artırmaqla cavab vermişlər. Məsələn, ABŞ-da innovasiya sahəsində tətbiq edilən güzəştlər nəticəsində dövlət vergilər şəklində innovasiya fəaliyyətini maliyyələşdirə biləcək nə qədər pul almasa da, firmalar elmi-tədqiqat işlərinə təxminən eyni miqdarda əlavə vəsait yatırıblar. Bütövlükdə, korporasiyaların 40-60%-ə qədəri vergiyə cəlb olunmayan mənfəəti istehsalın və əsas fondların yenilənməsi üçün ETTKİ-yə yönəldilir.

Dövlət dəstəyi üçün digər bir imkan ondan ibarətdir ki, dövlət ETTKİ-ni dövlət və ya özəl firmalar vasitəsilə maliyyələşdirir. Sənayeləşmiş ölkələrdə fundamental elmi tədqiqatların əksəriyyəti bu şəkildə aparılır. Dövlət və sənaye arasında bu "əmək bölgüsü" ona görə baş verir ki, özəl firmalarda fundamental tədqiqatların aparılması üçün stimullar əlavə xərclərin böyük olması səbəbindən zəifdir.

Bütövlükdə, xarici təcrübə göstərir ki, inkişaf etmiş iqtisadiyyatı olan əksər ölkələr üçün ümumi tendensiya əlverişli innovasiya mühiti yaradan vergi güzəştlərinin xüsusi çəkisinin artırılmasından ibarətdir. Vergi dəstəyinin əsas üstünlüyü ondan ibarətdir ki, güzəştlər avans olaraq  deyil, real innovasiyanı mükafatlandırmaq üçün verilir.

Amortizasiya siyasəti çox vaxt vergi siyasətinin bir hissəsi hesab olunur. Kapitalın və qeyri-maddi aktivlərin dəyərinin azaldılması normativlərinin müəyyən edilməsi və onların istər istehsal xərclərinə, istərsə də dövr xərclərə aid edilməsi qaydası, əlbəttə ki, mənfəətin miqdarına və müvafiq olaraq vergiyə birbaşa təsir göstərir. Bununla belə, son onilliklərdə inkişaf etmiş ölkələrdə müvafiq avadanlıq və texnologiyaların istismar müddəti həddinin müəyyən edilməsi kimi normativ məhdudiyyətlər getdikcə daha çox tətbiq edilir. Belə məhdudlaşdırı normativlər yalnız istehsalçılar üçün deyil, həmçinin bəzi hallarda istehlakçılar üçün də müəyyən edilə bilər. Bu vergidən kənar üsulları da amortizasiya siyasətinin bir hissəsi hesab etmək olar.

Böyük Britaniyada, Almaniyada, İtaliyada, Kanadada, ABŞ-da və Yaponiyada mənfəətlə fəaliyyət göstərən müəssisələr vergiyə vəlb edilən bazadan ETTKİ-yə xərclərin 100%-ni çıxarmaq hüququ var. Avstriyada bu ölçü 105%, Avstraliya və Danimarkada isə 125% təşkil edir (OECP məlumatlarına üzrə).

Xarici ölkələrdə vergi krediti (tax credit) deyilən üsul da geniş yayılmışdır. Onun köməyi ilə müəssisələrə mənfəət vergisi üzrə artıq hesablanmış məbləğ ETTKİ üzrə xərclərin müəyyən faizinə bərabər məbləğdə azaldılır. ABŞ, Yaponiya, Fransada bu vergi güzəşti müəyyən vaxt müddətdən üzrə elmi-tədqiqat fəaliyyətləri üçün xərclərin artımından asılıdır. Kanada və Hollandiyada vergi kreditinin məbləği elmi-tədqiqat fəaliyyəti üzrə xərclərinin ümumi məbləğindəki artıma mütənasibdir. Xarici ölkələrdə bu güzəştlər orta hesabla ETTKİ xərclərinin artımının 20%-ni təşkil edir (ABŞ, Yaponiya, Kanadada) və müəssisənin mənfəətinin artırılmasının əhəmiyyətli mənbəyi kimi xidmət edir.

Dövlət üçün vergi krediti firmalardan daha az faydalı deyil, çünki bu halda o, uzunmüddətli investor kimi çıxış edir.

Kiçik və orta firmalara innovativ dəstək göstərmək üçün dövlət (ABŞ, Almaniya, Fransa) müəyyən müddət ərzində "gənc" firmalara lazım olan xidmətləri göstərən "inkubator" müəssisələri subsidiyalaşdırırmaqla təsərrüfatçılıq üçün əlverişli şərait yaradır, elm mərkəzlərinin ETİ-nin nəticələrinə əlçatanlığını təmin edir və müstəsna hallarda "inku-

bator" müəssisələri ilə əlaqədar olan vençur firmaların yaradılmasına qədər yeni müəssisələrin maliyyələşdirilməsini təşkil edir.

Bir çox ölkələrdə yeni texnopark strukturlarının (texnopolislər, parklar, İnnovasiya mərkəzləri (İM), inkubatorlar və s.) yaradılmasında və dəstəklənməsində regional hakimiyyət orqanlarının rolu böyükdür. Ştatın (torpaq) hökumətləri, bir qayda olaraq, onların infrastrukturunun inkişafını maliyyələşdirir, torpaq sahələrini güzəştli şərtlərlə verir, layihələri subsidiyalaşdırırlar (Almaniya, Avstriya, İsveçrə təcrübəsi).

Texnoparklar çətir strukturları adlandırılan ümumi sahənin - biznes inkubatorlar, innovasiya mərkəzləri, mühəndislik mərkəzləri və sairədə fəaliyyət göstərir və işlənmələrin və biznes planlarının sürətli və birbaşa həyata keçirilməsini təmin etmək məqsədi ilə sahibkarlığa yeni başlayanlara, alimlərə, tərtibatçılara, mühəndislərə xidmət göstərir. Texnoparkların xüsusiyyətləri yüksək texnologiyalar ilə bağlı elmi, konstruktor və texnoloji işləmlərdir (hi tech) [4, səh.18].

Texnoparklar aşağıdakı kimi fəaliyyət göstərir. İdeyanın müəllifi biznes plan formasında yazdığı öz layihəsini texnoparkın rəhbərliyinə təqdim edir. Əgər layihə təsdiq olunarsa, o zaman müəlliflə adətən iki -üç il müddətinə müqavilə bağlanır (bu müddət ərzində tərəflər orada yazılan şərtləri yerinə yetirmədikdə müqaviləyə xitam verilə bilər) və O, texnoparkın müştərisinə çevrilir. Ona, texnoparkın istehsal modulu olan "hücrə" verilir və o orada işləyir. Texnoparkların müştəriləri güzəştli şərtlərlə telekommunikasiya xidmətlərindən, mühasibat uçotundan, menecerlərlə, hüquqşünaslarla məsləhətləşmələrdən və s.-dən texnoparkın ərazisində istifadə edirlər. Lazım olan mütəxəssisi kənarda axtarmağa ehtiyac yoxdur - onların hamısı burada mövcuddur. Bu xidmətlərin və layihənin icrası ilə bağlı digər xərclərin ödənilməsi üçün müştərilər texnoparkdan kredit alırlar (bəzən bunu banklar və ya maraqlı şirkətlər verirlər). Bütün bunlar texnopark xidmətləri siyahısına daxildir. Bu xidmətlər layihələr ən effektiv və gəlirli olduqda səmərəli olur və texnoparka (adətən texnoparkı yaradan universitet və ya tədqiqat mərkəzinə) gəlir verməyə başlayır.

Texnoparka təşkilati baxımdan ən yaxın struktur biznes inkubatordur. Biznes inkibatorlar kiçik biznesi canlandıran sırf kommersiya strukturlarıdır, buna görə də tez-tez dövlət tərəfindən subsidiyalaşdırılırlar (ABŞ, Finlandiya, İsveç və s.). İnkubator yalnız texnopark üçün məcburi olan yüksək texnologiyayalara (Hi-tech) istiqamətlənməyiblər və müxtəlif layihələri, məsələn, ticarət sahəsində həyata keçirə bilər. Texnoparkın müştərilərinin əksəriyyəti heç vaxt iş adamı olmayacaq - onlar layihəni başa çatdıracaq, öz işləmlərini tətbiq edib elmi laboratoriyalarına qayıdacaqlar. İnkubator isə iş adamları yetişdirir.

Elmi parklar - ərazi elmi-sənaye kompleksləri kateqoriyasına aid olan elmin sənaye ilə inteqrasiya formasıdır. 80-ci illərin əvvəllərindən etibarən Qərbi Avropa ölkələrində Amerika "inkubatorlarına" oxşar olan kiçik yüksək texnologiyalı müəssisələr - innovasiya mərkəzlərinin (IM) ehtiyaclarına yönəlmiş texnoparkların müxtəlif növləri geniş yayılmışdır. Onların vəzifəsi ideya və ixtiraları kapital və sahibkarlarla birləşdirmək, yeni innovativ şirkətlər üçün "start dövrü" təmin etmək üçün dövlət və özəl vəsaitləri cəlb etməkdir.

İnnovasiya Mərkəzlərinin (İM) funksiyaları innovasiya prosesinin müxtəlif mərhələlərini əhatə edir, xüsusən yeni məhsulların eksperimental istehsaldan kommersiya mənimsənilməsinə qədər olan keçidini stimullaşdırır. Bunun üçün heç də həmişə yeni şirkətlərin yaradılması tələb olunmur. İnnovasiya mərkəzlərləri yeni məhsula lisenziyanı mövcud olan

istehsalçılara satmaqda tez-tez köməklik göstərir.

Bir sıra innovasiya mərkəzləri yerli hakimiyyət orqanları tərəfindən idarə olunur, daha böyükləri isə bazası Brüsseldə olan Avropa şəbəkəsinə daxildirlər. Avropa şəbəkəsi müxtəlif ölkələrin innovasiya mərkəzlərini əlaqələndirərək 40-a yaxın İnnovasiya mərkəsini birləşdirməklə firmaların ölkələr arası texnologiya ticarətini asanlaşdırır.

Yapon "elm parkları" modeli, Amerika modelindən fərqli olaraq, elmi tədqiqatları qabaqcıl sahələrdə və elm tutumlu sənaye istehsalında cəmləşdirən texnopolis adlanan tamamilə yeni şəhərlərin salınmasını nəzərdə tutur. Texnopolislərin yaradılması üçün dörd adaya bərabər səpələnmiş 19 zona seçilmişdir.

Texnopolis müasir elmi-sənaye kompleksləri, universitetlər və elmi-tədqiqat institutlarının balanslaşdırılmış dəstinə malik olmalı, yaşayış üçün rahat ərazilərlə birləşmiş, mədəni və rekreasiya infrastrukturu ilə təchiz edilməlidir.

Texnopark strukturlarının inkişafının Avropa təcrübəsi dövlət maliyyələşdirməsinin rolunun böyük olmasını göstərir. İnfrastrukturun inkişafına və parkların tikintisinə mərkəzi və yerli tikinti fondları hesabına konkret qoyuluşlar Fransada 74%, Almaniyada 78%, Belçikada təxminən 100%, Hollandiyada təxminən 70%, Böyük Britaniyada 62% təşkil edir. Əgər Avropa ölkələrində dəstəyin dotasiya xarakteri üstünlük təşkil etdiyi halda, Amerika təcrübəsi daha çox kommersiya xarakteri ilə xarakterizə olunur.

İnkişaf etmiş Qərb ölkələrində elmi investisiya strukturlarının (EİS) fəaliyyət göstərməsinin ən mühüm mexanizmlərindən biri vençur (risk) maliyyələşdirilməsidir (VM). Sonradan investorların vençur maliyyələşdirilməsinə olan maraqları üç əsas səbəbə görə artdı. Birincisi, bir sıra hallarda investorlar ənənəvi kredit-maliyyə əməliyyatlarının potensial gəlirliliyindən dəfələrlə çox olan real gəlir əldə etmişlər. İkincisi, yüksək riskli layihələrin maliyyələşdirilməsi obyektlərinin xüsusiyyətləri investisiya risklərini minimuma endirməyə kömək edən xüsusi idarəetmə metodlarının inkişafına təkan verdi. Üçüncüsü (və bu, yəqin ki, makroiqtisadi nöqteyi-nəzərdən ən vacib olandır) vençur mexanizmi yeni innovativ ideyaları və işləmləri onların həyata keçirilməsinin ilkin (bazardan əvvəlki) mərhələlərində maliyyələşdirmək imkanını təmin etdi [3.səh.65].

Vençur maliyyələşdirməsinin ən mühüm xüsusiyyəti layihələrin maliyyələşdirilməsi və həyata keçirilməsinə baxılma müddətinin minimuma endirilməsidir. Məsələn, texniki təklifin alınmasından maliyyələşdirmənin başlanmasına qədər orta hesabla iki aydan çox vaxt keçir ki, bu da bütün amillərin ekspert qiymətləndirilməsi və təhlili üçün və ideyanın perspektivliyinin proqnozunun tərtib edilməsi üçün kifayətdir.

ABŞ Ticarət Nazirliyinin müəyyənləşdirməsinə görə yeni texnologiyaların işlənməsinə istiqmətlənmiş kiçik firmalara pul təklif edən istənilən mənbə vençur kapitalına aiddir. Belə mənbəələr banklar, pensiya, özəl və ictimai vençur fondları, investisiya və sığorta şirkətləri, əhalinin şəxsi əmanətləri, iri korporasiyaların vəsaitləri ola bilər. Bununla yanaşı, innovasiya layihələrinin maliyyələşdirilməsi bilavasitə ixtisaslaşmış vençur kapitalı şirkətləri tərəfindən həyata keçirilir (ABŞ-da onlar 500-dən yuxarıdır).

Vençur biznesinin inkişafı üçün dünya bazarında qlobal rəqabət şəraitində istənilən ölkənin istehsalçılarının hiss etdiyi daim artan rəqabət təzyiqinin əhəmiyyəti də az deyil. Yeni perspektivli elmi ideyaların və texnoloji işləmlərin kommersiyalaşdırılmasının sürəti və milli iqtisadiyyatın rəqabət qabiliyyəti vençur mexanizminin nə qədər uğurla fəaliyyət göstərməsindən cox asılıdır.

Vençur maliyyələşdirilməsində dövlətin iştirakı bir sıra hallarda vençur kapitalının resipientləri üçün daha əlverişli şərait yaradılmasına təminat verir.

ABŞ elmi biliklərin bütün istiqmətlərində liderliyə, fundamental elmlər və milli məqsədlər arasında əlaqələrin gücləndirilməsinə, dövlət, sənaye və akademik dairələr arasında səmərəli tərəfdaşlıq əlaqələrinin inkişafına, XXI-ci əsrin Amerikası üçün ən yüksək səviyyəli alim və mühəndislərin hazırlanmasına can atır. Bütün bunlar ölkə əhalisinin elmi-texniki bilik səviyyəsinin yüksəldilməsi fonunda edilir.

ABŞ-ın siyasətinin başlıca prioritetlərindən biri ETT-nin həvəsləndirilməsidir. Bilik sahəsində fundamental nailiyyətlərin əldə edilməsi rəsmi olaraq iqtisadi artımın əsası kimi tanınmışdır, belə ki, ABŞ-da olan qiymətləndirməyə görə, ETTKİ-yə yatırılan 1 dollara ÜDM 9 dollar artımı ilə düşür [3, səh.83].

Xarici ölkələrdə fermerlərin elmi və istehsalat xidmətləri xərcləri büdcə vəsaiti hesabına subsidiya edilir. Şaquli inteqrasiya olunmuş iri kənd təsərrüfatı birliklərində onların öz innovasiya fəaliyyətləri də büdcə vəsaitləri hesabına maliyyələşdirilir.

Qərbi Avropa ölkələrində kiçik innovativ sahibkarlıq dövlət tərəfindən akriv şəkildə dəstəklənir. Bu dəstək təkcə maliyyə-iqtisadi güzəştlər verməkdən deyil, həm də hərtərəfli əlverişli iqtisadi, hüquqi, təşkilati, psixoloji və digər şərtləri yaratmaqdan ibarətdir. Bu məqsədlə innovativ sahibkarlığın aktivləşdirilməsinin stimullaşdırılmasının müxtəlif formalari (proqramlar, qrantlar) tətbiq olunur.

Stimullaşdırma federal agentliklər və idarələr vasitəsilə büdcə vəsaitlərindən məqsədyönlü subsidyalaşdırma, habelə kiçik firma və müəssisələrin innovativ fəaliyyətinin maliyyələşdirilməsi üçün özəl kapitalın cəlb edilməsinin stimullaşdırılması yolu ilə və mülkiyyətçilərin vəsaiti hesabına yaradılmış vençur kapitalı şirkətləri vasitəsi ilə həyata keçirilə bilər.

ABŞ-da əsasını elmi və innovativ fəaliyyətə təşkil edən xüsusi bir sahibkarlıq növünün formalaşması fəal şəkildə stimullaşdırılır. İnnovativ sahibkarlığın əsas daşıyıcısına elm adamlarının, texnoloqların, innovasiyaların mənumsənilməsi üzrə mütəxəssislərin və ixtiraçıların iştirak etdiyi kiçik biznes çevrilir.

Xarici təcrübə göstərir ki, orta və kiçik firmalarda innovasiya fəaliyyətinin səmərəliliyi inzibati metodların üstünlük təşkil etdiyi və alimlərin öz işlərinin nəticələrinə az maraq göstərdiyi iri elmi müəssisələrlə müqayisədə daha yüksəkdir.

Birbaşa istehsal prosesində iştirak edən alimlərə bazarın vəziyyətinə və tələblərinə, kənd təsərrüfatında təbii amillərə tez uyğunlaşmağa, istehsal və innovasiya fəalyyətinə nəzarət etmək, innovasiyaların mənimsənilməsində psixoloji maneələri aradan qaldırmaq imkan verən təşkilati - idarəetmə üstünlükləri xüsusi əhəmiyyət kəsb edir.

İnnovativ fəaliyyət göstərən kiçik və orta firmalar iri korporasiyalarla sıx əlaqədədirlər və onların sifarişlərini yerinə yetirə bilirlər, həmçinin innovasiyalar haqqında müntəzəm məlumat verən, kadrların yenidən hazırlanması və hazırlığını həyata keçirən aparıcı elm və təhsil idarələri ilə əlaqədədirlər. Elmi və innovasiya fəaliyyətinin sənaye və sahələrarası miqyasda bu cür inteqrasiyası innovasiyalardan daha səmərəli istifadə etməyə və elmi məhsulların istehsalda irəlilədilməsi vaxtını qisaltmağa imkan verir.

Aqrar sahədə elmi sahədə ki, sahibkarlıq fəaliyyətinin maliyyələşdirilməsi və stimullaşdırılması dövlət idarəetmə orqanlarının fondları vasitəsi ilə büdcə vəsaiti hesabına həyata keçirilir.

Ölkəmizdə innovativ fəaliyyətin stimullaşdırılmasının təşkilində korporativ maraqlar fəaliyyət göstərir və elmi məhsulların birbaşa istehlakçıları ilə real əlaqə yoxdur.

Elmi Texniki Təcrübə Konstruktor İşlərinin (ETTKİ) maliyyələşdirməsinin həcmi üzrə (cari PPS qiymətlərində) dünyanın beş aparıcı ölkəsini qeyd edə bilərik: ABŞ, Yapo-

niya, Çin, Almaniya və Fransa. Bu göstərici üzrə Azərbaycan aparıcı beş ölkədən xeyli geri qalır.

İnnovasiyaların və innovativ fəaliyyətlərin həyata keçirilməsində əsas problem elmi işlənmələrlə biznes subyektləri arasında qurulmuş tərəfdaşlıq platformasının olmaması və kənd təsərrüfatı müəssisələrini yeni texnologiyalardan daha geniş istifadə etməyə məcbur edəcək aydın iqtisadi stimulların olmamasıdır. Azərbaycandakı mövcud biznes fəaliyyətində innovasiyalara tələb motivasiyası yoxdur.

Ölkəmizdəki biznes subyektlərində innovasiyaya tələbat motivasiyasının yaranması və sonradan bu tələbatın gücləndirilməsi üçün dövlət-özəl tərəfdaşlıq çərçivəsində aşağıdakı şərtləri həyata keçirmək lazımdır:

- innovasiyaların maliyyələşdirilməsini iqtisadiyyatın yalnız real sektoru hesabına təşkil etmək;
- dövlət tərəfindən ayrılan hər manat innovasiyalara "bağlanmalıdır";
- nəyin bahasına olursa olsun, iqtisadi məcburiyyət də daxil olmaqla, biznes subyektləri arasında innovasiyaya tələbat yaratmaq lazımdır.

Aqrar-sənaye kompleksində innovasiyaların dəstəklənməsi üzrə tədbirlər sisteminin tətbiqi və innovasiya fəaliyyətinin əsas istiqamətləri istehsalın əhəmiyyətli dərəcədə artmasına və müəssisələrin rəqabət qabiliyyətinin yüksəlməsinə şərait yaratmağa imkan verəcəkdir.

İnnovativ potensialın inkişafının göstəricisi kimi ETTKİ-nin maliyyələşdirməsinin həcminin bir tədqiqatçıya düşən payından istifadə etmək olar. Dünyanın texnoloji cəhətdən inkişaf etmiş ölkələrində (ABŞ, Almaniya, Yaponiya, Cənubi Koreya) bu xüsusi göstəricinin qiyməti çox yüksəkdir. Azərbaycanda bu göstəricinin dəyəri (40 min ABŞ dolları) dünya üzrə orta göstəricidən 8 dəfə azdır.

Məlumatlar bir tədqiqatçıya düşən xərclərin yüksək differensasiyası ilə yanaşı, ETTKİ-nin maliyyələşdirilməsi mənbələrinə üzrə dünya ölkələrinin əhəmiyyətli dərəcədə fərqləndiyini göstərir.

Avropa İttifaqında (Aİ) innovasiya strategiyasının həyata keçirilməsinin bir aləti kimi dövlət satınalmalarına marağın, həm Aİ-nın ayrı-ayrı dövlətləri, həm də bütövlükdə Aİ səviyyəsində ciddi şəkildə artması müşahidə edilir.

Müasir Avropada dövlət satınalmalarından innovasiya siyasətinin aləti kimi istifadə edilməsinin məqsədəuyğunluğu məsələsi artıq mübahisə doğurmur.

ABŞ-da federal müqavilə sistemi çərçivəsində innovativ məhsullara dövlət sifarişləri Amerika dövlətinin sənaye, sosial-iqtisadi, elmi-texnoloji və innovasiya siyasətinin həyata keçirilməsi üçün alət kimi uğurla istifadə olunur [5, səh.98].

Avropa Komissiyası, eləcə də bir çox tədqiqatçılar innovasiya üçün dövlət sifarişinin aşağıda göstərilən iki növünü fərqləndirirlər:

- rəqabətqabağı sifarişlər - tətbiqi tədqiqatların və işləmlərin, həll variantının, prototipin, əmtəənin (xidmətin) təcrübə nümunələrinin məhdud partiyasının yerinə yetirilməsi üçün sifarişlər. Bununla yanaşı, çox vaxt sifarişçi paralel olaraq bir problemin alternativ həllini təklif edən bir neçə layihəni hər hansı bir layihənin (elmi yanaşma, texnoloji həll) üstünlüyünə əmin olana və digərlərini maliyyələşdirməkdən imtina edənə qədər maliyyələşdirir;
- innovativ həllərin dövlət satınalmaları - yeni işlənmiş məhsulun (xidmətin) alınması və yaxud dövlət-özəl tərəfdaşlıq şərtləri əsasında hazırlanmış məhsulun digər potensial istehlakçıları və hazırlayicilarla birlikdə innovativ məhsulun hazırlanması üzrə istiqamət-

lənmiş tətbiqi tədqiqatların paylarla maliyyələşdirilməsi.

Xarici təcrübənin təhlili əsasında kənd təsərrüfatında innovativ fəaliyyətin inkişafının aktual istiqamətlərini qeyd edək:

- büdcə vəsaitləri hesabına kənd təsərrüfatı sahəsi üzrə məsləhətvermə sistemi vasitəsilə kənd təsərrüfatı məhsulları istehsalçılarına elmi və istehsalat xidmətlərinin verilməsi;
- dövlət idarəetmə orqanlarının fondları vasitəsi ilə elmi sahədə sahibkarlıq fəaliyyətinin büdcə vəsaiti hesabına maliyyələşdirilməsi və stimullaşdırılması;
- dövlət satınalmalarından innovasiya siyasətinin aləti kimi istifadə edilməsi;
- innovasiyaların aqratr sahəyə tətbiq edilməsi üçün innovativ layihələrin istifadə edilməsi;
- dövlət-özəl tərəfdaşlıq çərçivəsində innovasiyalara tələb üçün motivasiyanın formalaşdırılması;
- sahənin innovativ potensialını qiymətləndirmək üçün "bir tədqiqatçıya düşən ETTKİ-nin maliyyələşdirilməsi həcmi" göstəricisinin tətbiq edilməsi.

## Ədəbiyyat


1. Глобальный инновационный индекс. (2022)
2. Инновационное развитие – основа модернизации экономики России: национальный доклад. (2008) – М.: ИМЭМО РАН, ГУ – ВШЭ
3. Ашихин А.Н., Смирнов Ю.Т., Чернуха Д.В. (2004) Состояние инновационной политики в зарубежных странах и Российской Федерации. – М.: ИНИЦ Роспатента – 122 с
4. Голт Ф. (2009) Инновационная стратегия ОЭСР. Достижение новых ценностей. Форсайт. – № 1 (9). – с. 16-27
5. В.А.Федорович, А.П.Патрон, В.П.Заварухин. (2010) США: Федеральная контрактная система: механизм регулирования государственного хозяйствования / М.: Наука
6. M.M.Orucov. (2020) Diaqnostics of the main threats to agro-food industry and food safety. OYU Elmi və Pedaqoji xəbərləri, №58
7. M.M.Orucov. (2020) Milli iqtisadiyyatın müasir inkişaf modeli. OYU Elmi və Pedaqoji xəbərləri, №54


## FOREIGN EXPERIENCE OF STIMULATING THE DEVELOPMENT OF INNOVATION ACTIVITY IN AGRICULTURE

**S.R.Ibrahimova, M.M.Orucov**

## SUMMARY

This article focuses on studying foreign experience in stimulating the development of innovative activities in agriculture. An analysis of foreign experience in innovative activities in the agricultural sector is carried out.

# ЗАРУБЕЖНЫЙ ОПЫТ СТИМУЛИРОВАНИЯ РАЗВИТИЯ ИННОВАЦИОННОЙ ДЕЯТЕЛЬНОСТИ В СЕЛЬСКОМ ХОЗЯЙСТВЕ

**С.Р.Ибрагимова, М.М.Оруджов**

**РЕЗЮМЕ**

В статье изучается зарубежный опыт стимулированию развития инновационной деятельности в сельском хозяйстве. Проведен анализ зарубежного опыта инновационной деятельности в аграрном секторе.

*Məqalə redaksiyaya 1 aprel 2024 tarixində daxil olmuş, 5 aprel 2024 tarixində isə çapa qəbul olunmuşdur.*

**ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ**
**THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY**

**2024 - № 63**

UOT № 338.2

# STARTAPLARIN İNKİŞAF VƏ GENİŞLƏNMƏ DİNAMİKASININ TƏHLİLİ

**M.S.İsgəndərova**
Azərbaycan Dövlət İqtisad Universiteti
Bakı, İstiqlaliyyət küçəsi 6
e-mail: mina.iskanderova@gmail.com

***Açar sözlər:*** iqtisadiyyat, innovasiya, startap, risk, kiçik sahibkarlıq
***Keywords:*** economy, innovation, startup, risk, small business
***Ключевые слова:*** экономика, инновация, стартап, риск, малый бизнес

## Giriş

Beynəlxalq iqtisadi mühitdə baş verən müxtəlif istiqamətli dəyişikliklər və qlobal miqyasda iqtisadiyyatın rəqabətqabiliyyətlilik göstəricilərinin əvvəlki dövrlə müqayisədə əhəmiyyətli dərəcədə artması son illər sahibkarlıq fəaliyyətində müsbət istiqamətli meyillərin təminini, o cümlədən yenilikçi yanaşma əsasında istehsalın təşkil edilməsini şərtləndirir. Belə ki, müasir dünyada əvvəlki istehsal formaları ilə istehsal fəaliyyətini həyata keçirməyə niyyətli istehsalçılar yüksək rəqabət şərtləri daxilində daim bazar payı uğrunda mübarizə aparırlar. Bu hala təsir edən əsas amil, həmin istehsalçıların yaxın keyfiyyət və mənşə xüsusiyyəti ilə seçilən məhsullarının istehsalını reallaşdırmasından irəli gəlir. Belə olduğu halda istehsalçıların gələcək fəaliyyəti bazarda eyni qəbildən olan məhsullara olan tələblə müəyyən edilir. Digər tərəfdən, yeni növ istehsal texnologiyasının istehsalda istifadəsi halları yüksək maliyyə ehtiyatları tələb etdiyindən, yerli istehsal subyektləri bu fəaliyyətdən yetərincə istifadə etmək iqtidarında olmurlar. Bu isə özlüyündə yerli istehsalçıların yenilikçi və daha mütərəqqi istehsal yanaşması əsasında istehsallarının təşkilini zəruri edir.

## Startap təşəbbüslərinin formalaşması və inkişaf xüsusiyyətləri

Hazırda dünyada yeni növ istehsal yanaşması, daha yaradıcı istehsal düşüncəsi əsasında istehsalın qurulması və onun davam etdirilməsi genişlənməkdədir. İstehsalda bu cür yanaşmalar 1973-cü ildə iqtisadi mühitə daxil olan *(Biznes həftəsi jurnalında)* startap anlayışı ilə daha da aktuallaşdı. Yeni iqtisadi termin əslində ənənəvi istehsal hədəfi olan sahibkarlıq subyektlərindən tamamilə fərqlənirdi. Belə ki, kiçik sahibkarlıq subyektlərinin əsas məqsədi istehsal fəaliyyətinin nəticəsi olaraq müəyyən həcmdə mənfəət əldə etmək olsa da, startap təşəbbüslərinin əsas ideyası yaxın əvəzləyicisi olmayan bir məhsulun yaradılması və unikal məhsul satışından yüksək gəlir əldə etməkdir. Əlbəttə, yeni iqtisadi baxış tərzi investorlar üçün olduqca vacib üstünlüklər vəd etsə də, onun uğur qazanma faizinin az olması bəzi hallarda investorların bu istiqamətə yönəlmə meyllərinin azalmasına təsir edən əsas məqamlardan hesab edilir (Daniel, 2024). Startap təşəbbüsləri unikal məhsulun təklifini özündə ehtiva etdiyindən, bəzi hallarda bu yeni məhsul daxili bazarda müxtəlif səbəblərdən istehlakçılar tərəfindən lazımı səviyyədə mənimsənilərək tələb olunmur. Bu isə daxili bazarda sözügedən məhsul üzrə tələbin kəskin şəkildə azal-

masına və əksər hallarda startap təşəbbüsünün həyat dövrünün qısa vaxtda sonlanmasına səbəb olur. Dünyaca məhşur, mərkəzi San Fransisko şəhərində yerləşən Startup Genome şirkəti *(https://startupgenome.com/)* 2023-cü ilin ilk rübündə 80-dən çox uğursuzluğa uğramış startap müəllifləri, komandaları arasında apardığı sorğudan Diaqram 1-də qeyd edilən nəticələri əldə etmişdir.




**Diaqram 1.Startap təşəbbüslərinin uğursuzluğa uğramasının başlıca səbəblərinin faizlə bölgüsü (2023-cü ilin ilk rübü üzrə)** https://www.failory.com/blog/startup-failure-rate

Şirkətin əldə etdiyi nəticədən məlum olur ki, dünyada startap təşəbbüslərinin uğursuzluğa uğramasına təsir edən başlıca səbəb, istehsal edilmiş məhsula olan tələb ilə bağlıdır. Qeyd edək ki, startap məhsulu unikal olduğundan onun bəzi hallarda istehlakçılara tanıdılması o qədər də asan olmur. Bir öncəki, dövrlərdə tamamilə bu cür məhsuldan, xidmətdən istifadə edilməməsi və ya istehlak edilən bir formanın tamamilə yenilənərək yeni tərzdə, formada təklif edilməsi bəzən istehlakçılar tərəfindən birmənalı qarşılanmır. Bəzi hallarda istehlakçılar tərəfindən bu məhsuldan tamamilə imtina edilir, bəzi hallarda isə onun tanıdılması gündəlik istehlaka, tələbə daxil edilməsi uzun vaxt, peşəkar marketinq bacarıqları fəaliyyəti və yüksək investisiya, maliyyə xərcləri tələb edir (Jackson, 2011). Odur ki, əksər hallarda startap təşəbbüskarları göstərilən səbəblərdən hər hansısa birindən irəli gələrək layihənin uğurluluğunu təmin edə bilmir. İkinci uğursuzluq səbəbi marketinq fəaliyyətinin səmərəli təşkil edilməməsindən irəli gəlir. Bu hal ümumi uğursuzluq hallarının təqribən 22%-ni əhatə edir. Məhsulun tanıdılması və onun faydalılıq xüsusiyyətləri barədə yetərli informasiyanın istehlakçılara çatdırılması olduqca vacibdir. Bu hal, məhsul və xidmətlər satışının demək olar ki, ən vacib amilidir. Onun peşəkar səviyyədə yerinə yetirilməsi satışın kəmiyyətinə olduqca müsbət təsir edir və gəlirliliyi artan startap təşəbbüsünün uğurlu nəticə alması faizi yüksəlir. Üçüncü uğursuzluq amili kimi ayırd edilən hal, komanda problemidir. Bu çətinlik adətən təşəbbüskarlıq fəaliyyətinin təşkili zamanı iştirakçı tərəflər arasında olan fikir ayrılığından irəli gəlir. Bəzi hallarda startap komandasının üzvlərinin müəyyən məsələlərdə fikirlərinin eyniyyət təşkil etməməsi işin səmərəliliyini, bəzən isə ümumiyyətlə davam etdirilməsini, uğurlu nəticə verməsini sual altında qoyur. Bu risk xüsusilə startap təşəbbüslərinin uzunmüddətli dövrdə

səmərə verməsi ilə əlaqələndirilir. Startap təşəbbüslərinin reallaşdırılması hər nə qədər uzun müddəti əhatə etsə, onun səmərəlilik, uğurluluq göstəricisi bir o qədər aşağı düşür.

Digər tərəfdən, təşəbbüslərin üzləşdiyi ən aktual məsələlərdən bir başqası maliyyə təminatı ilə bağlıdır. Təşəbbüskarlar tərəfindən startapların reallaşdırılması zamanı müxtəlif məsələlər üzrə maliyyə öhdəlikləri qarşılanıla bilmədikdə, layihələrin həm icra müddəti, həm də effektivliyi azalır (Jeremy, 2022).

### Startap təşəbbüslərinin maliyyələşmə mənbələri

Hazırda İnkişaf Etmiş Sənaye Ölkələrində startapları maliyyələşdirən o cümlədən müxtəlif məsələlər üzrə dəstəkləyən akselerasiya mərkəzlərinin sayı artırılmaqdadır. Akselerasiya mərkəzləri startap təşəbbüslərinin təkcə maliyyə məsələləri üzrə üzləşdikləri çətinliklərin həllinə deyil, layihəinin icra müddətini ləngidən bir çox məsələlərin aradan qaldırılmasına imkan verdiyindən bu mərkəzlər, həm startap yaradıcılarının həm də maraqlı tərəflərin hər birinin iqtisadi maraqlarını təmin edir (Isenberg, 2008). Hazırda dünyada geniş formada startap təşəbbüslərini dəstəkləyən akselerasiya mərkəzləri sırasında Diaqram 2-də adları qeyd edilən mərkəzlər ön sırada qərarlaşır. Görünən odur ki, dünyada ən çox startap təşəbbüslərini himayə edən, onların fəaliyyətinə dəstək verən, işlərin sürətləndirilməsini təşviq edən akselerasiya mərkəzi, 2005-ci ilin 1 mart tarixində ABŞ-nın Massaçusets ştatının Kembric şəhərində təsis edilən Y Combinatoru hesab edilir. Hazırda mərkəz dünyanın fərqli yerlərindən olan ümumilikdə 4469 startap təşəbbüsünün maliyyələşdirilməsinə, fəaliyyətinin sürətləndirilməsinə dəstək verir. Paul Graham, Jessica Livingston və Robert Morrisinin təsisçisi olduğu mərkəz, həmçinin startap təşəbbüslərinin çatışmayan cəhətlərinin qiymətləndirilməsini apararaq onların üzləşdikləri müxtəlif problemlərin həlli istiqamətində həm konsaltinq xidməti təklif edir, həm də maliyyə, texniki, hüquqi sahədə dəstək verir. Onların maliyyə kanallarına, maraqlı tərəflərə çıxışına köməklik göstərir.




**Diaqram 2. Dünyada startap təşəbbüslərinin dəstəklənməsi və malliyyələşdirilməsində fərqlənən əsas akselerasiya mərkəzləri üzrə startapların sayı, ədədlə (2023-cü ilin I rübü üzrə)** [https://www.failory.com/blog/startup-accelerators](https://www.failory.com/blog/startup-accelerators)

Diaqram 2-də startap təşəbbüslərini maliyyələşdirən ikinci böyük akselerasiya mərkəzi 2006-cı ildə ABŞ-nın Kolorado ştatında yaradılan hazırda 4116 startap təşəbbüsünə

dəstək ifadə edən, 54 proqram ilə 14 fərqli ölkədə təmsil olunan minlərlə investorla əməkdaşlıq edən TechStarsdır. Hazırda sözügedən akselerasiya mərkəzinə 9 mindən çox təsisçi, 4 mindən çox mentor və 300-dən çox kooperativ əməkdaşlıq subyekti daxildir. Akselerator mərkəzləri qısamüddətli dövrdə təşkil edilən bir proqram mərkəzi kimi çıxış edir. Mərkəzin əsas fəaliyyətlərindən biri burada fəaliyyətin son nəticəsinin təqdim edilməsi gününün təşkil edilməsi ilə bağlıdır. İqtisadi ədəbiyyatlardan Demo Günü *(Daf of Demo)* kimi tanınan bu vaxt, həm də yüzlərlə startap təşəbbüslərinin təqdimat günü kimi xarakterizə edilə bilər. Həmin gün bəzən minlərlə investor, maraqlı tərəflər tədbirə dəvət edilir ki, bu da layihənin maliyyələşdirilməsi sahəsində maraqlı tərəflərin müəyyən edilməsinə geniş imkanlar yaradır. ABŞ-dan sonra dayanıqlı və mütərəqqi ikişafı ilə seçilən ÇXR-da ilk akselerator mərkəzi, *Chinaccelerator* 2009-cu ildə Şanxay şəhərində təsis edilmişdir.

Mərkəzin yaradılmasında məqsəd startap ekosisteminin səmərəli təşkili ilə bağlıdır. Startap ekosisteminin əsas elementlərinə sahibkarlıq üçün yaradılmış sağlam rəqabət mühiti, mentorluq, komandanın bilik və bacarıqları, şəbəkə sisteminin təşkili və inkubasiya mərkəzləri, başqa sözlə müxtəlif istiqamətlər üzrə dəstək verən qurum və təşkilatlar daxildir (Desk, 2021).

Startap təşəbbüslərinin akseleratorlara müraciətinin mütləq əksəriyyəti məhz maliyyələşmə məsələləri ilə bağlıdır. Lakin, beynəlxalq iqtisadi göstəricilərdə tanınmış akselarator mərkəzlərinə edilən müraciətlərin təqribən 1-3%-i səmərəli hesab edilərək müsbət qarşılanır. Bu hal bizə akselerator mərkəzlərinə edilən müraciətlərin çoxluğu və rəqabətqabiliyyətliliyin yüksək olduğu haqda fikirlər verir. Bu barədə ABŞ mərkəzli akselerator şirkəti olan NFX şirkətinin əsas meyarlarına diqqət edərkən aydın olur ki, qeyri-adi ideyaların dəstəkləndiyi və təkcə yüksək bazar dəyəri yaradan deyil, eyni zamanda fərqli yanaşma və unikal yeniliklər vəd edən şirkətlərin qurulmasının hədəfdə olduğu müəyyən edilir. Qeyd edək ki, həmin şirkət hazırda dünya üzrə dəyəri 10 milyard dollardan çox olan 10-dan çox şirkətin yaradıcısı kimi tanınır. Bu cür çox milyardlı şirkətlərin son illər təsis edilməsi sahəsində fəaliyyətlərə diqqət edərkən aydın olur ki, müxtəlif akselerator mərkəzləri həmin şirkətlərin layihə şəklində formalaşmasında vacib rol oynamışdır.

### Yüksək bazar dəyərinə malik startap təşəbbüsləri və onların mənşə ölkələri

Dünya təcrübəsini nəzərdən keçirdikdə dayanıqlı startap təşəbbüslərinin təşkili zamanı nəzərə alınan vacib parametrlər içərisində koordinasiya əlaqələrinin yaxşı təşkili, effektiv komanda işi, məsuliyyət və yüksək maliyyə təminatının dayandığını aşkar etmək mümkündür (Emerging humanity, 2023). Diaqram 3-də dəyəri bir milyard dollardan çox olan ən böyük startap təşəbbüslərinin adlarına yer verilmişdir.

İlk sırada 13 mart 2012-ci il tarixində Zhang Yiming tərəfindən ÇXR-da yaradılan, dünya üzrə hazırda ən yüksək bazar dəyərinə malik startap təşəbbüsü Byte Dance qərarlaşır. Proqram təminatı üzrə ixtisaslaşan şirkətin 2022-ci ildə ki illik gəliri 85.2 mlrd dollar həcmində olmuşdur. Şirkətin əsas məhsulları sırasında Toutiao (informaiya palatforması), TikTok (video formatlı sosial şəbəkə), CapCut (video faylların redaktəsi üzrə proqram təminatı), Lark, Douyin Baike (ÇXR-da fəaliyyəti nəzərdə tutulan sosial şəbəkə) və s. vardır. Hazırda dünya üzrə 150 mindən çox işçisi olan şirkətin ən geniş yayılmış tətbiqi hesab edilən TikTok sosial multimedia tətbiqinin iki milyarddan çox istifadəçisi var və dünya üzrə 40-dan çox dildə proqramı əldə etmək imkanı mövcuddur.

Dünya bazar dəyərinə görə ikinci ən yüksək bazar dəyəri ilə seçilən 2022-ci ilin 14 mart tarixində ABŞ-nın Kaliforniya əyalətində təsisçi Elon Musk tərəfindən əsası qoyulan şirkətin hazırda aktiv işçi sayı 13 mindən bir qədər yüksəkdir. Şirkətin məhsulları sırasında müxtəlif elektrik avtomobil vasitələri (tesla məhsulları), peyklər (starlink), kapsullar (Beynəlxalq Kosmik Stansiyaya çatmağa imkan verən) yer alır. Şirkətə bağlı olan Tesla elektrik avtonəqliyyat şirkətinin hazırkı işçi sayı 140.5 min nəfər, 2023-cü ildəki illik gəliri isə 96.8 milyard dollardan yüksək olmuşdur. Startap təşəbbüsünün parlaq nümunəsi kimi seçilən şirkətin əsas ideyası, daha təmiz ətraf mühit və daha səmərəli elmi-tədqiqat üçün əlverişli mühitin yaradılması ilə xarakterizə edilir. 2008-ci ilin oktyabr ayında ÇXR Nanjing vilayətində Chris Xu tərəfindən təsis edilən Shein şirkətinin əsas fəaliyyət istiqaməti, elektron satış portalları vasitəsilə müxtəlif geyim, tekstil məhsullarının satışının təşkili ilə əlaqəlidir. 2022-ci ildə şirkətin ümumi gəliri 24 milyard dollardan yüksək olmuşdur. Bu göstərici məhşur Zara və H&M brendlərinin illik gəlirinə yaxın göstəricidir. Hazırda ÇXR-da müxtəlif elektron satış platformalarının koordinasiyasını və vahid mərkəzdən idarə edilməsi üzrə layihələri icara edən şirkət həm də tekstil sənayesinə investisiya etməklə fəaliyyətini genişləndirməkdədir.




**Diaqram 3. Yüksək bazar dəyərinə malik unicorn startap təşəbbüsləri və onların mənşə ölkələri, milyard dollarla (2023-cü ilin ilk rübü üzrə)**
*https://www.statista.com/statistics/407888/ranking-of-highest-valued-startup-companies-worldwide/*

Yüksək bazar dəyəri ilə tanınan digər bir startap təşəbbüsü BƏƏ-nə məxsus Telegram şirkəti hesab edilir. 14 avqust 2013-cü il tarixində N.P.Durov tərəfindən yaradılan şirkətin hazırda 66-dan çox ölkədə, o cümlədən 12 fərqli dildə müxtəlif tətbiqlərini əldə etmək mümkündür. İnformasiya, xəbərlər xidmətlərini təklif edən şirkətin 2023-cü ilin avqust ayına olan məlumata əsasən aktiv istifadəçilərinin sayı 800 milyon nəfərdən çoxdur. Qeyd edək ki, 30 milyard dollarlıq bazar dəyərinə malik şirkətin əsas gəlir mənbəyi informasiya netvörkinqi və reklam fəaliyyətindəndir.

Dünyada qlobal güclər tərəfindən bu sahədə fəaliyyətin genişləndirilməsi, daha çox bazar payının əldə edilməsi hesabına gəlirliliyin yüksəldilməsi məqsədilə, müxtəlif ölkələr tərəfindən startap təşəbbüslərinin sayının fasiləsiz artırıldığını görmək mümkündür. Odur ki, Diaqram 4-də startap təşəbbüslərini daha çox maliyyələşdirən ölkələrə yer verilmişdir.

Diaqramın təhlilinə keçməzdən öncə qeyd edək ki, informasiya natamamlığına görə hazırda ÇXR-da olan aktiv startap təşəbbüslərinin sayının müəyyən edilməsində çətinlik vardır. Bu məqsədlə diaqramda ÇXR istisna olmaqla, dünyada əsas startap təşəbbüslərinin sayına yer verilmişdir. Diaqramdan görünür ki, hazırda ABŞ siyahıda əks olunan ölkələr sırasında ən yüksək sayda startap təşəbbüsünü maliyyələşdirən ölkə hesab edilir. ABŞ 2023-cü ilin ilk rübünə olan rəsmi məlumatlara əsasən 72 min 561 startap təşəbbüsünü maliyyələşdirir. Sonrakı sırada, daha çox startap təşəbbüsünə sahib olan ölkə Hindistan hesab edilir. Hazırda bu ölkədə maliyyələşdirilən startap təşəbbüslərinin ümumi sayı 13 min 905-dir.

Diaqram 4-də qeyd edilən startaplara dəstək verən, maliyyələşdirən ölkələrin hər birinin innovasiyalı iqtisadi inkişafı hədəf istiqamət kimi müəyyən edən ölkələr olduğu aydınlaşır. Xüsusilə Birləşmiş Krallıq, Kanada, Almaniya, Fransa kimi ölkələrin hər biri bu sahədə fəaliyyətin təşkil edilməsində çoxsaylı investisiya layihələri, maliyyələşmə mərkəzlərinin fəaliyyətini təşkil edirlər (Veronika, 2023). Son illər alternativ enerji sahəsində yönəldilən investisiyaların, layihələrin mütləq əksəriyyətini reallaşdıran ölkələr sırasında qeyd edilən ölkələrin olması məlumdur.




**Diaqram 4. ÇXR istisna olmaqla dünyada maliyyələşdirən startap təşəbbüslərinin sayına görə (ədədlə) ölkələrin sıralaması (2023-cü ilin ilk rübü üzrə)**
*https://www.demandsage.com/startup*, *Top Tech Startups*

Kuckertz startap təşəbbüslərinin sayının illər üzrə dəyişməsini nəzərdən keçirərək pandemiya və ondan sonrakı dövrdə daha yüksək artım olduğunu müəyyənləşdirmişdir. Bunu isə pandemiya dövründə müxtəlif sahələrdə risk amilinin artmasının həmin sahələrdə qarşıya çıxan problemlərin həllinə nail olmaqdan ötrü daha mütərəqqi və yaradıcı yanaşmalardan istifadənin vacib şərtə çevrilməsi ilə izah etmişdir. Nəticədə bu hal startap təşəbbüslərinin sayının daha çox artmasına səbəb olmuşdur (Kuckertz, 2000).

### Azərbaycanda startap təşəbbüslərinin inkişaf dinamikası

Xarici ölkələrdə mövcud vəziyyətin və bu sahədə startap təşəbbüslərinin genişlənmə dinamikasına müəyyən qədər nəzər saldıqdan sonra, ölkəmizdə startap təşəbbüslərinin reallaşdırılması və bu sahədə rəqabət mühitinin təmin edilməsi, qiymətləndirilməsi üzrə hazırkı vəziyyətə diqqətin artırılmasına ehtiyac vardır. Çünki startaplar həm elmə, həm də

biznesə marağın artırılmasında transformativ rol oynayır (Qasımlı, 2023). Bu məqsədlə startapların ölkəmizdə regional bölgüsünə diqqət yetirdikdə əsasən Bakı şəhərindən təqdim edildiyi aydın olur. Satartap təşəbbüslərinin iqtisadi rayonlar üzrə bölgüsü bizə həmin rayonların inkişaf səviyyələri arasında kəskin fərqlərin olduğu haqqında ilkin məlumat versə də, əslində bu cür fərqin ali təhsil və elmi-tədqiqat mərkəzlərinin böyük əksəriyyətinin paytaxtda yerləşməsinin də rolu böyükdür. Fərqin bu qədər əhəmiyyətli olmasına təsir edən digər bir hal, əsas istehsal müəssisələrinin məhz sənaye mərkəzi hesab etdiyimiz Bakı və ona yaxın ərazilərdə yerləşməsi ilə izah edilə bilər.

Ümumi startap təşəbbüslərinin 3.3%-i Gəncə, qalan 8.2%-i isə digər regionlardan təqdim edilmişdir. Gələcəkdə bu sahədə fəaliyyətlərin uzlaşdırılması, balanslaşdırılması, regionlarda yerləşən elmi-tədqiqat müəssisələrinin də təşəbbüslər irəli sürməsi məqsədilə müxtəlif təşviqedici, məlumatlandırıcı (əyani və qiyabi formada) təlimlərin keçirildiyi bilinməkdədir. Startapların inkişaf dinamikasına diqqət yetirdikdə ölkəmizdə son illər bu sahəyə marağın artdığını görmək mümkündür.

Diaqram 5-də son illər təqdim edilən təşəbbüslərin sayının necə dəyişdiyi öz əksini tapmışdır. Kifayət qədər yeni istiqamət olan bu sahədə 2020-ci ilədək cəmi 4 startap təşəbbüsü mövcud olsa da, 2020-ci ildə 8 təşəbbüs, sonrakı bir ildə təlimatlandırılma və bu sahənin üstünlüklərinin aşılanması üzrə təlimlərin aparılması nəticəsi olaraq 23 təşəbbüs, 2022-ci ildə isə daha 26 startap təşəbbüsü təqdim edilmişdir.

Azərbaycanda 2022-ci ilədək qeydə alınmış startap təşəbbüslərinin 88,5%-i (54) Bakı şəhərinin, 3,3%-i (2) Gəncə şəhərinin, 8,2%-i (5) digər bölgələrin payına düşmüşdür (Startap Ekosistem Xəritəsi, 2024).

Bununla da ölkəmizdə hazırda 61 startap təşəbbüsünün mövcud olduğu müəyyənləşmişdir. Ölkədə 2025-ci ilədək hər il 50 startap təşəbbüsünün irəli sürülməsi və ilk unicornun yaradılması əsas istiqamət kimi müəyyən edilmişdir. Hazırda yüksək bazar dəyərinə malik startapların yaradılması məqsədilə ölkəmizdə "Azərbaycan 500 ASAN" proqramı çərçivəsində müxtəlif startap təşəbbüslərinin qiymətləndirilməsi, onlardan daha uğurlu olanlarının maliyyələşdirilməsi və digər dəstəklərin göstərilməsinə başlanılmışdır. 14 oktyabr 2021-ci il tarixində Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin və PAŞA Holdinqin təşkilatçılığı ilə "Rihand", "Talant.az", "E-Book platform" "QMS" "Tinyworks", "Uniquality", "Medicall", "Skaut", "Taskilled" və "ReTripStore" təşəbbüslərinin ilkin prototipləri qiymətləndirilərək hər birinə sertifikatlar təqdim edilməsi buna əyani misaldır. Bu hal bizə son illər satartapların miqyasının genişləndirilməsi məqsədilə dövlət dəstəyinin artmasını göstərir.

Startapların illər üzrə saylarının müəyyən dərəcədə artması onların sahələr üzrə bölgüsünü təhlil etməyi zəruri edir. Təqdim edilən startapların hansı sahələr üzrə verilməsi çox önəmlidir. Çünki müəyyən sahələr var ki, həmin sahələrin qlobal aləmdə baş verən dəyişikliklərə çevik uyğunlaşması olduqca əhəmiyyətlidir. Xüsusilə bank və maliyyə sahəsində müxtəlif xidmətlərin elektronlaşdırılaraq asanlaşdırılması, xidmətdən istifadə edən hər kəsə bundan yararlanmaq üstünlüyü verir.




**Diaqram 5. İllər üzrə təqdim edilən startap təşəbbüslərinin sayı**
https://tech.az/az/posts/azerbaycan-startap-ekosistem-xeritesi-2022-2423

Təqdim edilən startap təşəbbüslərinin bölgüsünə nəzər saldıqda həmin təşəbbüslərin 17-nin digər sahələr, 8-nin bankçılıq, 7-nin təhsil, 6-nın elektron ticarət üzrə təqdim edildiyini müəyyən etmək olur. İndiyədək təqdim edilən startaplardan 4-ü turizm, 3-ü aqrar sektor, 3-ü oyun və proqramlaşdırma sahəsində olmuşdur (Startap Ekosistem Xəritəsi, 2024). Təqdim edilən startap təşəbüslərinin fəaliyyət istiqamətinə baxdıqda aydın olur ki, son illər elektron xidmətlərdən istifadə səviyyəsinin artması bu sahələrin hər birində müəyyən dərəcədə proqram təminatının üstünlüklərindən yararlanılmasına imkan vermişdir.

Təşəbbüslərin əsas hissəsini elektron bank xidmətlərinin yaradılması, təhsil və elektron ticarət platformalarının qurulması buna əyani misaldır. Ölkəmizdə bu praktika özünü ASAN-xidmət mərkəzlərinin yaradılmasında, Elektron Kənd Təsərrüfatı platformasının təşkilində doğrultmuşdur. Xidmətlərin elektronlaşdırılması həm istifadəçilərin, həm də dövlətin iqtisadi maraqlarını təmin etdiyindən bu sahələrdə startap təşəbbüslərinin genişləndirilməsi olduqca vacibdir.

Ölkəmizdə satartap təşəbbüslərinin maliyyələşmə məsələsi önəmli parametr olduğundan, burada maliyyələşdirən qurumların və təşkilatların adlarının ayırd edilməsi məqsədilə Diaqram 6-da həmin təşkilatların adlarına yer verilmişdir. Buna əsasən, 2022-ci ildə ilk yerdə Sabah.lab akselerasiya mərkəzi dayanmışdır. 2022-ci ildə ölkədə təqdim edilən startap təşəbbüslərinin maliyyələşməsində sərf edilən vəsaitlərin təqribən 25.37%-i məhz Sabah.lab tərəfindən qarşılanmışdır. Mərkəz 2021-ci ilin noyabr ayında Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən yaradılıb. Əsas məqsədi startap ekosistemində rəqabət mühitinin yaradılması və təqdim edilən startap təşəbbüslərinin səmərəliliyinin artırılması, üzləşilən müxtəlif çətinliklər üzrə dəstək göstərməkdir. 2022-ci ilin aprel ayının 21-də keçirilən "Demo Day" tədbirində artıq 21 iştrakçı komandanın təqdim etdiyi layihədən, 18-nin ilkin investisiya ilə təminatını reallaşdırmışdır. Tədbirdə ümumilikdə 80-dən çox yerli və xarici investor dəvət edilmişdir. Sabah.lab fəaliyyətini genişləndirmək və sahibkarların bu sahədə bilik və bacarıqlarını artırması məqsədilə müxtəlif adda: "SABAH.incubation", "SABAH.academy" layihələrini təqdim edir.

Startap təşəbbüslərinə maliyyə dəstəyi verən, 2022-ci ildə ümumi maliyyələşmənin təqribən 20.9%-ni həyata keçirən məkəz İnnoland İnkubasiya və Akselerasiya mərkəzi ol-

muşdur. Sonrakı yerlərdə KOBİA (14.93%), İnnovasiyalar və Rəqəmsal İnkişaf Agentliyi (10.45%), ABB (5.97%) və UNDP (5.96%) olmuşdur. Ölkə üzrə 2022-ci ildə startap ekosisteminə cəlb edilən 4670435 manatın, 836910 manatı (17.9%-i) təsisatçıların şəxsi vəsaitləri hesabına, geridə qalan 3833525 manatı (82.1%-i) isə alınan investisiyalar hesabına reallaşdırılmışdır (10).




**Diaqram 6. Startap təşəbbüslərinə daha çox maliyyə dəstəyi verən qurum və təşkilatların bölgüsü (2022-ci il üzrə)** https://tech.az/az/posts/azerbaycan-startap-ekosistem-xeritesi-2022-2423

Startap təşəbbüsləri üçün ayrılan maliyyə vəsaitlərinin kəmiyyətinin müəyyən dərəcədə azlığı diqqət çəkir və onun gələcəkdə artırılması və maliyyə dəstəyi ifadə edən yeni bir akselerasiya mərkəzinin yaradılması olduqca əhəmiyyətlidir. Hazırda ölkəmizdə startap təşəbbüslərinin sayının artırılması və onların ilkin başlanğıc üçün maliyyə əlyetərliliyinin təmin edilməsi baxımından dövlət siyasəti reallaşdırılmaqdadır. Ancaq sonrakı mərhələdə təşəbbüsün fəaliyyətinin uğurlu nəticələnməsinin təmin edilməsi məqsədilə maliyyə, texniki, kordinasiya, hüquqi dəstəklərin ifadə olunması dövlətin innovasiyalı inkişaf siyasətinin əsas tərəfi kimi müəyyən edilməlidir.

## Nəticə

Əslində dünyaca məşhur startap təşəbbüslərinin bazar payına və onların fəaliyyət istiqamətinə diqqət yetirdikdə bu fəaliyyətlərin bir öncəki dövrdə ya mövcud olmadığı, ya da əvvəlki təqdimetmə formasında tamamilə fərqləndiyi aşkara çıxır. Digər tərəfdən startap təşəbbüslərinin mənşə ölkələri sırasında ÇXR və ABŞ-nın rolunun ön planda olduğu müəyyən edilir. Odur ki, tədqiqatın yerinə yetirilməsindən belə nəticəyə gəlmək olar ki, ölkəmizdə gələcəkdə startap təşəbbüslərinin sayının, o cümlədən çoxşaxəliliyinin təmin edilməsi məqsədilə xarici ölkələrin, xüsusilə adları qeyd edilən ölkələrin təcrübəsindən yararlanılmasına ehtiyac duyulur. Digər tərəfdən ölkəmizin qeyri-neft sektorunun inkişaf etdirilməsinin prioritet istiqamət kimi müəyyən edilməsi, gələcəkdə təqdim edilən layihələrin məhz bu sahələri əhatə etməsi arzuolunandır. Bundan başqa, ölkəmizdə startap təşəbbüslərinin yaradılması və fəaliyyətinin optimal təşkili, tənzimlənilməsi məqsədilə yeni növ qanunvericilik aktlarının işlənilib hazırlanılmasına ehtiyac duyulur. Sonuncu tədqiqatın nəticəsi göstərdi ki, ölkəmizdə startap təşəbbüslərinin reallaşdırılması məqsədilə ayrılan vəsaitlərin kəmiyyəti əhəmiyyətli dərəcədə azdır. Odur

ki, yeni növ maliyyələşmə mənbələrinin təşkili və icrası, o cümlədən işlərin aparılmasına nəzarətin təşkili üzrə məsul təşkilatın yaradılması məqsədəuyğundur.

**Ədəbiyyat**

1. Daniel R. (2024) How Startups Fail & Why? https://www.demandsage.com/startup-failure-rate/
2. Desk D. (2021) What are the important elements of the startup ecosystem? https://dutchuncles.in/discover/what-are-the-important-elements-of-the-startup-cosystem/
3. Emerging humanity. (2023) How to build strong startup ecosystems. https://emerginghumanity.com/learn-build-strong-startup-ecosystems#top
4. Isenberg D. (2008) The Global Entrepreneur, Harvard Business Review, https://hbr.org/2008/12/the-global-entrepreneur
5. Jackson D. (2011) What is an Innovation Ecosystem? National Science Foundation, Arlington
6. Jeremy J. (2022) How startups drive economic recovery while growing responsibly. World Economic Forum, https://www.weforum.org/agenda/2022/05/how-startups-help-drive-economic-recovery-and-growth/
7. Kuckertz A. (2020) Startups in times of crisis–A rapid response to the COVID-19 pandemic //Journal of Business Venturing Insights, https://www.sciencedirect.com/science/article/pii/S2352673420300251
8. Qasımlı V. (2023) İnnovasiya və sahibkarlıq: Startap ekosistemi. 285 s.
9. Veronika T. (2023) Startups and Global Startup Ecosystems, European Forum of Entrepreneurship, 261-273 p. https://www.researchgate.net/publication/373013850_Startups_and_Global_Startup_Ecosystems
10. https://enterpriseazerbaijan.gov.az/project/category/5-ideyalar 12.01.2024
11. https://tech.az/az/posts/azerbaycan-startap-ekosistem-xeritesi-2022-2423 16.02.2024
12.https://www.statista.com/statistics/407888/ranking-of-highest-valued-startup-companies-worldwide/ 05.02.2024

## ANALYSIS OF THE DYNAMICS OF DEVELOPMENT AND EXPANSION OF STARTUPS

**M.S.Iskanderova**

**SUMMARY**

This article stresses the importance of the formation of startup initiatives and the factors that negatively affect their development. The current state of startup initiatives in Azerbaijan is analyzed and the shortcomings are revealed.

## АНАЛИЗ ДИНАМИКИ РАЗВИТИЯ И РАСШИРЕНИЯ СТАРТАПОВ

**М.С.Искандерова**

**РЕЗЮМЕ**

В статье отмечается важность формирования стартап-инициатив и факторов, негативно влияющих на их развитие. Проведен анализ текущего состояния стартап-инициатив в Азербайджане и выявлены недостатки.

*Məqalə redaksiyaya 1 aprel 2024 tarixində daxil olmuş, 5 aprel 2024 tarixində isə çapa qəbul olunmuşdur.*

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

**2024 - № 63**

UOT № 339.97

# THEORETICAL AND METHODOLOGICAL ASPECTS CHARACTERIZING INNOVATIVE DEVELOPMENT OF AGRICULTURAL INDUSTRY

**M.M.Orucov, E.E.Kasimov**
Odlar Yurdu University
13 Koroglu Rahimov St., Baku
e-mail: elkhan.kasimov@hotmail.com

***Açar sözlər:*** innovasiya, idarəetmə, aqrar-sənaye kompleksi
***Keywords:*** innovation, management, agro-industrial complex
***Ключевые слова:*** инновация, менеджмент, агропромышленный комплекс

The current state of the economy requires not only the presence of innovations in production and other areas of activity, but also the presence of economic and (or) other effects from their implementation. Thus, innovation should be viewed from the perspective of its effectiveness. Based on this, we propose to introduce the concept of "effective innovation" (having an effect).

"Effective innovation" should be understood as qualitatively new knowledge introduced into the activities of an enterprise (person, region, industry, state) and bringing a lasting positive effect.

The need for innovative development always arises at the stage of decreasing efficiency of the economic system or when the possibility of such a decrease arises. The functioning of any economic system is a sinusoid - the highest points of which characterize the peaks of development, the lower points - its recessions. An economic system can experience such fluctuations an infinite number of times with a certain frequency. The depth of the fall and the peaks of the rise may vary depending on the actions taken by the economic entity. When an economic entity has exhausted the available traditional mechanisms for increasing its efficiency, as a rule, mechanisms of innovative development begin to turn on. In the phase of increasing operational efficiency, the economic system does not experience the need for innovative development and its mechanisms, which leads to a decrease in the degree of innovative development. In the phase of declining efficiency of economic systems, there is an increase in demand for mechanisms of innovative development, which leads to its rapid growth. Thus, a necessary condition for the existence of innovative development is the presence of phases of decline and crises in the functioning of economic systems. On the other hand, for a number of economic systems, a characteristic feature of the beginning of development is the presence of mechanisms for innovative development. In this case, the initial phase of growth in the functioning of the economic system coincides with the growth phase of innovative development. Subsequently, the sinusoids of functioning and development diverge again, as the economic system loses interest in innovative development at the peak of the growth phase.

Innovative development requires an appropriate operating environment, which is a set of some elements of the external and internal environment of the economic system, en-

suring its effective and sustainable development. It assumes the presence of the following structural elements:
- initiative (stimulating) component – innovative development requires a request for innovation;
- materializing component - includes the entire set of implementation of innovations;
- the resulting component is obtaining the effect of innovation.

The initiative component requires a request for innovation from external users. This request can be received by the contractor only through information flow systems. After a request for innovation is received, it is analyzed and conclusions are drawn about the feasibility of its implementation.

As soon as the decision on the feasibility of implementing the request is made, the second phase of innovative development begins - materialization. This phase is more complex and requires more resources. First of all, it is necessary to have a technological, production and resource component. In turn, for the technological component it is necessary:
- constantly developing agricultural science - the effective functioning of the economic system can only be carried out if there is scientific potential;
- educational component - for the development of science, high-quality education and support for young talents in the field of scientific knowledge are necessary;
- demographic component - quality education must be accessible to the majority of the population, while maintaining a balance between birth and death rates;
- economic and social security of the population - to improve the quality and quantity of the demographic component, it is necessary to create living conditions.

The production component includes:
- development of production technologies - to produce high-quality innovative products it is necessary to use modern technologies, the basis for which will be technological component;
- personnel component - the economic system must be provided with high-quality personnel;
- resource component - for the functioning of the economic system, it uses appropriate material resources, including production capacities;

The implementing component implies the presence of:
- information component - to increase sales volumes, information support for product release is necessary, including through the advertising system;
- surviving component - for the effective functioning of the economic system it is necessary to maintain the system in working order;
- psychological component - for the effective functioning of innovative development, it is necessary to accept innovations by the majority of the population.

The third phase of innovative development involves recording the economic and social effect. It should be understood that the final consumers of the result of innovative development should be the population of the country, and not specific individuals.

At the same time, the theory of innovative development requires the presence of a special methodology - the methodology of innovative development, which should be understood as a systematized set of various approaches and methods for achieving the goal of developing science and (or) practical activity based on effective innovation, systematized on the principles of dialectics.

Azerbaijan uses a model of innovative development, which is characterized by the use of advanced experience of the leading countries of the world, borrowing technologies, and low costs for innovative developments. At the same time, in the current conditions, the Azerbaijani economy cannot remain dependent on foreign “know-how” and must take appropriate actions to transfer the domestic economy to safer models. There are several developed models of innovative development of Azerbaijan. IN in particular, B.N. Kuzyk believes that “it is necessary to create a system of long-term forecasting, strategic planning and national programming.” The bases of this model are:

1. long-term forecasts until 2030;
2. development of national projects;
3. partnership between science, government, education and business;
4. re-equipment of production;
5. concentration of human, financial and material resources;
6. use of breakthrough technologies of the sixth technological order.

A generalized model of innovative development in Azerbaijan is presented in the Strategy for Innovative Development of the Azerbaijan Republic until 2026, approved by decree. This Strategy is based on the provisions of the Concept of long-term socio-economic development of the Azerbaijan Republic for the period until 2026.

For the agricultural sector of the country's economy, the model of innovative development of the agro-industrial complex is presented in the draft Strategy for Innovative Development of the Agro-Industrial Complex Azerbaijan Republic for the period until 2026

According to the Strategy, the transition to innovative development will provide a new quality of economic growth in the agro-industrial complex: production should increase not so much due to quantitative increase in the resources involved, how much by increasing their productivity and efficiency. On the one hand, innovative development will become the main source of production growth through increasing the productivity of all production factors and increasing investment activity. On the other hand, this type of production growth will free up additional resources and will expand opportunities for the development of new products and technologies, increase investments in human capital (primarily in education and basic science), in support of innovation, which will lead to an increased impact of the multiplier effect on rates of innovative development and rates of economic growth.

To give agro-industrial production the specified vector of development, it is necessary to solve the systemic problem of innovative development of the agro-industrial complex - insufficient development institutional environment for the development, implementation and large-scale use of innovations, which constrains the growth of efficiency, competitiveness of agricultural production, and the rate of its sustainable innovative growth. The purpose and objectives of the Strategy for Innovative Development of the Agro-Industrial Complex are aimed at resolving the main contradiction contained in the systemic problem between the need of society for sustainable innovative growth of agro-industrial production and the limited opportunities for such growth due to the insufficient development of organizational and legal institutions and mechanisms for large-scale introduction and use of innovations in the agricultural sector of the economy.

**Objectives of the Strategy are:**

1. Transformation of human capital into the main factor in the formation and development of an innovative economy and knowledge economy in the agro-industrial complex, restoration and reproduction of human capital in the agro-industrial complex on a qualitatively new basis, building up human potential in the field of science, education, technology and innovation.
2. Ensuring technological modernization and technical re-equipment of the main sectors of the economy in the agro-industrial complex, based on increasing the innovative activity of business and the active innovation policy of the state.
3. Formation of a balanced, sustainably developing research and development sector, ensuring expanded reproduction of knowledge, competitive in the world market. This requires the creation of a highly effective scientific and innovative institutional environment and an effective infrastructure for innovative development, ensuring the commercialization of scientific research results, the formation of effective economic mechanisms for motivating and stimulating scientific and innovative activities in the agro-industrial complex.
4. Creation of conditions for the accelerated development of the research sector, providing a system of reliable control over the safety and quality of agricultural raw materials and food products, as well as developments aimed ultimately at increasing the competitiveness of products (services), technologies in the domestic and foreign markets.
5. Expansion of scientific research in the areas of mobilization of genetic resources, biotechnology, genetic engineering, selection and seed production, veterinary medicine, production of food products that provide a solution to the country's food security problem.
6. Creation of a large-scale system for the transfer of innovations to agriculture. To implement it, it is planned to: build a system of agricultural advisory support for commodity producers; creation of federal and regional funds for financing innovative research and development work; creation of a national information and communication system with a unified data bank on innovations, with a register of scientific developments ready for implementation; formation of a network of innovation centers, shared use centers and business incubators; creation of scientific-educational, scientific-production systems, including scientific and educational institutions with educational and experimental and experimental farms, innovative production organizations; the formation of such institutions as technological platforms, science cities and agro technoparks and other scientific and technical alliances and consortia.
7. Standardization of the quality of technological processes in order to ensure their compliance with the requirements of innovative development and environmental safety of production.
8. Formation of an organizational and economic mechanism for the innovative development of the agro-industrial complex, which includes the formation of legal regulation systems innovation activity, improving the organizational and legal forms of innovative scientific and production systems, improving the legal protection of intellectual property, creating mechanisms for combining the efforts of the state and business in ensuring the innovative development of the agro-industrial complex, improving the methods of program-targeted management of innovation activity at the federal and regional levels, the formation of financial- economic instruments for stimulating innovation and investment activities in the agro-industrial complex.

**The main directions of development of the agro-industrial complex in the strategy are:**

***1. Modernization as the main condition for innovation development of the agro-industrial complex***

The transfer of the agro-industrial complex to an innovative path of development necessitates the implementation of large-scale modernization of the economy through improvement, improvement, high-quality updating of equipment, technological processes, organizational and economic mechanisms based on the large-scale use of innovations.

***2. Increasing the efficiency of agricultural science, choosing "breakthrough" research areas***

Agricultural science as a developing sector of knowledge generation is the foundation of an innovative agricultural economy, the most important source of innovation and information for innovative solutions in all areas of the agro-industrial complex. It is important not only The size of this sector is as important as its quality and operational efficiency.

Agricultural science has been operating for a long time under the influence of negative factors, among which the most significant are: an extremely low influx of young personnel into science, ensuring the continuity of scientific schools and orientation towards innovative technologies; an unreasonably low level of funding for research and development work, including the acquisition of modern equipment and new materials; the material and technical base of research institutions and scientific service organizations does not meet modern requirements, the service life of the instrument fleet of research institute laboratories in most cases is more than 50 years; The unique objects of the Department of Agricultural Sciences of the Azerbaijan Academy of Sciences are also in a difficult situation, for the preservation and development of which funds are not allocated from the budget; extremely low level of remuneration for scientific staff; the inability of the majority of agricultural producers, due to the low profitability of their activities, to use scientific and technical achievements to improve efficiency and competitiveness of manufactured products; Most agricultural companies have a need for innovation, but it is out of touch with the demand for it due to the high risks associated with their implementation, multiple administrative barriers, problems of access to long-term financial resources and underdeveloped public-private partnership mechanisms.

***3. Formation and use of human capital.***

In modern conditions, human capital is becoming increasingly important in ensuring a new quality of economic growth and increasing production efficiency in the agro-industrial complex. The role of the human factor in innovative development of the agricultural sector of the economy. Human capital is the main factor in the formation and development of an innovative economy.

An analysis of the state and dynamics of human capital development from the perspective of educational and qualification level showed that in the agricultural sector of the economy there is a discrepancy between human capital and the declared transition to an innovative economic development model. This is reflected in the relatively low level of education. There is an insusceptibility of the educational system in the agricultural sector to technological progress, to the demands of progressive areas of production development, and the capabilities of human capital for the development and mastery of new technical ideas are significantly reduced. This, in turn, necessitates the development and implemen-

tation of a set of measures aimed at improving the formation and use of human capital. One of the most important tasks of the Innovative Development Strategy is restoration and reproduction of human capital in the agro-industrial complex on a qualitatively new basis. The solution to this problem is largely related to such areas of human capital development as training, retraining and advanced training of personnel.

## References

Significant insights are revealed in the conclusion of our investigation regarding the effects of artificial intelligence on the labor market. Based on our comprehensive examination of a large dataset and rigorous statistical techniques, it is evident that trust in AI decision-making is significantly influenced by individuals' perceptions of AI. The correlation between increased trust and positive perceptions of AI underscores the significance of comprehending and mitigating public sentiments regarding AI technologies. This highlights the criticality of enhancing AI literacy and consciousness in order to cultivate a workplace environment that is more knowledgeable and receptive to AI. Moreover, the research indicates that age does not exert a substantial influence on trust in AI, whereas years of experience has a moderate effect. This highlights a universal challenge that transcends age groups when it comes to adjusting to changes propelled by AI. The importance of businesses and policymakers focusing on strategies that increase public confidence and comprehension of AI is further underscored by these findings. This includes the implementation of transparent AI practices and educational programs. In light of the ongoing development and increasing integration of AI across multiple industries, it is critical to conduct ongoing surveillance and analysis of its effects on the labor market. Subsequent investigations ought to strive to broaden the analytical domain to encompass various sectors and geographic areas, in order to acquire a more exhaustive comprehension of the worldwide ramifications of artificial intelligence. This research initiates a more comprehensive understanding of the interplay between artificial intelligence and the labor market by shedding light on crucial domains that require further advancement and policy intervention. Ongoing research and proactive measures will be

essential in order to guarantee that the integration of AI technologies into the labor market is fair and advantageous for all parties involved, as these technologies continue to develop.

## References

1. Acemoglu, D., & Restrepo, P. (2020) The wrong kind of AI? Artificial intelligence and the future of labour demand. Cambridge Journal of Regions, Economy and Society, 13(1), 25-35
2. Aleem, M., Sufyan, M., Ameer, I., & Mustak, M. (2023) Remote work and the COVID-19 pandemic: An artificial intelligence-based topic modeling and a future agenda. Journal of business research, 154:113303, 1-16
3. Carbonero, F., Davies, J., Ernst, E., Fossen, F. M., Samaan, D., & Sorgner, A. (2023) The impact of artificial intelligence on labor markets in developing countries: a new method with an illustration for Lao PDR and urban Viet Nam. Journal of Evolutionary Economics, 1-30
4. Damioli, G., Van Roy, V., & Vertesy, D. (2021) The impact of artificial intelligence on labor productivity. Eurasian Business Review, 11, 1-25
5. Hui, X., Reshef, O., & Zhou, L. (2023) The short-term effects of generative artificial intelligence on employment: Evidence from an online labor market. ECONSTOR, ZBW, Munich, Paper № 10601, 22
6. Wach, K., Duong, C. D., Ejdys, J., Kazlauskaitė, R., Korzynski, P., Mazurek, G., & Ziemba, E. (2023) The dark side of generative artificial intelligence: A critical analysis of controversies and risks of ChatGPT. Entrepreneurial Business and Economics Review, 11(2), 7-30
7. Zarifhonarvar, A. (2023) Economics of chatgpt: A labor market view on the occupational impact of artificial intelligence. ECONSTOR, ZBW, Hamburg, 31

## SÜNİ İNTELLEKTİN ƏMƏK BAZARINA TƏSİRİ

**M.E.Mustafayev**

## XÜLASƏ

Məqalədə süni intellektin əmək bazarına təsiri araşdırılmışdır. Süni intellektin iş rollarını necə dəyişdirdiyi, bacarıqların dəyişdirilməsini tələb etdiyi və iş təhlükəsizliyi qavrayışlarına necə təsir etdiyi tədqiq olunmuşdur.

## ВЛИЯНИЕ ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА НА РЫНОК ТРУДА

**М.Э.Мустафаев**

## РЕЗЮМЕ

В статье рассматривается влияние искусственного интеллекта на рынок труда. Изучается, как искусственный интеллект меняет рабочие роли, требует изменения навыков и влияет на восприятие безопасности труда.

*Məqalə redaksiyaya 19 aprel 2024 tarixində daxil olmuş, 20 aprel 2024 tarixində isə çapa qəbul olunmuşdur.*

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2024 - № 63

UOT № 2964

# AZƏRBAYCAN RESPUBLİKASINDA SAHİBKARLIĞIN İNKİŞAFINDA İŞGÜZAR ETİKANIN ZƏRURİLİYİ

**H.Z.Əliyeva, L.R.İsmayılova, N.R.Yunusova**
Odlar Yurdu Universiteti
Bakı, Koroğlu Rəhimov küçəsi 13
e-mail: hafizaliyeva@gmail.com

***Açar sözlər:*** işgüzar etika, iqtisadi inkişaf, dövlət müdafiəsi
***Keywords:*** business ethics, economic development, state protection
***Ключевые слова:*** деловая этика, экономическое развитие, государственная защита

Son illər Azərbaycan Respublikasında bazar münasibətlərinin inkişafı, iqtisadi-təsərrüfat əlaqələrinin genişləndirilməsi üçün bir sıra islahatlar aparılmış, dövlət səviyyəsində zəruri tədbirlər həyata kecirilmişdir. Ölkəmizdə sahibkarlığın inkişafına xüsusi yer verilmişdir.

Ulu öndər H.Ə.Əliyevin 10 sentyabr 2002-ci ildə Azərbaycan Respublikasında "Sahibkarlığın inkişafına dövlət himayəsi sayəsində əlavə tədbirlər" haqqında Fərmanı Respublikada sahibkarlığın inkişafına böyük təkan verdi. Davamlı olaraq "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın i1nkişafına Dövlət Proqramı", "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)", "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2009-2013-cü illər)" istər bütövlükdə ölkədə, istərsə də region və bölgələrdə sahibkarlığın inkişafında böyük rol oynamışdır.

Müasir işgüzar etika peşəkar etikanın müxtəlif növlərindən biridir. Alimlərin fikrincə, o, üç mühüm müddəaya əsaslanmalıdır:

- bütün forma rəngarəngliyi ilə maddi dəyərlərin yaradılması əvvəlcədən mühüm bir proses kimi nəzərdən keçirilməli;
- mənfəət və digər gəlirlər müxtəlif ictimai zəruri məqsədlərə nail olunmasının nəticəsi kimi nəzərdən keçirilməli;
- işgüzar dünyada baş verən problemlərin həllində prioritet təkcə məhsul istehsalına deyil, həm də şəxslərarası münasibətlərə yer verilməlidir.

Azərbaycan kimi öz iqtisadi sistemlərini dəyişən ölkələr üçün biznesdə işgüzar etikanın öyrənilməsi xüsusilə vacib və zəruridir. Belə ki, işgüzar etikanı biznesdə işgüzar ünsiyyətin xarici tərəfini təşkil edən davranış qaydalarının məcmusu hesab etmək olar. İşgüzar etiket işgüzar münasibətlərdə uğura yol açan ən məqsədəuyğun davranış qayda və qanunlarının, formalarının uzunmüddətli seçiminin nəticəsidir.

İşgüzar etiket qaydaları "ticarət, biznes insanlarının" iqtisadi və maliyyə maraqlarının yaxşılaşdırılmasına kömək edir. Mənfəət milli, dini etiqad, sosial mövqe və psixoloji xüsusiyyətlər üzrə bütün müxtəlifliklərdən yuxarı olmuş və olaraq da qalmaqdadır.

Sahibkar hansı davranış qaydalarını bilməlidir? Hər şeydən əvvəl yadda saxlamaq lazımdır ki, işgüzar etiket özünə, ilk növbədə insan fərdiyyətinə dərin hörməti və davranış

mədəniyyətinin qaydalarına dəqiq şəkildə riayət edilməsini nəzərdə tutur. Mədəni sahibkar həm nazirə, həm kompaniyanın prezidentinə, həm də idarənin xadiməsinə bərabər dərəcədə hörmətlə münasibət göstərəcəkdir. Bu səmimi hörmət insan təbiətinin tərkib hissəsi olmalıdır. Davranışın əsasında əxlaqi qiymətləndirmə durmalıdır. Yəni, işgüzar partnyor – yaxşı insandır. İşgüzar ünsiyyətdə mədəni davranış, danışıq forma və qaydası, söz ehtiyatı, yəni verilmiş işgüzar insanlar dairəsində qıbul olunmuş bütün danışıq tərzi ilə bağlı olan verbal etiket qaydalarına riayət etmədən ağılasığmazdır. Belə ki, biznesmenlər mühitində "cənab" (əmlak sahibi) müraciəti yolverilləndir. Verbal münasibətdə işgüzar etiket müxtəlif psixoloji üsulların tətbiqini nəzərdə tutur. İşgüzar etiket işgüzar danışıqlarda tərəfin – biznes üzrə partnyorun davranış qaydalarına sözsüz riəyət etməsini nəzərdə nəzərdə tutur. İnsanların ünsiyyət qaydaları həyat obrazı və tərzi, milli adət və ənənələri ilə bağlıdır.

İşgüzar etiket müştərilərlə ünsiyyətdə xüsusi davranış tələb edir. Müştərilərə göstərilən hər bir xidmət növünün davranışda öz peşəkar incəliyi olur. Əsas prinsip və şüar – "Müştəri sizin ofisdə ən dəyərli və arzu olunan insandır!" olmalıdır. Geyim və xarici görünüşə münasibətdə müəyyən qaydalara riayət etmək lazımdır və geyilən kostyum yerinə və zamanına uyğun gəlməlidir. Yadda saxlamaq lazımdır ki, işgüzar münasibətlərdə xırdalıqlar yoxdur. Geyim, davranış – vizit kartıdır. Tanış olmayan insanlarla ən mühüm davranış qaydalarına riayət edilməsi hörmət, tərbiyə və özünə inam əlamətidir.

Sahibkar üçün işgüzar yazışmalar və telefon danışıqları aparmaq bacarığı mühümdür. İşgüzar insanın etiket və nəzakəti hər addımada təzahür etməlidir: tabeliyində olanlarla, iş yoldaşları və dostları ilə söhbətlərdə və s. Xidməti işgüzar münasibətlər etiketi danışıq normalarına ciddi şəkildə piayət edilməsini tələb edir.

Davranış mədəniyyətinin ümumi prinsipləri etiketə qarşı öz tələbləri ilə konkretləşir: mülayimlik, səhihlik, nəzakət, zəriflik, təvəzökarlıq, davranışda təbiilik, dəqiqlik, məsuliyyət və s.

Avropa etika və fəlsəfə nəzəriyyələrinin ən mühüm inkişaf tendensiyaları Azərbaycanın ictimai-siyasi təfəkkürünün aparıcı nümayəndələrinin etik irsində də meydana çıxmışdır. Milli dünyagörüşünün, Azərbaycan xalqının dini mədəniyyətinin xüsusiyyətləri səbrlilik, xeyirxahlıq və münaqişəsizlik hissləri ilə birlikdə gizli şəxsi ləyaqət hissi kimi əxlaqi keyfiyyətləri də özündə cəmləndirmişdir.

Azərbaycanlılar kütlə etibarilə dini ehkamlara o qədər önəm verməsələr də, bu xalqın mentalitetinin formalaşmasına dinin əhəmiyyətli dərəcədə təsir göstərməsini inkar etmək çətindir. Quran və Şəriət qısa formada Qərb işgüzar etikasında yer alan, demək olar ki, vacib və lazım olan bütün aspektləri əhatə edir.

İslam korrupsiyanı mühakimə edir. Quranda deyilir ki, həqiqi islam ədaləti bərqərar edərsə, hakim rüşvətxorluqdan uzaq olmalı və məhkəməyə cəlb olunmuş insanların qüdrətindən qorxmamalıdır.

İslam həyat üçün pul qazanılmasının yol verilə bilən və yol verilə bilinməyən üsullarını fərqləndirir və təsnifləşdirir. Vicdanlı üsul icazə olunan hesab olunur və "halal" adlandırılır. Vicdansız üsul "haram" kimi müəyyən olunur və digər insanlara birbaşa zərər vuran və ya qadağan olunmuş metodlardan (oğurluq, satın alma və s.) istifadə etməklə gəlir əldə edilməsi üsullarına aid edilir.

Korporativ sosial məsuliyyət Quranda "zəkat" və ya yoxsulların, yetimlərin və ehtiyacı olanların xeyrinə illik pul ayırmaları şəklində ifadə olunmuşdur. Zəkatın məbləği il

ərzində məhsulun 1/10-ni və yerdə qalan əmlakın 1/40-ni təşkil edir.

Azərbaycanda ombudsman haqqında qanun 2001-ci ilin dekabrında qəbul olunmuşdur. Korporativ ombudsman işlə əlaqədar etik məsələlər üzrə köməyə ehtiyacı olan hər bir kompaniya işçisi ilə təmasa keçə və məxfi əsasda məsləhət əldə edə biləcəyi şəxsdir. Bu gün Azərbaycan kompaniyaları üçün davranış məcəlləsinin (kodeksinin) işlənib hazırlanması və qəbulu zəruridir.

2000-ci ilin iyununda ulu öndərimiz H.Ə.Əliyev korrupsiya ilə mübarizə üzrə qanun layihəsinin hazırlanması və müvafiq ümummilli Proqramın işlənib hazırlanması haqqında Sərəncam imzalamışdır. Burada əsas məqsəd dövlət və özəl idarəetmənin şəffaflığının tədricən gücləndirilməsi və cəmiyyətin bütün seqmentlərinin (hakimiyyətin, özəl sektorun, vətəndaş cəmiyyətinin və KİV-in bütün şaxələrinin) birgə səyi ilə korrupsiyanın məhdudlaşdırılmasıdır.

Oktyabr çevrilişi nəticəsində Rus imperiyasının tənəzzülü əvvəlcə Azərbaycan SSR-nın yaranmasına gətirib çıxardı. Bu dövr milli özünüdərkin güclü inkişafı ilə xarakterizə olunur və etikada dövlətçilik ideyalarının yaranması aspektləri faəl olaraq dərk olunmağa başlayır.

Azərbaycan SSR-də siyasi hakimlərin ideologiya ilə sıx bağlı olan marksizm etikası fəal inkişaf edir. Sinfi mübarizənin, proletar inqilabının, humanizmin və sosial ədalətin yeganə reallaşdırılması vasitəsi kimi sosializm cəmiyyətinin əxlaqi aspektləri marksizm-leninizm və avtoritar etika mövqeyindən dərk olunur. Doğrusu, 1970-1980-ci illərdə rəsmi sovet ideologiyası çərçivəsində ayrı-ayrı tənqidi tendensiyalar da müşahidə olunurdu.

SSRİ-nın süqutundan sonra Azərbaycan etikasının inkişafında plüralizm situasiyası, avtoritar etikadan humanist etikaya keçid müşahidə olunmağa başladı. Azərbaycanlıların milli mənəvi özünüdərk xüsusiyyətləri təhlilə məruz qalır və fundamental mənəvi dəyərlərin yenidən dərk olunmasına səy göstərilirdi. Ümumiyyətlə, etik-fəlsəfi yanaşmaların əhəmiyyətli dərəcədə rəngarəng olmasından və Azərbaycanın etik təfəkkürünün elmi biliyin aparıcı dünya tendensiyalarına yaxınlaşmasından danışmaq olar.

Milli və xarici tədqiqatçılar əsas etibarı ilə o fikir üzərində həmrəy olurlar ki, müasir Azərbaycan özündə eyni zamanda ən mühüm ictimai alt sistemlərin (sosial-iqtisadi, siyasi, sosial-mədəni) formalaşması prosesinin getdiyi sistemi əks etdirir. Onlar birlikdə keçid modelini təşkil edirlər. Buna müvafiq olaraq, müasir milli sahibkarlıq mühitində mövcud olan etik norma və prinsiplər də formalaşma mərhələsindədirlər və bu da keçid prosesləri kimi nəzərdən keçirilə bilər. Onlar özündə, qərb işgüzar mədəniyyətindən mənimsənilmiş və tam olaraq formalaşmamış “oyun qaydaları”, həqiqi bazar iqtisaqiyyatına keçid prosesində yenicə formalaşmağa başlamış, totalitar və avtoritar iqtisaqiyyatdan miras qalmış davranış streotiplərinin özünəməxsus konqlomeratını əks etdirirlər.

Belə bir fikir mövcuddur ki, Şərqdə, xüsusi olaraq da Azərbaycanda biznes etik prinsiplərə riayət edilməsinin qayğısına o qədər də qalınmır. Hesab edilir ki, yerlipərəstlik və korrupsiya bizim xalqın mədəniyyətində o qədər dərin kök salmış və onun mentalitetinə o qədər dərindən nüfuz etmişdir ki, artıq bununla mübarizə aparmaq qeyri-mümkündür. Üzvlərinin, “rəhbərlər hamının maraqları hesabına öz maraqlarına istinad etməlidirlər” kimi düşünən cəmiyyət omadığı kimi, korrupsiyanın əxlaqına sirayət etdiyi xalq da mövcud deyil. Başqa hüquqi-təsərrüfat məkanında Azərbaycan mentalitetinin daşıyıcıları özlərini başqa cür aparırlar. Azərbaycanlıların korrupsiyalaşması tezisini ölkə daxilində və ondan kənardakı xarici şirkətlərdə işləyən kifayət qədər böyük azərbaycanlı ordusu təkzib edir. Ancaq müşahidələr göstərir ki, bu gün Azərbaycanda bir çox şirkət iş-

çiləri artıq "yad-doğma" prinsipi üzrə yox, peşəkar yararlılıq qabiliyyəti əsasında işə qəbul edirlər.

Effektiv qanunvericiliyin, habelə qüvvədə olan dövlət və məhkəmə nəzarətinin mövcud olmadığı şəraitdə partnyorlar arasındakı yazılı razılaşmalar sözsüz olaraq gücünü itirir və qarşısı alınmadan ilk imkan düşən kimi pozulurlar. Bütün bunlar qeyri-rəsmi münasibətlərin rolu və əhəmiyyətinin güclənməsinə gətirib çıxarır. Nəticədə iqtisaqiyyatın böyük hissəsi həm ictimai rəy, həm də dövlət nəzarəti üçün görünməz olur. Bir sıra qiymətləndirmələrə görə, sahibkarların özləri öz partnyorlarına qarşı, onların saflığı və məsuliyyətliliyi üzrə tələblər irəli sürürlər. Razılaşmaların dövrü olaraq yerinə yetirilməməsi ilə bağlı etibara etimad göstərilməməsi partnyorun etibarlılığı haqqında informasiyaların toplanması üzrə əlavə xərclərə gətirib çıxarır.

Bu baxımdan Azərbaycan şirkətlərinin, xüsusən də tədricən beynəlxalq bazarlara çıxan şirkətlərin işgüzar etika mədəniyyətini inkişaf etdirmək müasir dövrdə çox zəruridir. Bu, onların uğuru üçün daha bir zəmanətdir, çünki hətta Azərbaycan istehlakçıları artıq şirkətin ümumi nüfuzuna tələbkar yanaşmağa başlamışlar.

Sahibkarların işgüzar davranışının bu aspekti xüsusi əhəmiyyətə malikdir. Sosial məsuliyyətli davranışa könüllü səy göstərilməsi biznes dünyasında əxlaqi əsasların formalaşmasına fəal şəkildə yol aça bilər. Bu çox mühümdür, çünki milli sahibkarların inqilabdan öncəki filantropik fəaliyyətlərinin zəngin ənənələri çox yaxşı məlumdur.

## Ədəbiyyat


1. Abbasov A. (2005) Biznesin əsasları. Bakı
2. Смирнов Г.Н. (2011) Этика бизнеса, деловых и общественных отношений. - М.; Издательство УРАО
3. Səfərəliyeva R., Məmmədov S., Qaziyev V. (2004) "İşgüzar etika", Azərbaycan biznesmenləri üçün vəsait. Bakı, 171 s.
4. Козловски П. (2009) Принципы этической экономии. С.-П., Экономическая школа
5. Петрунин Ю.Ю., Борисов В.К. (2021) Этика бизнеса. - М.; Издательство Дело
6. http://www.elitarium.ru/
7. http://businessman.in.ua
8. www.transparency.org
9. www.transparency-az.org
10. https://unec.edu.az/


## IMPORTANCE OF BUSINESS ETHICS IN DEVELOPMENT OF ENTREPRENEURSHIP IN THE REPUBLIC OF AZERBAIJAN

**H.Z.Aliyeva, L.R.Ismailova, N.R.Yunusova**

## SUMMARY

This work focuses on the role of business ethics in the development of entrepreneurship. The importance of development of ethical business culture for the companies entering international markets is stressed.

# НЕОБХОДИМОСТЬ ДЕЛОВОЙ ЭТИКИ В РАЗВИТИИ ПРЕДПРИНИМАТЕЛЬСТВА В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ

**Х.З.Алиева, Л.Р.Исмаилова, Н.Р.Юнусова**

## РЕЗЮМЕ

В статье освещается роль делового этикета в развитии предпринимательства. Отмечается важность развития культуры деловой этики для компаний, выходящих на международные рынки.

*Məqalə redaksiyaya 8 aprel 2024 tarixində daxil olmuş, 22 aprel 2024 tarixində isə çapa qəbul olunmuşdur.*

**ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ**
**THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY**

**2024 - № 63**

UOT № 336

# BANKLARIN MALİYYƏ HESABATLARINDA ƏDALƏTLİ DƏYƏR METODUNUN HƏDDİNDƏN ARTIQ İSTİFADƏSİ

**F.Ş.Rüstəmli**
EY Azerbaijan (Ernst & Young Holdings şirkətinin Azərbaycan filialı)
Bakı, Neftçilər prospekti 153
e-mail: frdrustamli@gmail.com

***Açar sözlər:*** ədalətli dəyər, MHBS 13
***Keywords:*** fair value, IFRS 13
***Ключевые слова:*** справедливая стоимость, МСФО 13

## Giriş

Mövzunun aktuallığı bu metodun tətbiqi ilə bağlı təzadlı fikirlərin olması və eyni zamanda metodun həm tərəfdarlarının, həm də əleyhdarlaırnın kifayət qədər tutarlı fikirlərinin və tarixdə hər iki yanaşma ilə bağlı əhəmiyyətli biznes təcrübələrinin olması ilə əlaqədardır. "Ədalətli dəyər" konsepsiyasının tərəfdarları iddia edirlər ki, şirkətin balansındakı aktivlərin tarixi dəyərləri çox vaxt onların cari dəyəri ilə üst-üstə düşmür. Tarixi dəyərin uçotu qaydalarına əsasən, aktivlərin əksəriyyəti alış qiyməti və ya ilkin dəyəri ilə, istifadə müddəti ərzində köhnəlmə və ya ödəmə müddəti başa çatana qədər cüzi düzəlişlər edilməklə qeydə alınır. Onilliklər ərzində bir şirkətə məxsus olan bir bina, tarixi dəyəri ilə maliyyə hesabatlarında bugünkü bazarda real dəyərindən daha aşağı görünə bilər. Qlobal səviyyədə ən geniş şəkildə istifadə olunan hər iki maliyyə hesabatlılığı çərçivəsində - həm Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS), həm də ABŞ-nin Ümumi Qəbul Olunmuş Mühasibat Uçotu Prinsiplərinə (ABŞ ÜQMUP) görə ədalətli dəyərin izahı eynidir. Ədalətli dəyər qiymətləndirmə tarixinə aktivi satmaq və ya öhdəliyin icra olunması üçün bazar iştirakçıları arasında aparılan müntəzəm əməliyyatlar zamanı istifadə oluna biləcək məbləğdir (IASB, IFRS 13 Fair Value Measurement; U.S. GAAP ASC 820). Lakin standartlar arasında ədalətli dəyərin ölçülməsi və izahlı qeydlərdə təqdimatlarla bağlı müəyyən fərqlər mövcuddur. Son illərin tendesiyasına əsasən, MHBS Avropa regionunun tamamı və Asiya regionunun əksər hissəsi kimi ölkəmizdə də geniş tətbiq edilməkdədir. O cümlədən, Banklar Haqqında Azərbaycan Respublikasının Qanununun 43-cü maddəsinə əsasən, bank və xarici bankın yerli filialı maliyyə hesabatlarını MHBS-yə uyğun tərtib etməlidir. 13 saylı MHBS-nin dərc edilməsinə qədər MHBS Standartları ədalətli dəyərlə bağlı uyğun olmayan təlimatlar təqdim etmişdir. Bu uyğunsuzluq praktikada müxtəlifliyə səbəb olurdu və maliyyə hesabatlarının müqayisəliliyi azalırdı. Yeni standartın işlənib-hazırlanmasının məqsədi ədalətli dəyərin müəyyənləşdirilməsi, ölçülməsi üçün daha uyğun və sabit çərçivə yaratmaq və ədalətli dəyərin ölçülməsi haqqında investorlara daha keyfiyyətli məlumatların açıqlanmasını mühasibat uçotu subyektlərindən tələb etmək idi (IASB, 2018, Project background - Post-implementation Review of IFRS 13 Fair Value Measurement, p.3).

Ədalətli dəyərlərin istifadəsi mühasibat dünyasında həmişə mübahisəli olmuşdur. Maliyyə hesabatlarının istifadəçiləri arasında bu cür rəqəmlərin etibarsız və hətta təhlükəli

ola biləcəyinə qəti şəkildə inananlar var. 2007-ci ildə ABŞ-da mənzil köpüyü kimi ekstremal nümunələr yalnız bu arqumenti gücləndirməyə xidmət edir (Adam Deller, Adam Deller looks at IFRS 13, and user and preparer responses to IASB consultation on disclosure requirementsJuly/August 2019 International edition of Accounting and Business magazine).

Tədqiqatın əsas məqsədi bank sənayesində monetar aktivlər və monetar öhdəliklərin Maliyyə Vəziyyəti Haqqında Hesabatda xüususi çəkisi və maraqlı tərəflərin qərar vermə prosesinə xüsusi təsir imkanlarını nəzərə alaraq ədalətli dəyər metoduna artan inamı tənqidi şəkildə nəzərdən keçirmək, onun potensial tələlərini və maliyyə sabitliyinə təsirini vurğulamaqdır. Ədalətli dəyərin üstün hesab olunan tərəflərinə baxmayaraq, aktivlərin təhrif edilməsi potensialı, bazar dəyişkənliyinə qeyri-mütənasib təsirlər və genişlənmiş biznes dövriyyəsi səbəbindən onun məqsədəuyğunluğu ilə bağlı narahatlıqlar mövcuddur. Bu məqalə bu məsələləri araşdırır və bank sektorunda ədalətli dəyərin tətbiqinə balanslaşdırılmış yanaşmanı tövsiyə edir.

Tədqiqatla bağlı istinad olunan mənbələr əsasən BMUSŞ (Beynəlxalq Muhasibat Uçotu Standartları Şurası)-nın 2011-ci ildə dərc etdiyi və sonradan təkmilləşdirdiyi 13 saylı Ədalətli Dəyərin Ölçülməsi adlı standart, bu standartın tətbiqi və tələbləri ilə bağlı dərc edilmiş müəyyən məqalələr, Ədalətli Dəyər Metodunun təbiqinin çatışmazlıqları və üstünlükləri ilə bağlı daha əvvəl aparılmış tədqiqatlardır.

## Yeni standartın dərc olunmasına ehtiyac

1929-cu ildə birja tarixinin ən böyük çöküşü ABŞ-də indiki vaxtda Qara Çərşənbə axşamı kimi tanınan hadisə baş verdi. Bəziləri güman edir ki, bu ədalətli dəyərdən irəli gələn qiymətləndirmə metodları ilə əlaqədar olaraq baş verdi. Nəticədə ədalətli dəyər metodu 1930-cu illərdən 1970-ci illərə qədər ABŞ-nin Qiymətli Kağızlar və Birja Komissiyası tərəfindən faktiki olaraq qadağan edilmişdi (Anastasia Artemyeva, 2016, Impact of IFRS 13 on disclosure requirements under fair value hierarchy). Holthausen və Watts (2001) iddia edirlər ki, ədalətli dəyərin uçotu kifayət qədər uyğun və ya proqnozlaşdırıcı deyil və mühasibat məlumatlarının izahedici səlahiyyətlərini təmin etmir. BMUSŞ 2011-ci ildə 13 saylı Ədalətli Dəyərin Ölçülməsi adlı MHBS-ni effektiv elan etdi. Baxmayaraq ki, standart 2011-ci ildə effektiv elan olunub, ədalətli dəyər anlayışı muhasibat uçotu üçün yeni anlayış deyil. Lakin, bu metodunun maliyyə hesabatlılığında geniş istifadə olunmaısna xüsusi ilə də 16 saylı Torpaq, Tikili və Avadanlıqlar adlı MUBS, 9 saylı Maliyyə Alətləri adlı MHBS-nin skopu çərçivəsində bu anlayışa geniş yer verilməsinə baxmayaraq ədalətli dəyər anlayışının əsaslı tərifi yox idi (ACCA, Techincal Article - IFRS 13, Fair Value Measurement).

Ədalətli dəyər metodunun istifadəsi cari bazar dəyərlərini özündə əks etdirən şəffaf informasiyanı və digər müvafiq məlumatları maraqlı tərəflərə çatdırır. Bununla belə, bu metodun əsas çatışmazlığı likvid olmayan və ya qeyri-aktiv bazarlarda ədalətli dəyərin müəyyən edilməsi ilə bağlı olan subyektivlik və potensial qeyri-müəyyənlikdir. Həmçinin qiymətləndirmələr həmişə müşahidə oluna bilən bazar məlumatlarına əsaslanmır, çox vaxt subyektiv olaraq müəyyən edilir və bu, ədaləti dəyərin öiçülməsini manipulyasiyaya meylləndirir və yanlış təqdimat riskini əhəmiyyətli dərəcədə artırır.

## MHBS 13-ün spesifik tərəfləri

MHBS 13-ə görə yekun ədalətli dəyər qiymətləndirmə tarixində bazar iştirakçıları arasında müntəzəm əməliyyatda aktivin satılmasından əldə edilən və ya öhdəliyin icra oluması üçün ödənilən qiyməti ifadə edən qiymətdir. Bundan əlavə, standartın əsas xarakterik xüsussiyyəti qiymətləndirmə üsullarına daxil olan məlumatları prioritetləşdirən "ədalətli dəyər iyerarxiyası" vasitəsi ilə maliyyə hesabatlarında açıqlanmasıdır. Bu iyerarxiya 3 səviyyədən ibarətdir.

İyerarxiyanın I səviyyəsi əsasında ədalətli dəyərin müəyyənləşdirilməsi müəssisənin ölçmə tarixində əldə edə biləcəyi eyni aktiv və ya öhdəliklər üçün aktiv bazarlarda kotirovka edilmiş qiymətlərə (düzəliş edilməmiş) əsasən ədalətli dəyərin müəyyənləşdirilməsini tələb edir (IASB, IFRS 13, §76). Bu mümkün olmadıqda menecment ədalətli dəyəri iyerarxiyanın ikinci səviyyəsinə əsasən müəyyənləşdirməlidir. İyerarxiyanın II səviyyəsinə əsasən ədalətli dəyərin müəyyənləşdirilməsi birbaşa və ya dolayı yolla aktiv və ya öhdəlik üçün müşahidə oluna bilən, Səviyyə 1-ə daxil edilmiş kotirovka qiymətlərindən başqa daxilolmalara əsaslanır (IASB, IFRS 13, §81). III səviyyəyə uyğun qiymətləndirmə isə aktiv və ya öhdəlik üçün müşahidə olunmayan daxil edilənlər əsasında qurulmuş xüsusi qiymətləndirmə modelləri əsasında ölçülmüş qiymətləri ehtiva edir.

Standartın tələbinə görə müşahidə oluna bilməyən məlumatlar ədalətli dəyəri ölçmək üçün müvafiq müşahidə edilə bilən məlumatların mövcud olmadığı halda istifadə edilməlidir və beləliklə, qiymətləndirmə tarixində aktiv və ya öhdəlik üçün bazar fəaliyyətinin az olduğu mövcud vəziyyətlərə əsaslanmalıdır. Bununla belə, ədalətli dəyərin ölçülməsi məqsədi dəyişməz olaraq qalır, yəni ədalətli dəyər aktivi saxlayan və ya öhdəliyə borclu olan bazar iştirakçısı baxımından qiymətləndirmə tarixindəki müvafiq qiyməti əks etdirməlidir. Buna görə də, müşahidə olunmayan məlumatlar bazar iştirakçılarının aktiv və ya öhdəliyi qiymətləndirərkən istifadə edəcəkləri fərziyyələri, o cümlədən risklə bağlı fərziyyələri əks etdirməlidir (IASB, IFRS 13, §87).

## Ədalətli dəyər metodunun bank sektorunun maliyyə hesabatlılığında xüsusi rolu

Bankların maliyyə hesabatlarında monetar aktivlərin və monetar öhdəliklərin xüsusi çəkisi və maliyyə vəziyyətinin qiymətləndirilməsində xüsusi rolu var. Məsələn, 31 Dekabr 2022-ci il tarixinə ölkəmizdə sistem əhəmiyyətli 4 bankdan biri olan "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin (ABB) akitvlərinin 98.18%-i maliyyə aktivləri təşkil edir ("ABB ASC"-nin qeyd olunmuş tarixə və həmin tarixdə başa çatan il üzrə audit olunmuş maliyyə hesabatları). Bank sektorunun digər böyük bankı, həmçinin, sistem əhəmiyyətli digər kommersiya bankı "Kapital Bank" ASC-də müvafiq əmsal 96.92%-dir ("Kapital Bank" ASC-nin həmin tarixə audit olumuş maliyyə hesabatları). Maliyyə alətlərinin uçotunu tənzimləyən 9 saylı Maliyyə Alətləri adlı MHBS maliyyə aktivlərinin və maliyyə öhdəliklərinin ilkin tanınmasını məhz ədalətli dəyər üstəgəl və ya çıxılsın transaksiya xərcləri (maliyyə alətləri Mənfəət və ya Zərər hesabına Ədalətli Dəyər Metodu seçilməyən hallarda) həcmində tanınmasını tələb edir (IFRS 9, §5.1.1). Standard maliyyə aktivlərinin sonraki tanınması üçün müəyyən şərtlər daxilində 3 model təklif edir – Amortizasiya edilən dəyər, Mənfəət və ya Zərər Hesabına Ədalətli Dəyər (MZƏD) və Digər Ümumi Gəlir Hesabına Ədalətli Dəyər (DÜGƏD). Bu modellərdən ikisi məhz hər hesabat periodunun sonuna maliyyə akitvlərinin adələtli dəyəri ilə qiymətləndirilməsini tələb edir.

Maliyyə öhdəliklərinin sonraki qiymətləndirilməsi üçün də icazə verilən iki modeldən – Amortizasiya edilən dəyər və MZƏD biri məhz hər hesabat periodunun sonun da müvafiq olaraq maliyyə öhdəliklərinin ədalətli dəyər ilə yenidən qiymətləndirilməsini tələb edir (IFRS 9, §5.2 və §5.3). Ölkənin iki ən böyük bankının maliyyə göstəriciləri əsasında və 9 saylı MHBS-ə istinadən qeyd olunan bu qısa nümunələr bank sektorunun maliyyə hesabatlılığında ədalətli dəyər uçotunun hansı dərəcədə əhəmiyyətli olduğunun, demək olar ki, maliyyə hesabatlılığının böyük hissəsinə təsir etdiyinin əyani sübutudur.

Ədaləti dəyər metodunun ən çox təniqd olnan tərəflərindən biri də ədalətli dəyərin zamana spesifik olmasıdır. (Mingzhe Yuan, Huieng Lui, 2011, Accounting, Economics, and Law Volume 1 Issue 2, The Economic Consequences of Fair Value Accounting). Belə ki, ədalətli dəyər metodu ilə qiymətləndirilən aktiv və öhdəkiklərin dəyərləri maliyyə hesabatlarında hesabat periodunun başa çatdığı vaxta olan vəziyyəti özündə əks etdirir. Yəni müəssisə aktivlərin tərkibində hər hansı ciddi bir dəyişiklik etməsə belə fərqli bir bazar mühiti onun maliyyə vəziyyətini müxtəlif hesabat tarixinə əhəmiyyətli dərəcə də fərqlənməsinə səbəb ola bilər.

**Ədalətli dəyər metodundan bankların maliyyə hesabatlılığında həddindən artıq istifadənin SWOT təhlili**

Qeyd olunanları ümumiləşdirsək, ədalətli dəyər metodunun bank sektonda tətbiqinin SWOT təhlilini məhz aşağıdaki kimi apara bilərik.

*Üstün tərəfləri (Strengths):*

- MHBS Konseptual Çərçivəsinin təklif etidyi digər qiymətlənidrmə və ölçmə metodları ilə müqayisə də, Ədalətli Dəyər Metodu iqtisadi dəyişikliklərinə daha çevik reaaksiya verə bilər və bununla da real vaxtda bazarda ki mövcud reallıqları maliyyə hesabatlarında əks etdirmək qabiliyyətinə malikdir. Bununla da bu metod real vaxt kəsiyində bazarda baş verən iqtisadi proseslərin təsirini qiymətləndirmək istəyən maliyyə hesabatlarının istifadəçilərini onların ehtiyac duyduqları informasiya ilə təmin edə bilir.

- MHBS 13-ün təkmilləşdirilmiş izah edici qeyd tələbləri investor və digər maliyyə hesabatı istifadəçilərinə ədalətli dəyərin hansı daxil olmalar əsasında və necə hesablandığını görməyə kömək edir və bu maliyyə hesabatlarının şəffaflığını artırır. Bununla da investisiya qərarlarının və risklərin qiymətləndirilməsinin effektivliyini potensial olaraq təkmilləşdirir.

*Çatışmazlıqları (Weaknesses):*

- Xüsusilə daha az likvid aktivlər və ya bazarda qeyri-ənənəvi tendensiyalar müşahidə olunan zaman ədalətli dəyərin ölçülməsi ilə bağlı mürəkkəbliklər və subyektivliklər onu mübahisəli uçot praktikasına çevirir.

- Ədalətli dəyər metodu ilə bağlı MHBS Konspetual Çərçivəsinin icazə verdiyi qeyd olunan potensial subyektivlik təhriflər üçün imkanlar yarada bilər və potensial olaraq maliyyə hesabatlarında əhəmiyyətli təhriflərə səbəb ola bilər.

*Fürsətlər (Opportunities):*

- MHBS 13-ün effektiv elan edilməsi ilə ədalətli dəyərin ölçülməsinin və müvafiq məlumatların maliyyə hesabatlarında açıqlanmasının standartlaşdırılması bank və

digər maliyyə institutları arasında müqayisəliliyi artırır, maliyyə bazarında səmərəliliyin artmasına töhfə verə bilər.

- Ədalətli dəyər metodu daha şəffaf baxışı təklif etməklə maliyyə məhsullarının inkişafına və yeni maliyyə məhsullarının meydana çıxmasına təkan verə bilər.

*Threats (Təhlükələr):*

- Ədalətli dəyərin daha qəliz və mürəkkəb modellər, daha kompleks - müşahidə oluna bilməyən daxil olunanlar əsasında müəyyənləşdirilməsi az məlumatlı investorlar üçün başa düşülən olmaya bilər və potensial olaraq doğru olmayan şərhlərə və daha az rasional maliyyə qərarlarına gətirib çıxara bilər.

- Bank sektorunda ədalətli dəyər metodundan həddindən artıq istifadə ədalətli qiymətləndirmə, kreditləşdirmə məsələləri və makroiqtisadi amillər arasında qarşılıqlı təsirlər səbəbindən sistem risklərini artıra bilər.

## Nəticə

Apardığımız SWOT təhlilindən aydın olur ki, ədalətli dəyər metodu şəffaflığa və ən müasir maliyyə məlumatlarının investorlara təqdim edilməsinə töhfə versə də, onun potensial nəticələri, xüsusən də bazar dəyişkənliyini gücləndirmək və sistem riskinə töhfə vermək tendensiyası bu metodun tətbiqi və maliyyə qəararlaının qəbulu zamanı ehtiyatlı davranmağı və müəyyən spesifik məsələləri diqqətə almağı tələb edir.

Müsbət və mənfi tərəfləri ilə birlikdə, potensial riskləri nəzərə alaraq, sistem şoklarından qorunmaq və bank sektorunda maliyyə hesabatlarınının müqayisəlilik qabiliyyətini, sabitliyi təmin etmə, habelə, bəzi investorların real zaman kəsiyində iqtisadi trendlərin təsiri ilə ölçülmüş maliyyə informasiyası tələbini ödəmək üçün ədalətli dəyər metodunun tətbiqində daha konservativ və diversifikasiya edilmiş strategiyalar tövsiyə olunur. Standartın da tələb etdiyi kimi mümkün bütün hallarda ədalətli dəyərin məhz iyerarxiyanın I səviyyəsi ilə ölçülməsinə çalışmaq, bu mümkün olmadıqda və digər səviyyələrin istifadəsi zamanı isə daha məntiqə uyğun və daha az kompleks, o cümlədən, real vəziyyətə uyğun ölçmə mexanizmlərindən və daxil edilənlərdən istifadəni təmin etməyə çalışmaq lazımdır.

## Ədəbiyyat


1. “Banklar Haqqında” Azərbaycan Respublikasının Qanunu. (2004) Bakı
2. “Azərbaycan Beynəlxalq Bankı” ASC-nin 31.12.2022-ci il tairixinə konsolidə maliyyə hesabatları
3. ACCA, Technical Article, IFRS 13 Fair Value Measurement - (https://accaglobal.com/gb/en/student/exam-support-resources/professional-exams-study-resources/strategic-business-reporting/technical-articles/ifrs-13.html)
4. Artemyeva A. (2016) Impact Of IFRS 13 On Disclosure Requirements Under Fair Value Hierarchy Case, Degree Thesis, Arcade
5. Deller A. (2019) Adam Deller looks at IFRS 13 and user and preparer responses to IASB consultation on disclosure requirements, International edition of Accounting and Business magazine
6. IFRS Foundation. (2021) IFRS 13 Fair Value Measurement, London

(https://www.ifrs.org/issued-standards/list-of-standards/ifrs-13-fair-value-measurement.html/content/dam/ifrs/publications/html-standards/english/2024/issued/ifrs13/)
7. “Kapital Bank” ASC-nin 31.12.2022-ci il tarixinə konsolidə olunmuş maliyyə hesabatları
8. IFRS Project Report and Feedback Statement. (2018) Post-implementation Review of IFRS 13 Fair Value Measurement, London
9. PwC. (2022) Key concepts in ASC 820 (https://viewpoint.pwc.com/dt/us/en/pwc/accounting_guides/fair_value_measureme/fair_value_measureme__9_US/chapter_1_introducti__1_US/15_key_concepts_in_a_US.html#pwc-topic.dita_1724095608186230)
10. Slavko S. (2015) The impact of fair value accounting on earning quality in eastern European countries. Procedia Economics and Finance, volume 32, p.1769-1786

## EXCESSIVE USE OF FAIR VALUE METHOD IN FINANCIAL STATEMENTS OF BANKS

**F.Sh.Rustamli**

### SUMMARY

Today, the fair value method is considered one of the important valuation methods in financial reporting. This article investigates the potential conflicts of relying too heavily on fair value accounting, especially in the context of financial institutions.

## ЧРЕЗМЕРНОЕ ИСПОЛЬЗОВАНИЕ МЕТОДА СПРАВЕДЛИВОЙ СТОИМОСТИ В ФИНАНСОВОЙ ОТЧЕТНОСТИ БАНКОВ

**Ф.Ш.Рустамли**

### РЕЗЮМЕ

В современных условиях метод справедливой стоимости считается одним из важных методов оценки в финансовой отчетности. В статье исследуются потенциальные конфликты, связанные с чрезмерной зависимостью от учета справедливой стоимости, особенно в контексте финансовых институтов.

*Məqalə redaksiyaya 23 aprel 2024 tarixində daxil olmuş, 30 aprel 2024 tarixində isə çapa qəbul olunmuşdur.*

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2024 - № 63

UOT № 65.011.56

# DIGITAL ECONOMY: ESSENCE AND DEVELOPMENT PROSPECTS

**A.A.Novruzov, S.B.Mamedova, F.G.Velizadeh**
Odlar Yurdu University
13 Koroglu Rahimov St., Baku
e-mail: atif_novruzov@mail.ru

***Açar sözlər:*** rəqəmsal iqtisadiyyat, biznes, menecment
***Keywords:*** digital economy, business, management
***Ключевые слова:*** цифровая экономика, бизнес, менеджмент

In recent years, the term "digital economy" has been used more and more among science and business representatives of many economically developed countries, as well as at the government level. As a result, modern digital tools and innovative business models have permeated every aspect of economic life, changing the economy's fundamental structure and bringing about qualitative changes. So, a subsystem of conventional economy known as the "digital economy" has emerged, with its hallmarks being the active use of digital technology and the distribution of certain electronic commodities. The special characteristic of digital economy is information, which is produced, saved, transported, and processed using information and communication technology. The level of growth of digital economy is closely related to national competitiveness, which requires the state and commerce to pay special attention to its development. As is well known, Azerbaijan also faces tasks such as responding to the challenges of modern era and reaching new goals in economic development. As in the countries of rapid development, digitization of the economy, establishment of a digital economy, application of innovations are among the priorities for Azerbaijan [5].

Taking into account the advantages of digital economy, Azerbaijan has adopted a number of laws, programs and decisions aimed at its formation, application and development, such as

- Law of the Republic of Azerbaijan "On Electronic Commerce" [2],
- About the "Electronic government" portal [3],
- Acceptance and implementation of the "State program on the expansion of digital payments in the Republic of Azerbaijan in 2018-2020" [4],
- ASAN service [1] and Dost network should be especially mentioned.

In addition to the importance of measures implemented in the country related to the development of digital economy, it is also vital to consider that there is still insufficiently used potential in this field. In order to effectively use these potentials, to implement practical measures for their realization, it is necessary to have more information about the the fundamentals of digital economy, its advantages, the problems that may arise when implementing them, their solutions. The fundamentals of digital economy according to the definition introduced by the World Bank, "digital economy" is a framework for social, cultural, and economic interactions that relies on digital information and communication technology. In a more general sense, the digital economy should be

referred to as a type of economic system in which the dominant part of national product is provided by activities related to the production, processing, storage and dissemination of information [9].

In modern conditions, it is impossible to imagine the future development of society in the absence of information and communication technologies (ICT), which shows the formation of a new stage of social development called information society. Information society should be understood as the stage of social development where the use of ICT has a significant impact on the following main areas of human life and its social institutions:

- economy and business sphere;
- education and healthcare;
- to culture and art;
- social service;
- to public administration.

In other words, the information society is a society whose major part deals with the processes related to the production, processing, storage and sale of information and knowledge. The information society, as well as the digital economy, is based on information and communication technologies. In fact, this means the beginning of the next stage of human development.

The digital revolution, which has swept the world since the end of the 20th century and still goes on today, is essential to the creation of the information society and the shift to the digital economy. At the initial stage of the advent of the digital revolution, technology and corporate processes began to be automated. At the next stage After the creation of the Internet, countless opportunities emerged. Mobility in communication revealed. The expansion of the Internet around the world allowed the improvement of instant messengers and social networks (applications for smartphones or personal computers that allow instant exchange with friends). Consequently, not only were economic processes altered by the proliferation of digital technology, but society's way of life transformed as well..

It has an increasing number of data characteristics now. The creation of the digital economy and widespread automation are directly tied to the evolution of the contemporary information society. It is predicated on the use of ICT, and its main requirements to society, to those who characterize it, are as follows:

- modifying the character of work (enhancing the significance of creative, intellectual labor);
- modifying the type of employment (operating with contemporary ICT);
- rising standards in general of educational stage and expert credentials.

Nowadays, knowledge, skills, competence and information, the capacity to quickly show, understand, and apply them is more important than anything else. The nature of work and labor relations is evolving. Business procedures are increasingly moving online, and This holds true for every aspect of society.

Benefits of the digital economy. Since the second half of the 20th century, the integration to a digital economy based on the development of information technologies has become more significant in the global economic growth of several nations. Experience shows that: a unified economic information space created thanks to academic and technological progress, by shaping the integration to the digital economy, increases labor productivity and economic growth; creation of innovative workplaces and digital assets; increa-

sing the powers and the rights of citizens; improving access to global markets; - improving the quality of public services, etc. creates a favorable opportunity.

It is known that the concept of "digital economy" was first used by N.Negroponte in 1995 in connection with the development of modern information technologies and their management. According to N.Negroponte, the benefits of the digital economy are the following: absence of physical mass of products swapped out for information volume; reduced resource costs in the manufacture of electrical products; less space used for items; nearly immediate product transportation over the Internet (in this case, we are talking about special digital goods) [12].

In addition, the experience gained both in foreign countries and in Azerbaijan shows that the digital economy has the following advantages:

- facilitates interaction between economic subjects;
- costs (primarily operating costs) decrease;
- additional functionality is supplied to suppliers as well as customers, which shortens the development and launch period for new goods; contributes to the creation and dissemination of innovative products and solutions;
- targeted internet marketing and digital tools permit creation and commercialization of products and services, consider the demands of each specific customer, that eventually helps to preserve resources (via balancing the amount and composition of supply and demand), the population's common level of living and improves its quality;
- preliminary conditions are created for the reduction of intermediary chains between the producer and the end user, the formation of efficient production and consumption cooperation;
- comprehensive digitization and the deterioration of conventional property relations is made possible by the pace of communications, the improvement of legal practice for the use of the theoretical institutional notion of the "property rights package";
- joint ownership commodities as a phenomena develops (particularly in terms of technological) difficult and pricey, for instance, cars), that sharply reduces the costs of end users;
- since the growth of small and medium-sized enterprises is becoming more adaptable and mobile, they have a significant position in business procedures;
- expedited support for creative start-ups, the "economy of natural persons" sector is widening and there is a propensity to raise the "automization" of the composition of the economy;
- the availability of various services for the population and business increases;
- new opportunities for vocational training are created and new types of professional activity are developed;
- safe and comfortable conditions for people's lives are created and maintained;
- people's social stereotypes change;
- the population's use of digital tools increases its purchasing power, because functioning digital platforms ensure the development of price competition. Consumers have the opportunity to learn the features of a certain product, compare their choice with other options offered and read reviews of real users without leaving home. This forces manufacturers to lower prices and provide quality products or quality services;
- digital access to services helps increase investment and business activity by increasing the accessibility and efficiency of providing public services;

- the transparency of the business environment increases through electronic platforms and feedback portals for conducting tenders and purchases in the context of digitalization;
- states that have an active policy of supporting innovation and research attract highly qualified personnel, which is the main resource for the evolution of the digital economy.

In addition to above, the positive aspects of using digital services include creating and maintaining safe and comfortable conditions for human life. This is provided by the creation of centralized systems for monitoring the condition of the territory infrastructure, energy consumption optimization technologies, video surveillance systems and the operation of navigation services. The problems of ensuring different levels of security are successfully solved based on the use of digital technologies. The prevention and elimination of fires and natural disasters, the fight against terrorism, the protection of strategically important objects, privacy - these and other security components are supported today thanks to various digital tools.

Digital technologies are developing most dynamically in the financial sector, credit institutions are the initiators of their active promotion. The use of digital financial technologies is among the primary areas of improvement of financial markets. The digital economy affects people's behavior, including financial behavior. Opportunities for new knowledge, education, improvement and mastering of new types of professional activity are opened for each person. More livable cities, the availability of social institutions and government services, expand the geographical horizons of opportunities. States that have an active policy of supporting innovation and research attract highly qualified personnel, which is the main resource of the evolution of the digital economy.

However, it ought to be considered that in the formation of the digital economy of each country:

- the policy implemented in this field;
- rule of law;
- customs and cultural elements;
- the degree of economic progress that has been reached of the country;
- demand for digital technologies;
- emergence of innovative technologies;
- human resources;
- state regulation;
- financial resources for the development and application of digital technologies;
- the development of education and its own technological base, as well as many other factors, play an important role.

The rapid increase of social media platforms, the growth in the quantity of smartphones, the ease of access to the wideband internet, and the wide s expansion of technology utilizing artificial intelligence have changed the contemporary world. Digital transformation of both profit and nonprofit (including government) organizations is a reaction to the creation and rapid distribution of new knowledge and digital technologies worldwide. In addition, predicated on the theory of scientific advancement since the Renaissance, we believe that the main goal and advantage of the growth of the digital economy is to improve the living standards by increasing the quality of products and services produced with the use of contemporary digital technology.

Problems of the improvement of the digital economy Although the creation of the digital economy brings certain advantages for the evolution of the country's economy, its development is not isolated from problems and threats. It is known that the application of the digital economy includes the automation of production, service, and management processes, and the improvement of their technical equipment level, which leads to a decrease in the number of secondary jobs due to a decrease in the demand for personnel, and an increase in the differentiation of salary levels. In order to solve these types of social problems, the payment of benefits to unemployed citizens requires an increase in budget expenditures related to the retraining of people who have received the status of unemployed. The digital economy increases the vulnerability of the financial sector, which is related to the risks of unauthorized withdrawal of funds from bank accounts. According to some researchers, the increase in the volume of payments made using blockchain technology may allow it to be used for corruption and other illegal purposes. The introduction of the digital economy can also make conditions development of cybercrime.

Bir dövlətin büdcə kəsirini örtmək üçün bir neçə yol mövcuddur ki, bunlardan biri də vergilələrin artırılması iqtiqamətində tədbirlərin görülməsidir. Bu dövlət büdcəsinə gəlir mənbəyi olaraq daha çox gəlir gətirə bilər və bu da büdcə kəsirini örtməkdə kömək edə bilər. Lakin vergilərin artırılması siyasi və ictimai təsirə sahib ola bilər və optimal vergi səviyyəsi tapmaq üçün diqqətli planlaşdırma tələb edir. Dövlət, xərclərini azaldaraq və ya yenidən planlaşdıraraq büdcə kəsirini azalda bilər. Bu, ictimai xidmətlərə, dövlət proqramlarına və ya infrastruktur layihələrinə dəstəyin azaldılmasını göstərə bilər. İqtisadi inkişafı təşviq edərək dövlət büdcədəki gəlirləri artıra bilər. Beləliklə də inkişaf, iş yaradılması, sərmayə qoyuluşları və vergi gəlirlərinin artması ilə əlaqələndirilə bilər. Dövlət, büdcə kəsirini örtmək üçün maliyyələşmə tədbirlərini nəzərdən keçirməli, daxili və ya xarici borcların qəbulu, hərbi vəzifələrin icrası üçün layihələrin irəliləyib sürülməsi və ya istehlakçı sərmayə fondlarının istifadəsi kimi prosedurları əhatə etməlidir. Ümumi olaraq bir dövlət, büdcə kəsirini örtmək üçün uyğun bir qarışıq strategiya təyin etmək üçün ən uyğun və optimal bir yolu seçməlidir.

Hökumət xərcləri iqtisadiyyatda tələbi iqtisadiyyatın istehsal qabiliyyətinin cavab verə biləcəyindən daha sürətli artırdıqda, bu, inflyasiya təzyiqlərinə səbəb ola bilər. Mal və xidmətlərə artan tələb, məhdud təkliflə birləşərək, qiymətləri yüksəldə, alıcılıq qabiliyyətini azalda və real gəlirləri azalda bilər. Yüksək inflyasiya iqtisadi qərarların qəbulunu təhrif edə, maliyyə bazarlarında sabitliyi poza və makroiqtisadi sabitliyi poza bilər.

Bəzi hallarda dövlət xərcləri iqtisadi prioritetlərdən çox siyasi mülahizələrdən təsirlənə bilər ki, bu da donuz çəllәkləri layihələrinə və korrupsiyaya səbəb olur. Siyasətçilər siyasi dəstək qazanmaq üçün öz dairələrindəki layihələrə vəsait ayıra bilərlər, hətta bu layihələr ciddi iqtisadi fayda verməsə belə. Dövlət satınalmaları, müqavilələr və tender proseslərində korrupsiya şişirdilmiş xərclər, keyfiyyətsiz infrastruktur və ictimai etimadın itirilməsi ilə nəticələnə bilər. Bu problemlərin həlli sağlam fiskal idarəetmə, şəffaf idarəetmə, effektiv nəzarət mexanizmləri və dövlət xərclərinin səmərəliliyini və səmərəliliyini artırmaq üçün islahatlar tələb edir. Hökumətlərin uzunmüddətli iqtisadi rifahı və rifahı təşviq etmək üçün sosial ehtiyacların ödənilməsi və fiskal davamlılığın təmin edilməsi arasında tarazlıq yaratması vacibdir. Ölkə iqtisadiyyatında dövlət xərclərinin yaratdığı problemlərin aradan qaldırılması fiskal intizam, səmərəlilik, hesabatlılıq və iqtisadi sabitliyə diqqət yetirən kompleks yanaşma tələb edir.

Dövlət xərcləri ilə bağlı problemləri azaltmağın əsas yollarından biri fiskal intizamdır. Fiskal intizamın yaradılması və ona riayət edilməsi dövlət xərclərinə nəzarət üçün çox vacibdir. Hökumətlər kəsir və borc limitləri kimi aydın fiskal hədəflər təyin etməli və büdcə intizamını gücləndirmək üçün mexanizmləri həyata keçirməlidir. Bu, fiskal məsuliyyət qanunlarının qəbulunu, müstəqil fiskal şuraların yaradılmasını və büdcə hədəflərinə uyğunluğu təmin etmək üçün mütəmadi olaraq maliyyə təhlillərinin aparılmasını əhatə edə bilər.

Büdcənin şəffaflığı və hesabatlılığı prosesində şəffaflığın və hesabatlılığın artırılması israfçı xərclərin və korrupsiyanın qarşısını almağa kömək edə bilər. Hökumətlər dövlət xərcləri, gəlirləri və büdcə qərarları haqqında ictimaiyyətə və nəzarət qurumlarına vaxtında və hərtərəfli məlumat verməlidirlər. Müstəqil auditlər, parlament nəzarəti və vətəndaşların büdcə proseslərində iştirakı hesabatlılığı təşviq edə və dövlət xərclərinin effektivliyini artıra bilər. Dövlət xərcləmə proqramları və layihələrinin mütəmadi olaraq nəzərdən keçirilməsi səmərəsizliyi, təkrarları və təkmilləşdirilməsi lazım olan sahələri müəyyən edə bilər. Hökumətlər dövlət xərclərinin səmərəliliyini və təsirini qiymətləndirməli, yüksək iqtisadi və sosial gəlirli investisiyalara üstünlük verməli və arzu olunan nəticələri verməyən proqramları aradan qaldırmalı və ya islahatlar aparmalıdır. Fəaliyyətə əsaslanan büdcələşdirmə və nəticəyönümlü qiymətləndirmə mexanizmləri resursların daha səmərəli bölüşdürülməsinə kömək edə bilər. Hökumət sektoru institutlarının islahatı dövlət xərclərinin səmərəliliyini, şəffaflığını və idarə olunmasını təkmilləşdirə bilər. Bu, bürokratik proseslərin rasionallaşdırılmasını, dövlət satınalmaları prosedurlarının təkmilləşdirilməsini, maliyyə idarəetmə sistemlərinin gücləndirilməsini və bürokratiyanın azaldılmasını əhatə edə bilər. Dövlət məmurları üçün bacarıqların artırılmasına və təlimlərə sərmayə qoyuluşu həm də dövlət idarəçiliyinin effektivliyini artıra bilər.

Makroiqtisadi sabitləşdirmə siyasətləri pul siyasəti və valyuta məzənnəsinin idarə edilməsi kimi sağlam makroiqtisadi sabitləşdirmə siyasətlərinin həyata keçirilməsi həddindən artıq dövlət xərcləri ilə bağlı inflyasiya təzyiqlərini azaltmağa kömək edə bilər. Makroiqtisadi sabitliyi təmin etmək və iqtisadiyyatın həddindən artıq istiləşməsinin qarşısını almaq üçün fiskal və monetar orqanlar arasında koordinasiya vacibdir. Mərkəzi banklar ehtiyatlı pul siyasəti tədbirləri ilə qiymət sabitliyini qorumalı və davamlı iqtisadi artımı dəstəkləməlidir.

## NƏTİCƏ

Nəticədə, dövlət xərclərinin idarə olunması və təhlükəsizliyi, iqtisadiyyatın stabilliyətini, sosial rifahı və cəmiyyətin ümumi inkişafını təmin etməkdə əhəmiyyətli bir rola malikdir. Bu, məhsuliyyətli maliyyə siyasəti və effektiv büdcə idarəetməsi tələb edir.

Bu tədbirləri həyata keçirməklə hökumətlər dövlət xərclərinin yaratdığı problemləri həll edə və davamlı iqtisadi inkişafı, fiskal sabitliyi və sosial rifahı təşviq edə bilərlər. Bu, dövlət resurslarından bütün vətəndaşların mənafeyi naminə səmərəli və şəffaf şəkildə istifadə olunmasını təmin etmək üçün siyasətçilərin, vətəndaş cəmiyyətinin və özəl sektorun birgə səyini tələb edir. Bununlada onlar dövlət xərclərinin idarə edilməsini, onun iqtisadi proseslərə təsirini nəzarət altında saxlayacaq və onun inkişafında doğru addımlar atacaqlar.

## Ədəbiyyat

1. Allahverdiyev H.B., Qafarov K.S., Əhmədov Ə.M. (2006) Milli iqtisadiyyatın dövlət tənzimlənməsinin əsasları. Bakı, AZDİU.
2. Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası.
3. Orucov M.M. (2020) "Milli iqtisadiyyatın müasir inkişaf modeli". Odlar Yurdu Universitetinin Elmi və Pedaqoji Xəbərləri, №54.
4. Əlirzayev Ə.Q. (2005) İslahatlar və Sürətlənmə Strategiyası Şəraitində Azərbaycanın Sosial-İqtisadi İnkişaf Problemləri: Təcrübə, Meyllər və Perspektiv İstiqamətlər. Bakı,

"Adiloğlu" Nəşriyyatı
5. Orucov M.M. (2019) Dünya iqtisadiyyatında baş verən dəyişiklər fonunda Azərbaycan iqtisadiyyatının mövcud vəziyyəti. Odlar Yurdu Universitetinin Elmi və Pedaqoji Xəbərləri, №50.
6. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı (2004).
7. Kəlbiyev Y.A. (2005) "Fiskal Siyasət və Milli Iqtisadiyyatın Tənzimlənməsi Problemləri" (Monoqrafiya), Bakı, Elm.
8. "Əhalinin Sağlamlığının Qorunması Haqqında" Azərbaycan Respublikasının Qanunu. (1997) "Azərbaycan" qəzeti.
9. "Korrupsiyaya Qarşı Mübarizə Haqqında" Azərbaycan Respublikasının Qanunu. (2004) "Azərbaycan" qəzeti.
10. Abbasov A.H. (2003) Azərbaycanda Maliyyə Bazarının Yaradılması və Bazar İqtisadiyyatında Maliyyə-Kredit Sisteminin Problemləri. Bakı, "Poliqraf".
11. Məmmədov Z.F. (2008) Pul, Kredit və Banklar. Bakı, "Azərnəşr".
12. Sadıqov K.F. (1999) Milli İqtisadiyyatın Dövlət Tənzimlənməsinin Konseptual Əsasları. Bakı: Azərnəşr.

## MANAGING GOVERNMENT EXPENDITURE AND THE IMPACT OF THIS ON ECONOMIC PROCESSES

**P.E.Heydarov**

### SUMMARY

This work deals with the problems of government expenditure. The author states that the proper and efficient government spending can significantly boost national economic development and, in particular, creation of new jobs.

## УПРАВЛЕНИЕ ГОСУДАРСТВЕННЫМИ РАСХОДАМИ И ВЛИЯНИЕ ЭТОГО НА ЭКОНОМИЧЕСКИЕ ПРОЦЕССЫ

**П.Э.Гейдаров**

### РЕЗЮМЕ

Статья посвящена вопросам, связанным с государственнми расходами. Автор отмечает, что правильные и эффективные расходы со стороны государства могут существенно поддержать развитие национальной экономики и, в том числе, создание новых рабочих мест.

*Məqalə redaksiyaya 6 may 2024 tarixində daxil olmuş, 8 may 2024 tarixində isə çapa qəbul olunmuşdur.*

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2024 - № 63

UOT № 33

# SOSİAL TƏMİNAT: RİFAHIN MÜDAFİƏSİ VƏ CƏMİYYƏTİN İNKLÜZİV İNKİŞAFI ÜÇÜN İQTİSADİ VƏ SOSİAL ŞƏRTLƏR

**S.F.Yusifova**
Azərbaycan Dövlət İqtisad Universiteti
Bakı, N.Yusifbəyli küçəsi 42
e-mail: sebineyusifova03@gmail.com

***Açar sözlər:*** sosial təminat, əhalinin sosial müdafiəsi, inklüzivlik
***Keywords:*** social security, social protection of the population, inclusiveness
***Ключевые слова:*** социальное обеспечение, социальная защита населения, инклюзивность

Sosial təminat öz əhalisinin rifahını və ləyaqətini təmin etmək üçün kollektiv məsuliyyəti təcəssüm etdirən hər bir müasir cəmiyyətin əsas sütunudur. O, fərdləri və ailələri işsizlik, əlillik, qocalıq, xəstəlik və analıq kimi müxtəlif həyat hadisələri nəticəsində yaranan iqtisadi çətinliklərdən qorumaq üçün hazırlanmış bir sıra proqramları əhatə edir.

Sosial təhlükəsizliyin təmin edilməsi qeyri-bərabərliyi azaltmaq və inklüziv inkişafı təşviq etmək məqsədi daşıyan sosial ədalət prinsipinə əsaslanır. Sosial təminat mexanizmləri maliyyə yardımı, səhiyyə müavinətləri və digər dəstək formaları təklif etməklə yoxsulluğun azaldılmasına və sosial birliyə əhəmiyyətli dərəcədə töhfə verir.

Bu məqalədə sosial təhlükəsizliyin siyasət çərçivəsi və mexanizmləri tədqiq edilir, onun məqsədləri, problemləri və əhaliyə təsiri araşdırılır. Müxtəlif modellərin və yanaşmaların təhlili vasitəsilə onun möhkəm sosial təminat sistemlərinin davamlılığında, ədalətin və insanların çiçəklənməsinin təşviqində əhəmiyyəti vurğulanmağa çalışılır.

Əsas müzakirə sahələrinə sosial təminat siyasətinin təkamülü, hökumətin və maraqlı tərəflərin rolu, maliyyələşdirmə mexanizmləri, texnologiyaların sosial həyata inteqrasiyası və sosial müdafiənin mənzərəsini formalaşdıran gələcək tendensiyalar daxildir. Bu aspektləri tədqiq etməklə biz cəmiyyətlərin öz əhalisinin müxtəlif ehtiyaclarını necə effektiv şəkildə qarşılaya biləcəyi və daha ədalətli və davamlı gələcək qura biləcəyi barədə fikir əldə edə bilərik.

Məqalədə müzakirə olunan əsas problem vətəndaşların rifahının və həyat şəraitinin qorunması üçün sosial təminat tədbirlərinin səmərəli təmin edilməsidir. Bu məsələ sosial birliyə, iqtisadi sabitliyə və fərdi həyat keyfiyyətinə birbaşa təsir göstərdiyinə görə böyük əhəmiyyət kəsb edir. Qeyri-adekvat sosial təminat yoxsulluğun, bərabərsizliyin və sosial iğtişaşların artmasına gətirib çıxara bilər ki, bu da bu sahədə hərtərəfli siyasət və strategiyalara təcili ehtiyac olduğunu göstərir.

Sosial təminat müxtəlif elmi və praktiki fənlərlə, o cümlədən iqtisadiyyat, sosiologiya, dövlət siyasəti və hüquqla kəsişir. Alimlər və siyasətçilər sosial təminat sistemlərinin dinamikasını anlamaq, onların effektivliyini qiymətləndirmək və sübuta əsaslanan müdaxilələr təklif etmək üçün ciddi araşdırmalarla məşğul olurlar. Praktik nöq-teyi-nəzərdən hökumətlər və beynəlxalq təşkilatlar həssas əhali qruplarının adekvat sosial müdafiəsini təmin etmək üçün siyasət hazırlayır, resurslar ayırır və proqramlar həyata ke-

çirirlər.

Sosial təminatla bağlı son tədqiqatlar bir neçə əsas sahəyə yönəlmişdir.

Rəqəmsal Transformasiya: Alimlər sosial təminat sistemlərinin səmərəliliyinin və inklüzivliyinin artırılmasında rəqəmsal texnologiyaların rolunu araşdırıblar. Buraya xidmətlərin çatdırılması üçün rəqəmsal platformaların istifadəsi, məqsədyönlü müdaxilələr üçün məlumat analitikası və üstünlüklərə asan giriş üçün rəqəmsal şəxsiyyət sistemlərinin istifadəsi daxildir (Oehri C., 2012).

Davamlı Maliyyələşdirmə: Sosial təminat proqramları üçün davamlı maliyyələşdirmə modellərinə artan diqqət var. Tədqiqatçılar faydalardan yan keçmədən uzunmüddətli maliyyə davamlılığını təmin etmək üçün sosial təsir istiqrazları, dövlət-özəl tərəfdaşlıq və mütərəqqi vergitutma kimi innovativ maliyyələşdirmə mexanizmlərini araşdırıblar (Əliyev Ə.N., 2007).

Adaptiv Siyasət Dizaynı: Dəyişən demoqrafik və sosial-iqtisadi meyllərlə sosial təminat sahəsində adaptiv siyasət dizaynına ehtiyac var. Tədqiqatlar inkişaf edən ehtiyacları və problemləri həll etmək üçün çevik fayda strukturlarını, nəsillərarası həmrəylik mexanizmlərini və risklərin bölüşdürülməsi tənzimləmələrini araşdırıb.

Əhəmiyyətli irəliləyişlərə baxmayaraq, sosial təminatın təmin edilməsində bir sıra problemlər həll edilməmiş qalır:

Əhatə dairəsi boşluqları: Bir çox əhali, xüsusən də qeyri-rəsmi işçilər, miqrantlar və təcrid olunmuş qruplar hələ də adekvat sosial təminatdan məhrumdurlar ki, bu da bərabərlik və inklüzivlik problemləri yaradır (Abdullayeva R.S., 2019).

Maliyyə Davamlılığı: Demoqrafik dəyişikliklər və iqtisadi qeyri-müəyyənliklər şəraitində sosial təminat sistemlərinin uzunmüddətli maliyyə dayanıqlığının təmin edilməsi innovativ həllər tələb edən mürəkkəb məsələ olaraq qalır.

Texnoloji Dəyişikliklərə Uyğunlaşma: Rəqəmsallaşma imkanlar təqdim etsə də, məlumatların məxfiliyi riskləri, rəqəmsal uçurum problemləri və güclü kibertəhlükəsizlik tədbirlərinə ehtiyac kimi problemlər də təqdim edir.

## Nəticə və Perspektivlər

Məqalədə effektiv sosial təminat siyasətlərinin başa düşülməsinə və həyata keçirilməsinə kömək edən anlayışlar və tapıntılar təqdim olunur. Əsas nəticələr aşağıdakıları əhatə edir:

Müxtəlif ölkələrdən və regionlardan uğurlu sosial təminat modellərinin təhlili, ən yaxşı təcrübələrin və öyrənilən dərslərin işıqlandırılması.

Sosial təminat əhatəsinin genişləndirilməsi, müavinətlərin adekvatlığının yaxşılaşdırılması və davamlı maliyyələşdirmə mexanizmlərinin təşviqi üçün siyasət tövsiyələri.

Konsert iqtisadiyyatı, qocalma populyasiyaları, iqlimlə bağlı risklər və onların sosial təminat siyasəti və praktikası üçün təsirləri kimi inkişaf etməkdə olan tendensiyalar haqqında anlayışlar.

Bu sahədə gələcək tədqiqat və fəaliyyət perspektivləri perspektivlidir, texnologiyadan istifadə etmək, sosial təhlükəsizlik şəbəkələrini gücləndirmək, qeyri-bərabərliyi aradan qaldırmaq və qlobal çağırışlar qarşısında dayanıqlığı gücləndirmək imkanları var. Hökumətlər, akademik dairələr, vətəndaş cəmiyyəti və beynəlxalq təşkilatlar arasında birgə səylər sağlam sosial təminat sistemləri vasitəsilə əhalinin müdafiəsi gündəmini irəli aparmaq üçün vacibdir.

Yekun olaraq qeyd edək ki, sosial təminatın təmin edilməsi əhalinin hərtərəfli müdafiəsi siyasətinin əsas sütununu təşkil edir. Bu, təkcə iqtisadi təhlükəsizlik şəbəkəsi deyil, həm də cəmiyyətin öz üzvlərinin rifahı və ləyaqətinə sadiqliyini əks etdirən mənəvi imperativdir. Getdikcə daha mürəkkəb və bir-biri ilə əlaqəli olan dünyanı gəzdiyimiz zaman, möhkəm sosial təminat sistemlərinin əhəmiyyətini qiymətləndirmək olmaz (Christie G.A., 2023).

Demoqrafik dəyişikliklərdən tutmuş iqtisadi qeyri-müəyyənliklərə qədər sosial təminatın üzləşdiyi problemlər proaktiv və innovativ yanaşmalar tələb edir. Siyasətçilər öz strategiyalarında davamlılıq, səmərəlilik və inklüzivliyə üstünlük verməlidirlər. Bura yeni maliyyələşdirmə mexanizmlərinin tədqiqi, sadələşdirilmiş xidmətlər üçün texnologiyadan istifadə və hökumətlər, biznes və vətəndaş cəmiyyəti arasında tərəfdaşlığın təşviqi daxildir.

Bundan əlavə, sosial təminat siyasəti dəyişən sosial ehtiyaclara və reallıqlara cavab verməlidir. Bu, konsert işi kimi yeni ortaya çıxan məşğulluq formalarının həllini və qadınlar, əlillər və təcrid olunmuş icmalar da daxil olmaqla həssas qruplar üçün adekvat əhatə dairəsinin təmin edilməsini əhatə edir. İnklüziv sosial təminat çərçivələrinin formalaşdırılmasında bərabərlik və ayrı-seçkiliyə yol verilməməsi prinsiplərini dəstəkləyən hüquqa əsaslanan yanaşma vacibdir.

**Cədvəl 1**

**Azərbaycanda sosial təminatla bağlı ən son statistik göstəricilər**

| Məlumatlar | Qiymətlər |
|---|---|
| **Cəmi qeydiyyatda olan pensiyaçılar (2023-cü il iyul 1)** | 1096.6 min |
| **Əhalinin pensiyaçılar tərəfindən təmsil edilmə faizi** | 10.8% |
| **Pensiyaların alınma səbəbləri** | |
| **- Yaşa görə** | 64.1% |
| **- Əlilliyə görə** | 23.6% |
| **- Ailə başçısının itirilməsi** | 12.3% |
| **Keçən ilə qarşılaşdırıldıqda qeydiyyatda olan pensiyaçıların dəyişikliyi** | |
| **- Ümumi** | 5.4% azalma |
| **- Əlilliyə görə** | 16.4% azalma |
| **- Ailə başçısının itirilməsi** | 9.7% azalma |
| **- Yaşa görə** | 0.4% artım |
| **Ortalama aylıq pensiya məbləği** | 435.0 manat |
| **Pensiyada artımın ötən illə müqayisədə faizi** | |
| **- Keçən ilə müqayisədə** | 18.2% artım |
| **- Cari ilin əvvəli ilə müqayisədə** | 16.9% artım |
| **Minimum pensiya məbləği** | 280 manat |
| **Sosial müavinət alan şəxslərin sayı** | |
| **- Yaşa görə müavinət alanlar** | 137.6 min |
| **- Əlilliyə görə müavinət alanlar** | 47.1 min |
| **- Ailə başçısının itirilməsinə görə müavinət alanlar** | 54.7 min |
| **- Digər müavinət növlərini alanlar** | 25.8 min |
| **Müxtəlif kateqoriyalardan faydalananların sayı** | |
| **- Şəhid ailələri və digərləri** | 7.9 min (5.1 min ailələr üçün) |
| **- Valideyni olmayan uşaqlar** | 196 |

| | |
|---|---|
| **- Çoxlu uşaqlı ailələr** | 2.6 min (11.2 min uşaqlar üçün) |
| **- İş yaralanması və ya peşə xəstəliyinə görə ziyan çəkənlər** | 304 |
| **Dövlət sosial yardımı alan ailələrin sayı** | 80.3 min ailə |
| **Prezident təqaüdü alanların sayı** | 388.2 min |
| **Hər bir şəxsin ortalama dövlət sosial yardımı məbləği** | 105.32 manat |

**Mənbə:** Ölkədə sosial təminat haqqında. 2024

Cədvəldə göstərilən məlumatlara əsaslanan bir nəticə:

Təqdim olunan məlumatlar 2023-cü il iyulun 1-nə Azərbaycanda pensiyaçılar, sosial müavinətlər və dövlət yardımı ilə bağlı mühüm rəqəmləri əks etdirir. Qeydiyyatda olan pensiyaçıların ümumi sayı 1096,6 min nəfər olmaqla əhalinin 10,8 faizini təşkil edir. Pensiyaçıların əksəriyyəti yaşa bağlı amillərə görə (64,1%), əlilliyə görə (23,6%) və ailə başçısını itirməyə görə (12,3%) müavinət alır.

Əvvəlki illə müqayisədə qeydiyyatda olan pensiyaçıların sayında 5,4% azalma, əlilliyə görə (16,4%) və ailə başçısını itirməyə görə (9,7%) nəzərəçarpacaq dərəcədə azalma, yaşa görə pensiyalar isə 0,4 faiz bir qədər artıb. %. Pensiyaların orta aylıq məbləği ötən illə müqayisədə 18,2% artaraq 435,0 manata çatıb (Ölkədə sosial təminat haqqında, 2024).

Bundan əlavə, müxtəlif kateqoriyadan olan şəxslər sosial müavinətlər, o cümlədən yaşa və əlilliyə görə müavinətlər, habelə ailə başçısını itirmiş ailələrə yardım alırlar. Dövlət sosial yardımı 80,3 min ailəyə verilir, hər nəfərə düşən orta aylıq məbləğ 105,32 manat təşkil edir.

Bütövlükdə bu statistika Azərbaycanda pensiya məbləğlərində düzəlişlər, sosial müavinətlərin artırılması və əhalinin müxtəlif təbəqələrinə ünvanlı dəstəyin göstərilməsi ilə sosial rifahın gücləndirilməsi istiqamətində səyləri əks etdirir (Xiang Y., 2011).

Sosial təminat təminatının mərkəzində insan ləyaqətinə və sosial ədalətə sadiqlik dayanır. Söhbət fərdlərin yoxsulluqdan, etibarsızlıqdan və təcriddən azad, dolğun həyat sürmək üçün səlahiyyət verməkdən gedir. Əhalinin müdafiəsi siyasətinin gələcəyini təsəvvür edərkən, cəmiyyətin gücünün onun ən həssas üzvlərinə nə qədər qayğı göstərməsi ilə ölçüldüyünü dərk edərək, həmrəylik, şəfqət və möhkəmlik dəyərlərinə üstünlük verməliyik (Zboril M., 2022).

Bu kontekstdə davamlı dialoq, tədqiqat və beynəlxalq əməkdaşlıq mühüm əhəmiyyət kəsb edir. Ən yaxşı təcrübələri bölüşməklə, müxtəlif təcrübələrdən öyrənməklə və sərhədlər boyu əməkdaşlıq etməklə biz bütün dünyada sosial təminat sistemlərini gücləndirə bilərik. Birlikdə biz hər bir fərdin inkişaf edə və cəmiyyətin kollektiv rifahına töhfə verə biləcəyi daha ədalətli, əhatəli və davamlı gələcək qura bilərik.

## Ədəbiyyat


1. Abdullayeva R.S. (2019) Sosial təminat: liberal və dirijist iqtisadi sistemlərdə. Elm və Bilik, https://www.researchgate.net/publication/365027441_Sosial_tminat_liberal_v_dirijist_iqtisadi_sistemlrd
2. Christie G.A. (2023) A Survey Study of Social Media User Awareness Towards Personal Identifiable Information's Data Security in Indonesian Millennial Generation. 3rd International Conference on Electronic and Electrical Engineering and Intelligent Systems (ICE3IS). IEEE

3. Əliyev Ə.N. (2007) Sosial təminat hüququ. Dərslik. Bakı, Adiloğlu, 464 s.
4. Oehri C. (2012) Social media security culture. In Information Security for South Africa. IEEE.
5. Ölkədə sosial təminat haqqında. (2024) https://www.stat.gov.az/news/index.php?lang=az&id=5593
6. Xiang Y. (2011) To Strengthen the Role of Social Security in Emergency Management. International Conference on Management and Service Science. IEEE
7. Zboril M. (2022) Relation of Security Risks and Configuration. Ninth International Conference on Social Networks Analysis, Management and Security (SNAMS). IEEE

## SOCIAL SECURITY: SOCIO-ECONOMIC CONDITIONS FOR PROTECTION OF WELFARE AND INCLUSIVE DEVELOPMENT OF SOCIETY

**S.F.Yusifova**

### SUMMARY

This article discusses the main principles, challenges and strategies related to the provision of social security as a population protection policy.

## СОЦИАЛЬНОЕ ОБЕСПЕЧЕНИЕ: СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКИЕ УСЛОВИЯ ДЛЯ ЗАЩИТЫ БЛАГОСОСТОЯНИЯ И ИНКЛЮЗИВНОГО РАЗВИТИЯ ОБЩЕСТВА

**С.Ф.Юсифова**

### РЕЗЮМЕ

В статье обсуждаются основные принципы, проблемы и стратегии, связанные с обеспечением социального обеспечения как политикой защиты населения.

*Məqalə redaksiyaya 13 may 2024 tarixində daxil olmuş, 14 may 2024 tarixində isə çapa qəbul olunmuşdur.*

# T İ B B,
# B İ O L O G İ Y A
# V Ə P S İ X O L O G İ Y A
# E L M L Ə R İ B Ö L M Ə S İ

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

**2024 - № 63**

UOT № 159.9

# 44 GÜNLÜK İKİNCİ QARABAĞ MÜHARİBƏSİ SONRASI TRAVMA ALMIŞ QAZİLƏRƏ PSİXOLOJİ YARDIMIN ƏHƏMİYYƏTİ

**H.O.Seyhan**
Bakı Dövlət Universiteti
Bakı, Akademik Zahid Xəlilov küçəsi 23
e-mail: hknsyhnnn@gmail.com

***Açar sözlər:*** müharibə, posttravmatik stress, qazilərlə psixoloji iş, depressiyanın aradan qaldırılması, travmatik reabilitasiya

***Keywords:*** war, post-traumatic stress, psychological work with veterans, overcoming depression, traumatic rehabilitation

***Ключевые слова:*** война, посттравматический стресс, психологическая работа с ветеранами, преодоление депрессии, травматическая реабилитация

## Giriş

Müharibədə ölkəmiz minlərlə oğlunu şəhid verdi, minlərlə gənc döyüşçümüz ordudan qazi olaraq qayıtdı. Bundan sonra postravmatik mərhələlər üzərində işlərin aparılması zərurəti yarandı. Müharibədə iştirak etməsə belə, bunun travmasından əziyyət çəkən insanlar varkən, siz bir də sırf müharibədə iştirak edib bunu canlı yaşayanların psixoloji vəziyyətini düşünün. Onu qeyd etmək yerinə düşər ki, müharibə iştirakçılarının əksər hissəsini gənclər təşkil etdiyindən, uzun zamandır sakit, sabit ab-havaya öyrəşmiş gənclərin birdən-birə od-alovun içində bir vətənpərvərlik duyğusu ilə torpaqlarını azad etmə mərhələsi onların gəncliyi ilə deyil, mərdliyi ilə ölçülməlidir. Çünki müharibə meydanında yaşadıqları bu gəncləri xeyli böyütdü. Şəhidini sinəsində daşıyan oğullar müharibədən sonra yaşadıqları bir çox hallarla bacara bilmədilər və elə bunun nəticəsi idi ki, bir dönəm Azərbaycanda qazilərin intihar dalğası başladı. Dövlət və aidiyyatlı orqanlar, eyni zamanda bu sahədə ixtisaslı olan hər kəs qazilərin psixoloji reabilitasiyası üçün səfərbər oldu. Bildirmək lazımdır ki, müharibə sonrası reabilitasiya üçün ölkədə yetəri qədər potensial qüvvə olmadığından hətta xaricdən, xüsusilə Türkiyədən psixoloq heyət cəlb olundu. Psixoloqlar bölgə-bölgə gəzərək, qazilərin həyat və psixoloji durumları ilə maraqlanıb, əllərindən gələni əsirgəmədilər. Bu iş heç də asan deyil. Əvvəla, bu insanların durumu bir-iki seansla tamamlanacaq bir vəziyyət deyil. Digər bir problem isə seansların uzunmddətli və mütəmadi şəkildə icrasının təşkil olunması idi. Postmüharibə mərhələsində mənəvi-psixoloji baxımdan zədə görmüş insanları təkrar cəmiyyətə qaytarmaq üçün şəhid ailələri, müharibə əlilləri ilə iş düzgün, eyni zamanda planlı şəkildə qurulmalıdır. Onlarla ümumi iş aparılmalı, insanlar ayrı, fərdi konsultasiyalar isə ayrılıqda aparılmalıdır. Birdən-birə sağlamlığını itirərək qazi kimi geri dönən insanların travma nəticələri daha ağır olur [2, s.23].

Bu insanların cəmiyyətə yenidən adaptasiyasını təmin etmək üçün dünya təcrübəsindən mütləq şəkildə istifadə olunmalıdır. Nümunə üçün bildirək ki, ingilis psixoloqu Charles Samuel Myers artıq müharibədən sonra bir sıra durumları araşdıraraq, "Müharibə depressiyası" adlandırılan psixoloji bir xəstəlik aşkarlayıb və psixologiya elmi-

nə “Vyetnam sindromu”, “Koreya sindromu” ,“Əfqan sindromu” kimi terminlər daxil edib ki, bunlar postmüharibə dövründə insanların psixoloji durumunu əks etdirir [6, s.247].

Uzun müddət davam edən depressiya halları, səsə qarşı həssaslıq və postravmatik stress çətin müharibə vəziyyətindən sağ çıxan insanların düşdüyü ağır durumdur. Onlar normalda insanın görmədiyi, bilmədiyi ən ağır vəziyyətlə üzləşirlər. Yaxın dostlarını itirir, gözləri önündə parçalanmış meyitləri görür, əsir düşmək kimi bir qorxu yaşayırlar. Bütün bu güclü gərginlik, qorxu hissi həmin vaxt beynin fəaliyyətini alt-üstedir. Bu zaman həyati vacib proseslər pozulur. İnsan sanki canlı heykələ çevrilir. Güclü stress nəticəsində beynin normal sferası zədələnir, bu işdə yardım üçün mütləq klinik psixoloq və hərbi sahədə işləyən psixoloqlar cəlb edilərək işin effektivliyi artırılır. Sadə insan və ya bu sahədə peşəkar olmayan mütəxəssisin işi effekt vermir. Zədəli beyin isə boşluq və çarəsizlik hiss etdiyindən bütün köməkləri faydasız sayır, nəticədə əlillər arasında intihar halları yaranırdı. Zamanında lazım olan dəstək verilmədikdə bu insanlarda depressiya, yuxusuzluq, aqressiya müşahidə olunur. Hətta belə insanlar müharibə zamanı yaşadıqları anı təsirlənərək yenidən yaşayırlar, kabuslar görürlər və belə halda həm özlərinə, həm də yaxınlarına zərər yetirirlər. Müharibəsonrası psixoloji reabilitasiya zamanı bu insanlar üçün xüsusi dərnəklər təşkil olunur, burada reabilitasiya zamanı həm də onların ailə üzvləri iştirak edir.Psixoloji konsultasiyalar tətbiq olunur. Ailə üzvlərinə belə hallarda necə davranmalı olduqları haqqında məlumat verilir. Hansı ki, bütün bunlar vəziyyətə kompleks yanaşmanı təmin edir [4, s.157]. Psixoloq prosedur zamanı, ailə üzvləri isə evdə travmalı insanla lazım olan şəkildə davrandıqda reabilitasiya həm effektli, həm də tez özünü göstərir. Beyində yaranan gərginliyi aradan qaldırmaq üçün qrup məşğələləri də münasibdir. Burada insanların xüsusilə, əlilliyi olanların uyğun sahələrə yönləndirilməsi nəticəsində beyin fəaliyyəti sakitləşir, fikir yayınır və bu öz növbəsində onlarda mənfi halların azalmasına səbəb olur. Nisbətən ağır durumda olanlarla isə davamlı şəkildə fərdi konsultasiyaların aparılması mühüm əhəmiyyət kəsb edir. Azərbaycanda müharibə sonrası travmatik halların əlillər arasında azaldılması məqsədilə yuxarıda da qeyd etdiyim kimi kadr çatışmazlığı yaşandı. Bu məsələ ilə bağlı xaricdən kadrlar cəlb edildi və xarici təcrübələrdən də istifadə olundu. Digər bir məsələ isə kadrların özlərinin hazırlıq məsələsidir ki, bu yöndə də müəyyən işlər aparıldı və psixoloqlar üçün klinik psixologiya kimi təlimlər təşkil olunaraq qazilərin reabilitasiyalarına yönləndirildilər [1, s.153].

Əlillərin sosial-psixoloji reabilitasiyası strategiyasını təyin edərkən, bu, ilk növbədə, müəyyən bir psixoloji tədbirlər kompleksi olmalı, şəxsiyyətin emosional, mənəvi və motivasiya sahələrini əhatə etməli, bədənin funksional vəziyyətini bərpa etməyə, normallaşdırmağa yönəlməlidir. Müharibədən sonra əlillərin vəziyyətinin yaxşılaşdırılmasına doğru aparılan iş məhz bu səviyyədə qurulmalıdır. Yalnız bu şəkildə şəxsi uyğunlaşmanın optimal səviyyəsinə və hərbçinin peşəkar əhəmiyyətli keyfiyyətlərinə nail olmaq, hərbi peşəkar fəaliyyətini təmin etmək mümkün olur.

Yaralıların travmatik hadisələrə şüuraltı reaksiyalarının diaqnostikası üçün şüuraltı diaqnostika metodu istifadə olunur. Bu metodun diaqnostika prosesinə tətbiqi ilkin müsahibəni (hər biri 90 dəqiqə olmaqla 3 seans) və sonradan müasir kompüter texnologiyalarından istifadə edərək 25-ci kadr rejimində şüuraltına təqdim etmək üçün matrisin tərtibini əhatə edir.Prosedurun özü 45-60 dəqiqə çəkir. Bu isə klasterlərə qruplaşdırılmış stimullaşdırıcı sözlərin sayından asılıdır. Əldə edilən məlumatlar proqramın özü tərəfindən hesablanır və tədqiqatçılara şəxsiyyət skanı şəklində təqdim edilir (yaralıların təqdim olunan stimullara reaksiyalarını kateqoriyalara ayıran üç oxlu bir

quruluş: rasional-irrasional, açıq-mühafizə, əhəmiyyətli-əhəmiyyətsiz şəklində aydınlaşdırıcı analiz nəticəsi verilir). 25-ci kadr metodundan istifadə etməklə əldə edilən məlumatlar proyektiv üsullarla (semantik diferensial, Luşer testi, rəsm testləri) təkrar yoxlanılır. Belə bir çox səviyyəli araşdırma, yaralıların ehtiyaclarına mümkün qədər uyğunlaşdırılmış fərdi hərtərəfli reabilitasiya proqramını hazırlamaq və yaralıların psixoloji vəziyyətinin obyektiv mənzərəsini əldə etməyə imkan verir [6, s.217].

Müasir dövrdə əlillərlə psixoloji iş zamanı texnologiyaların psixokorreksiyaedici mexanizmləri seçilir: “əks ünsiyyət”, “qarşıdurma”, “cavab”, “sosial dəstək”, "platsebo", "anlama", "diqqətin yayınması", "nəfəs alma tipində dəyişikliklər", "Skelet-əzələ tonusunda dəyişikliklər", "birliklər", "ideomotorlar" kimi üsullardan istifadə olunmaqla onlarda ağrıların aradan qaldırılması, mənlik konsepsiyasının uyğunlaşdırılması, mübarizə strategiyalarının hazırlanması texnologiyaları aşılanır; döyüş əlilləri haqqında stereotipləri destigmatizasiya edən texnologiyalar reablitasiyalarında müsbət nəticələr almağa imkan yaradır.

Əlillik dərin psixoloji böhran kimi müəyyən edilir , hansı ki, bu nüans özünü sosial stereotiplərin dərk edilməsində və təcrübəsində özünü göstərir. Əlilliyi olan insanlar haqqında, əlilliyin sosial damğasının mənimsənilməsi, disharmoniya konsepsiyası , şəxsi və sosial şəxsiyyətinin pozulması onların sosial təcrid olunmasına gətirib çıxarır. Onlarla psixoloji iş zamanı mənlik anlayışının mənimsənilməsi, etdiklərinin nə qədər dəyərli olduğunun aşılanması prinsipləri önə çıxarılır. Beləcə, şəxsiyyətlə mübarizə strategiyasının effektivliyi sayəsində, əlilliyi olan şəxs artıq sağlıq yönündən daha çox, şəxsiyyət yönümünə köklənmiş olur.

Müharibə əlilləri ilə psixoloji iş zamanı onların maddi rifahlarının da dəstəklənməsi mühüm əhəmiyyət kəsb edir ki, dövlət bu istiqamətdə də əlilliyi olan şəxslərdən dəstəyini əsirgəmədi. Psixoloji dəstəklə yanaşı, ailə vəziyyətin sosial rifahın yaxşılaşdırılması yönündə bir sıra işlər aparıldı. Mütəmadi olaraq belə şəxslərin nəzarətdə saxlanılması, mövcud vəziyyətin stabil saxlanılması və psixoloji gərginliklərinin aradan qaldırılması yönündə davamlı işlərin aparılması prioritet mövzulardandır. Məsələ ondadır ki, depressiya halları hansısa bir çətin durum qarşısında yenidən təkrarlana və ya dərinləşə bilər. Sırf bütün bu məsələlər diqqətdə saxlanılaraq, müharibə əlillərinin postravmatik durumlarının aradan qaldırılması yönündə görülən işləri nəticəyönümlü hesab etmək olar.

Bu işdə ən əsas məsələ həm də cəmiyyətin üzərinə düşür. Müasir dövrün çətinlikləri ilə əlaqədar hər kəs sanki daim stress içindədir. Amma müharibə əlilləri ilə davranışda hamı maksimum dərəcədə diqqətli olmalıdır. Nəzərə almaq lazımdır ki, bu insanlar sağlıqlarından məhrum olublar. Digər bir mövzu isə onlara yanaşma ilə bağlıdır. Beləki, cəmiyyətdə bəzi insanlar müharibə əlillərinə yazıq kimi baxırlar. Əslində isə müharibə dəhşətindən keçmiş hər bir kəs qəhrəmandır. Onlara bu şəkildə yanaşma əlillərdə daha böyük ruh yüksəkliyi yaradar. Dövlət, psixoloqlar və cəmiyyətin birgə səyi nəticəsində İkinc Qarabağ Müharibəsi əlilləri ilə uzun bir müddət psixoloji reabilitasiya aparıldı. Bu yol kifayət qədər çətin oldu,çünki, həm əlillərin özünün vəziyyəti, həm kadr çatışmazlığı, digər tərəfdən isə onların təkcə Bakıda deyil, regionlarda məskunlaşması bu işə qismən mane törədirdi. Ən əsası sadəcə bir dəfə seans təşkil etmək yetərli deyildi. Regionlardan məktəb psixoloqlarının da bu işə cəlb edilməsi əlillərin reabilitasiyalarında çox dəstək oldu. Psixoloji baxımdan onlara durumun aşılanması, fiziki sağlamlıqlarının həyata bağlı motivasiya ilə əvəzlənməsi nə durumda olursa olsunlar hər birimiz üçün dəyərli olmaları kimi motivəedici seanslar onların psixoloji reabilitasiyasında mühüm əhə-

miyyət kəsb edir.

II Qarabağ müharibəsində iştirakçısı olan hərbi qulluqçularla reabilitasiya mərkəzlərində zəruri olan tədbirlər reallaşdırılır. Reabilitasiya mərkəzlərində fizioterapiya üsulları tətbiq olunur, müasir növ avadanlıqlardan istifadə edilir, eyni zamanda, müxtəlif psixoterapevtik metodlarla hərbi qulluqçular reabilitasiyaya işlərinə cəlb edilirlər. Hərbi qulluqçulara psixokonsultasiya, psixoterapiya, psixoprofilaktika, psixoloji dəstək kimi müxtəlif növ yardımın aparılması və eyni zamanda ehtiyac olduğu təqdirdə psixiatrlar tərəfindən müxtəlif dərman müalicələrinin aparılması işə kompleks yanaşmanı təmin edir. Dərman müalicələri problemin ağırlıq dərəcəsinə əsasən təyin olunur.

Psixoreabilitasiya işlərinin ən ümdə vəzifəsi psixo-emosional stressi azaltmaq, mənəvi sferanı bərpa etmək, şəxsi adaptiv potensialın dərəcəsini yaxşılaşdırmaqla yanaşı bədənin də funksional vəziyyətini bərpa etməkdir. Bütün bu proseslərin sonunda qarşıya qoyulan əsas məqsəd onların sonrakı peşə fəaliyyəti, şəxsi həyat baxımından, ünsiyyət bacarıqlarını inkişaf etdirməklə psixoloji özünütənzimləmənin əsas üsullarını öyrətməkdir.

## Ədəbiyyat


1. Cavadov R.Ə., Tağıyeva G.B. (2010) Ekstremal şəraitlərdə psixoloji xidmət. Bakı, 260 s.
2. Əliyev N.A., Gözəlov S.S. (2000) Hərbi qulluqçu şəxsiyyətinin psixologiyası və hərbi intizamın möhkəmləndirilməsi məsələsi. Bakı, 47 s.
3. Əliyev N.A., Gözəlov S.S. (2000) Hərbi qulluqçuların döyüş fəaliyyətinin və xidmətinin psixoloji təhlili. Bakı, 59 s.
4. Караяни А.Г., Полянский М.С. (2004) Психологическая реабилитация участников боевых действий // Военная психология. В 3-х кн. Кн.3. М.: ВУ.
5. Куксова Н.А. (2005) Психологическая коррекция постреактивной личностной изменчивости у военнослужащих после сочетанной боевой травмы. Дисс. к.псих.наук. Ставрополь.
6. Кавокин С.Н. (2002) Социальное управление процессом комплексной реабилитации инвалидов. Дисс.к.соц.наук, М., 308 с.


## THE IMPORTANCE OF PSYCHOLOGICAL ASSISTANCE TO THE INJURED VETERANS OF THE 44 DAYS SECOND KARABAKH WAR

**H.O.Seyhan**

## SUMMARY

This article discusses the importance of psychological work with the people disabled in the Second Karabakh War. In the writing of the article, the daily press news, the literature dedicated to the psychology of military personnel during the war, the literature on psychological work with the disabled in the post-traumatic period, and the experience of individual psychologists have been used.

# ВАЖНОСТЬ ПСИХОЛОГИЧЕСКОЙ ПОМОЩИ РАНЕНЫМ ВЕТЕРАНАМ 44-ДНЕВНОЙ ВТОРОЙ КАРАБАХСКОЙ ВОЙНЫ

**Х.О.Сейхан**

## РЕЗЮМЕ

В статье обсуждается психологическая работа с инвалидами Второй карабахской войны. При написании статьи использовались ежедневные новости СМИ, литература, посвященная психологии военнослужащих в годы войны, литература по психологической работе с инвалидами в посттравматический период, а также опыт отдельных психологов.

*Məqalə redaksiyaya 18 yanvar 2024 tarixində daxil olmuş, 19 yanvar 2024 tarixində isə çapa qəbul olunmuşdur.*

UOT № 159.9

# İKİNCİ QARABAĞ MÜHARİBƏSİ SONRASI QAZİLƏRİN POST-TRAVMATİK STRESS VƏZİYYƏTLƏRİ

**H.O.Seyhan**
Bakı Dövlət Universiteti
Bakı, Akademik Zahid Xəlilov küçəsi 23
e-mail: hknsyhnnn@gmail.com

***Açar sözlər:*** müharibə, posttravmatik stress, davranış pozğunluğu, əlil, qazi, depressiya
***Keywords:*** war, post-traumatic stress, conduct disorder, disabled, veteran, depression
***Ключевые слова:*** война, посттравматический стресс, расстройство поведения, инвалид, ветеран, депрессия

## Giriş

Əsrlər boyu davam edən müharibələr bir tərəfin zəfəri, digər tərəfin məğlubiyyəti ilə bitmiş, və ya sadəcə dondurularaq, illərlə soyuq şəkildə davam etdirilmişdir. Azərbaycan dövlət olaraq 2020-ci ildə 30 illik bir müharibəni böyük Zəfərlə yekunlaşdırdı. Sadəcə 44 günə işğal olunmuş torpaqlarını deyil, birinci Vətən müharibəsində əsir alınan, qaçqın düşən, öldürülən hər kəsin qisasını aldı desək yeridir.

Amma müharibə sadəcə zəfərlə bitmir. Alınan canlar, tökülən qanlar hesabına torpaq Vətən olur. Müharibə özü ağır psixoloji durumdur. Müharibədən sonra insanların psixoloji durumundakı gərginlik, yuxusuzluq, apatiya halları ən çox müharibədə əlil olan insanların payına düşür. Xüsusilə qeyd etməliyik ki, müharibədən sonra Azərbaycanda əlillərin üintihar halları geniş yayılmağa başladı. Müharibə əlilləri arasında yaranan bu durum hər kəsi narahat edirdi. Təbii ki, ölkə psixoloqları müharibədən sonra əlillərlə psixoloji reabilitasiya aparırdı. Amma bu davamlı şəkildə reallaşdırılmalı durum idi. İntihar dalğası ölkəni bürümüşdü. Daha sonra problemə tez reaksiya verən dövlət bu müharibədən keçən insanlara kömək etmək üçün qardaş Türkiyədən olan psixoloqları da cəlb etdi. Beləliklə, 2021-ci ildə veteranlara psixoloji yardım göstərmək üçün xüsusi komissiya yaradıldı. Sonda bir çox veterana kömək etmək və intihar dalğasını dayandırmaq mümkün oldu [2, s.24].

İkinci Qarabağ müharibəsi veteranlarına və əlillərinə maddi dəstək vermək üçün bir çox fondlar yaradılsa da döyüşlərin ən qaynar nöqtələrindən keçmiş insanların mütəxəssislərin köməyinə ehtiyacı var. Çox vaxt ölüm və psixikaya təsir edən digər neqativ hadisələr görən insanlarda travma sonrası stress pozğunluğu yaranır. Bu, insan psixikasına çox güclü mənfi təsir göstərən tək və ya təkrarlanan hadisə nəticəsində baş verən ağır psixi vəziyyətdir. TSSB-də psixoloji travmadan sonra psixo-patoloji təcrübələr (*flashbacks*), travma xatirələrini aktivləşdirə biləcək şeylərdən qaçınmaq, kabuslar və yüksək səviyyədə narahatlıq kimi bir qrup xarakterik simptomlar davam edir.

TSSB simptomları zədədən dərhal sonra görünməyə bilər, lakin bir müddət sonra, hətta bir neçə il keçdikdən sonra belə bu simptomlar özünü göstərə bilər, bunun nə qədər davam edəcəyini isə proqnozlaşdırmaq mümkün deyil [1, s.27]. Araşdırmalar göstərir ki, travmadan sonrakı ilk günlərdə hadisəni yaşayan insanların çoxu psixoloji baxımdan təsir-

lənir, qorxur və kabuslar görür, lakin bu əlamətlər bir çox insan üçün günlər və ya həftələr içində yox olur. Bununla belə, təsirlənmiş hər 5-6 insandan biri üçün simptomların aradan qaldırılması daha uzun, bəzən illərlə davam edə bilər. "Zaman hər şeyin dərmanıdır" deyimi hər kəsə aid deyil.

Azərbaycanda məhz müharibədən sonra əlillərin, ümumiyyətlə, müharibə iştirakçıları arasında yaranan bu intihar dalğası, həm dövlət, həm də insanları narahat edirdi. Təbii ki, veteranların heç də hamısı psixoloji pozuntu nəticəsində intihara cəhd etməyib. Məsələn, onlardan biri ona əlillik qrupu yaratmaqdan imtina etməsi və ailəsini dolandırmaq üçün vəsaitin olmaması nəticəsində intihara cəhd edib. Hətta ailə problemləri zəmnində olsa belə, burda mütləq psixoloji pozuntu simptomları vardır ki, bu da müharibə sonrası travmaların səbəb olduğu haldır. Yadda saxlamaq lazımdır ki, TSSB psixikanın təhrifində ciddi rol oynaya bilər və bu hərəkətləri təhrik edə bilər [2, s.18].

Təbii ki, ölkədə xeyli sayda döyüşçüləri əhatə edən psixoloji reabilitasiya proqramları hazırlanmışdır, onlardan bəziləri hətta xarici ölkələrdə də bu proqramlardan keçiblər. Ancaq bunun tam olaraq kimə lazım olduğunu müəyyən etmək həmişə mümkün olmur, çünki post-travmatik stress pozğunluğunun simptomları çox vaxt çılpaq gözlə görünmür, o, gizli şəkildə inkişaf edir və davam edir - bu insanların öz daxilində nələr yaşadığını, nələr yaşadığını, hansı kabusları gördüyünü bilmirik.

Müharibənin ekstremal şəraiti hərbi əməliyyatlarda bilavasitə iştirak etmiş insanların şüurunda və müvafiq olaraq davranışlarında iz buraxır və onların bütün sonrakı həyatında əks olunur. Və bu insanlar arasında istər-istəməz "itirilmiş nəsil"ə aid edilə bilən və özləri də ona aid olduğunu hiss edənlər olacaq [3, s.101-110].

Müharibə sonrası əlillərlə iş aparan psixoloqlar onlarda əsasən bu kimi məqamların yarandığını və aşağıdakı problemlərlə iş apardıqlarını bildirirlər:

- yuxunun pozulması, təkrarlanan kabuslar və qeyri-iradi xatirələr, iştahanın pozulması;
- şəxsi əsas ehtiyaclarla əlaqənin pozulması, sonuncu dəfə nə vaxt yediyinizi, yatdığınızı xatırlamırsınız, xəsarətləri, soyuqluğu, kirləri hiss etmirsiniz;
- daimi sayıqlıq və daimi təhlükə gözləməsi vəziyyəti, gərginlik hissi, bədən yuxuda belə rahatlaşmır;
- travmatik bir hadisənin zehnində təkrarlanan və obsesif reproduksiya, yaşanmış şəkillər, iradənizin əksinə, zehninizdə "yanıb-sönməsi";
- həddindən artıq əsəbilik, ən kiçik çətinliklərə dözümsüzlük, fikir ayrılığı;
- təqsirkarlıq hissi, beynində ölüləri xilas etmək üçün nə edilə biləcəyi ilə bağlı daim fırlanan fikirlər;
- idarəolunmaz qəzəb və ya ümidsizliyə nəzarət etmək çətin olan hücumlar;
- depressiya, apatiya, sönüklük, unutmaq istəyi, yaşamaq istəməməsi.

Xüsusilə ağır hallarda, reallığın adekvat qavranılmasının itirilməsi ilə psixotik epizodlar baş verə bilər. Xəstənin yaşadığı stress tez-tez son dərəcə sıx yaşadığı qayğıdır və bəzən hücumu dayandırmaq üçün intihar düşüncələrinə səbəb olur [4, s.687].

Müharibə təkcə döyüş dövrü ilə bitmir. Bu hal cəmiyyətdə olduğu kimi insanların da psixoloji durumlarında dəyişikliklərə səbəb olur. Təkcə müharibə əlilləri deyil, müharibədə yaxınlarını itirənlər, müharibədə dostlarının ölüm anını görənlər, müharibə durumlarını bilavasitə ştirakçılardan eşidənlər, ümumiyyətlə, bu hallarla qarşı-qarşıya qalanlar mühariənin fəsadlarından əziyyət çəkənlərdir. Xüsusilə, veteranlar, qazilərlə psixoloji reabilitasiya bir müddət davamlı aparılmalıdır. Davranış pozuntularının, ka-

busların bitməsi artıq sağlamlıq xəbərini versə də, zamanla mütəmadi görüşlərin təşkili, onların normal həyatlarına qayıtmasını təmin etmək mühüm vəzifələrdəndir [5, s.21].

Müharibə insanları tez böyüdür, həyat dəyərlərini anlamağı öyrədir, bir döyüşçünün dinc şəraitdə uzun illər xidmətində ala bilməyəcəyi bir şey verir. Odur ki, gəncliyin sosial kateqoriya olması prizmasından çıxış etsək, müharibədə iştirak edən hərbçilərimiz üçün gənclik sözü bir qədər gərgin səslənir: onların başına gələn sınaqların və sarsıntıların gəncliklə heç bir əlaqəsi yoxdur. Fors-major vəziyyətin tələblərinə tabe olan gənclər real böyüklər həyatına cəlb edilirlər. Təbii ki, bu da müharibə sonrasında onların həyatlarına təsirsiz ötüşmür və yuxarıda qeyd etdiyimiz qayğıları yaradır. İnsanın uyğunlaşma imkanlarını aşan hər hansı ekstremal təsir gələcək həyatda böyük iz buraxır. Müharibə ilə bu yolun ən dəhşətlisidir [6, s.117].

Bundan əlavə, xüsusi vurğulamalıyıq ki, insan fiziki təhlükəyə qarşı müdafiə formalaşdırırsa, eyni zamanda daha kiçik və gündəlik problemlərlə bağlı psixoloji müdafiəni itirir. Gündəlik kobudluqla üzləşən veteranlar daha sərt və aqressiya göstərirlər. Biz bu kimi halları müharibə iştirakçılarından, xüsusilə, sağlamlığını itirmiş gənclərdən görürük. Özlərini xor görmək, sağlam insanların yanında sanki alçaldığını hiss etmək, bu hallarla yanaşı ailə ehtiyaclarını qarşılamaq üçün fiziki imkanlarından məhrum olmalarını beyində formalaşdırmaq onların depressiya hallarını zərurətə çevirir. Təbii ki, bütün bunların aradan qaldırılması üçün müharibədən sonra əlillərlə iş üzrə müxtəlif dövlət proqramları tərtib olunur ki, onların psixoloji reabilitasiyalarına imkan yaransın.

Depressiya halların aradan qaldırılaraq bu insanların yenidən cəmiyyətə qaytarılması yönündə aparılan işlər ilk dönəmlərdə yaxşı effekt verə bilər, amma davamlı şəkildə aparılması bu halların yenidən qayıtmasının qarşısını alacaqdır. Eyni zamanda bu cür şəxslərlə iş təkcə onların özü ilə yekunlaşmır. Müharibədən sonrakı dönəm psixoloqlarla iş göstərdi ki, eyni zamanda onların yaxınları və ailə üzvləri də komplek şəkildə bu müalicəyə qatılmalıdırlar. Burada söhbət təkcə onların yaxınlarının sağlamlığı ilə bağlı keçirdiyi sarsıntıdan getmir. Eyni zamanda artıq psixoloji halı zədələnmiş bir insanla gündəlik həyatda necə davranmaq, ona necə dəstək olmaq mövzuları da əhəmiyyət kəsb edir.

Məlumat üçün bildirək ki, müharibə sonrası ölkəmizdə müharibəəlilləri ilə aparılan iş xeyli aktual mövzu idi. Hətta bu yöndə yaranan çatışmazlıqlar qismən bu işin axsamasına səbəb olurdu. Buna görə bölgələrdən olan məktəb psixoloqlarının belə köməyinə ehtiyac duyulurdu. Təbii ki, qarşısındakı insanın onu nə dərəcədə anlaması, onun dəyərlərinə önəm verməsi kimi amillər əlillərdə qismən də olsa aqressiyanı azaldırdı və yalnız bundan sonra onlarla psixoloji işə başlamaq müsbət nəticə verəcəkdi. Müharibə sonrası əlillər, onların yaxınları ilə aparılan psixoloji reabilitasiya dönəmi heç də asan keçmədi. Çünki ilkin vaxta reabilitasiyaya ehtiyac duyan yüzlərlə əlil, elə bir o qədər də yaxınları vardı. Şəhid ailələri, onların yaxınları bütün bu insanların hər birinə tap psixoloji dəstək göstərmək kifayət qədər çətin idi. Bu dönəmlərdə fərdi yanaşmalarla yanaşı psixoloji seansların qrup şəklində də icrası qismən də olsa həmin çətin durumlarda psixoloji reabilitasiyaya ehtiyacı olanlara dəstək oldu. Sonradan isə artıq sırf fərdi ehtiyac duyanlarla birbaşa işlərin aparılması ölkədə müharibə sonrası əlillərin cəmiyyətə yenidən qaytarılmasına, onlardı travmaların qismən də olsa səngiməsinə zəmin yaratdı.

Psixoloji vəziyyətin gərginləşməsi elə bir haldır ki, əlalxüsus belə bir həssas mövzuda yüzlərlə insanın taleyindən söhbət gedirsə, bu zaman onun mənfi nəticələri mütləq özünü göstərir. Necə ki, həm dövrün çətin zamanlarında ölkəni bürüyən bir intihar dalğası

vardı. Bu sahədə aparılan işlərin nəticəsidir ki, bu gün əvvəllər gündəlik eşitdiyimiz intihar xəbərlərini artıq eşitmirik. Nəticə etibarilə artıq sağlamlığını itirmiş insanlar cəmiyyətə inteqrasi olaraq özlərindən utanmırlar və sağlamlıqlarını nəyin bahasına dərk etdiklərini anlayırlar. Onlarla aparılan psixoloji reablitasiya isə mütəmadi olaraq zaman-zaman təkrarlanmaqla depressiya, aqressiya kimi halların geri gəlməsinin qarşısını alacaqdır.

## Ədəbiyyat

1. Əliyev N.A., Gözəlov S.S. (2000) Hərbi qulluqçu şəxsiyyətinin psixologiyası və hərbi intizamın möhkəmləndirilməsi məsələsi. Bakı, 47 s.
2. Posttravmatik stress pozuntusunun diaqnostika və müalicəsi üzrə klinik protokol. (2013) Azərbaycan Respublikası Səhiyyə Nazirliyi. Bakı, 44 s.
3. Cottraux J, Note I, Yao S.N, Mey-Guillard C.D, Bonasse F. Djamoussian D., Mollard E., Note B., Chen Y. (2008) Randomized controlled comparison of cognitive behavior therapy with Rogerian supportive therapy in chronic post-traumatic stress disorder: A 2-year follow-up. Psychother Psychosom, p.101-110
4. Johnson D.R., Westermeyer J., Kattar K, et al. (2002) Daily charting of posttraumatic stress symptoms: a pilot study. J. Nerv. Ment. Dis., p.683-692
5. Авдиенко Г.Ю. (2018) Психологическая коррекция и реабилитация участников боевых действий. Учебник и практикум для бакалавриата и специалитета. Москва, 29 с.
6. Евдокимов В.И., Рыбников В.Ю., Шамрей В.К. (2018) Боевой стресс: наукометрический анализ отечественных публикаций. Санкт-Петербург, 172 с.

## POST-TRAUMATIC STRESS DISORDER IN VETERANS AFTER SECOND KARABAKH WAR

**H.O.Seyhan**

## SUMMARY

This article focuses on the post-traumatic stress disorder in war veterans. The importance of the organization of psychophysiological and psychosocial rehabilitation works with war participants who suffer various physiological and psychological traumas due to a number of mental disorders and complete or partial loss of fighting ability, and the implementation of numerous projects to strengthen the psycho-social protection of military personnel is stated. The daily press news, the literature dedicated to the psychology of military personnel during the war, the literature on psychological work with the disabled in the post-traumatic period, and the experience of individual psychologists have been used.

# ПОСТТРАВМАТИЧЕСКОЕ СТРЕССОВОЕ РАССТРОЙСТВО ВЕТЕРАНОВ ПОСЛЕ ВТОРОЙ КАРАБАХСКОЙ ВОЙНЫ

**Х.О.Сейхан**

## РЕЗЮМЕ

В статье речь идет о посттравматическом стрессовом состоянии ветеранов войны. Подчеркивается важность организации психофизиологической и психо-социальной реабилитационной работы с участниками войны, получившими различные физиологические и психологические травмы вследствие ряда психических расстройств и полной или частичной утраты боеспособности, и реализации многочисленных проектов по усилению психосоциальной защиты военнослужащих. Использовались ежедневные новости в прессе, литература, посвященная психологии военнослужащих в годы войны, литература по психологической работе с инвалидами в посттравматический период, а также опыт отдельных психологов.

.

*Məqalə redaksiyaya 18 yanvar 2024 tarixində daxil olmuş, 22 yanvar 2024 tarixində isə çapa qəbul olunmuşdur.*

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

**2024 - № 63**

UOT № 579

# SÜD MƏHSULLARINDAN ALINAN SÜD-TURŞU BAKTERİYALARININ XÜSUSİYYƏTLƏRİ VƏ ONLARIN BAĞIRSAQ PATOGENLƏRİNƏ TƏSİRİ

**Ş.S.Səfərova, G.M.Seyidova**
Azərbaycan Tibb Universiteti
Bakı, S.Vurğun küçəsi 163
e-mail: shahsanam.sf@gmail.com

***Açar sözlər:*** süd-turşu bakteriyaları, probiotiklər, bağırsaq patogenləri
***Keywords:*** lactic acid bacteria, probiotics, intestinal pathogens
***Ключевые слова:*** молочнокислые бактерии, пробиотики, кишечные возбудители

## Giriş

Bəzi mikroorqanizmlər antimikrobiyal birləşmələr istehsal etmək qabiliyyətinə malikdirlər. Bu mikroorqanizmlər arasında yer alan süd-turşu bakteriyaları antimikrob xüsusiyyətlərə malik peptidlər istehsal edə bilir, konservant olaraq istifadə edilə bilir və illərlə qidalarda etibarlı şəkildə istifadə edilir (8). Hal-hazırda dünyanın bütün ölkələrində tərkibi süd-turşu bakteriyaları ilə zəngin müxtəlif ağartı məhsulları qida kimi sənaye miqyasında geniş istehsal olunur (1). Süd turşusu bakteriyaları böyük əhəmiyyət kəsb edən mikroorqanizmlərdir, çünki onlardan fermentasiya nəticəsində sənaye sahələrində müxtəlif məhsullar alınır (5). Son tədqiqatlar insanlarda və heyvanlarda süd-turşu bakteriyalarının müxtəlif ştammlarının insan sağlamlığına müsbət təsirini göstərmişdir. Bunlara misal olaraq, laktoza həzminin yaxşılaşdırılması, ishal pozğunluqlarının müalicəsi, antibiotiklərlə əlaqəli ishalın qarşısının alınması və müalicəsinə təsirini göstərmək olar.

Süd-turşu bakteriyalarının insan orqanizmində patogenlik törədən Helicobacter, Campylobacter, Salmonella və Shigella cinsindən olan mikroorqanizmlərə qarşı antibiotik xassələrə malik olması son illər bu bakteriyaların öyrənilməsinə diqqəti xeyli artırmışdır. Bu bakteriyaların metobolizminin əsas məhsulu olan süd turşusu, insanın bağırsaq hərəkətliliyinə müsbət təsir göstərir, meteorizmi azaldır, həmçinin tüpürcək vəzilərinin sekretor fəaliyyətinə stimullaşdırıcı təsir göstərə bilir, onun iştirakı ilə kalsium, fosfor və dəmirin udulması yaxşılaşır. Bu nöqteyi-nəzərdən, tədqiqatın məqsədi üçün Bakı şəhərinin market şəbəkələrindən “Milla”, “Azərsüd”, “Atena”, “Dr.Milk”, “Aktivia” markalarına aid tur-süd məhsulları və həmçinin Qəbələ rayonundan gətirilən süd məhsullarından süd-turşu bakteriyaları ayrılmış və bu bakteriyaların kultural, mikroskopik, fermentativ xüsusiyyətlərini öyrənilmiş və onların bağırsaq patogenlərinə təsiri araşdırılmışdır.

## Material və metodlar

Süd-turşu bakteriyalarının əsas xüsusiyyətlərini öyrənmək məqsədilə Bakı şəhərinin market şəbəkələrindən “Milla” markasına aid 1.5% yağlılıqlı qatıq, 2.5% yağlılıqlı kefir, “Azərsüd” markasına aid 3.2% yağlılıqlı qatıq, 0.5% yağlılıqlı kefir, “Atena” markasına aid 3,6% yağlılıqlı qatıq, “”Dr. Milk” markasına aid 1.5% yağlılıqlı qatıq, 0.5% yağlı-

lıqlı kefir və "Aktivia" markasına aid sadə yoqurt, həmçinin Qəbələ rayonunda hazırlanmış süd və qatıq olmaqla 10 məhsul götürülmüşdür. İlkin olaraq, süd-turşu bakteriyalarının mikroskopiyası aparılmışdır. Tədqiqat zamanı həmçinin kultural metoddan da istifadə olunmuşdur. Bu məqsədlə ağartı məhsulları qanlı aqara, MRS (man, rogosa, sharpe) aqar, həmçinin, sadə qidalı mühitə sistein və qan əlavə etməklə tədqiqatlar aparılmışdır. Qidalı mühitlər 37°C temperaturda, 48-72 saat müddətində həm aerob həm də anaerob şəraitdə kultivasiya edilmişdir. Bu məqsədlə ƏPA istifadə olunmuşdur. Antimikrob təsir öyrənilərkən disk-diffuziya metodundan istifadə edilmişdir. Patogen mikrofloraya gəldikdə isə ATU-nun Tədris Cərrahiyyə Klinikasının mikrobioloji laboratoriyasında orta yaşlı xəstələrdə identifikasiya olunmuş Salmonella spp. və Shigella spp. istifadə olunmuşdur. Qidalı mühitlərdən steril pipetlərlə yığılan süd-turşu bakteriyalarının koloniyaları ependorflara yığılmış, daha sonra mikroorqanizmlərinin ifraz etdiyi antimikrob maddəni (süd-turşusu) mikroorqanizmlərdən ayırmaq məqsədilə sentrifuqada 10000 rpm-də 20 dəqiqə fırladılmışdır (7). Alınan ekstraktlar steril disklərə hopduruluraq 2 saat saxlanılır, qurudulur. Sonra antimikrob maddə hopdurulmuş disklər, disk-diffuziya metodunda istifadə edilərək, patogen bakteriyalara antimikrob təsiri öyrənilmişdir (10). Tədqiqat Azərbaycan Tibb Universitetin Tibbi Mikrobiologiya və İmmunologiya kafedrasında aparılmışdır.

## Nəticələr və onların müzakirəsi

Mikroskopiya zamanı "qram" üsulu ilə boyanmış yaxmalarda qram-müsbət, hərəkətsiz basillər (Şəkil 1) və kokobasillər (Şəkil 2) müşahidə edilmişdir.



Şəkil 1. Çubuq formalı süd-turşu bakteriyaları



Şəkil 2. Kokobasil formalı süd-turşu bakteriyaları

48-72 saatlıq kultivasiyadan sonra sadə qidalı mühitdə və MRS aqarda Lactobacillus spp., Lactococcus spp. aid orta ölçülü, boz rəngli "S" koloniyalar (Şəkil 3) aşkar edilmişdir. Qanlı aqarda isə süd-turşu bakteriyaları xırda koloniyalar və yaşıl hemoliz zonası əmələ gətirmişdir (Şəkil 4). Süd-turşu bakteriyaları spor əmələ gətirməyən, fakultativ aerob və katalaza mənfi bakteriyalardır (3).



Şəkil 3. Süd-turşu bakteriyaları MRS aqarda



Şəkil 4. Süd-turşu bakteriyaları qanlı aqarda

Süd-turşu bakteriyalarının antimikrob maddələrinin bağırsaq patogenlərinə təsiri öyrənilərkən qidalı mühitlərə əkilmiş 10 süd məhsulu Salmonella spp. və Shigella spp. qarşı müxtəlif antimikrob fəallıq göstərmişdir. Antimikrob təsir nəticəsində əmələ gələn inhibisiya zonası mm-lə ölçülmüşdür və öz əksini Cədvəldə tapmışdır.

| № | Süd məhsulları | STB cinsi | Qram boyama | Hüceyrə morfologiyası | Salmonella spp. qarşı antimikrob təsir | Shigella spp. qarşı antimikrob təsir |
|---|---|---|---|---|---|---|
| 1 | Azərsüd kefir | Lactobacillus | + | Zəncirşəkilli çöp, basil | 16 mm | 14 mm |
| 2 | Azərsüd qatıq | Lactobacillus | + | Zəncirşəkilli çöp, basil | 13 mm | 17 mm |
| 3 | Activia yoqurt | Lactobacillus | + | Zəncirşəkilli çöp, basil | 12 mm | 13 mm |
| 4 | Qəbələ süd | Lactococcus | + | qısa zəncirli kok | 4 mm | Zona əmələ gəlməmişdir |
| 5 | Qəbələ qatıq | Lactococcus | + | tək və qısa zəncirli kok | 10 mm | 15 mm |
| 6 | Dr.Milk kefir | Lactococcus | + | tək və qısa zəncirli kok | Zona əmələ gəlməmişdir | Zona əmələ gəlməmişdir |
| 7 | Dr.Milk qatıq | Lactococcus | + | tək və qısa zəncirli kok | Zona əmələ gəlməmiş-dir | 9 mm |
| 8 | Atena qatıq | Lactobacillus | + | zəncirşəkilli kokobasil | 15 mm | 16 mm |
| 9 | Milla kefir | Lactococcus | + | tək və diploid kok | 13 mm | 5 mm |
| 10 | Milla qatıq | Lactococcus | + | tək və qısa zəncirli kok | 18 mm | 12 mm |

Cədvəl. Müxtəlif süd məhsullarından ayrılmış süd-turşu bakteriyalarının morfoloji xüsusiyyətləri və patogenlərə antimikrob təsiri

Qeyd etmək lazımdır ki, inhibisiya zonası 20 mm və artıq olduqda biz süd-turşu bakteriyalarının patogen mikrofloraya yüksək təsirli effekti haqqında danışa bilərik. Ona görə də qeyd etmək lazımdır ki, tədqiqat zamanı istifadə olunan ağartı məhsulları orta anti-

mikrob təsirə malikdirlər. Tədqiqat nəticəsində müəyyən olunmuşdur ki, "Azərsüd" qatıq Shigella spp. qarşı antimikrob təsiri 17 mm olarkən, "Atena" qatıqda 16 mm, Qəbələ rayonunda hazırlanmış qatıqda isə 16 mm olmuşdur. Bu da onu göstərir ki, süd-turşu bakteriyaları daha yüksək təsiri Shigella cinsinə aid patogenlərə qarşı göstərmişdir. "Milla" markasına aid qatıq Salmonella spp. qarşı 18 mm antimikrob təsir göstərərkən, Shigella spp. qarşı 12 mm, həmin markalı kefir isə Salmonella spp. 13 mm, Shigella spp. qarşı isə 5 mm olmuşdur. Qəbələ rayonundan alınmış süd Salmonella spp. qarşı 4 mm, Shigella spp. qarşı isə antimikrob təsir göstərməmiş, süddən hazırlanmış qatıq isə Salmonella spp. qarşı 10 mm, Shigella spp. qarşı isə 15 mm təsir göstərmişdir. Baxmayaraq ki, Qəbələ südü birbaşa Qəbələ zonasından gətirilmiş, konservantsız və qatqısız olmuş, patogenlərə qarşı ya heç təsir göstərməmiş, ya da antimikrob təsir zəif olmuşdur. "Activia" markalı yoqurt isə çox tövsiyyə olunmasına baxmayaraq, Salmonella spp. antimikrob təsiri 12 mm, Shigella spp. qarşı isə 13 mm olmaqla zəif təsir göstərmişdir (Şəkil 5, 6).



Şəkil 5. Süd-turşu bakteriyalarının Shigella spp. qarşı antimikrob təsiri



Şəkil 6. Süd-turşu bakteriyalarının Salmonella spp. qarşı antimikrob təsiri

Süd-turşu bakteriyaları həmçinin insanın normal mikroflorasını təşkil edir və insanların ağız boşluğunda, bağırsaq nahiyəsində, sidik-cinsiyyət sistemində olur və probiotik xüsusiyyətlərə malikdir. İnsan orqanizminin immuniteti aşağı düşəndə (qeyri-rasional antibiotikoterapiya, xroniki və virus xəstəlikləri zamanı) orqanizmdə süd-turşu bakteriyalarının miqdarı azalır və disbakterioz kimi hallar yaranır. Bu nöqteyi nəzərən qida məhsullarında və yemlərdə probiotik kimi süd-turşu bakteriyalarının istifadəsi artmaqdadır. Süd-turşu bakteriyaları üzvi turşu, diasetil, asetoin, hidrogen peroksid, antifungal peptidlər və bakteriosinlər kimi müxtəlif antimikrobiyal birləşmələr istehsal edə bilər (9). Bu xüsusiyyətlərinə görə, xüsusilə son illərdə qida konservantları kimi istifadə olunmaları diqqət mərkəzindədir.

Probiotiklərin əsas tərkib hissəsi olan bifidobakteriyalar və laktobakteriyaların ifraz etdiyi bioloji aktiv maddələr arasında fermentlər əsas yer tutur. Fermentasiya nəticəsində süd turşusu əmələ gətirmək Lactobacillaceae ailəsinin bakteriyalarının əsas xüsusiyyətidir (5). Tədqiqat zamanı müxtəlif süd məhsullarından ayrılmış laktobakteriya-lar qlükoza, fruktoza, qalaktoza, maltozanı parçalayıb, qazsız yalnız süd-turşusu əmələ gətirirlər (2). Çiy süddə və fermentləşdirilmiş süd məhsullarında ən çox yayılmış süd-turşu bakteriyalarından Lactococcus növləri arasında L. lactis növüdür. Qlobal miqyasda hər il yüz milyon tondan çox süd L. lactis-dən maya kimi istifadə edilərək, fermentləşdiril-miş süd məhsullarına çevrilir. Bu bakteriyalar sənaye proseslərində tez-tez probiltiklər və

maya kimi istifadə olunur və onların iqtisadi dəyəri kifayət qədər yüksəkdir.

Süd-turşu bakteriyaları bağırsaq mikroflorasının və bağırsaq meteorizminin normallaşmasına kömək edir. Süd-turşu probiotik bakteriyaları müxtəlif xəstəliklərin profilaktikasında və müalicəsində geniş istifadə oluna bilər (6). Süd-turşu bakteriyaları insanda xəstəliklərə səbəb olan patogen mikroorqanizmlər üzərində sintez etdikləri bəzi maddələr (bakteriosinlər və s.) səbəbiylə antaqonistik təsirə sahibdirlər (4). Bu səbəblə süd-turşu bakteriyalarının fəaliyyəti ilə istehsal edilən fermentləşdirilmiş qidalar tədqiqat zamanı öyrənilmiş geniş çeşidli ağartı məhsullarından ayrılmış, süd-turşu bakteriyalarından yüksək lizis zonası əmələ gətirən “Azərsüd”, “Atena”, “Milla” markalarının qatıq və kefir məhsulları qida zəhərlənməli və bağırsaq infeksiyaları düşünüldüyündə insan sağlamlığı üçün güvənli qidalar olaraq qəbul edilə bilər. Üzvi konservləşdirmə üsullarına daha çox önəm verildiyi günümüzdə süd-turşu bakteriyaları bir çox qidanın davamlı olması üçün istifadə edilə bilər. Bu tədqiqatlar da onu göstərir ki, “Milla” qatıq, “Azərsüd” qatıq və kefir, “Atena” markalarına aid qatıq məhsulları daha da yüksək təsirə malik olan probiotiklərdir.

## Ədəbiyyat

1. Səfərova Ş., Seyidova G. (2023) “Müxtəlif süd məhsullarından alınmış süd-turşusu bakteriyalarının ümumi xarakteristikası” / Akademik Zərifə Əliyevanın anadan olmasının 100 illik yubileyinə həsr olunmuş “Oftalmologiyanın aktual problemləri” adlı Elmi Praktik Konfransın materialları, Bakı, səh.101-102

2. Səfərova Ş., Seyidova G. (2023) “Süd turşusu bakteriyalarının fermentativ aktivliyinin öyrənilməsi” / ATUREK-2023 materialları, Bakı, səh.315-317

3. Evren M., Apan M., Tutkun E., Evren S. (2011) Geleneksel Fermente Gıdalarda Bulunan Laktik Asit Bakterileri // Elektronik Mikrobiyoloji Dergisi, TR, sayfa 11-17

4. Evren M., Albayram C., Apan M. (2006) Laktik Asit Bakterilerinin Olusturdugu Antimikrobiyel Maddeler // Türkiye 9. Gıda Kongresi, Bolu, sayfa 24-26

5. Sağlam H., Karahan A.G. (2017) Laktik Asit Bakterilerinin Plazmidleri ve Bunların Özellikleri // Kafkas Üniversitesi Fen Bilimleri Enstitüsü Dergisi Cilt 10, Sayı 2, sayfa 252-285

6. Cai J, Zhao C, Du Y, et al. (2018) Comparative efficacy and tolerability of probiotics for antibiotic-associated diarrhea: systematic review with network meta-analysis // United Eur Gastroenterol J ;6: p.169–180

7. Goa T., Beyene G., Mekonnen M. and Gorems K. (2022) Isolation and Characterization of Lactic Acid Bacteria from Fermented Milk Produced in Jimma Town, Southwest Ethiopia, and Evaluation of their Antimicrobial Activity against Selected Pathogenic Bacteria // Hindawi International Journal of Food Science Volume, Article ID 2076021, 15 p.

8. Novak J. and others. (2021) A Lactic Acid Bacteria Consortium Impacted the Content of Casein-Derived Biopeptides in Dried Fresh Cheese // Molecules journal, 27(1), 160; https://doi.org/10.3390/molecules27010160, 19 pages

9. Rashidli K. and others. (2021) Effect of probiotic fermented dairy products on incidence of respiratory tract infections: a systematic review and meta-analysis of randomized clinical trials // Nutrition Journal volume 20, Article number: 61, Tehran, 12 p.

10. Sanam M.U.E., Detha A.I.R, Kurniawati N.R (2022) Detection of antibacterial activity of lactic acid bacteria, isolated from Sumba mare’s milk, against Bacillus cereus, staphylo-

coccus aureus, and Escherichia coli // Journal of advanced veterinary and animal research, vol 9, №1, p.53-58

## CHARACTERISTICS OF LACTIC ACID BACTERIA OBTAINED FROM DAIRY PRODUCTS AND THEIR EFFECT ON INTESTINAL PATHOGENS

**Sh.S.Safarova, G.M.Seyidova**

### SUMMARY

This work presents the results of a research whose purpose was to identify the antimicrobial effect of lactic acid bacteria obtained from various dairy products on intestinal pathogens.

## ХАРАКТЕРИСТИКА МОЛОЧНОКИСЛЫХ БАКТЕРИЙ, ПОЛУЧЕННЫХ ИЗ МОЛОЧНЫХ ПРОДУКТОВ, И ИХ ВЛИЯНИЕ НА КИШЕЧНЫХ ВОЗБУДИТЕЛЕЙ

**Ш.С.Сафарова, Г.М.Сеидова**

### РЕЗЮМЕ

В статье изложены результаты исследования антимикробного действия молочнокислых бактерий, полученных из различных молочных продуктов, на кишечных возбудителей.

*Məqalə redaksiyaya 8 aprel 2024 tarixində daxil olmuş, 18 aprel 2024 tarixində isə çapa qəbul olunmuşdur.*

UOT № 58

# AZƏRBAYCANIN DƏRMAN BİTKİLƏRİ: İTBURNU

**R.R.İsmayılzadə, M.Ə.Səfərova**
Odlar Yurdu Universiteti
Bakı, Koroğlu Rəhimov küçəsi 13
e-mail: resadismayilzade@gmail.com

***Açar sözlər:*** dərman bitkisi, itburnu
***Keywords:*** medicinal plant, roseship
***Ключевые слова:*** лекарственное растение, шиповник

Bu məqalənin əsas məqsədi Azərbaycanın dərman bitkilərindən olan itburnunun hansı xəstəliklərin müalicəsində istifadə olunduğu haqqında məlumat verməkdir.

İtburnu bitkisinə əsasən mülayim isti iqlimli ərazilərdə, həmçinin tropik iqlimli ölkələrdə rast gəlinir. Gülçiçəklilər (rosaceae) fəsiləsinə aiddir. Gövdəsi və yarpaqları tikanlı formadadır. Çiçəkyanlığı qədəhəbənzər çuxur formasında olur. Çiçək yatağının çuxur formasında olmasına görə meyvə yarpaqlarının sayı azdır, beşüzvlüdür. Meyvəsi fındıqça meyvədir. Tərkibində bir çox qiymətli maddələr mövcuddur. Aktiv meyvə vermə müddəti 2-6 il arasında dəyişir.

Ölkəmizdə itburnunun 42 növü mövcuddur. Qafqazda isə bu bitkinin 56 növü müəyyən edilmişdir. Dünya üzrə ümumilikdə 500-600 növü yayılmışdır. Onların 18 növü endemik sayılır. Yabanı bitkidir. Gövdə və budaqları cüt və ya dağınıq tikanlı formada olur, ləçəkləri 5, bəzən isə 4 ədəd olur. Erkəkcikləri və dişicikləri çoxsaylıdır. Ləçəkləri növündən asılı olaraq ağ, çəhrayı, sarı, tünd-sarı və qırmızı rəngdə olur. Əsasən seyrək meşələrdə, dağ yamaclarında, vadilərdə, yol kənarında bitir. Lakin 6 növü mədəni bitki kimi becərilir. Avropanın bir çox ölkələrində mədəni bitki kimi becərilir. Bu növlərdən ən məhşuru yüzyarpaq itburnu (R. centifolia) və çoxçiçəkli itburnudur (R. multiflora). İtburnunun aşağıdakı növləri də vardır:

1. May itburnu - *Rosa majalis Herrm*. Kol formasındadır. Hündürlüyü 1-2 m-dir. Gövdəsi tikanlı olur. Çiçəkləri çəhrayı-purpur rənglidir. Meyvələri şar şəklindədir. çəhrayı-qırmızı, kasayarpaqlıdır. Dünya üzrə əsasən Rusiyanın Qərbi Sibirdən Baykala qədər olan hissəsində yayılmışdır. Tərkibində 4-14% askorbin turşusu mövcuddur.
2. Tikanlı itburnu - *Rosa acicularis Lindl*. Kol bitkisi olub, hündürlüyü 2 m-dir. Gövdəsi tikanlı, incə, düzqalxan və cod tükcüklərdən ibarətdir. Yarpaqları əsasən göyümtül rəngdə olur, çiçəkləri çəhrayı və sarı rənglidir. Meyvələri uzunsov, kənarları daralmış, kasayarpağı ilə birlikdə çəhrayı-purpur rənglidir. Əsasən Rusiya ərazisində rast gəlinir. Tərkibi vitaminlərlə zəngindir. Tərkibində 4-14% askorbin turşusu vardır.
3. Qırışıq itburnu - *Rosa rugosa Thunb*. Kol formasındadır. Gövdəsi düzqalxan, hündürlüyü 2 m-ə qədər olub, çoxsaylı tikanlıdır. Yarpaqları qırışıqdır. Çiçəkləri çəhrayı-purpur rəngli olub, diametri 6-8 sm-dir. Meyvələri iri, şarşəkilli və qırmızı rəngdədir. Rusiyanın Uzaq Şərqində yayılmışdır. Tərkibində 3-6% askorbin turşusu mövcuddur.
4. Daur itburnu - *Rosa davurica Pali*. Kol bitkisi olub, hündürlüyü 1,5 m-dir. Tikanları əyilmiş və bükülmüş formadadır. Çiçəkləri tünd-çəhrayı rənglidir. Meyvələri şarşəkilli,

çəhrayı, yuxarıya doğru qeyri-düzgün formalı və düzqalxan kasacıqhdır. Rusiyanın Uzaq Şərq və Qərbi Sibir ərazilərində yayılmışdır. Vitaminlərlə zəngindir. Tərkibində 3-18%-ə qədər askorbin turşusu vardır.

5. Begger itburnu - *Rosa beggeriana Schrenk*. Kolşəkilli olub, hündürlüyü 1-2,5 m, yarpaqları tikancıqlı oraqvari qatlanmışdır. Cavan yarpaqları purpur rənglidir. Çiçəkləri ağ rəngli olur. Meyvələri qırmızı, şarşəkilli, səpələnmiş, diametri 1 sm-dir. Mərkəzi Asiyada yayılmışdır. Tərkibində 5-18% askorbin turşusu mövcuddur.

6. Kiçikçiçəkli itburnu - *Rosa micrantha Borrer ex Smith*. Kolşəkilli olub, hündürlüyü 2 m olub, qatlanmış tikanlıdır. Çiçəkləri çəhrayı-ağ rənglidir. Meyvələri şarşəkilli, çəhrayı-qırmızı rənglidir. Avropa və Qafqaz ərazilərində yayılmışdır. Tərkibində 0,5-1%-ə qədər askorbin turşusu mövcuddur.

7. Həmərsin – *Rosa canina L*. Hündürlüyü 3 metrə çatan kol bitkisidir, nazik budaqlarının üzərində seyrək, bərk, əyilmiş, amma əsası enli tikanları vardır. Yarpaqları növbəli, tək lələkvari, kənarları mişardişli, elliptik, üstü tünd, altı bozumtul yaşıl rəngdədir. Çiçəkləri iri, uzun saplaqlı, tək, bəzən 2-3 sayda topa halında olur. Ləçəklərinin sayı 5 solğun çəhrayı və ya ağ rəngdədir. Meyvələri daha iri kasayarpaqlı, tünd qırmızı və ya qan rəngində olur.

8. Yüzləçək itburnu - *Rosa centifolia*. Hündürlüyü 2 metrə qədər olan kol bitkisidir. Tikanları oraqvari əyilmiş, bəzən isə xırda və düz formada dib hissələri enlidir. Yarpaqları 5 ədəd yumurtari formalı, üstü hamar, alt hissəsi vəzili kənarları ikiqat mişardişlidir, ləçəkləri parlaq çəhrayıdır. Kasa yarpaqları uzunsov, lələkvari yarıqlıdır. Ləçəklərinin sayı çox olduğu üçün onu belə adlandırırlar.

2000 ildən artıqdır ki, itburnu bitki mənşəli dərman kimi istifadə olunur, lakin bu bitki məhsulunun insan sağlamlığına təsir göstərdiyi xüsusi mexanizmləri aydınlaşdırmaq üçün tədqiqatlara yalnız bu yaxınlarda başlanılmışdır. Çoxsaylı birləşmələr müəyyən edilmişdir və onların bioaktivliyi ilə bağlı fərziyyələr flavonoidlər, karotenoidlər və yağ turşuları (FA) ilə əlaqədardır. 4500-dən çox nümayəndənin iştirakı ilə flavonoidlər hərtərəfli tədqiqata məruz qalmışdır ki, nəticələr müxtəlif fərdi strukturların, həmçinin itburnuda da sağlamlığı təşviq edən birləşmələr ola biləcəyini göstərir. R. canina -dan olan karotenoidlərin əhəmiyyəti hazırda müzakirə olunur, çünki bu qrup arasında spesifik bioaktivliyin nümayişi hazırda daha az məlumdur. Xüsusi FA-ların faydaları onilliklər ərzində araşdırılır və bir neçə növ FA insan sağlamlığı üçün "vacib" adlandırılır. R. canina meyvələrində bol olan üç FA ilə əlaqəli bioaktivliyin xüsusi mexanizmləri tədqiqatda aydınlaşdırılıb. Məsələn, linoleik turşusu, α-linolenik turşusu (əsasən R. canina toxumlarında mövcuddur ) və qalaktolipid ((2 S )-1,2-di- O -[(9 Z ,12 Z ,15 Z) - GOPO olaraq adlandırılan octadeca-9-12-15-trienoyl]-3- O -β- d -qalaktopiranosil qliserolun antiinflamatuar xüsusiyyətlərə malik olduğu göstərilmişdir. Başlanğıcda biz R. canina psevdo meyvələrinin kimyəvi tərkib hissələrini təsvir edirik , bir az diqqəti bütün psevdo meyvədə hansı inqrediyentlərin tapdığına və bildiklərimizin toxumlarla (achen toxumları) və ya qabıqlarla (hipantium) məhdudlaşdırdığına diqqət yetiririk. Sonra, itburnu komponentlərinin bioaktivliyi və təsirlərinin in vitro tədqiqatlarını təsvir edən mühüm sənədləri qiymətləndiririk.

Bu bitkini dərman, vitamin, yeyinti, boya, bəzək bitkisi, ballı bitki kimi yetişdirirlər. İtburnunun tərkibində 9,8% karotinlər, qlikozidlər: C, $B_1$, $B_2$, P, K vitaminləri (təxminən 2,5-5,5%), 14% pektin maddələr, kempferol, kversetin, şəkər aşılayıcı maddələr, 1,9% limon və alma turşuları, efir yağı, 23,9% ümumi şəkər, 18,6% invert şəkər, 5% saxaroza,

8,9% pentoza və çoxlu miqdarda kalium, kalsium, dəmir. fosfor və maqnezium mövcuddur. Həmçinin gövdə və köklərində aşı maddələri mövcuddur. İtburnunun tərkibində C vitamininin (askorbin turşusunun) miqdarı çoxdur. Onun miqdarı qarağata nisbətən 10, limona nisbətən 50, almaya nisbətən 100 dəfə çoxdur.

İtburnu ənənəvi olaraq müxtəlif xəstəliklərin müalicəsi üçün dərman birləşmələri kimi istifadə olunur. Bu bitkilərin müalicəvi potensialı digərləri arasında askorbin turşusu, fenolik birləşmələr və sağlam yağ turşularını ehtiva edən fitokimyəvi tərkibinin yaratdığı və ya onunla əlaqəli olan antioksidant təsirlərinə əsaslanır. Son bir neçə il ərzində itburnu bitkisinə olan tibbi maraq, onun dəri xəstəlikləri, hepatotoksisite, böyrək pozğunluqları, ishal, iltihabi xəstəliklər, artrit, diabet, hiperlipidemiya kimi bir sıra xəstəliklərin müalicəsi kimi potensial tətbiqini öyrənən son tədqiqatlar nəticəsində artmışdır. Bu icmalda, molekulyar nöqteyi-nəzərdən yeni terapevtik yanaşmalara diqqət yetirərək, oksidləşdirici stresslə əlaqəli bəzi xəstəliklərin müalicəsində itburnunun müxtəlif növlərinin rolu araşdırılır.

Yabanı meyvələrin geniş çeşiddə qida və digər qida məhsullarında istifadəsi son illərdə sağlamlıq baxımından daha çox istehlakçıların marağına səbəb olmuşdur. İtburnu çiçəklərindən əldə edilən meyvələr, çaylarda, mürəbbələrdə geniş istifadə olunur, lakin son vaxtlar sağlamlığın təbliği potensialına görə də diqqəti cəlb edir. Təbii və dadlı funksional qidalara artan istehlak tələbi itburnunu Avropada arzu olunan təbii məhsula çevirdi. Bir kənd təsərrüfatı məhsulu olaraq, itburnu nisbətən aşağı səviyyədə qulluq tələb edir və buna görə də həm qida, həm də qida sənayesi üçün potensial gəlirli məhsuldur. Qida sənayesinin, eləcə də istehlakçıların itburnu məhsullarından böyük fayda əldə edəcəyinə ümid edilir.

Bitkinin meyvənin yalançı meyvələrindən istifadə edilir. Meyvələrin tərkibində polivitaminlər olmaqla, çay şəklində işlədilir. Toxumlarından yağ (Oleum Rosae pinguiae) hazırlanır ki, yanıq, dermatit, trofik yara, ekzema, dermatoz və rentgen şüalanmaları zamanı istifadə olunur. Tərkibində olan C vitamini antitelin yaranmasını stimullaşdırdığından orqanizmin infeksiyaya qarşı müqavimət qabiliyyətini artırır, yaraların sağalmasını tezləşdirir. Yüksək temperatur zamanı orqanizmdə C vitamini çoxlu miqdarda parçalanır. Əsasən sedativ, antimikrob, büzücü, iltihab əleyhinə, qankəsici, sidikqovucu və mədə-bağırsaq xəstəliklərində istifadəsi məsləhət görülür. Həmçinin nevroz, asteniya, qanazlığı, mübadilə pozğunluğu, hipertoniya və ateroskleroz xəstəliklərinin müalicəsində təyin edilir. Yaralanma və sınıqlarında, yolxucu xəstəliklərə qarşı orqanizmin müqavimətini gücləndirir. Ekstraktlar antioksidant, antiartritik, iltihab əleyhinə, analgezik, antidiabetik, kardioprotektiv, antimikrob təsirli, immunomodulyator, mədə-qoruyucu və dərini yaxşılaşdırıcı təsir göstərir. Bir sıra itburnu əsaslı əczaçılıq əlavələri artıq bazara çıxarılıb. Çox uzun müddətdir ki, yerli ənənəvi bilik itburnu dərman dəyərini qəbul etmişdir. İndi müasir klinik elm onların terapevtik rejimlərə daxil edilməsinin əsas səbəblərini öyrənir. Bu icmal az öyrənilmiş və çox az istifadə olunan qida mənbəyini qidalandırıcı yardım və tamamlayıcı və alternativ tibb kimi təbliğ etmək məqsədi ilə tərtib edilmişdir.

İtburnu çayı içkisinin askorbin turşusu, ümumi fenolik tərkibi (TPC) və dəmir azaldan antioksidant gücü (FRAP) təhlil edilmişdir. Dəyişənlərin təsirini qiymətləndirmək üçün iki faktorlu və üç səviyyəli mərkəzi kompozit dizayn tətbiq edilmişdir. Bütün cavablar üçün ən yaxşı kvadratik modellər əldə edilmişdir. Yaradılmış modellər optimal şəraitdə təsdiq edilmişdir. Optimal şəraitdə itburnu çayı içkisində 3,15 mq 100 $mL^{-1}$ askorbin tur-

şusu, 61,44 mq 100 mL−1 TPC və 2591 µmol FRAP var idi. İtburnu çayı içkisi üçün ən yaxşı dəmləmə şərtləri 84-86 °C temperaturda 6-8 dəqiqəlik infuziya vaxtı olduğu müəyyən edilmişdir.

İtburnu meyvələri tam yetişmiş şəkildə al-qırmızı rəngdə olduqda yığılır və bu tədarük May itburnusundan başqa digər növlərdə şaxtalar düşənə qədər davam edir. İtburnu meyvələrini bütöv şəkildə zədələmədən yığmaq lazımdır. Dərin zənbillərə yığılır və qurutmaq üçün xüsusi yerlərə aparılır. İtburnu 80-100$^o$ tempraturda xüsusi setkalar üzərində qurudulur. Quruduqdan sonra qəhvəyi-qırmızı rəng alır.

İtburnu toxumlarını 2 çay qaşığı 250 ml soyuq suda qaynatmaq lazımdır. Bunun üçün təxminən 5- 10 dəqiqə gözləmək lazımdır. İsti halda bir çay qaşığı bal və ya limon şirəsi ilə gündə 2-3 dəfə qəbul etmək məsləhət görülür. 2 xörək qaşığı meyvəsini 2 stəkan qaynanmış suda 25 dəqiqə ərzində dəmləmək və gündə 3 dəfə olmaqla yeməkdən 20-40 dəqiqə əvvəl içmək lazımdır.

## NƏTİCƏ

Bildiyimiz kimi, son zamanlarda virus və bakteriya xəstəlikləri çox yayılmışdır. İnsanlar bu xəstəliklərdən qorunmaq üçün əsasən kimyəvi preparatlardan, dərmanlardan istifadə edirlər. Ancaq bir müddət sonra bakteriya və viruslar mutasiyaya uğrayır və onlara qarşı davamlı olur. Ona görə də təbii vastələrdən istifadə etmək daha məqsədə uyğundur. Dünya üzərində infeksiyon xəstəliklərdən sonra ən geniş yayılmış xəstəliklərdən biri də ürək-damar xəstəlikləridir və aparılan statistikaya görə dünya ölkələri arasında ən çox yayıldığı 2-ci ölkə Azərbaycandır. İtburnu, həmçinin, ürək-damar yollarını yaxşılaşdırmağa kömək edir və qanda pis xolestrolu azaltmağa kömək edərək, ürək sağlamlığını qoruyur.

Bir sözlə, dərman vastələri nə qədər effektiv olsa da, təbii vastələr daha keyfiyyətli və məqsədəuyğundur.

## Ədəbiyyat

1. İ,R.Mustafayeva, S.C.İbadullayeva, R.Ə.Ələkbərov, A.H.İsmayılov, H.Z.Qasımov, Ş.Ş.Qasımov. (2015) Farmakoqnoziya Botanikanın əsasları ilə. Əcəmi Nəşriyyat-Poliqrafiya Birliyi, Naxçıvan

2. N.A.Qasımov, N.Ş.Əliyeva, S.M.Tahirli, S.M.Abdullayeva. (2010) Bitki anatomiyası. Bakı

3. E.M.Qurbanov. (2010) Ali bitkilərin sistematikası. Bakı

4. A.Əsgərov. (2006) Azərbaycanın Ali bitkiləri, Azərbaycanın florasının konspekti. Bakı, Elm

5. F.Y,Əliyev, R.İ.Hüseynov, Q.B.Qurbanov, R.M.Tağıyev. (2016) Bitkilər müalicə mənbəyidir. Gəncə, Elm

6. M.Ə.Qasımov, T.A.Qasımov, G.S.Qədirova A.P.Gərayzadə, F.İ.İbrahimli. (2006) 21-ci əsrin dərman bitkiləri. Bakı

7. E.M.Qurbanov, Z.C.Məmmədova, V.S.Məmmədov, S.H.Musayev, V.S.Xəlilov, P.M.Əfəndiyev, S.A.Əliyev. (2010) Ali bitkilərin sistematikasından laboratoriya məşğələləri. Bakı, Bakı Nəşriyyatı

8. A.Ş.İbrahimov, C.Ə.Əliyev, R.İ.Bəşirov, A.Q.Qarayeva, V.Hacıyev. (2004) Botanika. Sumqayıt

9. M.Ə.Qasımov. (2000) Ali bitkilərin morfologiya və sistematikası. Bakı

10. V.Ş.Quliyev, C.M.Bağırov. (2000) Botanika: bitkilərin anatomiya və morfologiyası. Bakı
11. E.M.Qurbanov. (2018) Dərman bitkiləri. Bakı
12. Z.İ.Hümbətov. (2002) Bitki anatomiya və fiziologiyası. Gəncə
13. V.Ş.Quliyev. (1984) Azərbaycanın bitki aləmi və onun qorunması. Azərbaycan nəşriyyatı, Bakı
14. Q.S.Məmmədov, M.Y.Xəlilov. (2002) Azərbaycan meşələri. Bakı, Elm
15. V.C.Hacıyev. (2004) Azərbaycanın yüksəkdağlıq bitkiliyinin ekosistemi. Bakı
19. T.H.Talıbov, T.Məmmədov, Ə.İbrahimov. (2017) Naxçıvan Muxtar Respublikasının florası. Bakı, Elm
20. A.M.Əsgərov. (2005) Azərbaycan florasının konspekti. Bakı, Elm

## MEDICINAL PLANTS CULTIVATED IN AZERBAIJAN: ROSESHIP

**R.R.Ismailzadeh, M.E.Safarova**

### SUMMARY

The main goal of this article is to inform the readers about the medicinal plants in Azerbaijan, in particular, about the roseship and the diseases which are treated with this plant. There are 42 species of roseship in Azerbaijan, the authors claim.

## ЛЕКАРСТВЕННЫЕ РАСТЕНИЯ, ВЫРАЩИВАЕМЫЕ В АЗЕРБАЙДЖАНЕ: ШИПОВНИК

**Р.Р.Исмаилзаде, М.А.Сафарова**

### РЕЗЮМЕ

Основная цель этой статьи заключается в информировании читателей о лекарственных растениях Азербайджана, в частности, о шиповнике и болезнях, в лечении которых он используется. Авторы утверждают, что в Азербайджане выращивают 42 вида этого растения.

*Məqalə redaksiyaya 23 aprel 2024 tarixində daxil olmuş, 25 aprel 2024 tarixində isə çapa qəbul olunmuşdur.*

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2024 - № 63

UOT № 57

# SİNİR SİSTEMİ POZĞUNLUĞU OLAN NEVROZLAR, ONLARIN YARANMA SƏBƏBLƏRİ VƏ STRESSİN NEVROZA TƏSİRİ

**Ə.İ.Tağızadə, M.Ə.Səfərova**
Odlar Yurdu Universiteti
Bakı, Koroğlu Rəhimov küçəsi 13
e-mail: tagizadeazize786@gmail.com

***Açar sözlər:*** sinir sistemi, nevroz, sosial faktorlar, stress
***Keywords:*** nervous system, neurosis, social factors, stress
***Ключевые слова:*** нервная система, невроз, социальные факторы, стресс

Nevroz sinir sisteminin geri dönən funksional pozğunluğu olub, sinir sisteminə uzun müddət ərzində mənfi təsir göstərən müxtəlif faktorların təsiri nəticəsində baş verir. Qeyd etmək lazımdır ki, nevroz orqanizmdə heç bir orqanik patalogiya olmadan meydana çıxa bilən bir pozuntudur. Hal-hazırda müasir tibbdə "Nevroz" termini əvəzinə daha çox "Nevrotik pozuntular", "Həyəcan pozuntuları" və "Təşviş pozuntuları" kimi sözlərdən istifadə olunur. İrsi xəstəliklərin və psixoloji problemlərin artdığı bir dövrdə sinir sisteminin pozulması nəticəsində əmələ gələn xəstəliklər yalnız insan orqanizimінə, sağlamlığına deyil, eyni zamanda insan psixologiyasına da ciddi mənfi təsir göstərir. Onu da qeyd etmək lazımdır ki, nevroz uzun müddətli şəkildə davam edən xroniki stresslər nəticəsində inkişaf edir və bu zaman müxtəlif səbəblərdən insan uzun müddət üçün mürəkkəb hesab olunan bu vəziyyətdən çıxış yolunu heç cürə tapa bilmir. Bu da ona gətirib çıxarır ki, insan psixolojik olaraq da təsir görür və çətinlik çəkir, hətta bu hal ağır depressiyaya səbəb ola bilir. Nevrozların inkişaf mexanizmini öyrənərkən nəzərə alınır ki, nevrotik vəziyyətə yalnız itki, zərər, təhlükə və ya təhqir faktını göstərən siqnallar deyil, həm də birbaşa olaraq ehtiyacların ödənilməməsi də səbəb ola bilər. Mütləq surətdə ödənilməsi tələb edilən insanın həyati ehtiyacları 3 kateqoriyaya bölünür: 1) maddi-bioloji: fərdi və ya ailəvi mövcudluğu (yemək, yaşayış, geyim) təmin etmək vasitələrinə ehtiyacın olması; 2) sosial: cəmiyyətdə müəyyən bir mövqe tutmaq, ətrafdakı şəxslərin təqdirindən, diqqətindən, hörmətindən, məhəbbətindən yararlanmaq ehtiyacı; 3) ideal: onu əhatə edən aləmin və onun daxilində öz yerinin dərk edilməsi üçün mənəvi, mədəni, informasiya ehtiyacları. Bütün bu ehtiyaclar mürəkkəb fərdi əlaqələri və ziddiyyətləri ortaya çıxarır. Bu isə öz növbəsində şəxsiyyətin zehni və funksional dezadaptasiyasına səbəb olur və nevrozun formalaşmasına gətirib çıxarır. Ümumiyyətlə, sosial faktorların da təsirinin sinir sistemi pozulmalarında böyük əhəmiyyət kəsb etməsi onu göstərir ki, insanların sadəcə sinir pozulması olaraq gördüyü nevroz əslində yalnız sinir pozulması deyil, eyni zamanda sosial faktorların, yüksək stressin və sinir sisteminin irsi xüsusiyyətlərinin təzahürüdür. Bütün bunlardan aydın olur ki, yuxarıda sadalanan bütün faktorlar birbaşa və ya dolayı yolla nevroz və onun digər formalarına gətirib çıxarır ki, bu da insanların həyat fəaliyyətinə ciddi şəkildə təsir göstərir.

Günü-gündən artmağa davam edən bu xəstəliklər psixologiyaya təsir etməsilə yanaşı düzgün nevroloji və psixoloji müalicə aparılmadığı təqdirdə daha ağır nəticələrə gə-

tirib çıxara bilər. Belə halda diaqnozun düzgün qoyulması, həmçinin yalnız sinirlə bağlı olaraq deyil psixolojik nöqteyi-nəzərdən də müalicənin də düzgün aparılması çox vacibdir. Artıq stress və sosial faktorların bu pozulmalara ifrat təsirini nəzərə alaraq bu istiqamətdə tədbirlərin görülməsi, insanların sinir sistemi pozulmalarıyla (Nevrozlarla) tanış olması eyni zamanda nevrozların hansı formaları olduğu haqqında məlumata sahib olması böyük əhəmiyyət daşıyır. Bununla bağlı çox saylı addımların atılmasına ən böyük nümunə olaraq orta məktəblər, universitetler və müxtəlif iş mühitlərində təşkil edilən maarifləndirici görüşləri, bu istiqamətdə insanların kütləvi informasiya vasitələrilə məlumatlandırılmasını göstərmək olar.

Nevroz yalnız sisnir sisteminin pozulması ilə bağlı deyil, eyni zamanda insan psixologiyasının pozulması və normal həyatına ağır şəkildə təsir göstərən bir problemdir. Sinir sistemi pozulması halı olan nevrotip problemlərin əsas səbəblərindən biri də stress halıdır ki, insanlar bununla iş mühitində, ali təhsil müəssisələrində, məktəb mühitində, hətta şəxsi həyatında və ailə mühitində üzləşirlər. Ağır stress halının uzunmüddətli şəkildə davam etməsi, şəxsdə nevrotik pozğunluqlara və psixolojik problemlərə gətirib çıxarır ki, bu zaman düzgün nevroloji ə psixoloji müalicə almadıqda ağır depresiya və hətta intahar halları belə yaşana bilir.

**Nevrozun növləri**

Bəzi müəlliflərin fikrincə, bu patalogiyanın 3 əsas forması mövcuddur: nevrasteniya, sarışan hallar nevrozu (obsessiv fobik nevroz) və isteriya. Lakin buna baxmayaraq, günü-gündən inkişaf edən tibb elmi və aparılan araşdırmalar onu göstərir ki, nevrozun bu 3 əsas forması ilə yanaşı digər nevrozlar və eyni zamanda nevrotik hallar da mövcuddur. Bunlara ipoxondrik nevroz, depressiv nevroz, vegetanevroz, qorxu nevrozu və s. aiddir. Nevrasteniya zamanı xəstələrdə taxikardiya, tərləmə, ətrafların soyuqluğu yaranır, yuxu rejimi pozulur. Eyni zamanda xəstədə zehni fəaliyyətdə çətinliklər, anlama və oxuma çətinlikləri də yarana bilir. Şəxsdə hər hansı vacib bir şeyə diqqət yönəltmək çətinləşir və buna görə də əmək məhsuldarlığı aşağı düşür. Sayrışan hallar nevrozu (obsessiv fobik nevroz) zamanı xəstələr ağır yoluxucu və somatik xəstəliklərə (kanserofobiya, kardeofobiya və.s) yoluxacaqlarını düşünürlər və daim daxili xəstəliklərə sahib olmadıqlarından əmin olmaq üçün həkimlərə müraciət edirlər. Eyni zamanda xəstələr istəklərinə rəğmən bu fobiya və sayrışan fikirlərdən xilas ola bilmirlər. Bu da xəstələrdə stress halı yaradır və nevrotik pozuntu halının daha da ciddiləşməsinə gətirib çıxarır. Müasir ədəbiyyatda adı konversiya pozğunluğu olaraq verilən isteriya zamanı xəstənin insanlarla birlikdə olduqda huşunu itirməsi, stress zamanı uyuşma, hərəkətsizlik, danışa bilməmə kimi hallar baş verir.

Hal-hazırda həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrdə nevrozların müxtəlif formaları ilə xəstələnmə hallarının getdikcə artması qeyd edilir. Mütəxəssislər bu faktı ətraf mühitin get-gedə artan inkişaf tempi ilə əlaqələndirirlər. ÜST-nın məlumatına görə, son 65 ildə dünyada nevrozla xəstələnmə halları 20 dəfədən çox artmışdır. Nevrozların epidemioloji tədqiqatlarının nəticələri bu problemin təkcə tibbi deyil, həm də sosial-iqtisadi əhəmiyyətini göstərir: nevrozların sayı hər 1000 nəfərdən 20-25-nə bərabərdir. Orta hesabla şəhər əhalisinin 20-30%-i, kənd əhalisinin isə 10-15%-i nevrozdan əziyyət çəkir. Nevroz sosial statusundan, təhsil səviyyəsindən, ailə vəziyyətindən, maddi təhlükəsizliyindən asılı olmadan müxtəlif yaş qruplarında olan qadın və kişilərdə baş verə bilər. 20-30 yaş aralığındakı iş və sosial problemlərlə üzləşən, həmçi-

nin bunlarla bağlı olaraq ağır və xroniki stressə məruz qalan şəxslərdə nevrotik pozulmalar daha çox müşahidə olunur. Eyni zamanda 40-60 yaş aralığındakı şəxslərdə həyatdakı dəyişikliklər həmçinin ailəvi problemlər və iş problemləriylə əlaqəli olaraq stress halları ilə qarşı-qarşıya qalır və bu yaş qrupun dakı insanlarda da nevrotik pzulma halları müşahidə olunur.Gənc və orta yaş təbəqəsindəki çəxslərlə yanaşı yaşlı şəxslərdə də nevrotik pozulmalar müaşhidə olunur. Belə ki, 60 yaşdan yuxarı şəxslərdə sağlamlıq problemləri ilə əlaqədar olaraq, eyni zamanda yalnız yaşama və həyatdakı bəzi dəyişikliklərlə bağlı olaraq nevrotik pozulmalar eyni zamanda ağır depressiya halları müşahidə olunur. Həmçinin aparılan araşdırmalar onu göstərir ki qadınlarda nevroloji pozulma halları kişilərdən daha ağır formada özünü göstərir. Tibb elmi inkişaf etdikcə nevrozlarla bağlı daha geniş tədqiqatlar aparılır və növləri yaranma səbəbləri daha diqqətlə müşahidə olunaraq öyrənilir.

## Nevrozun yaranma səbəbləri

Nevrozun yarana səbəbləri müxtəlifdir. Nevroz sosial, bioloji, genetik və psixoloji səbəblərdən meydana çıxa bilir. Ən çox yayılan və əsas səbəblər uzunmüddətli şəkildə davam edən ağır stress halı, sosial faktorlar, sinir sisteminin irsi xüsusiyyətləridir. Bir çox xəstəliklərdə olduğu kimi nevrozda da genetik faktorlar özünü göstərir. Belə ki, əvvəlki nəsillərdə özünü göstərən sinir sisteminin hər hansı genetik ( irsi ) problemi və nevroz halı növbəti nəsillərdə də özünü göstərməyə davam edir. Nevrotik pozulmaların əsəs səbəblərindən olan biolojik səbəb dedikdə o nəzərdə tutulur ki insan beynində epifiz vəzi tərəfindən ifraz edilən seratonin (Xoşbəxtlik) hormonunun ifrazının azalması halıdır. Bu zaman şəxsdə stress halı dahada artır, fiziki olaraq halsızlıq hiss olunur, şəxs özünü qəmgin hiss edir və iştahsızlıq halları yaranır ki, bu hal fiziki sağlamlıq ilə yanaşı beyinə eyni zamanda sinir sistemin mənfi təsir göstərir. Ümumiyyətlə seratonin hormonunun normadan az ifarz olunması, yəni insanın özünü xoşbəxt hiss etməməsi halı baş verən zaman insanda daha ağır stress, halsızlıq eyni zamanda psixolojik problemlərə belə yola aça biləcək mənfi düşüncələr formalaşmağa başlayır. Sosial faktorların da təsirini nəzərə alaraq onu da qeyd etmək mümkündür ki, şəxs ağır və davamlı stress halı ilə qarşılaşdığı zaman seratonin hormonunun ifarazı normadan daha aşağı ifraz olunur. Bu da şəxsin istər sosial, istər şəxsi həyat keyfiyyətini aşağı salır. Onu da qeyd etmək lazımdır ki, insanın ən çox stressə məruz qaldığı mühit olan iş mühitində ağır stressə şəxsin daha çox məruz qalmasıda seratonin hormonunun ifrazını azaldır. Bundan əlavə, serotonin, dopaminerjik neyronlardakı reseptorlarına bağlanaraq dopamin ifrazını azaldır. Serotonin çatışmazlığı depressiyanın inkişafına təsir göstərir. Serotoninin geri alınması inhibitorları (serotoninin sinaps boşluğundan təkrar istifadə üçün ifraz olunduğu neyrona geri alınmasının qarşısını alan) depressiya və narahatlıq müalicələrində istifadə olunur. Serotonin yuxu, termorequlyasiya, öyrənmə və yaddaş, ağrı, (sosial) davranış, cinsiyyət, qidalanma, motor fəaliyyəti, bioloji ritmlər və bəlkə də başqaları daxil olmaqla çoxsaylı fizioloji proseslərdə rol oynayır. Həmçinin onu da qeyd etmək lazımdır ki, heyvanlarda, məsələn, bəzi onurğasızlarda, serotonin qidalanma və digər prosesləri tənzimləyir. Sosial faktorlar yəni şəxsin daha əvvəl qarşılaşdığı traumatik hallar, ailə daxili stress, şəxsin işini itirməsi halları nevroz inkişafında böyük rol oynayır. Həmçinin iş mühitində davamlı şəkildə ağır stressə məruz qalma halı da bir sosial faktor olaraq nevrozun yaranmasına səbəb ola bilər. Ümumiyyətlə stressin özü nevrotik pozulamların əmələ gəlməsində ən çox rolu olan faktordur. Stressin ifrat dərəcədə olması onu yaradan faktorlardan asılı olmadan, şəxs üçün

həm fiziki, həm psixoloji, eyni zamanda nevroloji mənfiliklər yaradır ki, bu da şəxsin həyaf fəailiyyətinə ciddi mənfi təsir göstərir.

## Nəticə

Ağır və stressli həyat tərzi, sosial faktorların sinir sisteminin irsi xüsusiyyətləri ilə bağlı olaraq yaranan nevroz xəstəliyi və ya başqa adla desək nevrotik pozğunluqlar insanların gündəlik həyat fəaliyyətinə mənfi təsir göstərməklə yanaşı nevrozdan əziyyət çəkən şəxsin düzgün psixolojik və eyni zamanda nevroloji malicə almadığı təqdirdə ağır psixoloji problemlərə gətirib çıxara bilər. Hal-hazırda həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrdə nevrozların müxtəlif formaları ilə xəstələnmə hallarının getdikcə artması qeyd edilir. Mütəxəssislər bu faktı ətraf mühitin get-gedə artan inkişaf tempi ilə əlaqələndirirlər. Nevroz sosial statusundan, təhsil səviyyəsindən, ailə vəziyyətindən, maddi təhlükəsizliyindən asılı olmadan müxtəlif yaş qruplarında olan qadın və kişilərdə baş verə bilər. Nevroz sərhəd xəstəliyi hesab olunur və onun müalicəsi ilə həm nevropatoloqlar, həm də psixoterapevtlər məşğul ola bilərlər. Bununla belə, nevrozun daha dərinləşmiş formalarının müalicəsi ilə psixoterapevtlərin məşğul olması məsləhətdir. Psixoterapiya, xəstənin mövcud duyğularını düzgün ifadə etməyə, onları reallaşdırmağa, bir insanın toplamış olduğu neqativ təcrübənin bütün təzahürlərini yenidən düşünməyə imkan verir. Psixoterapiya insana nevrozun səbəbini ayırd etməyə, qorxularını başa düşməyə, özünə və dünyaya müsbət tərəfdən yanaşmağa, həyəcanlı vəziyyətləri zərərsizləşdirməyə və panik hücumları dayandırmağa imkan yaradır. Nevrozun dərman müalicəsi adətən antidepressantlar, əsasən benzodiazepin sırasından olan trankvilizatorlar, neyroleptiklər, anksiolitiklər və sedativ preparatlardan, vitaminoterapiyadan ibarətdir. Nevroz beyin qan təchizatında bəzi problemlər nəticəsində yarandığı hallarda, nootrop preparatlardan və sinir sisteminin fəaliyyətini gücləndirən dərman vasitələrindən istifadə etmək məsləhətdir.Yadda saxlamaq lazımdır ki, dərman müalicəsi yalnız xəstəliyin əlamətlərini aradan qaldırmağa kömək edir və xəstənin ümumi vəziyyətini yaxşılaşdırır. Lakin dərmanlar xəstəliyin səbəbinə təsir edə bilmir, buna görə də onların köməyi ilə nevrozdan tamamilə xilas olmaq mümkün deyil.Yalnız geniş təcrübə və məlumat bazası olan bir səlahiyyətli mütəxəssis xəstəliyin əsl səbəblərini müəyyən edə və xəstəsinə köməklik göstərə bilər. Müsbət haldır ki, nevrozdan əziyyət çəkən insanlar öz vəziyyətlərinə tənqidi yanaşırlar və könüllü olaraq özlərinə kömək etmək üçün əllərindən gələni edirlər. Nevroz geridönən xəstəlikdir. Düzgün və kompleks bir yanaşmanın köməyilə ondan birdəfəlik xilas olmaq mümkündür.

## Ədəbiyyat


1. Baillieu, E.E. (1997) Recent progress in hormone research. Europe PMC
2. Goyal, R.K., & Hirano, I. (1996) The Enteric nervous system. New England Journal of Medicine, 334(17), 1106–1115. https://doi.org/10.1056/NEJM199604253341707
3. Horney, K. (1950) Nevrozlar ve insan gelişimi
4. Mai, J.K. (2012) The Human Nervous System
5. Warren, H. C. (1921) Psixologiya və mərkəzi sinir sistemi. Psixoloji icmal, 28(4), 249--269. https://doi.org/10.1037/h0075909
6. Zimmermann, H. (2006) Purinergic Signalling in Neuron–Glia. Wiley Online Library

## NEUROSES AS DISORDERS OF NERVOUS SYSTEM, THEIR REASONS, AND THE EFFECT OF STRESS ON NEUROSIS

**A.I.Taghizadeh, M.E.Safarova**

### SUMMARY

The main purpose of this article is to discuss the problem of damages caused to human body by nervous system disorders (neuroses), which are increasing day by day, and their impact on human psychology.

## НЕВРОЗЫ, ЯВЛЯЮЩИЕСЯ РАССТРОЙСТВАМИ НЕРВНОЙ СИСТЕМЫ, ПРИЧИНЫ ИХ ВОЗНИКНОВЕНИЯ И ВЛИЯНИЕ СТРЕССА НА НЕВРОЗЫ

**А.И.Тагизаде, М.А.Сафарова**

### РЕЗЮМЕ

Целью данной статьи является привлечение внимания к проблеме ущерба, наносимого организму человека расстройствами нервной системы (неврозами), которые увеличиваются с каждым днем, и их влиянию на психологию человека.

*Məqalə redaksiyaya 19 aprel 2024 tarixində daxil olmuş, 26 aprel 2024 tarixində isə çapa qəbul olunmuşdur.*

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

**2024 - № 63**

UOT № 574

# BƏSİTÇAY DÖVLƏT TƏBİƏT QORUĞUNDA YAYILMIŞ ŞƏRQ ÇİNARININ (PLATANUS ORIENTALIS L.) EKOLOJİ XÜSUSİYYƏTLƏRİ

**V.R.Musayev**
Gəncə Dövlət Universiteti
Gəncə, Heydər Əliyev prospekti 429
e-mail: vusal729@gmail.com

***Açar sözlər:*** Şərq çinarı, ekoloji qiymətləndirmə, ağır metallar
***Keywords:*** Platanus Orientalis L., environmental assessment, heavy metals
***Ключевые слова:*** восточный платан, экологическая оценка, тяжелые металлы

## Giriş

Tədqiqat apardığımız Bəsitçay Dövlət Təbiət Qoruğu sahəsi üzrə Azərbaycan Respublikasının ən kiçik qoruğu sayılır. Qoruq Azərbaycanın cənub-qərbində, Zəngilan rayonu ərazisində Bəsitçayın dərəsində yerləşir. Elə qoruğun adı da dərəsində yerləşdiyi çayın adından götürülmüşdür. Qoruğun yerləşdiyi ərazi əsasən dağlıqdır, dəniz səviyyəsindən 600-800 m yüksəklikdə yerləşir (Şəkil). Qoruğun yaradılmasının başlıca səbəblərindən biri burada təbii halda yayılan, adı nadir və nəsli kəsilməkdə olan bitki kimi Azərbaycanın "Qırmızı Kitab"na daxil edilmiş Şərq çinarıdır (Platanus Orientalis L.) [1]. Qoruq ərazisində çinar ağacları çay vadisində, çay kənarlarında ve deltalarında, gilli ve çınqıllı yamaclarda yayılmışdır [2,4]. İstilik və işıqsevən ağac olan Şərq çinarı humusla zəngin, rütübətli torpaqlara üstünlük verir.

**Şəkil**

**Bəsitçay Dövlət Təbiət Qoruğunun topoqrafik xəritəsi**



Bəsitçay Dövlət Təbiət Qoruğu Azərbaycanın təbiətinin zənginliklərindən birini təmsil edir və əsas etibarilə burada təbii halda yayılan Şərq çinarlarının (Platanus Orientalis L.) qorunması məqsədini daşıyır. Platanus Orientalis L. qoruq meşəsinin edifikatorudur [5]. Bu növ ağaclar adətən gənckən piramidal, yaşlandıqca isə geniş taca malikdirlər.

Qoruqda nəhəng ağacların hündürlüyü 25-30 m-ə çatır, diametrləri isə 2-2.5 m (orta diametr təqribən 75 sm) qədər olur. Ağaclar orta hesabla bir neçə yüz il yaşayayırlar. Şərq çinarı geniş yarpaqları və tez böyüməsi, günbəz formalı tacı ilə tanınır. Yarpaqları böyük, elliptik və ya yuvarlaq formadadır və çox vaxt beşbarmaqvari olur. Yarpaqları yaşıldır və payızda sarımtıl-qəhvəyi rəngə çevrilir. Yarpaqların uzunluğu 10-20 sm, eni isə 12-25 qədər çatır. Ağacın qabıqları yaşıl və ya boz rəngdə olur. Yetkin ağaclarda qabıq qeyri-düzgün formada soyulub tökülürlər və bu zaman ağaclarda mozaik ləkəli görünüş yaranır. Yaşlı gövdələrdə qabıq adətən soyulmur, əksinə olaraq qalınlaşır və çatlayır. Cavan budaqlar qəhvəyi-yaşıl rəngdə olurlar. Şərq çinarı ikievli bitkidir. Çiçəklər eynicinsli, kiçik, nəzərə çarpmayan, dairə şəklində olan sırğa çiçək qrupuna toplanırlar. Erkək çiçəkləri yaşıl-sarı, dişi çiçəkləri isə qırmızı rəngdə olurlar.

Bu ağaclar həmçinin özünəməxsus unikal oduncaq quruluşuna görə qiymətləndirilirlər. Oduncağın xüsusiyyətlərinə görə palıd və fıstığ ağaclarına bənzəyirlər. Oduncaq kiçik strukturlu "ilan" naxışı ilə xarakterizə olunur. Buna görə çinar məhsulları xüsusi dekorativ xüsusiyyətləri ilə xarakterizə olunur. Çinar ağaclarının oduncaqları sərt və yüngül olmaqla olduqca tez quruyur, quruduqda isə çatlamır. Bu ağacdan yalnız yüksək keyfiyyətli taxta və parket deyil, həm də pilləkənlər, mebel, məişət və sənət əşyaları, müxtəlif dekorativ panellər istehsal olunur. Həmçinin çinar ağaclarının yarpaqlarından xalq təbabətində də istifadə olunur.

## Materiallar və metodlar

Şərq çinarının qeyd edilən xüsusiyyətlərini nəzərə alaraq ekoloji qiymətləndirmə aparmaq üçün ağır metalların miqdarının təyini həm bitkidə, həm də torpaqda aparılmışdır. Şərq çinarının tərkibindəki ağır metalların miqdarını təyin etmək üçün Bəsitçay Dövlət Təbiət Qoruğunun müxtəlif nöqtələrində çinar ağaclarının yarpaqlarından nümünələr götürülmüşdür. Bunun üçün qoruğun ərazisində 13 müxtəlif nöqtədə ağacların 1.3-1.5 m hündürlüyündən yarpaq nümunələri götürülmüşdür. Həmçinin bitki nümunələri götürdüyümüz nöqtələrdə 0-10, 10-20, 20-30 sm dərinlikdən torpaq nümunələri də götürülmüşdür. Torpaq nümünələrinin çəkisi standartlara uyğun olaraq 1000 qr-dan az olmamışdır. Ağır metalların təyini üçün bitki və torpaq nümünələri laboratoriya şəraitində öncə DTPA məhlulunda saxlanılıb süzüldükdən sonra Atomik Adsorbik Apparatında (AAS) nəticələr oxudulmuşdur.

## Nəticələr və müzakirə

Mikroelementlər bitkilərdə gedən fizioloji prosesslərə çox böyük təsir göstərir. Məsələn Sink çatışmazlığı və ya artıqlığı ilə vitaminlərin (B1) və böyümə maddələri biosintezi pozulur. Sinkin çatışmazlığı bitkilərdə sərbəst formada özünü göstərir. Sink bitkinin istiyə və soyuğa qarşı müqavimətini artırır. Onun çatışmazlığı ağacların yarpaqlarının saralmasına səbəb olur. Orta miqdarına görə canlı orqanizmdə sink 2x10-3 % təşkil edir. Sinkin miqdarı bitkinin müxtəlif orqanlarında müxtəlif olur. Dəmirin çatışmazlığı böyümə maddələrinin sintezini gecikdirir. Yarpaqları açıq-sarı rəngə boyayır və

daha sonra yarpaqlar tamamilə ağ rəng alırlar - bu zaman yarpaq xlorozu əmələ gəlir [3].

Manqan bütün növ bitkilərin həyat fəaliyyətinində bilavasitə mühüm rol oynayır. Yarpaqlarda xlorofilin miqdarını artır. Askorbin turşusunun və şəkərin miqdarını artırır. Şəkərin yarpaqlardan toparlayıcı orqanlara tərəf axınını yaxşılaşdırır.

Apardığımız tədqiqatlar zamanı belə nəticəyə gəldik ki, sinkdən fərqli olaraq qurğuşun, kadmiyum və nikel torpaqda və bitkilərdə tapılmadı. Torpaqlarda sinkə rast gəlinməsə də bitkilərdə YVH aşmamasına baxmayaraq onun yığılması əhəmiyyətli miqdardadır (242 mg/l). Bitkilərdə təyin olunma miqdarına görə ikinci element isə Manqandır ( 28,36 mg/l).

**Cədvəl 1**

**Şərq çinarının (Platanus Orientalis L.) yarpağının tərkibindəki ağır metalların təyini**

| **Ölçü vahidi** | **Mn** | **Fe** | **Ni** | **Cd** | **Zn** | **Pb** |
|---|---|---|---|---|---|---|
| **Yol verilən qatılıq həddi** | | | | | | |
| mg/l | 0,3-1000 | 4,20 | 0,02-4 | 0,05-0,9 | 1,4-600 | 02-20 |
| **Şərq çinarı yarpağının analiz nəticələri** | | | | | | |
| mg/l | 28,36 | 6,43 | 0 | 0 | 242 | 0 |

Azərbaycan Dövlət Aqrar Universitetinin Torpaq, bitki və su laboratoriyası. Protokol №6

**Cədvəl 2**

**Torpaq nümünələrində olan ağır metalların təyini**

| **Ölçü vahidi** | **Mn** | **Fe** | **Ni** | **Cd** | **Zn** | **Pb** |
|---|---|---|---|---|---|---|
| **Yol verilən qatılıq həddi** | | | | | | |
| mg/l | 20 | 4,0–170 | 2,5–4,5 | 4,0 | 0,05–0,09 | 0,2–8,0 |
| **Boz dağ-qəhvəyi torpaqların analiz nəticələri** | | | | | | |
| mg/l | 0 | 0,74 | 6,65 | 0 | 0 | 0,04 |
| **Allüvial torpaqların analiz nəticələri** | | | | | | |
| mg/l | 0 | 0,89 | 10,81 | 0 | 0 | 0,06 |

Azərbaycan Dövlət Aqrar Universitetinin Torpaq, bitki və su laboratoriyası. Protokol №6

## Yekun nəticə

Apardığımız laboratoriya analizlərinə əsasan belə nəticəyə gəlmək olar ki, Bəsitçay Dövlət Təbiət Qoruğunun torpaq örtüyündə və burada yayılmış Şərq çinarında ağır metalların miqdarı yol verilən qatılıq həddini aşmamışdır. Bunun səbəbini isə daha çox qoruq ərazisinin magistral yollardan və sənaye obyektlərindən uzaq yerləşməsi ilə əlaqələndirmək olar.

## Ədəbiyyat

1. Məmmədov T.S., İsgəndər E.O., Talıbov T.H. (2016) Azərbaycanın nadir ağac və kol bitkiləri / Bakı, Elm, 380 s.
2. Bayramova, A.A. (2012) Azərbaycan qərb bölgəsinin xüsusi müdafiə olunan təbii ərazilərinin florası // AMEA Xəbərləri, Biologiya elmləri bölməsi, №2, Bakı, s.105-110
3. Мусаев В.Р. (2023) Тяжелые металлы в почвах и растениях Беситчайского государственного заповедника Восточно-Зангезурского экономического района Азербайджана // Бюллетень науки и практики. Т.9, №10, с.41-50. https://doi.org/10.33619/2414-2948/95/05
4. Məmmədov T.S., Həsənova M., Atayeva L. (2021) Bəsitçay Dövlət Təbiət qoruğunun meşə ekosisteminin bioloji müxtəlifliyi. "Qarabağın biomüxtəlifliyi, torpaq və su ehtiyatları: keçmişi, bugünü və gələcəyi" mövzusunda onlayn konfrans materialları. Bakı, s.40-41
5. Гурбанов Э.М. (2005) Субтропические леса атропатенской провинции (в пределах Азербайджанской Республики). Bakı Universitetinin xəbərləri, №4, s.63-69

## ECOLOGICAL CHARACTERISTICS OF ORIENTAL PLANE TREE (PLATANUS ORIENTALIS L.) IN BESITCHAY STATE NATURE RESERVE

**V.R.Musayev**

## SUMMARY

This article deals with the ecological characteristics of the Oriental plane tree (Platanus Orientalis L) for the purpose of ecological assessment of the Besitchay State Nature Reserve located in the Zangilan region of Azerbaijan. To do this, based on the results of laboratory tests, the content of heavy metals in plants and in the soil is determined. The analyses were mostly carried out on an Atomic Adsorption Apparatus. As a result of research, it is revealed that the content of heavy metals in the soils of the Besitchay State Nature Reserve do not exceed the permissible concentration limit.

# ЭКОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ ВОСТОЧНОГО ПЛАТАНА (PLATANUS ORIENTALIS L.) В БАСИТЧАЙСКОМ ГОСУДАРСТВЕННОМ ПРИРОДНОМ ЗАПОВЕДНИКЕ

**В.Р.Мусаев**

## РЕЗЮМЕ

В статье исследуются экологические особенности Восточного платана (Platanus Orientalis L) с целью экологической оценки государственного природного заповедника Баситчай, расположенного в Зангиланском районе Азербайджана. Для этого, на основании результатов лабораторных анализов, определяется содержание тяжелых металлов в растениях и в почве. Анализы проводились в основном на Атомном Адсорбционном аппарате. В результате проведенного исследования можно сделать вывод о том, что содержание тяжелых металлов в почвах Государственного Природного заповедника Баситчай не превышает допустимого предела концентрации.

*Məqalə redaksiyaya 9 aprel 2024 tarixində daxil olmuş, 26 aprel 2024 tarixində isə çapa qəbul olunmuşdur.*

UOT № 57

# AZƏRBAYCANDA MEYVƏÇİLİK VƏ EKOLOGİYANIN MEYVƏÇİLİYƏ TƏSİRİ

**F.S.Quliyeva, M.Ə.Səfərova**
Odlar Yurdu Universiteti
Bakı, Koroğlu Rəhimov küçəsi 13
e-mail: guliyevaf2003@gmail.com

***Açar sözlər:*** meyvə, meyvəçilik, ekologiya
***Keywords:*** fruit, fruit growing, ecology
***Ключевые слова:*** фрукты, плодоводство, экология

## DÜNƏNDƏN BU GÜNƏ AZƏRBAYCANDA MEYVƏÇİLİK

Bağçılıq elminin bir sahəsi olan meyvəçilik yararlı, meyvə əmələ gətirən və çoxillik bitkilərin becərilməsi ilə məşğul olan elmdir. Ölkəmizin regionda meyvə-tərəvəz ixracında üstünlüyünün səbəblərindən biri də regionda geni dəyişdirilmiş növlərdən daha çox istifadə olunmasıdır. Meyvəçilik ölkəmizdə qədim zamanlardan inkişaf edən əsas sahələrdəndir. Əvvəllər yerli əhali tərəfindən yabanı meyvələr yığılıb istifadə olunurdusa, daha sonralar bağların salınmasına başlanıldı.

Bugün də Azərbaycanda meyvə bitkilərinin becərilməsi və inkişafı davam etdirilir. Ölkənin coğrafi-iqlim şəraitinə nəzər salsaq deyə bilərik ki, aqrar sektorun müxtəlif sahələrində yüksək inkişaf, istehsal və ixrac səviyyəsini xeyli yüksəldə bilərik. Bugün vətənimizin ən yüksək inkişaf potensialına sahib olan aqrar sektor sahələrinə misal kimi meyvəçiliyi göstərmək yerinə düşər. Biz də bu sahədə görülə biləcək işlər, aparıla biləcək islahatlar və həyata keçirilə biləcək tədbirlər barədə araşdırma apardıq.

Gələcəkdə bu sektorda naliyyətlər əldə etmək və inkişaf dinamikasını maksimuma qaldırmaq üçün planlamalar ən vacib məsələlərdəndir. Bugün ölkəmiz artıq öz yerli brendini dünya bazarlarıa təqdim etmiş və orada özünəməxsus yer tutmuşdur. Meyvəçiliyin inkişafı üçün bizim güclü bioloqlara və biologiyanın inkişafına da ehtiyacımız var. Azərbaycanda tumlu meyvələr üzrə Quba-Xaçmaz, qərzəxli meyvələr (şabalıd, qoz, fındıq) üzrə Şəki-Zaqatala, çəyirdəkli (ərik, şaftalı) meyvələr üzrə Naxçıvan MR, quru subtropik meyvələr (nar, heyva) üzrə Kür-Araz, sitrus meyvələr (naringi, portağal, feyxoa, limon) üzrə Lənkəran, cənub bitkiləri (əncir, zeytun, püstə, badam) üzrə Abşeron yarımadasının adını çəkmək olar. Meyvəçilik üzrə ən çox ixtisaslaşmış regionumuz isə Quba rayonudur. Belə ki, Azərbaycanda istehsal edilən meyvələrin 2/3-ü Quba rayonu və ətraf ərazilərin payına düşür. Ölkəmizin 9 iqlim qurşağında yerləşməsi bağçılıq üçün ən əlverişli təbii cəhət hesab oluna bilər. Bunun nəticəsidir ki, tropik meyvə bitkilərindən başqa bütün meyvə bitkiləri ölkəmizdə yetişir.

Mütəxəssislərin fikirincə, təbii amillərdən düzgün istifadə və yeni metodların səmərəli tətbiqi nəticəsində bağçılığı yüksək səviyyədə inkişaf etdirmək mümkündür. Lakin əlimizdə olan bütün bu imkanları nəzərə alaraq, digər dünya ölkələri ilə müqayisədə çox da inkişaf etmiş hesab edilmirik. Günü-gündən inkişaf edən dünyamızda yeni texnologiya və innovasiyaların tətbiqi ilə minimum ərazi vahidindən maksimum fayda götürə bilə-

rik. Bunun vasitəsilə həm ölkəmizə daha çox məhsulun ixrac edilməsini təmin etmək, həm də dünyada olan meyvə yetişdirmə üsul və metodlarının ölkəmizdə tətbiqi üçün şərait yaratmış olarıq. Eyni zamanda ölkəmizə xarici ölkələrdən yeni gətirilən, az-az hallarda ölkəmizdə yetişdirilən ekzotik meyvə sortlarını gətirib Azərbaycanda yetişdirmək və xarici bazara çıxarmaq çox real təklifdir. Çünki hal-hazırda ekzotik meyvə növlərinə tələbat həddindən artıq artmışdır. İqtisadi və aqrar cəhətdən meyvəçiliyin daha da inkişaf etdirilməsi vacibdir. 2016-cı ildən başlayaraq, bu sahədə məqsədyönlü fəaliyyət aparılmış və nəticədə "Made in Azerbaijan" brendi xarici bazarlarda yüksək keyfiyyətlə özünəməxsus yer tutmuşdur. Kənd təsərrüfatı sahəsində ixracının artmasında və ölkənin xarici bazarlarda daha çox tanınmasında meyvəçilik böyük əhəmiyyətə malikdir. Bunun nəticəsidir ki, regionlarımızda istehsalda artım müşahidə olunur. Statistikaya görə son bir ildə Azərbaycandan xarici bazarlara meyvə ixracı 244 milyon dollara çatıb. Bu da 2015-ci illə müqayisədə meyvə ixracının 24 milyon ABŞ dolları həcmində artması deməkdir. "AR-in regionlarının 2014-2018-ci illər sosial-iqtisadi inkişafı Dövlət Proqramı" çərçivəsində məlumat verilib ki, suvarma sistemlərinin yenilənməsi, təkmilləşdirilməsi və yeni innovativ fikirlərlə meyvə-tərəvəz istehsalı sahəsində irəlləyişlər əldə edilmişdir. Bu da aqrar sahədə meyvə ixracına müsbət təsirlə müşahidə edilib. Eyni zamanda əvvəllər Azərbaycanda sitrus meyvələri cənub bölgələrimizdə az halda becərilirdi və MDB də sitrus meyvələrinə olna tələbatı əsasən Gürcüstan ödəyirdi. Azərbaycana isə Türkiyə, İtalya kimi ölkələrdən tədarük olunurdu. Son vaxtlar artıq sitrus meyvələrinə ayrılan sahələr genişlənib. Meyvələr haqqında elm inkişaf etdikcə yeni meyvə növlərinin alınması və meyvələrin təbii formalarından uzaqlaşaraq, yeni genlərinin yaranmasına gətirib çıxarıb. Qeyd edək ki, meyvəçilik ölkəmizin hər bir regionunda müxtəlif meyvə növlərinin yetişməsinin üstünlüyünə görə kənd təsərrüfatının digər sahələrini geridə qoyur. Meyvəçiliyi Azərbaycanda inkişaf etdirmək üçün yeni texnologiyalar, ixtisaslaşmış kadrlarla bərabər təmiz ekoloji mühitdə tələb olunur. Məlumdur ki, erroziyaya uğramış bir torpaqda, çirkli və az olan suda, gübrələrin izafi çoxluğu şəraitində meyvə yetişdirmək heç də real görünmür. Yetişdirilsə belə arzu olunan məhsuldarlıq və faydalılıq alınmayacaq. Buna görə Azərbaycanın ekoloji problemləri həll edilməli və təhlükə riski aradan qaldırılmalıdır.

## MEYVƏÇİLİKDƏ APARILAN ARAŞDIRMALAR, GƏLƏCƏK PLANLAMA VƏ STİMULLAŞDIRMA

Meyvələrin demək olar ki, bütün xüsusiyyətlərinə müxtəlif abiotik amillər güclü təsir edir. Araşdırmalar nəticəsində məlum olmuşdur ki, azot və su kimi elementlər yetəri qədər olan ərazilərlə daha az miqdarda olan torpaqda yetişən meyvələr arasında fərqlər mövcuddur. Məsələn, Donati et al., 2017; Ganzhorn et al., 2009 və Bollen et al., 2005 apardıqları təcrübələrdə müəyyən ediblər ki, Madaqaskarın azot və su balansının fərqli olduğu ərazilər də yetişən bitkilərdə sistematik fərqlər müəyyən olunmuşdur. Bundan başqa torpaqda aparılan fitoekzpertiza analizləri nəticəsində torpaqda həddən artıq gübrələnmənin və ya üzvi maddələrin miqdarının kəskin şəkildə azalması, aqrotexniki qaydalara əməl olunmaması hallarında torpaqda olan faydalı mikroorqanizmlərin məhvinə eləcə də torpağın üst münbit qatı olan humus qatının dağılıb məhv olması ilə nəticələnəcəyi məlum olub. Bu isə öz növbəsində birkilərin normal inkişafının və məhsuldarlığının qarşısını alır. Torpaq daxilində yaşayan zərərli, parazit mikroorqanizmlərin izafi dərəcədə olması məhsuldarlığın düşməsi, bəzi hallarda ümumiyyətlə yox olmasına səbəb

olur. Hətta bu torpaq canlılarının nəzarətsiz qalması torpağın yorulması və mikotoksikozuna gətirib çıxara bilər. Buna görə torpaqda xüsusəndə bitki yetişdirmək üçün nəzərdə tutulan ərazidə daimi olaraq fitoekzpertiza analizlərinin aparılması mütləqdir.

Meyvələrin düzgün üsullarla, bol səmərə ilə yetişdirilməsinə əsas təsir edən amillərdən biridə suvarmadır. Meyvəçiliyin dinamik inkişafı, məhsuldarlığın yüksəlməsi suvarmanın düzgün və səmərəli olmasından aslıdır. Eyni zamanda istifadə etdiyimiz suyun tükənən olduğunu və bu gün dünya ölkələrinin şirin su qıtlığından əziyyət çəkiyini nəzərə alıb israfa vermədən suvarma aparılması vacibdir. Ölkəmizin şirin su ehtiyatınında yüksək dərəcədə olmamasını nəzərə alaraq deyə bilərik ki, kənd təsərrüfatında suvarma zamanı su artıqlaması ilə itkiyə gedir. Rəqəmlərlə ifadə etməli olsaq, hesablamalara əsasən 2007-ci ildə 27%, 2019-cu ildə 31% su itkisi qeydə alınmışdır. Bir tərəfdən israfa verilən bu su ilə suvarmada çətinliyi olan rayonlarımızı su ilə təmin edib, meyvəçiliyin inkişafına imkan yaratmaq mümkündür. Lakin istifadə edilən texnologiyaların çox hissəsinin səmərəsiz və əlverişsiz olması nəticəsində torpaqların şoranlaşması, bəzi hissələrin daha çox, bəzi hissələrin isə heç suvarılmamasına gətirib çıxarır. Aparılan tədqiqatlardan belə nəticəyə gəlmək olur ki, hazırda suvarma və melorasiya işlərində inkişaf görünsədə, suvarma sistemi və melorasiya şəbəkərinin yenilənməsi və bərpasına ayrılan vəsait tələb olunandan daha aşağı miqdardadır. AR-də "Su Məcəlləsi", "Meliorasiya və irriqasiya haqqında" qanun qəbul edilib və bu da su ehtiyatları ilə bərabər, torpağın qorunması və meyvəçiliyə ayrılan suyun artması, bununla bərabər israfın azalmasına böyük töhfə vermişdir.

Azərbaycan Elmi-Tədqiqat Hidrotexnika və Meliorasiya İnstitutu Elmi İstehsalat Birliyinin birlikdə apardıqları araşdırmalara görə hazırda kənd təsərrüfatında aerozol suvarmadan və süni yağış yağdırma üsullarının eyni zamanda, elmi-tədqiqat institutlarının araşdırmalarında damcılı suvarma metodların tətbiqinin faydasına dair müsbət nəticələr əldə edilib. Dünya ölkələrinin təcrübələrindən faydalanaraq əkinçilikdə suyun ödənişlə sahibkara verilməsi fikri qənaətbəxş hesab edilib.

Meyvəçiliyin dayanıqlılığı, irəliləməsi üçün əsasən əməl olunmalı qaydalardan biridə səmərəli şəkildə, ehtiyac olduqda gübrələrdən istifadədir. Gübrələrin meyvələri, bitkiləri neçə gözəlləşdirdiyi, tez yetişdirdiyi, lazımi elementlərlə zənginləşdirdiyi hər kəsə məlumdur. Gübrələr istər təbii istər süni olsun bitkiyə ifrat verilməsi həmin zaman üçün əlverişli metod olsa da daha sonraki əkinlərdə torpaq strukturu pozulduğu üçün həmin torpaq heç də fayda verməyəcək. Eyni şəkildə az gübrələmə meyvənin yetişərkən torpaqdan ala bilmədiyi elementlər olduğu üçün tez çürümə, cır məhsul alınması kimi problemlər yaradır. Gübrələmə zamanı torpaq münbitliyini artırmaq üçün daha çox mineral gübrələrdən istifadə olunması tövsiyə olunur. Hazırda ən alternativ yol budur. Torpağın münbit elementlərlə zənginləşməsi üçün gübrələmənin əlverişli səviyyədə olması əsas vəzifələrdəndir. Bundan əlavə çoxillik əkin zamanıda torpağa düzgün şəkildə üzvi və mineral gübrə verilməlidir. Gübrə kimi peyin, küləş və s. ölkəmizdə istifadə olunması mütəxəssislərin gəldiyi nəticələrdəndir.

Kənd təsərrüfatı və onun daxilində meyvəçiliyin inkişafında olan ən əsas, gözlə görünən mühit və texniki problemlər haqqında olan araşdırmaları tədqiq etdik. Bunların həlli yolallarını xülasə şəkildə qeyd edtik. Lakin mühit və texniki problemlərdən əlavə canlı işçi qüvvəsində də düzəlişlərə ehtiyac var. İndi isə canlı işçi qüvvəsində olan boşluqları və bu barədə aparılan islahatlar haqqında bəhs edək.

Kənd təsərrüfatı sahəsində çalışan işçi, sahibkarlara bu gün həm maliyyə cəhətdən həmdə maarifləndirmə cəhətdən ciddi kömək lazımdır. Dövrümüzdə meyvəçilik, bağçılıqla məşğul olan əhalinin yeni dövrlə uyğunlaşması üçün dövlət dəstəyi, pilot layihələrin keçirilməsi, ekspertlər tərəfindən nəzəri və praktiki məlumatlandırma və s. olduqca əhəmiyyətli məsələdir. Məsələn: Qubada "Fermer evi"ndə təşkil edilmiş kurslar zamanı meyvəçilik, bağçılıq və bağçılıqla bağlı bütün yeni metodlar, inkişaf üsulları və hətta marketinq mövzusunda geniş müzakirələr aparılıb. Bundan başqa "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi" planı Prezident İ.Əliyev tərəfindən təsdiqləndikdən sonra meyvəçilik sahəsində də ciddi dirçəliş görülmüşdür. Sözü gedən planda, istehsalçılar, fermerlər və ümumiyyətlə bu sahənin işçi qüvvəsi üçün informasiya-məlumat xidmətinin olması əsas istiqamətlərdən biri kimi yenidən təyin edildi. Bu sahədə işlər günü gündən artırılır və nəticələr alınır. Bu isə müsbət irəliləyişdən xəbər verir.

Əgər biz bu gün saydığımız əl verişli mühit şəratini yaratsaq, texniki avadanlıqları təkmilləşdirsək və işçi qüvvəsinin iş qabiliyyətini möhkəmləndirsək demək olar ki, artıq arzu etdiyimiz meyvələrin alınması və meyvəçiliyin inkişafını əldə etmiş oluruq. Əldə etdiyimiz bu nailiyyətlərdən sonra artıq meyvələri toplamaq, onları anbarlarda düzgün şəkildə yerləşdirmək və daşınmasını təmin etməklə mükəlləfik. Bu meyvələri yanlız Azərbaycan daxilində deyil dünya bazarına da ixrac etməklə Azərbaycan brendini daha da sözükeçər edə bilərik. Bugün Azərbaycan təkcə neft sektorunda deyil, qeyri-neft sektorunda da öz sözünü deyən ölkələr sırasına daxildir və kifayət qədər yerli brendlərimiz dünya ölkələrinə ixrac edilir. Bilirik ki, meyvə yetişkənliyə çatıb öz rəngini, dadını, son formasını tam aldığı zaman yığım üçün tam hazırdır. Bəs yığım zamanı hansı qaydalara əməl olunmalıdır? Meyvələrin bağdan düzgün şəkildə yığılması üçün ilk növbədə yığım edəcəyimiz vaxtı dəqiq bilməliyik və dəqiqləşdirməliyik. Daha sonra məhsuldarlığın səviyyəsi, götürəcəyimiz məhsulun miqdarını öyrənməliyik və buna uyğun işçi qüvvəsi, işçi qüvvəsinə uyğunda texniki avadanlıqlar ayrılmalıdır. Bu zaman yığım prosesi daha səmərəli, sürətli və əlverişli olacaq. Bunun üçün məhsuldarlığı hesablayan düsturdan istifadə edilir. Həmin düstura görə 1 ha ərazidəki məhsulun miqdarını 1 ağacdakı meyvələrin sayına vururuq. Aldığımız ədədi meyvələrin kütlə cəmi ilə ağacların ümumi miqdarı hasilinə bölürük.

Azərbaycan və lider ölkələrin kənd təsərrüfatının artım templərini müqayisə etsək, illər arasındakı kəskin fərqi özümüzdə rahatlıqla müşahidə edə bilərik. Dünyanın inkişaf etmiş ölkələri ilə müqayisədə isə vəziyyət daha gərginləşir. Amma 2015-ci ildən başlayaraq Azərbaycan SSRİ daxilində olduğu dövrdəki kimi yüksək məhsuldar, artımlı dövrünə qədəm qoyub. Meyvəçiliyin inkişaf tendensiyasında artm və stimullaşdırmanın nəticəsinin bəhrəsi bununlada aydın görünür.

Son illər ölkə prezidentinin siyasi, iqtisadi və aqrar sahədə səyləri nəticəsində dünya ölkələri içərisində vətənimizin mövqeyində xeyli irəlləyiş qeydə alınıb. Xüsusəndə II Qarabağ müharibəsi zamanı olan qalibiyyətimizdən sonra artıq dünyada qalib və güclü ölkə kimi tanınmağa başladıq. Təbii ki, bu meyvəçilik sahəsinində də yüksək səviyyədə özünü göstərdi. 2000-ci illərin əvvəlində Azərbaycanın kənd təsərrüfatı sahəsindəki irəlləyişi ilə 2016-cı ildən sonraki irəlləyişi müqayisə etsək, kifayət qədər böyük fərqi aydın şəkildə görərik.

## EKOLOGİYANIN MEYVƏÇİLİYƏ TƏSİRİNİN AKTUALLIĞI

Meyvəçilikdə hər bir meyvənin özünün yetişmə mühiti olur. Bunu nəzərə alıb ona müvafiq ərazi seçilməli, ərazinin ekoloji təmizlik və əlverişlilik şəraiti mütləq şəkildə yoxlanmalıdır. Torpağın şoran olması və ya əkindən sonra şoranlaşma ehtimalı, iqlim şəraiti, mümkün qədər zavod, fabrik və kimyəvi maddələrlə işləyən müəssisələrdən uzaqda bir ərazi olması olduqca vacib faktorlardır. Əsasəndə iqlimin getdikcə dəyişdiyi, qlobal ekoloji problemlərin artdığı dövrdə bunları nəzərə almaqla ağıllı meyvəçilik zəmanəsinə keçid etmiş olarıq. Havanın təmizlik səviyyəsinin müəyyən edilmiş həddən aşağı düşməsi öz təsirini yetəri qədər göstərir. Buna görə vacibdir ki, seçdiyimiz ərazi xüsusi coğrafi informasiya sistemləri (CİS) vasitəsilə müşahidə edilsin. Daha sonradan da bu sistemdən yağışın əkini məhv etməməsi təbii ekoloji fəlakətlərdən qorunmaq üçün istifadə edilməlidir. Bu qurğuların dünya ölkələrində tətbiqinin nəticəsində meyvəçilik də daxil olmaqla kənd təsərrüfatı sahəsində ciddi inkişaf müyyən edilib. CİS-dən daha çox hərbi sahədə istifadə olunsada digər sahələdə tətbiq edərək fayda almaq mümkündür. CİS-in ölkəmizdə tətbiqi kənd təsərrüfatında şüurlu əkinçiliyə keçmə, məsafədən suvarmadan istifadə. Vaxt itkisinin qarşısının alınması və yüksək dəqiqlikdə praqnozlaşdırma üçün böyük fürsətdir.

Hazırda ölkəmizdə meşə fondu torpaqlarınında əkin üçün istidafə edilməsi haqqında müzakirələr gedir. Təbii ki, əgər bu fikir reallaşarsa bu ekoloji tarazlıq çərçivəsində həyata keçiriləcək. Bu eyni zamanda həm meyvəçiliyin inkişafına həmdə meşə torpaqlarının və meşənin ümumi vəziyyətinin yaxşılaşmasına böyük töhvə verə bilər. Ekologiya və kənd təsərrüfatının nəzdində olan sahələrin daimi və düzgün şəkildə birlikdə fəaliyyət göstərməsi düşünürük ki, günümüzün bir çox aktual məsələlərini yerindəcə həll edə bilər.

## NƏTİCƏ

Aparılan tədqiqatlar, araşdırmalar və verilən rəylərdən də məlum olur ki, hal-hazırda Azərbaycanda kənd təsərrüfatında ötən illərə nisbətən inkişaf olsada, ölkəmizin aqrar sahəsində xüsusi ilə meyvəçilik bölməsində görülməli olan işlər çoxdur. Bu səbəbdən meyvəçiliyə olan dövlət nəzarətinin daha da artması və yeni qurğuların ölkəyə gətirilməsi, maarifləndirmə işlərinin əhali və sahibkarlar arasında həyata keçirilməsi meyvəçiliyin inkişafında müstəsna əhəmiyyət daşıyır. Dünyanın meyvəçilik üzrə inkişaf etmiş ölkələrinin təcrübələrini sınaqdan keçirmək də mümkündür. Qeyri-neft sektorlarının inkişafını artırmaq üçün bu sahəyə daha çox ixtisaslaşmış kadrlar cəlb etmək lazımdır. Meyvəçilikdə ümumi olaraq innovativ irəlləyişlər aparılması qoyulan investisyanın artıqlaması ilə ölkə büdcəsinə qayıdması ilə nəticələnəcəyini əminliklə deyə bilərik. Qoyulan bütün problemlər və onların həlli yolları nəzərə alınmaqla əlimizdə olan fürsətdən geniş və layiqli bəhrələnməyin tam zamanıdır. Nəzərə alsaq ki, hazırda işğaldan azad olunan ərazilərdə də meyvəçiliyi çox yüksək səviyyədə inkişaf etdirmək üçün lazım olan bütün şərait mövcuddur. Yaxın gələcəkdə həmin ərazilərdə də əkinçilik xüsusən meyvə bağlarının salınmasıda ölkəmizin bu sektorda daha da fəaliyyətinin güclənməsinə səbəb olacaq. Həmin ərazilərimizdə olan boş torpaq sahələri, meşələrimiz hansı ki, illər boyu düşmənlərimiz tərəfindən məhv edilib, həmin ərazilərdən istifadə edərək kənd təsərrüfatını eləcədə meyvəçiliyi güclü şəkildə inkişaf etdirmək mümkündür. Necə ki, işğal dövründən əvvəldə həmin ərazidə çox gözəl və eyni zamanda yanlız həmin təbiətə xas olan bitki və meyvə növləri yetişdirilirdi. Araşdırmaların nəticəsinə əsasən deyə bilə-

rik ki, yaxın 10 il ərzində meyvəçilik sahəsində Azərbaycan öz sözünü deyən, öz əhalisini lazımi məhsulla tam təmin edən və ixracatda artıq dünyada yetərincə tanınan bir dövlət olacaq. Bunun üçün isə qarşıya qoyulan bütün məqsədlər planlı şəkildə yerinə yetirilməli, bu sahəyə dövlət dəstəyi daimi və davamlı olmalı və əhali bu mövzularda geniş və ətraflı şəkildə məlumatlandırılmalıdır. Bütün bunlar üçün isə vaxtaşırı təbliğat və tədbirlərin təşkili mütləqdir.

## Ədəbiyyat


1. T.Yarılgaç. (2012) Coğrafi Bilgi Sistemlerinin (CBS) Meyve Yetiştiriciliğinde Kullanımı
2. K.Valenta, O.Nevo. (2020) The dispersal syndrome hypothesis: How animals shaped fruit traits, and how they did not
3. M.Abdullayev. (2012) Azərbaycanın regionlarında meyvəçiliyin geniş inkişaf perspektivləri var
4. Ə-C.İ.Əhmədov, N.T.Əliyev. (2009) Meyvə və tərəvəzin əmtəəşünaslığı. Bakı, ADİU nəşriyyatı, səh.174
5. H.İdrisov. (2018) Çəyirdəkdəki meyvə bitkiləri / Bakı, səh.152
6. E.Kaufmane, M.Skrivele, E.Rubauskis, S.Strautiņ, L.İkase,.G.Lacis, D.Segliņa, İ.Moroçko-Biçevska, S.Ruisa, İ.Priekule. (2013) Latviyada meyvəçilik elminin inkişafı
7. S.R.Mustafayev. (2021) Kənd yerlərində əhali məşğulluğunun səmərəliliyinin yüksəldilməsi istiqamətləri / Agricultural Economics
8. Q.Ramazanov. (2020) Ölkəmizdə aqrar sektorda məhsuldarlığın artırılması üçün zəruri tədbirlər həyata keçirilir
9. H.A.Xəlilov. (2020) Kənd təsərrüfatında dayanıqlı intensivləşdirmə: post-transformasiya reintensivləşdirmə şəraitində imkanlar / Kənd təsərrüfatının iqtisadiyyatı, Agricultural Economics, № 3 (33)
10. İ.Abasov. (2013) Azərbaycan və dünya ölkələrinin kənd təsərrüfatı. Bakı, "Şərq-Qərb nəşriyyat evi", səh.183
11. G.S.Cəfərova. (2020) Bitkiçilikdə sudan istifadənin iqtisadi səmərəliliyinin yüksəldilməsi. Agricultural Economics
12. Y.M.Axundov. (2023) Azərbaycan respublikasında meyvəçilik sektorunun ixrac tendensiyaları: müqayisəli təhlil. Kənd təsərrüfatının iqtisadiyyatı, Agricultural Economics, № 2 (44)
13. M.N.Səttarova. (2022) Aqrar sahədə innovasiyalı inkişaf potensialı və onun reallaşdırılması mühitinin dəyərləndirilməsinə yanaşmalar. Agricultural Economics

## FRUIT GROWING IN AZERBAIJAN AND ECOLOGICAL IMPACT

**F.S.Guliyeva, M.E.Safarova**

**SUMMARY**

This work deals with the ecological problems which endanger the further development of fruit growing in Azerbaijan. The authors try to find out what kind of reforms should be carried out and what steps should be taken to eliminate these dangers.

## ПЛОДОВОДСТВО В АЗЕРБАЙДЖАНЕ И ВЛИЯНИЕ НА НЕЕ ЭКОЛОГИИ

**Ф.С.Гулиева, М.А.Сафарова**

**РЕЗЮМЕ**

Статья посвящена экологическим проблемам, представляющим опасность для дальнейшего развития плодоводства в Азербайджане. Авторы пытаются выяснить, какие реформы следует провести и какие меры необходимо принять, чтобы устранить эти опасности.

*Məqalə redaksiyaya 19 aprel 2024 tarixində daxil olmuş, 30 aprel 2024 tarixində isə çapa qəbul olunmuşdur.*

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2024 - № 63

UOT № 576.895.121

# KÜR-ARAZ OVALIĞINDA XIRDA BUYNUZLU HEYVANLARIN SESTODLARININ (CESTODA RUDOLPHI, 1808) EKOLOJİ ANALİZİ

**E.K.Aslanova, N.A.Həsənli**
ARETN Zoologiya İnstitutu
Bakı, A.Abbaszadə küçəsi, 1128-ci döngə, 504-cü məhəllə
e-mail: elnureaslanova757@gmail.com

***Açar sözlər:*** qoyun, keçi, sestod, epidemiologiya, epizootologiya
***Keywords:*** sheep, goat, cestodes, epidemiology, epizootology
***Ключевые слова:*** овцы, козы, цестоды, эпидемиология, эпизоотология

## GİRİŞ

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra iqtisadiyyatın digər sahələri ilə yanaşı, kənd təsərrüfatı və onun əsas sahəsi olan heyvandarlığın strukturunda çox mühüm dəyişikliklər baş vermişdir. Belə ki, bu müddət ərzində gövşəyən heyvanların sayı artmış, onların saxlandığı otlaq sahələri kiçilmiş və bu da zootexniki normaların pozulmasına səbəb olmuşdur. Mal-qaranın baş sayının artırılması hesabına kənd təsərrüfatı nəzərə çarpacaq dərəcədə inkişaf etmişdir.

Əhalinin heyvandarlıq məhsullarına olan tələbatını ödəmək üçün sağlam təsərrüfatların yaradılması tələb olunur. Yeni yaradılmış belə təsərrüfatlarda qarşıya çıxan bir sıra çətinliklərlə yanaşı, heyvandarlıq məhsullarına ciddi iqtisadi ziyan vuran helmintoz törədiciləri də artıb çoxalmış və onların yeni təbii və məhəlli ocaqları yaranmışdır.

Bundan başqa, iqlim şəraitinin nəzərə çarpacaq dərəcədə dəyişməsi ölkənin baytar xidmətində ciddi dəyişikliklərə səbəb olmuşdur ki, bu da xırda buynuzlu heyvanların helmint faunasına öz təsirini göstərmişdir.

Azərbaycanda xırda buynuzlu heyvanların helmint faunasının bir sıra tədqiqatçılar tərəfindən öyrənilməsinə baxmayaraq, Kür-Araz ovalığında bu sahədə tədqiqat işləri aparılmamışdır [1, 2, 6, 8, 10, 11, 13].

Yuxarıda deyilənlərə əsasən, xırda buynuzlu heyvanlardan ekoloji təmiz heyvandarlıq məhsulları almaq məqsədilə onların bir sıra infeksion və invazion xəstəlik törədicilərindən, xüsusilə helmintoz törədicilərindən qorunmasının böyük elmi və praktiki əhəmiyyəti vardır.

## MATERİAL VƏ METODLAR

Kür-Araz ovalığında xırda buynuzlu heyvanların başlıca helmintoz törədicilərini və onların ekoloji təhlilini öyrənmək məqsədilə 2021-2023-cü illər ərzində müxtəlif xarakterli landşaft-ekoloji zonalardan (düzənlik, dağətəyi, alçaq dağlıq) əldə edilmiş heyvanlar K.İ.Skryabinin tam olmayan helmintoloji yarma üsulu ilə tədqiq edilmişdir [12].

Toplanmış helmintoloji materiallar - sestodlar $70^0$-li spirt məhlulunda fiksə edilmiş, təyin edilməsi üçün parazitoloji tədqiqatlarda qəbul edilmiş rənglənmə üsulundan istifadə edilmişdir. Bu məqsədlə boyayıcı rəng hazırlanmışdır: 1 litr distillə edilmiş suya 5 q kali-

umlu zəy və 3 q karmin əlavə edilərək, 30 dəq. qaynadılmışdır. Hazırlanmış rəng soyudulduqdan sonra süzülərək helmintlərin rənglənməsində istifadə edilmişdir. Sonra ardıcıl spirt cərcəsindən keçirilərək qərənfil yağında şəffaflaşdırılmış və kanada balzamından istifadə etməklə helmintoloji tədqiqatlarda istifadə edilən ümumi metodlar əsasında preparatlar hazırlanmışdır [12].

Toplanmış helmintoloji materialları ekoloji cəhətcə təhlil edərkən invaziyanın intensivlik və ekstensivliyinə xüsusi fikir verilmişdir.

Sestodların növ tərkibi müvafiq təyinat kitablarına əsasən təyin edilmişdir [7]. Helmintlərin növ tərkibini təyin edərkən MBI-1, MBI-3 və Olympus mikroskoplarından istifadə edilmişdir.

## TƏDQİQATIN NƏTİCƏLƏRİ

Tədqiqat müddətində tam olmayan helmintoloji yarma üsulu ilə 188 baş qoyun, 105 baş keçi olmaqla cəmi 293 baş xırda buynuzlu heyvan tədqiq edilmiş və onlarda 6 növ sestod aşkar edilmişdir.

Aşkar edilmiş sestodlar sistematik qruplar üzrə təhlil edilmişdir.

Sinif: Cestoidea Rudolphi,1808

Dəstə: Cyclophyllidea Braun,1909

Fəsilə: Anoplocephalidae Cholodkowsky,1902

Cins: Moniezia Blançmchard,1891

Növ: M.expansa (Rudolphi,1810) Blanchard,1891

Sahibləri: axırıncı-qoyun, keçi, iribuynuzlu heyvanlar, camış, zebu, bir və iki hücrəli dəvə, ceyran; aralıq-oribatid gənələr. Yayılması: Belarus, Ukrayna, Litva, Gürcüstan, Azərbaycan. Lokalizasiyası: nazik bağırsaq.

Növ: M.benedeni (Moniez,1879)

Sahibləri: axırıncı-qoyun, keçi, iribuynuzlu heyvanlar, zebu, camış, iki hücrəli dəvə, maral, xallı maral, Avropa muflonu, dağ keçisi; aralıq-oribatid gənələr. Yayılması: Belorus, Ukrayna, Litva, Orta Asiya respublikaları, Rusiya, Azərbaycan. Lokalizasiyası: axırıncı sahiblərdə nazik bağırsaq, sürfə mərhələsində oribatid gənələrin bədən boşluğu.

Fəsilə: Taenidae Ludwig,1886

Cins: Taenia L.,1758

Növ: Cysticercus tenuicollis (Pallas,1766)

Sahibləri: axırıncı-it, canavar, tülkü, çaqqal; aralıq-qoyun, keçi, iribuynuzlu heyvanlar, camış, zebu, ceyran, Avropa muflonu, maral, dağ keçisi. Yayılması: Rusiya, Litva, Belorus, Ukrayna, Gürcüstan, Azərbaycan, Orta Asiya respublikaları. Lokalizasiyası: yetkin forması (Taenia hydatigena) it və digər vəhşi yırtıcı heyvanların nazik bağırsağı.

Növ: C.ovis

Sahibləri: axırıncı- it və caqqal; aralıq-qoyun, ceyran. Yayılması: Qazaxıstan, Türkmənistan, Özbəkistan, Tacikistan, Gürcüstan, Azərbaycan. Lokalizasiyası: it və çaqqalın nazik bağırsaqları, qoyun və ceyranın skelet əzələləri, ürəyi, diafraqması.

Cins: Multiceps Goeze,1782

Növ: Coenurus cerebralis (Leske,1780)

Sahibləri: axırıncı-it, canavar, tülkü; aralıq-qoyun, keçi, iribuynuzlu heyvanlar, dəvə, şimal maralı. Yayılması: Belorus, Ukrayna, Orta Asiya respublikaları, Azərbaycan. Lokalizasiyası: yetkin mərhələsi axırıncı sahiblərin nazik bağırsağı, sürfə mərhələsi aralıq

sahiblərin beyni.

Cins: Echinococcus Rudolphi,1801

Növ: Echinococcus granulosus (Batsch., 1786)

Sahibləri: axırıncı - it, canavar, tülkü, çaqqal; aralıq - qoyun, keçi, iribuynuzlu heyvanlar, zebu, camış, bir və iki hücrəli dəvə, şimal maralı. Yayılması: Estoniya, Litva, Belorus, Ukrayna, Orta Asiya respublikaları, Gürcüstan, Azərbaycan. Lokalizasiyası: it, canavar və başqa yırtıcılarda yetkin mərhələdə nazik bağırsaq, sürfə mərhələsində isə qara ciyər, ağ ciyər və digər başqa orqanlar, həmçinin aralıq sahiblərin müxtəlif toxumaları.

Tədqiqat nəticəsində aşkar edilmiş sestodların xırda buynuzlu heyvanlar arasında yayılması cədvəldə öz əksini tapmışdır (Cədvəl).

**Cədvəl**

**Kür-Araz ovalığında xırda buynuzlu heyvanların sestodları**

| Helmint növləri | Qoyunlar | Keçilər |
|---|---|---|
| *Moniezia expansa* | 188-44(23,4)1-6 | 105-12(11,4)2-4 |
| *M.benedeni* | 188-28(12,5)1-3 | 105-13(12,3)1-2 |
| *Cycticercus tenuicollis* | 188-37(19,6)2-24 | 105-17(16,1)2-11 |
| *C.ovis* | 188-10(5,3)4-8 | - |
| *Coenurus cerebralis* | 188-16(8,5)1-2 | 105-2 (1-1) |
| *Echinococcus granulosus* | 188-104(55,3)4-16 | 105-47(44,8)2-16 |

*Qeyd: 1-ci rəqəm-tədqiq edilmiş heyvanların sayı; 2-ci-yoluxmuş heyvanların sayı; 3-cü-invaziyanın ekstensivliyi (%-lə); 4-cü invaziyanın intensivliyini göstərir.*

Aşkar edilmiş 6 növ sestoddan *Moniezia expansa* və *M.benedeni* növləri yetkin, *Cycticercus tenuicollis, C.ovis, Coenurus cerebralis* və *Echinococcus granulosus* növləri isə sürfə mərhələsində qeyd olunmuşdur. Qoyunlarda 6 növə, keçilərdə isə *Cycticercus ovis* növü istisna olmaqla, digər sestod növlərinə rast gəlinib.

Cədvəldən göründüyü kimi, yüksək ekstensivlik *E.granulosus* növü həm qoyunlar (55,3%), həm də keçilər arasında (44,8%); nisbətən az ekstensivlik isə qoyunlar arasında *M.expansa* (23,4%) və *C.tenuicollis* (19,6%); keçilər arasında *C.tenuicollis* (16,1%) növlərində qeyd edilmişdir. Ən aşağı ekstensivlik qoyunlarda *C.ovis* (5,3%), keçilərdə isə *M.expansa* (11,4%) növlərində müşahidə edilmişdir.

Monieziyaların aralıq sahibi olan oribatid gənələri təbiətdə çox geniş yayılmışlar. Arx və çayların ətrafındakı otlaqlarda, çayətrafı çəmənliklərdə, fermaətrafı sahələrdə, habelə suvarılan otlaqlarda oribatid gənələrə külli miqdarda təsadüf edilir. Xırda buynuzlu heyvanların monieziyalarla yoluxması otlaqlarda bu növlərin aralıq sahibləri olan oribatid gənələrini otla birlikdə udduğu zaman baş verir. Belə ki, yoluxmuş monieziya yumurtalarından heyvanların nazik bağırsağında sürfələr çıxır və inkişaf edib yetkin mərhələyə çevrilirlər.

Qoyun və keçilərdə aşkar edilmiş sestodlardan 4 növü *Teniidae* fəsiləsinə aiddir. Bu növlərin aralıq sahibləri qoyun, keçi və digər əhli və vəhşi otyeyən heyvanlar, axırıncı sahibləri isə əhli və vəhşi itkimilərdir. Xırda buynuzlu heyvanların teniidioz törədicilərinə yoluxmasının başlıca səbəbi heyvandarlıq təsərrüfatlarında dehelmintizasiya edilməmiş

çoban itləri və ferma ətrafında yayılan sahibsiz səllimi itlərdir. Təbii ki, otlaq sahələrində helmintoz törədicilərinin yayılmasında və ötürülməsində vəhşi itkimilər də (çaqqal, canavar, tülkü) mühüm rol oynayırlar.

Tədqiqat zamanı aşkar edilmiş sestodlardan anoplosefalyatlar *(Moniezia expansa, M.benedeni)* qoyunların bağırsağında kələf kimi bükülərək keçilməzlik əmələ gətirir, xüsusən bu qarışıq yoluxmada (eyni vaxtda bir neçə növlə yoluxma hallları) daha çox müşahidə olunur.

*Coenurus cerebralis* növünün yetkin mərhələsi *(Multiceps multiceps)* əhli və vəhşi itkimilərdə, sürfə mərhələsi qoyun, keçi və digər gövşəyən heyvanların baş beynində, bəzən isə onurğa beynində parazitlik edirlər. Xırda buynuzlu heyvanlar axırıncı sahiblər tərəfindən xarici mühitə səpələnmiş multiseps yumurtalarını ot və su ilə birlikdə udduqda yoluxma baş verir. Senurozla əsasən cavan heyvanlar yoluxurlar. Xəstə heyvanlar isə çox zaman şiddətli və ağır keçən meningit əlamətləri göstərərək yoluxmadan 5-7 gün keçməmiş tələf olurlar.

Exinokokk qovuqları *(Echinococcus granulosus)* xırda buynuzlu heyvanların qaraciyər, ağciyər, ürək və digər orqanlarında parazitlik edərək orada iltihab və irinlər əmələ gətirirlər. Orqanlarda yüksək iltihablı proseslər zamanı bədəndə ümumi hərarət yüksəlir, burun axıntısı və öskürək müşahidə edilir, eyni zamanda tənəffüs tezləşir və çətinləşir, sonda isə plevrit, pnevmoniya və peritonitə gətirib çıxarır. Xəstəlik zamanı heyvanlarda immunutet aşağı düşür, dəridə qaşınmalar qeyd olunur. Bu səbəbdən heyvanın yunu qırılır və tökülür. Exinokokk qovuqları qaraciyər, ağciyər, dalaq və başqa orqanlarda partlayaraq heyvanların ölümünə səbəb olur.

Son illərdə respublikada yaradılan şəxsi və fermer təsərrüfatlarında bəzən baytarlıq-sanitariya qaydaları pozulur, itlər dehelmitizasiya olunmur. Beynəlxalq konvensiyaların tələblərinə uyğun olaraq vəhşi heyvanların, o cümlədən, vəhşi itkimilərin sayının tənzimlənməsi qadağan edilmişdir ki, bu da onların sayının artmasına gətirib çıxarmışdır.

Həmçinin antropogen amillərin təbiətə müdaxiləsi də artmış, müxtəlif təbiət guşələrində tikilmiş ictimai-iaşə müəssisələri və turizm obyektlərində mütəmadi olaraq müxtəlif heyvan növləri kəsilir. Əksər ərazilərdə yol kənarlarında heyvan kəsimi aparılır və helmintoz törədicilərinə yoluxmuş orqan və toxumalar bəzən zərərsizləşdirilmədən ətraf mühitə atılır ki, bu da vəhşi itkimilərin və sahibsiz itlərin yoluxmasına səbəb olur. Belə bir şəraitdə ətraf mühit müxtəlif növ helmintoz törədiciləri ilə çirklənir ki, bu da sonda gövşəyən heyvanların, o cümlədən də qoyun və keçilərin helmintoz törədiciləri ilə yoluxmasına gətirib çıxarır.

Tədqiqat işlərində bunlar nəzərə alınmış və xırda buynuzlu heyvanlarda aşkar edilmiş sestod növlərinin epidemioloji və epizootoloji əhəmiyyəti təhlil edilmiş, onların insan və ev heyvanlarının helmintləri ilə ümumilik təşkil etməsi müəyyən edilmişdir. Bunlardan 2 növün *(Moniezia expansa, M.benedeni)* epizootoloji, 4 növün *(Cycticercus tenuicollis, C.ovis, Coenurus cerebralis, Echinococcus granulosus)* isə həm epizootoloji, həm də epidemioloji əhəmiyyət kəsb edərək potensial təhlükə törətdiyi məlum olmuşdur. Başlıca helmintoz törədicilərinin təbii və sinantrop ocaqlıqlarının saxlanmasında itlərin, o cümlədən vəhşi itkimilərin, bəzi buğumayaqlıların rolu müəyyən edilmişdir.

Epidemioloji və epizootoloji əhəmiyyət kəsb edən bu növlərin Azərbaycanda və digər ölkələrdə insanda, ev heyvanlarında tapılması bir sıra tədqiqatçılar tərəfindən qeyd edilmişdir [1, 3, 4, 5, 9,13, 14, 15].

Beləliklə, Kür-Araz ovalığında xırda buynuzlu heyvanlarda aşkar edilmiş sestod növlərinin ekoloji təhlili zamanı belə nəticəyə gəlmək olar ki, helmintlərin növ müxtəlifliyi həmin zonaların bioekoloji xüsusiyyətlərindən, ərazilərdə heyvanların sıxlığından, orada mövcud olan aralıq sahiblərdən və digər ekoloji amillərin təsirindən asılıdır.

## Ədəbiyyat

1. Ağayeva A.N. (2020) Abşeron bölgəsində aşkar edilmiş başlıca helmintoz törədicilərinin epidemioloji və epizootoloji rolu. Bakı: Gənc tədqiqatçı. C.6, №1 (s.95-101)
2. Fərhadov Q.T. (2013) Xırdabuynuzlu heyvanların mədə-bağırsaq sisteminin helmintozları. *Bakı: Zoologiya İnstitutunun əsərləri*. C.XXVII (s.266-272)
3. Sultanlı L.R. (2018) Abşeron-Qobustan bölgəsində *Echinococcus granulosus* (Batsch, 1786) növünün yayılması, onun epizootoloji və epidemioloji əhəmiyyəti. *Bakı: AMEA Azərbaycan Zooloqlar Cəmiyyətinin əsərləri*. C.10, №1 (s. 86-90)
4. Айсаев З.Ч., Магамедов А.Д. (1992) Эхинококкоз у детей. *Махачкала: Дагестанский регион асамбелия «Здоровье человека»* (с.161-163)
5. Алибеков А.М. (1960) Оценка эпидемиологической ситуации по гельминтозам в Азербайджане. *Москва: Фундаментальные исследования*. №9, ч.3, (с.377-381)
6. Асадов С.М. (1960) Гельминтофауна жвачных животных и ее эколого-географический анализ. *Баку: АН Азерб.ССР* (511 с.)
7. Ивашкин В.М. (1989) Определитель гельминтов мелкого рогатого скота. А.О.Оринов, М.Д.Сонин. *Москва: Наука* (294 с.)
8. Исмаилов Г.Д., Фаталиев Г.Г. (2010) Эколого-географический анализ распространения возбудителей мониезиоза диких и домашних парнокопытных животных Азербайджана . *Москва: Научно-практический ж. «Ветеринарная медицина»*. №3-4 (с.47-48)
9. Лукманова Г.И., Билалова Г.В., Гумеров А.А. (2008) Типирование возбудителей эхинококкозы у детей на южном Урале // Биоразнообразие и экология паразитов наземных и водных ценозов. *Материалы международной науч.конф., посвященной 130-летию со дня рождения акад. К.И.Скрябина, - Москва* (с.198-200)
10. Мамедов Э.Н. (2010) Распространение возбудителей аноплоцефалятозов овец. *Москва: Аграрная наука*. №2, с.29-30
11. Меликов Ю.Ф. (1996) Гельминтозы овец Апшерон-Кобустанской полупустынной зоны и Большого Кавказа Азербайджана. *Ю.Ф.Меликов - Баку: БДУ им. М.А.Расулзаде* (146 с.)
12. Скрябин К.И. (1928) Методы полных гельминтологических вскрытий позвоночных, включая человека. *К.И.Скрябин. - Москва: Изд.-во МГУ* (45 с.)
13. Фархадов Г.Т. (2014) Эпизоотологическая характеристика гельминтов овец и коз в Нахчыванской Автономной Республике. *Gəncə: ADAU-nun Elmi Əsərləri*. №1 (с.124-128)
14. Graham A.J. (2004) Ecological epidemiology: landscape metrics and human alveolar echinococossis . *A.J.Graham, Danson F.M., Giraudoux P [et al] Acta Tropic*. 91 (3) (p.267-278)
15. Takumi K. (2012) Marring the increasing risk of human alveolar echinococcosis in Limberg the Netherlands. K.Takumi, D.Hegglin, P.Deplarez [et al.] Epidemiol. and Infec. 140, №5 (p.867-891)

## ECOLOGICAL ANALYSIS OF CESTODES (CESTODA RUDOLPHI, 1808) OF SMALL HORNED ANIMALS IN KURA-ARAZ LOWLAND

**E.K.Aslanova, N.A.Hasanli**

### SUMMARY

The role of the definitive and intermediate hosts and the influence of environmental factors in the spread of cestodes of small horned animals across different ecological zones is examined in this work. 188 sheep and 105 goats are studied by partial necropsy and 6 spesies of cestodes (Moniezia expansa, M.benedeni, Cycticercus tenuicollis, C.ovis, Coenurus cerebralis) are found.

## ЭКОЛОГИЧЕСКИЙ АНАЛИЗ ЦЕСТОД (CESTODA RUDOLPHI, 1808) МЕЛКОРОГАТОГО СКОТА В КУРА-АРАКСИНСКОЙ НИЗМЕННОСТИ

**Э.К.Асланова, Н.А.Гасанлы**

### РЕЗЮМЕ

В статье изучена роль окончательных и промежуточных хозяев, влияние факторов внешней среды на распространение цестод мелких рогатых животных в различных экологических зонах. С этой целью методом неполного гельминтологического вскрытия исследовано 188 овец, 105 коз и у них обнаружено 6 видов цестод (Moniezia expansa, M.benedeni, Cycticercus tenuicollis, C.ovis, Coenurus cerebralis).

*Məqalə redaksiyaya 1 may 2024 tarixində daxil olmuş, 8 may 2024 tarixində isə çapa qəbul olunmuşdur.*

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2024 - № 63

UOT № 57

# DAXİLİ SEKRESİYA VƏZİLƏRİ VƏ ONLARIN ORQANİZMİN NEYROHUMORAL TƏNZİMİNDƏ ROLU

**İ.Ə.Musayeva, M.Ə.Səfərova**
Odlar Yurdu Universiteti
Bakı, Koroğlu Rəhimov küçəsi 13
e-mail: musayevailayda@gmail.com

***Açar sözlər:*** endokrin sistem, sinir sistemi, hormonlar, daxili sekresiya vəziləri
***Keywords:*** endocrine system, nervous system, hormones, endocrine glands
***Ключевые слова:*** эндокринная система, нервная система, гормоны, железы внутренней секреции

Məqalədə əsas məqsəd insanları daxili sekresiya vəziləri, daxili proseslər və orqanizmdə olan hormonlar haqqında məlumatlandırmaqdır. İfrazat vəziləri tərəfindən ifraz olunan bioloji aktiv maddələrə hormonlar deyilir. Neyroendokrin (endokrin) sistem orqanizmin fəaliyyətini koordinasiya edir və tənzimləyir. Hormonlar qanla bütün bədənə daşınır və bədənin bütün həyat fəaliyyətinə təsir göstərir. Məsələn, xoşbəxtlik, bədbəxtlik, sevgi, nifrət və s. kimi hisslər insanların düşündüklərindən fərqli olaraq ürək deyil, hormonlar tərəfindən idarə olunur.

İnsanı digər canlılardan fərqləndirən əsas xüsusiyyət onun düşünə bilməsidir. Düşüncəli insan daim sorğulayır, maraqlanır, araşdırır, suallarına cavab axtarır. Gördüyü ən sadə hadisədən mürəkkəbinə qədər insanda maraq doğurur. Məşhur fizik Isaac Newton ağacdan düşən almanın diqqətini çəkməsi nəticəsində cazibə qüvvəsini kəşf etmişdi. İnsan daim fəaliyyətdə olan canlıdır. Ətrafı kəşf etməklə yanaşı, ən ali yaradılış forması olan insan özünü kəşf edir. Oynadıq, qaçdıq və nəticədə tərlədik. İfraz olunan su gözümüzün önündədir, bəs görmədiklərimiz? Hormonlar? Daxilimizdə baş verən proseslər? Bu məqalədə bütün bu suallara cavab verərək, mürəkkəb prosesləri sadə formaya salaraq, insanları məlumatlandırmağa çalışdıq. İnsan endokrin və sinir sisteminin birgə fəalliyətini, duyğusal və zehinsəl prosesləri, xəstəlikləri özünün və ətrafınının ruhən və bədənən sağlamlığı üçün tanımalıdır.

İnsan daim hərəkətdə olan canlıdır və həyat fəaliyyəti nəticəsində ətrafda baş verən hadisələrə müxtəlif formada reaksiya verir. Sevgi, xoşbəxtlik, bədbəxtlik, həyəcan, stress və s. kimi duyğular həyatımızın bir parçasıdır. Ən az bir dəfə hər insan "bu proseslər necə baş verir?", "proseslər arasında əlaqə necə qurulur?" deyə düşünmüşdür. İnsan orqanizmini iri şəhər olaraq təsəvvür etsək, buradakı xaosun qarşısını almaq üçün var olan rabitə sistemini insan orqanizmində sinir sistemi əvəz edir. Bütün bədənə yayılaraq sürətli mesajlar göndərir, daha yavaş mesajları isə endokrin sistemi idarə edir. Endokrin system - kanal sistemi olmayan, hormonları birbaşa qana ifraz olunan sistemdir. Hormon - endokrin vəzilərində yaranan, bir hüceyrə, yaxud digər hüceyrələr arasında kimyəvi mesajlaşmanı yerinə yetirən molekuldur. Qanda hərəkət edərək xüsusi reseptorlarla əlaqə yaradır və təsirini göstərir. Daxili sekresiya vəziləri bədənimizdə müxtəlif mövqe tutan 7 əsas vəzidən ibarətdir: hipofiz, epifiz, qalxanabənzər vəzi, çəngələbənzər vəzi, böyrəküstü vəzi,

mədəaltı vəzi, xaya (kişilərdə), yumurtalıq (qadınlarda). Bu vəzilərin ifraz etdiyi hormonlar həyatımızda baş verən hadisələrə necə reaksiya verəcəyimizi tənzimləyir. Yemək istəmək yaxud doymaq, temperaturun artıb, azalması, yuxu, bədənimizdəki maye balansı kimi prosesləridə idarə edir. Keçmiş zamanlarda elmə məlum olan 20 hormon olduğu halda hal-hazırda 200 hormon haqqında məlumat əldə edilmişdir. Endokrin sistem həyatımızın hər anında bizimlədir. Məsələn: yetkinlik dövründə üzdə yaranan səpkilər, cinsiyyətdən aslı olaraq bədəndə baş verən müxtəlif dəyişikliklərə qarşı cinsə yaxud həmcinsinə (hormonal pozğunluq, cinsi azlıq) hiss olunan sevgi, sevgi ağrısı, doğum sancısı, ətrafda baş verən hadisələrə duyğusal reaksiyalar kimi hisslər endokrin sistemlə əlaqəlidir. Bəs qıcığa qarşı mürəkkəb siqnal ötürən sinir sisteminin endokrin sistemdən fərqi nədir? Endokrin sistemdə sinir sisteminin əksinə hormonlar yavaş hərəkət edir. Sinir sistemindəki bir implusun hərəkət sürəti 1 saniyədə 120 m qədər yüksək sürətə malik olduğu halda, insulinin qanda dövriyyəsi 4-6 dəqiqə aralığındadır. Daha bir misal göstərsək tiroid (qalxanabənzərvəzi) 7 ilə 10 gün aralığında qanda dövr edir. Endokrin sistemi daxili sekresiya vəzi və hormonu qrafik ardıcılığından öyrənmək daha asandır. Hipofiz 0,5 qram olub beynin alt hissəsində yerləşir. 5 əsas hormonu ifraz edir: 1.TSH; 2.FSH/LH; 3.AKTH; 4.GH; 5.Prolaktin. TSH – tiroid stimullaşdırıcı hormon tiroid vəzinin ifraz etdiyi hormona nəzarət edərək bədənin zehni və metabolitik zəifləməsinin qarşısını alır. FSH/ LH reproduktiv orqanları stimullaşdırıcı hormonlardır. Kişilərdə testislərə qadınlarda yumurtalıqlara nəzərət edərək cinsi funksiyanı təmin edir. AKTH – böyrəküstü vəzi stimullaşdırıcı olub kortizol hormonunu idarə edir. Kortizol hormonunun funksiyası immun sisteminin nizamlı və düzgün işləməsini, damardaki mayenin miqdarını və təzyiqi yetərli səviyyədə saxlanılmasını təmin edir. GH böyümə hormonu olub yetkinlik dövrümüzdə boy artımını həyata keçirir. Prolaktin – süd ifrazı hormonu olub qadınlar doğuştan sonra süd vəzilərinin işini idarəedir. Prolaktin əmzirməni yerinə yetirir.

Epifiz vəzi – böyrəklərdən sonra insan orqanizmində ən çox qanla təmin olunan orqan olmaqla yanaşı, haqqında ən çox miflər olan orqanlardan biridir. Hansı ki, İslamda "qəlb gözü" anlayışının epifiz vəzi ilə əlaqəli olduğu düşünülür. Tək İslam ölkələrində deyil, dünyanın müxtəlif yerlərində bu anlayış özünü göstərir. Məsələn Hindlilərin alnının ortasına çəkdikləri işarə epifizin simvolu olaraq təxmin edilir. Bundan başqa, Misirdə "Horosun gözü" lövhəsidə bu anlayışı dəstəkləyir. Buddanın qaşları, Papanın əsasında simvol heçbiri təsadüf deyildir. Fransız alimi olan məşhur Dekart epifiz haqqında bu sözləri işlətmişdir: "Epifiz ruh və bədənin birləşdiyi nöqtədir". Bu vəzin gözlə bənzədilməsində əsas və maraqlı məqamlardan biri eyniylə göz kimi işığa həsas olmasıdır. Baxmayaraq ki, bu vəzi qaranlıq və qapalı yerdə yerləşir o dərinin köməkliyi ilə işığın olub olmamasını hiss edə bilir. Məsələn əgər işıq şüaları sizin üzrənizə arxadan düşürsə epifiz bu işıq şüalarını hiss edir. Lakin gözdən fərqli olaraq epifiz işıqlı mühitdə fəaliyyətini yerinə yetirə bilməklə yanaşı qaranlıqda da işini idarə edə bilir. Epifiz 3 əsas hormon ifraz edir:

1. Melatonin – bu hormon yalnız qaranlıqda ifraz olunur. Əsasən yuxunu nizamlayan bu hormon müxtəlif xəstəliklərə qarşı müdafiə funksiyasını da yerinə yetirir. Əsrin bəlası olan xərçəng xəstəliyi üzrə aparılan araşdırmalarda göstərir ki, günəş şüası bol olan ölkələrdə xərçəng qaranlıq ölkərə nisbətdə 6 dəfə çoxdur. Başqa bir maraqlı araşdırmaya görə kor insanların xərçəngə tutulma faizi digər insanlardan 24 dəfə azdır. Bu araşdırmalarin insanların iş növbəsinə görədə aparılmış və məlum olmuşdur ki, gecə növbəsində işləyən insanlar 11 dəfə daha çox risk altındadırlar.

2. Seratonin – günümüzdə hələ də öyrənilən bu hormon xoşbəxtlik hormonu kimi tanınır. Əgər az ifraz olunarsa bir çox ruhi xəstəliklərin başlanğıcına səbəb olur.

3. DMT (dimetiltriptamin) - ruh hormonu olan bu hormon doğum və ölüm halında ən pik miqdarına çatır. Yalnız yuxuda ifraz olunan bu hormon ləng yuxu fazasın da daha çox ifraz olunur. Bildiyimiz kimi hər bir canlıya DNT məxsusdur. Təbii haldır ki, bəzi bitkilərdə bunun miqdarı daha çoxdur. Məsələn Falaris qamışı. Qədim zamanlarda bu tip bitkiləri yeməklə, yaxud çay halında içməklə DNT-lərini yüksəldirdilər. Qamış və üzərlik toxumunun birlikdə qaynamasından alınan bu çay içdikdən yarım saat sonra təsir göstərir. Bu çayı içən insanlar işıq görürlər, rənglər daha çox canlanır və fərqli aləmə keçdiklərini, zaman məfhumunun olmadığını deyirlər. Bəs biz heç bir bitki olmadan DNT səviyyəsini artıra bilərik? Bəli. Bununyolu nədir? Qaranlıqda ac qalmaq. Qədim zamanlardan insanlar 40 gün ac qalaraq hormonun ifrazın maksimum dərəcəyə çatdırırdılar və buna “üçüncü gözün “ açılması deyirdilər. İnsanlar dini inanclara əsaslanaraq bu metodlardan istifadə edirlər, hətta Hz.İsanın “qaranlıqda oturanlar gerçək işığı görənlərdir” sözü onları dəstəkləyir. Müasir dövrümüzdə bu üsullar təhülkəlidir və sağlamlığa ciddi şəkildə ziyandır. Ruhi xəstəliklərin başlamasına səbəb olur. Vəzilər içində, fikrimizcə, ən maraq doğuran, hələ də öyrənilməkdə olan epifiz vəzinin hətta düşməni də var. Flüorlu diş məcunu. Flüor epifizin kirəclənməsinə gətirib çıxarır və diş üçün heçbir faydası olmadığı aşkarlanmışdır. Gecələr fəaliyyətə başlayan epifiz vəzi flüorlu diş məcunuyla dişlər fırçalanıb yatıldığı halda onun fəaliyyəti azalır. Qədim zamanlara istifadə olunan misvak daha çox məsləhət görülür. Qalxanabənzər vəzi – tiroid hormonları aiddir. Proses çox mürəkkəbdir. Qalxanabənzər vəzi yaş və çəki ilə artır, 50 yaşdan sonra isə azalmağa başlayır. Yod (T3-triyodtrionin və T4-tiroksin ) ayrılmaz parçasıdır. Yod çatışmazlığı hipotriodə, həddindən artıq yod çox yod qəbulu hipertriodiyə səbəb olur. Bədəndə yodu tənzimləmək üçün dəniz məhsulları doğru seçimdir. Əsas mənbə isə yodla zənginləşdirilmiş duzdur. Çəngələbənzər yaxud timus vəzi – 15 yaşınadək uşaqlarda olan bu vəz sonradan reduksiya olunur və nəticədə piy toxumasıyla əvəz edilir. Bunun əsas səbəbi cinsiyyət vəziləri yetişdikdən sonra cinsiyyət vəziləri timusun işini tormuzlayır. Heyvanlar üzərində aparılan tədqiqatlar göstərirki bu vəzi cavan yaşda çıxarılan heyvanların skletləri yumşalmağa başlayır və boyatma dayanır. Mədəaltı vəzi (Pankreas) - hormonu insulin adlanır. Qana daxil olan bu hormon karbohidrat mübadiləsini tənzimləyir. Qaraciyərdə olan qlikogenin artıq şəkərə çevrilməsinin qarşısını alaraq normal miqdarda ifrazını təmin edir. Şəkərli diabet xəstəliyi xəstəliyinə müqayisəli formada nəzər salaq. Nicat Əliyev (adlarşərtidir) –15yaş, arıq, yuxu problemi, susuzluq, sidiyə tez-tezçıxmaq. Xəlil Paşayev (adlar şərtidir) - 56 yaş, kilolu, qan şəkəri yüksək, sidik, yuxusuzluq kimi problemləri yoxdur. Müxtəlif səbəblərdən xəstəxanaya yaxınlaşan bu vətəndaşlara eyni diqanoz qoyulmuş nəticədə şəkərli diabet olduğları məlum olmuşdur. Tam əks əlamətlər lakin eyni xəstəlik, necə ola bilər? Mümkün haldır. Burada əsas məsələ qlükozanın qanda az yaxud çox mənimsənilməsidir. Qlükozanın qanda sabit saxlanılması prosesi qlikogenoliz adlanır. Cinsiyyət vəziləri – İnsan yetkinlik yaşına çatdıqda orqanizmdə bir sıra dəyişikliklər meydana çıxır. Artıq bu dəyişikliklərdən xəbərdar olan hipofiz vəzi cinsiyyət vəzilərinə dəyişikliyin başladığına görə məlumat ötürür. Cinsiyyət vəziləri hipofizin əmrlərinə tabe olur və ona görə hərəkət edir. Cinsiyyət vəziləri insana müxtəlif formada təsir edir bu təsirlərə psixi, fziki, fizioloji və mənəvi təsirlər aiddir. Həmçinin fərdin tərbiyə olunmasında rol oynayır. Qarışıq vəzilərdir. Xarici və daxili sekretor fəaliyyət göstərir. Cinsiyyət vəzilərinin komponenti olan cinsiyyət üzv-

ləri həm cinsi hormonların, həm də sidiyin bədəndən xaric olunmasını təmin edir. Sinir sistemi ilə sıx əlaqədə olan sistemdir. Cinsiyyət vəzilərində cinsi hüceyrələr kişilərdə spermatozoid, qadınlarda yumurta hüceyrə hazırlanması ilə yanaşı cinsi hormonlarda burda yaranır. Kişi cinsiyyət hormonları toxumluğun daxilində yaranır. Bunlara androgenlər deyilir ("andros" yunanca kişi deməkdir). Bir neçə hormon ifraz olunurki bunlara (testosteron, hidrostendion, androsteron və s.) aiddir. Bu hormonlar bioloji fəallığına görə, tərkibinə görə bir birindən fərqli əlamətlərə malikdirlər. Məsələn, testosteron xolestrendin sintez olunan hormondur. Onun fəallığını androsteronla müqayisə etsək 6 dəfə çox fəal olduğunu görə bilərik. Androgenlər Leydinq hüceyrələrində sintez olunur. Bundan başqa onların sintezini yumurtaların spermatogen epiteli hüceyrələrində görmək mümkündür. Nəyə təsir edir bu hormonlar? Kişilərdə saqqal və bığın çıxması,səsin qalınlaşması,qasıqda tüklərin çıxması,çanaq daralması, çiyin enlənməsi və s. kimi proseslərə nəzarət edir. Qaraciyərdə qlikogen sintezin tormozlamaqla yanaşı orqanizmdə müsbət azot balansının yaranmasında iştirak edir. Xüsusi ilə testosteron sintezində hipofizin müsbət təsirləri çoxdur. Estron,estadiol və estrogenlər qadın cinsiyyət hormonlarına aiddir. Qraaf qovuqcuqlarının dənəvər qatında, follukullarda əmələ gəldiyi halda estron hormonu döl pərdəsində də sintez olunur. Estadiol hormonu digər hormonlardan daha fəaldır. Estrogen hormonunun sintez olunmasında hipofizin rolu böyükdür belə ki, hipofizin follukulo stimuledici və lüteynləşdirici hormonları estrogen hormonunun sitezində iştirak edir. Qadın cinsiyyət hormonu qadın orqanizmində uşaqlıqda,uşaqlıq yollarında menstruasiya fazalarınayəni burada baş verən fizioloji və kimyəvi proseslərdə iştirak etməklə müxtəlif formada təsirini göstərir. Maraqlısı budur ki, kişilərdə yalnız kişi hormonu,qadınlarda isə yalnız qadın hormonu olur fikri yanlışdır. Alimlər müəyyən etmişdir ki, həm androgen (kişi hormonu), həm də estrogen (qadın hormonu) eyni vaxtda hər iki cinsdə vardır. Bu hormonların qanda miqdarı isə sabit deyil, dəyişir. Orqanimzdə miqdarının çox yaxud az olmasına görə bəzi xoşa gəlməz hallar yaşanır hansı ki biz buna hormonal problemlər deyirik. İstər qadın istərsə də kişi bu hormonlar normada qalmalı, qadınlarda kişilərə xas, kişilərdə qadınlara xas əlamətlər meydana çıxdıqda hormon alanalizlər verilməlidir. Məsələn, kişilərdə qadın hormonunun artıq miqdarda ifrazı zamanı bu əlamətlərə rast gəlinir: kişilərdə səsin incəlməsi, tük azlığı, hərəkətlərdə zəriflik, həmcinsinə qarşı sevgi, ehtiras və s. Qadınlarda kişi hormonu çox olarsa hərəkətlərdə kobudluq, tüklənmə, səsin qalınlaşması, həmcinsinə qarşı sevgi, ehtiras. Bundan əlavə cinsiyyət hormonları normada olmadıqda, yuxusuzluq, cinsi zəiflik, diqqət pozğunluğu kimi simptomlarda özünü göstərir. Cinsiyyət sistemi sinir sistemiylə birbaşa əlaqəlidir. Endokrin sistemin Sinir sistemiylə birgə fəaliyyətdə olduğun ən aydın dəlillərlə sübut edən sistem Endokrin sistemdir. 1940-cı ildə Alfred Jost məməlilər üzərində təcrübə aparır. XY xromosomunu daşıyan və hələ cinsiyyəti məlum olmayan dovşanların embrionundan xüsusi cərrahi metodlarla testisləri çıxarır. Eyni cərrahi prosesi XX xromosomları daşıyan dovşanlar üçündə təkrarlayaraq, yumurtalıqları uzağlaşdırır. Yenidən bətnə yerləşdirilən və inkişafı tamamlanan dovşanlar dişilik əlaməti göstərir. Hormonlar və sinir sisteminin birgə fəalliyyəti bu təcrübədə təsdiqlənir. Keçmiş zamandan aparılan araşdırmalar, indiki inkişaf etmiş dövrdə aparılan araşdırmalar olmasına baxmayaraq hələ də elmə qaranlıq qalan məqamlar var. Xoşbəxtlik və hüzur hormonu, mensturasiya zamanı qadınlarda yaranan duyğusal boşluqlar kimi mövzularda hələ də araşdırmalar aparılır.

## Nəticə

Məlumatı olmayan insanlar, insan orqanizmində baş verən duyğusal prosesləri ürəklə əlaqələndirir. Sevgi, ayrılıq, ölüm, xoşbəxtlik və s. duyğuları. Məqalədə oxuyucuya insan orqanizminin mürəkkəb bir system olduğu və burda baş verən proseslərin birbaşa endokrin sistem və sinir sisteminin birgə fəaliyyəti nəticəsində tənzimlənməsi barədə ilkin məlumat verilmişdir. Əgər insan bədənin informasiya bazası kimi qəbul etsək, sinir sistemi bu informasiyanı ötürməkdə sürətinə görə internetə bənzədiyi halda, endokrim sistem sürət baxımından poçtalyondur. 7 əsas vəz və hormonları onların xəstəlikləri, insan orqanizminə, fiziki, kimyəvi, bioloji və mənəvi təsiri, insanın fərd kimi formalaşmasında bu hormonların rolu haqqında məlumat məqalədə ətraflı şəkildə yer almışdır.

## Ədəbiyyat

1. V.Ə.Əzizov. (2012) Daxili xəstəliklər. Bakı, səh.65-90
2. R.M.Mahmudov. (2017) Tibbi fiziologiya. Dərslik, səh.300-387
3. N.A.Sultanova. (2021) Peccularities of treatment of hormonal and hemostatic disorders in functioning of pregnancy in early terms. Chin. J. Ind. Hyg. Occup. Dis, 39(7), p.181-187
4. A.M.Məmmədov, Z.T.Baxşıyeva, G.Ə.Həsənova, A.F.Rüstəmova. (2023) Orqanizmin funksiyalarının hormonal tənzimi // Bakı, Azərbaycan Tibb Universiteti, səh.400–404
5. Л.Д.Линденбратен, И.П.Королюк. (1993) Медицинская радиология и рентгенология. М., Медицина, 560 с.
6. İ.Ə.Ağayev, X.N.Xələfli X.N., F.Ş.Tağıyeva. (2012) Epidemiologiya. Dərslik. Bakı, 722 səh.
7. K.Ə.Balakişiyev. (1931) İnsanın Normal Anatomiyası. III cild. Maarif Nəşriyyatı, Bakı
8. R.J.Stratta, R.R.Alloway. (1998) Pancreas transplantation for diyabetes mellitus: a guide to recipient selection and optimum immunosuppression. BioDrugs. 10 (5). p.347-357
9. Международная федерация диабета (IDF): консенсус по критериям метаболического синдрома. (2005) Ожирение и метаболизм, №3, с.47-49
10. А.Ф.Завалко. (2009) Особенности течения беременности и родов у женщин с метаболическим синдромом // Казан, мед. журн. – 2009, №2
11. Г.Т.Загидуллина, А.И.Курбангалеев. (2016) Лечение холедохолитиаза и его осложнений с использованием эндохирургических технологий // Практическая медицина, №4-1 (96), с.82-89.
12. С.Г.Шаповалянц, Т.Б.Ардасенов, Е.Д.Федоров и др. (2011) Хирургическая тактика лечения холедохолитиаза, осложенного механической желтухой, у больных с измененной анатомией билиодуоденальной области. Хирургия, №10, с.35-38

**ENDOCRINE GLANDS AND THEIR ROLE IN NEUROHUMORAL REGULATION OF HUMAN BODY**

**I.A.Musayeva, M.E.Safarova**

**SUMMARY**

This work aims at informing the reader about the endocrine glands, internal processes and hormones in human body. Basic information about the complexity of human body and the way the endocrine and the nervous systems regulate the processes inside it is presented.

**ЭНДОКРИННЫЕ ЖЕЛЕЗЫ И ИХ РОЛЬ В НЕЙРОГУМОРАЛЬНОЙ РЕГУЛЯЦИИ ОРГАНИЗМА**

**И.А.Мусаева, М.А.Сафарова**

**РЕЗЮМЕ**

Главная цель статьи — информировать читателя об эндокринных железах, внутренних процессах и гормонах в организме. Представлены начальные сведения о сложности устройства человеческого организма и регулировании процессов в этом устройстве прямым взаимодействием эндокринной и нервной систем.

*Məqalə redaksiyaya 23 aprel 2024 tarixində daxil olmuş, 10 may 2024 tarixində isə çapa qəbul olunmuşdur.*

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2024 - № 63

UOT № 575.224.22:616-053

# SANFİLİPPO SİNDROMUNUN C TİPİNİN GENETİK TƏDQİQİ

**S.A.Əlizadə**
Azərbaycan Tibb Universitetı
Bakı, Səməd Vurğun küçəsi 167
**E.M.Rəsulov**
Genom Klinik Laboratoriya
Bakı, Mərkəzi Bulvar 3
e-mail: dr.rasulovelkhan@gmail.com

***Açar sözlər:*** Mukopolisaxaridoz III tip, Sanfilippo C, Heparan sulfat, HGSNAT geni, Heparan asetil-CoA-qlukozaminid fermenti, DNT, NGS metodu, asetiltransferaza

***Keywords:*** Mucopolysaccharidosis Type III, Sanfilippo C, Heparan sulfate, HGSNAT gene, Heparan acetyl-CoA-glucosaminide enzyme, DNA, NGS technique, acetyltransferase

***Ключевые слова:*** Мукополисахаридоз III типа, Санфилиппо С, гепарансульфат, ген HGSNAT, фермент гепаранацетил-КоА-глюкозаминид, ДНК, метод NGS, ацетилтрансфераза

## GİRİŞ

Sanfilippo sindromu (MPS III Tip) lizosom mübadilə toplam xəstəliyi olaraq, hüceyrə və toxumalarda heparansulfatın (HS) toplanması baş verərək poliorqan çatışmazlığa səbəb olur. 70 000 sağ yenidoğulmuşdan birində təsadüf edilir. Xəstəliyin A, B, C və D formaları mövcuddur. Sanfilippo sindromu həkim Silvester Sanfilippo şərəfinə adlandırılmışdır. O, 1963-cü ildə bu xəstəliyi təsvir etmiş və ilk dəfə klinikasını tədqiq etmişdir. Ən erkən əlamətlətdən koqnitiv dəyişiklikləri, nevroloji pozğunluqları göstətmək olar. Nitqin gecikməsi (itirilməsi), qazanılmış əlamətlərin reqressiyası, hiperaktivlik, autistik xarakter, əqli zəiflik, yuxunun pozulması, epilepsiya, aqressivlik, hərəkətin çətinləşməsi, hepatomeqaliya nəzərə çarpır. Digər orqan və sistemlərin pozulmasının mümkünlüyü müzakirə edilir. Onlardan görmə və eşitmə orqanını, sümük, ürək və qan-damar, tənəffüs sistemlərini qeyd etmək olar. Stomatoloji problemlər nəzərə çarpır. Xəstəliyin dörd müxtəlif genetik formalarının klinikaları bir-birindən demək olar ki, fərqlənmirlər. Xəstəliyin diaqnostikası 2-6 yaşlar arasında mümkün olur. Bu dövrdə xəstəlik kliniki olaraq özünü biruzə verir. Diaqnostika məqsədilə sidikdə qlukozaminqlikanların kəmiyyət və keyfiyyət analizi aparılır. Klinikanın yüngül formalarında ola bilər ki, göstəricilər norma hüdudunda olsunlar. Sonradan xəstəliyin diaqnozunu dəqiqləşdirmək məqsədilə qan zərdabında, leykositlərdə, fibroblast hüceyrələrdə müvafiq fermentlərin aktivliyi müəyyən edilir. Son diaqnostik mərhələ olaraq, DNT molekulu səviyyəsində defektiv genin genetik diaqnostikası aparılır. Zəif somatik dəyişiklik fonunda mərkəzi sinir sisteminin ağır degenerativ dəyişiklikləri müşahidə olunur. Xəstələrin əksəriyyətində nevroloji ağır degenerativ dəyişikliklər 6-10 yaş arasında baş verir. Ölüm halları adətən ikinci və ya üçüncü onillikdə baş verir (3, 6, 7, 9).

Sanfilippo sindromunun C tipinin HGSNAT geni səkkiz (8p11.21) saylı xromosomun qısa çiynində 610453 saylı lokusda yerləşir. HGSNAT geni Heparan asetil-N-CoA-qlukozaminid asetiltransferaza fermentinin sintezində iştirak edir. Xəstəliyin irsiyyət tipi

autosom-resessivdir (2, 4).

Azərbaycan Respublikasının əhalisində mukopolisaxaridoz mübadilə lizosom toplam xəstəliklərinin genetikası zəif tədqiq edilmişdir. Qeyd edilməlidir ki, mukopolisaxaridoz III tipə daxil olan Sanfilippo xəstəliyinin genetikası haqda Respublikada məlumat yox səviyyəsindədir. Bunun da əsas səbəbi xəstəliyin nadir təsadüf olunmasından, o cümlədən təcrübəli həkim-genetiklərin və genetik laborantların az təcrübəli olmasından irəli gəlmişdir (1).

Tədqiqatımızın məqsədi Azərbaycan Respublikasının əhalisində təsadüf olunan Sanfilippo C sindromlu xəstələrin genetikasının tədqiqi olmuşdur.

## MATERİAL VƏ METODİKA

Azərbaycan Respublikasının Gəncə şəhərində və Mərkəzi rayon xəstəxanalarında (Bərdə, Şirvan, Quba, Xaçmas, Lənkəran, Astara və s.) həkim-genetik tərəfindən xəstə uşaqlar arasında aparılan kliniki müayinəyə əsasən dörd xəstə uşaqda mukopolisaxaridozun III tipindən şübhəli bir qız və üç oğlan aşkar edilmişdir.

Tədqiqat məqsədilə hər bir uşaqdan həcmi 2 ml periferik qandan tərkibində EDTA antikoaqulyantı olan sınaq şüşəsinə götürülmüşdür.

Xəstələrdə Sanfilippo C sindromunu təsdiqləmək üçün DNT molekulu səviyyəsində NGS (Next Generation Sequencing) metodundan istifadə edərək HGSNAT geninin molekulyar analizi aparılmışdır.

DNT ayrılma üçün Almaniya istehsalatı olan QIAamp DNA Blood mini kit istifadə edilmişdir. Analiz üçün ABŞın İllumina® şirkətinin MiSeq İllumina cihazından və tərkbində SGSH, NAGLU_GNS və HGSNAT genlərinin diaqnostik panelindən istifadə edilmişdir.

Genlərin sekvenləşməsi NGS metodu (Next Generation Sequencing) ilə təyin edilmişdir. Burada aşağıdakılardan: kit - Lysosomal Storage Disease Kit, Celemics®; Analiz Platforması - MiSeq Sequencing, İllumina®; Analiz proqramı - SEQ təhlili platforması, GENOMIZE® (http://seq.genomize.com/), GRCh37(h19) istifadə olunub.

"Bu genlərin kodlaşdırma bölgələrinin (intronik, 5' və 3'UTR istisna olmaqla) 99%-dən çoxu ən azı 50x oxuma dərinliyi ilə araşdırılmışdır. Təqribi oxuma dərinliyi 1559 oxunmadır. Ekzon-intron keçidləri (±10bp) analizə daxil edilmişdir. Alınan məlumatların patogenlik təsnifatı "ACMG® Guideline"-a uyğun olaraq aparılmışdır.

## EKSPERİMENTAL HİSSƏ

Genetik analizi aparılan dörd xəstənin ikisində HGSNAT geninin iki müxtəlif mutasiyası identifikasiya edilmişdir.

Birinci pasient 2006-cı il təvəllüdlü T.M. (oğlan) vaxtında, normal çəki və normal boyda doqquz Apqar göstərici ilə doğulmuşdur. Sonradan nitqin gecikməsi, demək olar ki, itirilməsi, erkən əlamətlərdən koqnitiv dəyişiklik, hiperaktivlik və s. müşahidə edilmişdir. Mərkəzi sinir sisteminindən (MSS) fərqli olaraq xəstənin fiziki inkişafında patoloji dəyişiklik müşahidə edilməmişdir. Pasientin boy və çəkisi yaşına uyğun olmuşdur. Sanfilippo sindromlu xəstələrdə qlukozaminqlikanlardan (QAQ) yalnız HS mübadıləsinin pozulması baş verir ki, o da öz növbəsində artıq miqdarda beyin hüceyrələrində toplanaraq MSS-nin fəaliyyətini pozur.

Sanfilippo sindromunun kliniki diaqnozunu təsdiqləmək məqsədilə pasientin periferik qanın limfositlərindən izolə edilmiş genom DNT molekulunda HGSNAT genində baş

vermiş mutasiya NGS metodu ilə araşdırılmışdır.

Genetik analiz nəticəsində HGSNAT geninin 13 sayı ekzonunda c.1345dupG mutasiyası homoziqot irsiyyət tipində identifikasiya edilmişdir. Gen səviyyəsində baş vermiş mutasiyanın nəticəsi olaraq biosintez olunacaq zülalın 449-cu vəziyyətində asparagin amin turşusu qlutamin amin turşusu ilə əvəz olunmuşdur (p.Asp449Glyfs*21).

Aşkar edilmiş mutasiya nəticəsi olaraq 449-cu kodondan başlayaraq oxunma çərçivəsinin sürüşməsi baş vermişdir. Oxunma çərçivəsinin sürüşməsi nəticəsində genin 21-ci kodonunda stop kodon əmələ gəlir. HGMD Professional 2019.1 əsasən bu mutasiya xəstəliyə səbəb olan kimi təsvir edilmişdir. ClinVar siyahısında kliniki patogen kimi (variant ID: 1231) və qeyri-müəyyən (kliniki testləşmə, variant ID:1231) kimi təsdiqlənmişdir. Centogene® və ACMG® təsnifatına və mutasiya patogenliyinə əsasən 1-ci sinfə aid edilmişdir. T.M. pasientinin şəkli və genetik analizin nəticəsi müvafiq olaraq Şəkil 1 və Şəkil 2-də verilmişdir.



Şəkil 1. T.M. pasienti



Şəkil 2. T.M. pasientinin genetik analizi

Xəstənin valideynləri ikinci dərəcəli qan qohumudurlar (nənələr bacıdır). İkinci pasient 2006-cı il təvəllüdlü H.İ. oğlan doqquz Apqar göstəricisi ilə doğulmuşdur. Doğulduqdan sonra inkişafının ilk aylarından başlayaraq erkən əlamətlərdən koqnitiv dəyişiklik, hiperaktivlik, qıcolmalar, yuxunun pozulması müşahidə edilmişdir. Pasientin boy və çəkisi yaşına uyğun olmuşdur. Qeyd edək ki, pasient T.M-dən fərqli olaraq, ikinci pasientdə koqnitiv dəyişikliklər daha fəsadlı olmuşdur.

Pasientin periferik qanından ayrılmış DNT molekulunda HGSNAT geninin molekulyar analizi doqquzuncu intronunda c.852-1G>A mutasiyası homoziqot vəziyyətində müəyyən edilmişdir. HGSNAT geninin c.852-1G>A mutasiyası 10 saylı ekzonun yüksək konservativ splays saytını dağıdır. HGMD Professional 2019.1 müvafiq olaraq öncədən bu mutasiya identifikasiya edilmiş və IIIC kimi qeydə alınmışdır. Xəstənin valideynləri ikinci dərəcəli qan qohumlarıdırlar. Hər iki valideynin genetik müayinəsi onların identifikasiya edilmiş mutasiyanın heteroziqot daşıyıcısı olduğunu təsdiqləmişdir.

ClinVar siyahısında bu mutasiya patogen kimi təsvir edilmişdir (kliniki testləşmə, variant ID: 556501). Mutasiyanın homoziqotluğu valideynlərin müayinəsi ilə təsdiqlənmişdir. Mutasiya Centogene® və ACMG® göstəricilərə əsasən 1-ci sinif patogenliyinə aid edilmişdir.

Cədvəldə pasientlər HGSNAT geni səviyyəsində identifikasiya edilmiş mutasiya, mutasiyanın fəsadı olaraq zülalda baş vermiş dəyişiklik, mutasiyaya uğramış genin patogenlik dərəcəsi və xəstəliyin irsiyyət tipləri qeyd edilmişdir.

Cədvəl

Sanfilippo C tipli T.M. və H.İ. pasientlərin HGSNAT geninin molekulyar analizinin nəticələri

| **Pasient** | **Gen** | **Gen səviyyəsində mutasiya** | **Zülal səviyyəsində dəyişiklik** | **Patogenlik** | **İrsiyyət tipi** |
|---|---|---|---|---|---|
| T.M. | HGSNAT NM_152419.2 | 13 saylı ekzon c.1345dupG | p. Asp449Glyfs*21 | 1-ci sinif | AR |
| H.İ. | HGSNAT NM_152419.2 | 9 saylı intron c.852-1G>A | - | 1-ci sinif | AR |

Dünyanın bir sıra ölkələrində Sanfilippo sindronunun epidemioloji tədqiqatları da aparılmışdır. Qərbi Avstraliyada 1969-1998-ci illər ərzində sağlam doğulmuş yenidoğulmuşlar arasında aparılan epidemioloji tədqiqatlar zamanı Sanfilippo sindromunun bütün tiplərinin (A, B, C və D) tezliyninin 1:58000 olduğu təyin edilmişdir. Cəmi 14 Sanfilippo sindromlu xəstə uşaq Sanfilippo C tipinə aid edilmişdir (10).

Khan və həmkarları (2017) 1982-2009-cu illər ərzində Yaponiya və İsveçrədə apardıqları tədqiqatlar zamanı 467 MPS diaqnozlu xəstə uşaq aşkar etmişlər. Müəlliflərin hesablamalarına əsasən MPS diaqnozlu xəstə uşaqların təsadüf edilmə tezliyi 1,53:100000 sağ doğulmuş uşağa bərabərdir. MPS diaqnozlu uşaqlar arasında Sanfilippo sindromlu uşaqlar 16% təşkil etmişdir. Şimali İrlandiyada Sanfilippo sindromunun təsadüf olunma tezliyi 1:28000, Niderlandda 1:50000, Avstraliyada 1:66000 bərabərdir. Sanfilippo A və B tiplərindən fərqli olaraq C tipi daha nadir təsadüf olunur (9,11).

Beləliklə, Azərbaycan Respublikasının əhalisində aparılan populyasiya tədqiqatlarına əsasən dörd xəstə uşaqda kliniki göstəricilərinə əsasən Sanfilippo xəstəliyindən şübhə olnumuşdur. Pasientlərin periferik qanından ayrılmış DNT molekulu səviyyəsində SGSH, NAGLU,_GNS və HGSNAT genlərin sekvenləşməsi NGS metodu (Next Generation Se-

quencing) ilə tədqiq edilərək HGSNAT geninin iki müxtəlif mutasiyası identifikasiya edilmişdir: 13 saylı ekzon c.1345dupG və 9 saylı intron c.852-1G>A. Hər iki mutasiya homoziqot irsiyyət formasında olmuşdur. Pasientlərin hər ikisinin valideynləri ikinci dərəcəli qohumdurlar. Valideynlərin reproduktiv yaş həddini nəzərə alaraq profilaktik məqsədlə növbəti hamiləlikdə dölün ana bətnində prenatal diaqnostikasının aparılması planlaşdırılmışdır.

## NƏTİCƏLƏR

1. İlk dəfə Azərbaycan Respublikasında xəstə uşaqlar arasında aparılan kliniki-genetik müayinə zamanı dörd uşaqda Sanfilippo sindromu (MPS IIIC) aşkar edilmişdir.
2. Yeni Nəsil Sekvensləşmə (NGS) metodundan istifadə edilərək HGSNAT geninin (Sanfilippo C geni) iki müxtəlif mutasiyası homoziqot irsiyyət formasında identifikasiya edilmişdir: 13 saylı ekzonda c.1345dupG, və 9 saylı intronda c.852-1G>A mutasiyaları.
3. İdentifikasiya edilmiş HGSNAT geninin mutasiyalarına əsalanaraq Sanfilippo sindromunun riski olan ailələrdə profilaktik məqsədlə dölün ana bətnində prenatal diaqnostikanın aparılması mümkün olacaq.

## Ədəbiyyat

1. Ализаде С.А. (2022) Генетика мукополисахаридоза III типа (синдром Санфилиппо) у детей из Азербайджана. Естественные и технические науки. №7-2, с.5-9
2. Ausseil J., Loredo-Osti J.C., Verner A., Darmond-Zwaig C., Maire I., Poorthuis B., van Diggelen O.P., Hudson T.J., Fujiwara T.M., Morgan K., Pshezhetsky A.V. (2004) Localisation of a gene for mucopolysaccharidosis IIIC to the pericentromeric region of chromosome 8. J. Med. Genet. 41: 941-944
3. Bame K.J., Rome L.H. (1985) Acetyl coenzyme A: alpha-glucosaminide N-acetyltransferase: Evidence for a transmembrane acetylation mechanism. J. Biol. Chem. 260: 11293-11299
4. Canals I., Elalaoui S.C., Pineda M., Delgadillo V., Szlago M., Jaouad I.C., Sefiani A., Chabas A., Coll M.J., Grinberg D., Vilageliu L. (2011) Molecular analysis of Sanfilippo syndrome type C in Spain: seven novel HGSNAT mutations and characterization of the mutant alleles. Clin. Genet. 80(4): 367-374
5. Coutinho M.F., Lacerda L., Prata M.J., Ribeiro H., Lopes L., Ferreira C., Alves S. (2008) Molecular characterization of Portuguese patients with mucopolysaccharidosis IIIC: two novel mutations in the HGSNAT gene. (Letter) Clin. Genet. 74(2): 194-195
6. Fan X., Zhang H., Zhang S., Bagshaw R.D., Tropak M.B., Callahan J.W., Mahuran D.J. (2006) Identification of the gene encoding the enzyme deficient in mucopolysaccharidosis IIIC (Sanfilippo disease type C). Am. J. Hum. Genet. 79: 738-744
7. Feldhammer M., Durand S., Mrazova L., Boucher R.M., Laframboise R., Steinfeld R., Wraith J.E., Michelakakis H., van Diggelen O.P., Hrebicek M., Kmoch S., Pshezhetsky A.V. (2009) Sanfilippo syndrome type C: mutation spectrum in the heparan sulfate acetyl-CoA: alpha-glucosaminide N-acetyltransferase (HGSNAT) gene. Hum. Mutat. 30: 918-925
8. Hrebicek M., Mrazova L., Seyrantepe V., Durand S., Roslin N.M., Noskova L., Hartmannova H., Ivanek R., Cizkova A., Poupetova H., Sikora J., Urinovska J., and 18 others. (2006) Mutations in TMEM76 cause mucopolysaccharidosis IIIC (Sanfilippo C

syndrome). Am. J. Hum. Genet. 79(5): 807-819
9. Khan S.A., Peracha H., Ballhausen D., Wiesbauer A., Rohrbach M., Gautschi M., Mason R.W., Giugliani R., Suzuki Y., Orii K.E., Orii T., Tomatsu S. (2017) Epidemiology of mucopolysaccharidoses. Molec. Genet. Metab. 121: 227-240
10. Nelson J., Crowhurst J., Carey B., Greed L. (2003) Incidence of the mucopolysaccharidoses in western Australia. Am. J. Med. Genet. 123A(3): 310-313
11. Ruijter G.J.G., Valstar M.J., van de Kamp J.M., van der Helm R.M., Durand S., van Diggelen O.P., Wevers R.A., Poorthuis B.J., Pshezhetsky A.V., Wijburg F.A. (2008) Clinical and genetic spectrum of Sanfilippo type C (MPS IIIC) disease in The Netherlands. Molec. Genet. Metab. 93(2): 104-111

## GENETIC STUDY OF SANFILIPPO SYNDROME TYPE C

**S.A.Alizadeh, E.M.Rasulov**

### SUMMARY

This work aims at studying the genetics of Sanfilippo C Syndrome in the population of Azerbaijan. Genetic analysis of HGSNAT gene has identified two different mutations.

## ГЕНЕТИЧЕСКОЕ ИССЛЕДОВАНИЕ СИНДРОМА САНФИЛИППО ТИПА С

**С.А.Ализаде, Э.М.Расулов**

### РЕЗЮМЕ

Целью исследования является генетическое изучение синдрома Санфилиппо С у населения Азербайджана. Генетический анализ выявил две разные мутации гена HGSNAT.

*Məqalə redaksiyaya 17 may 2024 tarixində daxil olmuş, 22 may 2024 tarixində isə çapa qəbul olunmuşdur.*

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2024 - № 63

UOT № 57

# ANADANGƏLMƏ ÜRƏK QÜSURLARI

**Z.Z.Əhmədova, İ.A.Axundov**
Odlar Yurdu Universiteti
Bakı, Koroğlu Rəhimov küçəsi 13
e-mail: imran.axundov1972@mail.ru

***Açar sözlər:*** ürək, anadangəlmə ürək qüsurları, diaqnoz, simptomlar, müalicə
***Keywords:*** heart, congential heart defects, diagnosis, symptoms, treatment
***Ключевые слова:*** сердце, врожденные пороки сердца, диагноз, симптомы, лечение

İnsan orqanizmi çox mürəkkəb quruluşa malikdir. Orqanlar zəncirvari şəkildə bir-birilə əlaqəlidir. Ən dəyərli sərvətimiz sağlam bir orqanizmə sahib olmağımızdır. Təəssüflər olsun ki, son illərdə xəstəliklər sürətlə yayılmaqdadır. Bu hal həm sürdüyümüz həyat şəraitindən, həm qəbul etdiyimiz qidalardan, həm də tibbi amillərdən asılıdır. Elə bir orqan və toxuma yoxdur ki, xəstəlikdən təcrid olunsun. Həyati vacib orqanlarımız isə yaşamın təməl dəstəyidir.

Bütün orqan və toxumalarımızın qanla təchizatını təmin edən, həyati vacib orqanlarımızdan biri də ürəkdir. Ürək və damar xəstəlikləri son illərdə ən çox yayılmış xəstəliklər arasındadır. Yaşam boyu qazanılmış xəstəliklərlə yanaşı, anadangəlmə ürək qüsurları da mövcuddur. Bəzən bu qüsurlar ciddi fəsadlarla nəticələnir. Bu məqaləni yazmaqda məqsəd insanları məlumatlandırmaq, bu ciddi fəsadlarla qarşılaşmadan zamanında müayinə olunmağın, doğru profilaktik müalicə tədbirlərinə başlamanın vacibliyini vurğulamaqdır. Unutmayaq ki, düzgün diaqnoz və zamanında müalicə can qurtarır.

Çox mürəkkəb quruluşa malik olan insan orqanizmi bir o qədər də maraqlıdır. Bir düşünün, insan həyatı boyunca daim hərəkətdə olan bir varlıqdır. Qəribədir, bu orqanlar fasiləsiz olaraq insanın həyat fəaliyyəti olduğu müddətcə öz iş prinsiplərini yerinə yetirirlər. Bəs orqanizmin vəhdəti necə formalaşır? Belə ki, hüceyrələr toplusu toxumanı, toxumalar birləşərək orqanları, orqanlar isə birləşərək butöv bir orqanizmi yaradır. Vücüdumuzda hər orqanın öz iş prinsipi var. Tibbin inkişafı sayəsində insan orqanizmi bəzi orqanlar olmadıqda da öz həyat fəaliyyətinə davam edə bilir. Lakin həyati vacib olan orqanlar olmadıqda orqanizm həyat fəaliyyətini dayandırır. Yəni bioloji ölüm baş verir. Bütün orqan və toxumalarımızın qanla təchizatını təmin edən, əzələvi quruluşa malik olan həyati vacib orqanlarımızdan biri və birincisi ürəkdir. Ürək latınca "Cor", yunanca isə "Kardia" adlanır. Döş qəfəsində, üçdə iki hissəsi orta döş xəttindən solda, sternumun arxasında, iki ağciyər arasında, çəpəki formada yerləşir .

Ürəyin bir dəfə yığılıb-açılması nəticəsində ürək döyüntüsü yaranır. Ürək döyüntüsünün çox olması taxikardiya, az olması bradikardiya adlanır. Ürəyin ardıcıl yığılıb-açılması sayəsində isə ürək ritmləri formalaşır. Üç növ ürək ritmi vardır. Sinus ritmi, AF (Atrial Fibrilyasiya) ritmi, nodal ritm. Normal ürək ritmi sinus ritmidir. Ardıcıl, düzənli PQRST dişciklərindən ibarətdir. AF ritmində P dişciyi olmur, düzənsiz taxikardik ürək döyüntüləri izlənir. Nodal ritmdə P dalğaları var. Lakin QRS dalğasından həm sonra,

həm də əvvəl gələ bilər. Adətən tərs P dalğası izlənilir.

Bəs ürək normal fəaliyyət göstərməzsə nə olar? Ürək anomaliyaları nədir? Bu hal iki cür ola bilər. Qazanılmış ürək xəstəlikləri və anadangəlmə ürək xəstəlikləri. Anadangəlmə ürək qüsurları bətndaxili inkişaf zamanı əmələ gələn anormallıqlardır. Anadangəlmə ürək xəstəliklərinin səbəbi çox zaman bilinmir. Lakin, bu xəstəliklərin genetik faktorların təsiri ilə yarandığı düşünülür. Anada şəkər xəstəliyi kimi xronik xəstəliyin olması, hamiləlik zamanı keçirilmiş infeksion xəstəliklər, qəbul edilən dərmanlar, və ya anada alkoqolizm, narkomaniya, siqaretdən istifadə kimi pis vərdişlərin olması uşaqda ürək qüsurlarına səbəb olur.Uşaqda xromosom çatışmazlığı olduqda da ürək qüsuruna səbəb olur .

Ürək pompası, yəni yığılıb-açılması normal olmadıqda, ağciyərlərdə və digər orqanlarda maye toplanmaya başlayır və şişkinliyə səbəb olur. Nəticədə bir sıra ürək qüsuruna gətirib çıxarır. Ürək qüsuru olan uşaqlarda bir neçə ayda bəzi simptomlar özünü biruzə edir. Ağlayan zaman dəri tonlarında göyərmə, huşun itməsi, tənəffüs zamanı spazm, təngnəfəslik, çəkilərinin az olması, göz qapaqlarında şişginlik kimi simptomlar müşahidə olunur. Ürək ritmində dəyişkənlik izlənilir. Uşaqlarda ürək böyüklərdən fərqli olaraq daha sürətlə döyünür. Normal ürək döyüntüsü dəqiqədə 60-150 vurğu olmalıdır. Ürəyin tez- tez döyünməsi (taxikardiya) ürəyin yorulmasına səbəb olur. Belə uşaqlar mütləq pediatrik kardioloq tərəfindən müayinə və müalicə olunmalıdır. Ürəyin normadan zəif döyünməsi (bradikardiya) qanın lazimi qədər orqan və toxumalara paylana bilməməsinə, zəif qidalanmaya səbəb olur. Bu zaman körpənin ürəyinə alimin adı ilə adlandırılan “Pacemaker” cihazı qoşulur. Ürək ritmində bəzən düzənsizlik izlənilir ki, bu da aritmiya adlanılır. Ana bətnində 16-18 həftəlik hamiləlik zamanı uşağın ürəyinin ultrasəs cihaz ilə izlənilməsi sayəsində uşaq dünyaya gəlmədən diaqnoz qoyula bilir. Tibbin inkişafı sayəsində anadangəlmə ürək qüsuru ilə doğulan körpələrin bəzilərində ana bətnində müdaxilə etmək mümkündür, lakin, bəzi körpələrdə tək çarə doğumu gözləmək olur. Bəzən belə xəstəliklərdən əziyyət çəkən uşaqlarda qasıqda yerləşən ana damardan ucunda balon olan bir katetr vasitəsi ilə ürəyin qulaqcıqları arasında yerləşən kiçik dəlikdən keçir və balon şişirilir. Beləliklə qüsur aradan qaldırır. Bu üsul tibbdə “Balon Septostomiyası” adlanılır. Digər bir üsul “Valvotomiya” və ya balon angioplastikası. Bu üsulla dar olan bəzi ürək damarları katetrizasiya zamanı balonla açılır, damar genişlənir. Çox zaman isə ürək əməliyyatı gərəkli olur. Risk faktoru hər iki müdaxilə zamanı eynidir.

Anadangəlmə ürək xəstəlikləri, ürəyin qulaqcıqları və mədəcikləri arasında kiçik və böyük dəliklər, qapaqlardakı darlıqlar kimi qüsurlarla izlənilir. Anadangəlmə ürək qüsurlarına aiddir: Fallo tetradası, PDA, ASD, VSD, PS, AS, AVSD, aorta koarktasiyası, triküspid qapaq atreziyası, hipoplastik sol ürək sindromu.

Bir sual tibbdə maraq doğurur. Heç bir dəyişkənlik izlənilmədən yaranan anadangəlmə ürək qüsurları hansılardır? Təbii ki, ilk cavabımız sianozsuz ürək xəstəlikləridir. Belə xəstəliklərdə ürəkdə dəlik, qapaqlarda və damarlarda stenoz izlənilir. Çirkli qan orqanizmdə dövr edə bilmir və nəticə də xəstədə göyərmə halları baş vermir.

PDA nədir? Patent Ductus Arteriosus.

Bütün körpələr PDA ilə dünyaya gəlir. Ağciyər arteriyası ilə aorta arasında əlaqə yaradan damardır. Ağciyər arteriyası ürəyin sağ mədəciyindən gələn venoz qanı ağciyərlərə qovur, qan ağciyərdə oksigenlə zənginləşir, oksigenlə zənginləşmiş qan ağciyər venaları ürəyin sol qulaqcığına tökülür, və yenidən aorta ilə bütün bədənə qan pompalanır. Nor-

malda ductus arteriosus doğumdan bir neçə saat sonra bağlanır. Əgər ki bağlanmırsa, bu zaman PDA yaranmış olur. Bu qüsur yarandıqda aortadan qovulan qanın bir qismi təkrar sol qulaqcığa, ağciyərlərə geri qayıdır və ürəyin sol tərəfinin yüklənməsinə səbəb olur. Ürək yetməzliyinə gətirib çıxarır.

PDA-nın müalicəsi onun ölçülərindən, körpənin yaşından asılıdır. Coil adlandırılan cihaz vasitəsi ilə və cərrahi müdaxilə ilə bu qüsur aradan qaldırıla bilər. Vaxtından əvvəl doğulan körpələrdə dərman terapiyası ilə müalicə də mümkündür.

ASD nədir? Atrial Septal Defekt.

Ürəyin sağ və sol qulaqcığı arasında böyük bir dəlik olarsa arterial qan ürəyin sol tərəfindən sağ tərəfinə keçir. Qan təkrar ağciyərlərə qovulur və nəticədə ağciyərlərdə qan təzyiqi yüksəlir. Nəticədə uşaqda aritmiya yaranır, ürək yetməzliyinə qədər gətirib çıxarır. Simptomları: Uşağın çəkisində azlıq, ağciyər infeksiyaları.

Nə qədər erkən müdaxilə olunarsa uşaq üçün bir o qədər müsbətdir. Kateterizasiya üsulu ilə də mümkündür müalicəsi, lakin, ASD nin əsas müalicə üsulu cərrahi müdaxilədir. Açıq ürək əməliyyatı ilə bu qüsur təmamilikdə aradan qaldırılır. Xəstə normal həyat fəaliyyətinə davam edir. Onu da qeyd edim ki, ASD qüsurlu insanlar ömürlərinin orta yaşlarına qədər heç bir simptomsuz yaşaya bilirlər.

VSD nədir? Ventrikulyar Septal Defekt.

Ürəyin sol və sağ mədəciyi arasında bir dəlik yaranarsa arterial qan ürəyin sol tıərəfindən sağ tərəfinə keçir. Qan təkrar ağciyərlərə qovulur və nəticədə ağciyərlərdə qan təzyiqi yüksəlir. Ürək daha tez-tez döyünməyə başlayır. Nəticədə ürəkdə böyümə müşahidə olunur.

Simptomları: VSD-nin ölçüləri ilə bir başa əlaqəlidir. Uşaq inkişafdan geri qalır, ağciyər infeksiyalarına, tənəffüs zamanı çətinliyə rast gəlinir. Ürək də xırıltılı səs izlənilir. Ağciyərdə yaranmış yüksək təzyiq (Pulmonar hipertenziya) ağciyər damarlarında qalıcı fəsadlarla nəticələnir. Ən sonda ürək yetməzliyi yaranır.

VSD qüsurlu xəstələrdə əgər dəlik genişdirsə, mütləq şəkildə cərrahi müdaxilə olunmalıdır. Açıq ürək əməliyyatı tək şansdır, mümkün qədər tez bu əməliyyat reallaşmalıdır. Əks halda ağciyərdə yaranan yüksək təzyiq qalıcı fəsadla sonlanarsa əməliyyat şansı da qaçırılmış olur. Dəlik kiçikdirsə, angio və ya əməliyyatla qüsur tamamilə aradan qaldırılır.

AVSD nədir? Atrioventrikulyar Septal Defekt.

Ürəyin qulaqcıqları ilə mədəcikləri arasında yerləşən qapaqcıqların tam formalaşmamasıdır. Mitral və triküspid qapaqcıqların tək və böyük bir qapaq şəklində formalaşır. Bu qüsur daha çox Daun sindromlu xəstələtdə rast gəlinir. Həm qulaqcıqda həm mədəcikdə yaranmış dəliklər səbəbi ilə qan ürəyin sol tərəfindən sağ tərəfinə keçir. Təkrar arterial qan ağciyərlərə qovulur.

Simptomları: Tez-tez tərləmə, kilo azlığı, tənəffüs pozğunluğu, ağciyər infeksiyaları. Pulmonər hipertenziya nəticəsində ağciyərdə qalıcı fəsadlara rast gəlinir.

AVSD-li xəstələrdə müalicə tətbiqiq cərrahi müdaxilədir. Açıq ürək əməliyyatı zamanı mitral qapaq təmiri icra edilir. Əməliyyat zamanı xəstənin beyni və digər orqanlarının zədələnməsinin qarşısını almaq üçün, bir sözlə qısa müddətli ürəyin funksiyasını perfuzion adlanan süni qan pompalayan cihaz təmin edir. Əməliyyatdan sonra xəstə intensiv dərman terapiyası ilə müalicə olunur və normal həyat fəaliyyətinə geri dönür.

AS nədir? Aorta Stenozu.

Aort qapaq sol ventrikulyar (mədəcik) ilə aort damar arasında yerləşir. Ürək yığıldığı zaman aort qapaq açılır və qan aortaya qovulur. Bilməliyik ki, aort damar bədənimizdəki ən böyük arterial damardır. Əgər aortada yarana stenoz (darlıq) ürək qanı pompalaya bilmir.

Simptomları: Ürəkdə ağrı hissi, baş hərlənməsi, huşun itməsi, tez yorulma. Cərrahi müdaxilə ilə bu qüsur aradan qaldırılır.

AoCoA nədir? Aorta Koarktasiyası.

Damar tıxanıqlığı ilə müşahidə olunan bu xəstəlikdə, damar darlığı adətən başı və qolları qidalandıran damarların daxilində rast gəlinir. Təbii olaraq belə xəstələrdə hipertonik olurlar.

Simptomları: Damarın tıxanıqlıq səviyyəsindən asılı çox asılıdır. Tez-tez nəsəfalma, ürəyin tez-tez döyünməsi, ovuc içlərində tərləmə, normal qidalanmamaq, yüksək təzyiq .

Xəstəliyə müdaxilə olunmazsa ürək yetməzliyinə gətirib çıxarır. Angioqrafiya müayinəsi nəticəsində ürəyin neçə damarının və hansı hissələrində, neçə faiz tıxanıqlığın olduğu aşkarlanır, əgər damar darlığı az faizdədirsə kateterizasiya üsulu ilə balon vəya stent qoyularaq qüsur aradan qaldırırlır. Əgər damar darlğı yüksək faizdirsə qapalı ürək əməliyyatı ilə, ürəyin sol yan hissəsindən kiçik kəsik atılaraq aorta gedən damara müdaxilə oluna bilir. Bəzən təkrar damar tıxanıqlığı da yaranır ki, bu zaman açıq ürək əməliyyatı lazımdır.

Sianozla müşahidə olunan anadangəlmə ürək xəstəlikləri. Bəllidir ki, belə xəstəliklərdə barmaq uclarında göyərmələr müşahidə olunur. Körpələrin ən çox əziyyət çəkdiyi sianotik anadangəlmə ürək qüsuru hesab edilən fallo tetradasıdır. Mədəciklərarası çəpərin qüsuru, sağ mədəciyin hipertorfiyası, ağciyər arteriyasının stenozu, aortanın dekstrapozisyası ilə müşahidə olunan fallo tetradasının əsas əlaməti sianozdur. Yəni göyərmə. Lakin, bəzi hallarda sianoz müşahidə olunmur. Doğumdan dərhal sonra vəya körpənin bir yaşına qədər yavaş-yavaş göyərmələrə rast gəlinir. Xəstəlik irəlilədikdə uşaqlarda bərk ağlamaq zamanı huşun itməsi, hədindən çox sianozluq müşahidə edilir. Bunun səbəbi ağciyər arteriyasında yaranmış stenozdur ki, qanın ağciyərdə oksigenləşməsinə mane olur. Belə hallar varsa elektrokardioqrafiya (EKQ) muüayinəsi olunmalıdır, mütləq şəkildə döş qəfəsi rentgeni çəkilməlidir, ürəyin invaziv katetr müayinəsi (angioqrafiya) olunmalıdır.

Bu qüsurun tək çarəsi cərrahi müdaxilədir. Açıq ürək əməliyyatı. Əməliyyat iki hissəli icra olunur. Ağırlaşmanın qarşısını almaq üçün ilk tərcih palliativ əməliyyatdır. Əməliyyatın əsas məqsədi mərkəzi aorta, enən aorta, qalxan aorta və ağciyər arteriyası arasında anastomozun qoyulmasıdır. İkinci hissə radikal korreksiyadır. Radikal korreksiya mədəciklərarası çəpər qüsurunun aradan qaldırılmasıdır. Fallo tetradası əməliyyatdan sonra ağırlaşmaları kəskin ürək çatışmazlığı, ürək ritmində AV blok dəyişkənliyi, aritmiya, anevrizma kimi ciddi fəsadlara gətirib çıxarır.

TGA nədir? Böyük arteriyaların köçürülməsi.

Ən ciddi sianotik anadangəlmə ürək qüsurudur deyərdim. Yeni doğulmuşlarda tez-tez rast gəlinir. Bilirik ki, ağciyər arteriyası venoz qan daşıyır. Ağciyərdə bu qan oksigenləşir. Ağciyər venalarında isə arter qan ürəyə aparılır. Aorta isə ən böyük arterial damar olub aretrial qanı sol mədəciklə bədənə qovur. TGA da isə bu proses əks olur. Aort sağ mədəcikdən venoz qanı bədənə qovur. Ağciyər arteriyası isə sol mədəcikdən arterial qanı ağciyərə aparır. TGA uşaq doğulduğu andan risk faktorudur. Venoz qanla arterial qa-

nın qarışımı prosesi olmaldır ki, olmur. Mütləq şəkildə tibbi müdaxilə lazımdır. Ən kəskin üsul cərrahi yoldur. Arterial switch (Jatene) adlanan əməliyyatla ürəkdən tərs çıxan damarları normal anatomik quruluşa uyğun yenidən birləşdirilir. Əməliyyatdan sonra mütəmadi həkim nəzarəti altında normal həyat fəaliyyətinə davam edirlər.

HLHS nədir? Hipoplastik sol ürək boşluğu sindromu.

Bu qüsur ürək anomaliyalarında tez-tez rast gəlinir. Ürəyin sol mədəciyinin, aortanın, aorta qapağının, mitral qapağın inkişafdan geri qalmasıdır. Ağciyərlərdə dolaşan qan iki qulaqcıq arası dəlikdən sağ qulaqcığa keçməlidir. PDA vasitəsi ilə də sağ mədəcik qanı ağciyər arteriyasına daşıyır və qan aortaya qovulur.

Simptomları: Tez-tez nəfəs və çətinliklə nəfəs alırlar, körpələrin rəngində külə bənzərlik yaranır.

Müalicə mümkün olsada cərrahi müdaxilə mütləqdir. Çox riskli əməliyyatlar sırasında yer alır. Risk faktorunu nəzərə alaraq əməliyyat bir neçə hissəli icra edilir. Birinci Norwood adlanan əməliyyat üsulu ilə qanın sağ mədəcik vasitəsi ilə ağciyərə qovulması təmin edilir. Əməliyyatın ikicili hissəsi Glenn əməliyyatı sonra Fantan əməliyyatı üsulu ilə ürəyə gələn venoz qanı daşıyan damarlarla, ağciyər arteriyası arasında əlaqə təmin edilir.

İstər anadangəlmə, istərsə də sonradan qazanılmış ürək qüsurlarında açıq ürək əməliyyatı ən dəqiq və ömürlük qüsurdan azad olma üsuludur. Öz təcrübəm zamanı əldə etdiyim açıq ürək əməliyyatları haqqında məlumatları da bölüşmək istəyirəm. Açıq ürək əməliyyatı-xalq dilində "Narkoz" tibbi terminlə ifadə etsək ümumi "Sedasiya" altında icra edilir. Bu prosedur sedativ dərman preparatları vasitəsi ilə icra edilir. Anestezioloq xəstəni endotraxeal boru vasitəsi ilə süni nəfəs aparatına bağlayır. Bu prosedur tibbdə "İntubasiya" adlanır. Sternum, yəni döş qəfəsi açılır, orta sinə sümüyü üzərindən kəsik vasitəsi ilə. Operator cərrah ürəyə bir başa müdaxilə etdiyi zaman, tərkibinin çox hissəsinin kcl preparatının təşkil etdiyi, xüxusi "Kardiopleji" adlanan dərman kütləsi vasitəsi ilə ürəyin fəaliyyəti dayandırılır. Ürək pompa adlandırılan süni ürək cihazına qoşulur. Cihazı işlədən mütəxəssis isə perfüzyonist adlanır. Bədən hərarəti olduqca soyudulur. Ağciyərlər söndürülür. Belə bir sual yaranır, qan necə oksigenləşir? Pompa cihazının iş prinsiplərindən bir idə qanı oksigenator vasitəsi ilə oksigenləşdirməkdir. Cərrah ürəkdəki qüsuru bərpa etdikdən sonra xəstənin bədən hərarəti yenidən normaya döndürülür. Ağciyərlər fəaliyyətə başlayır yenidən, və ürək süni cihazdan ayrılaraq yenidən öz fəaliyyətinə başlayır. Döş sümüyü dəmir tellər vasitəsi ilə bərpa olunur, dəri pozğunluğu xüsusi tibbi saplardan istifadə ilə bərpa olunur. Xəstə əməliyyatxanadan reanimasiya şöbəsinə təhvil verilir. İntensiv terapiyaya başlanılır.

## Nəticə

Bəzən insanlar bəlli bir yaşda ürəkdə ağrılardan şikayət edirlər və elə düşünürlər ki, əsəb, stres, həyat fəaliyyəti boyunca bu xəstəliyə düçar olurlar. Lakin onlar bilməlidirlər ki, belə qüsurlar anadangəlmə də ola bilər. Onların həyatında baş vermiş səhvlər övladlarının həyatlarında təkrarlanmamalıdır. Artıq bu məqaləni oxuyan hər kəs bilir ki, anadangəlmə ürək qüsurları çox ciddi fəsadlara yol aça bilər. Uşaqlarda barmaq uclarında göyərmə, ovuc içinin tez-tez tərləməsi, təngnəfəslik kimi hallar baş verərsə, bu anadagəlmə ürək qüsurlarının əlamətidir. Həyati vacib orqanımız olan ürək bütün orqanlarımızı qanla təmin edir. Bu məqalədə ürəyin anatomik, fizioloji quruluşu, iş prinsipi, ürək ritmləri, anadangəlmə ürək qüsurları, yaratdığı fəsadlar, simptomları, müayinə və müalicə üsulları haqqında ətraflı məlumat verilmişdir.

**Ədəbiyyat**

1. İ.A.Axundov. (2019) Ümumi Nozologiya və Tipik Patoloji Proseslər. Bakı, 171 səh.
2. İ.A.Axundov. (2019) İnsan Orqanlar Sistemi və Xəstəlikləri. Bakı, 154 səh.
3. E.Duran. (2004) Kalp Ve Damar Cerrahisi. Cilt 2, Trakya Universiteti, Tıp Fakultesi. Edirne, səh.103
4. Х.Лайонел. (2010) Лекарства В Практике Кардиолога. Москва
5. R.M.Bojar. (2021) Perioperative Care in Adult Cardiac Surgery. Sixth Edition. Part I. John Wiley&Sons, p.74-80
6. Y.Akçalı. (2011) Doğumsal Kalp Hastalıkları için Kardiyovasküler Cerrahi. Erciyes Tıp Fakültesi, s.104
7. R.H.Anderson et al. (2005) Hypoplastic left heart syndrome. Springer, London, p.172
8. W.H.Johnson, J.H.Moller. (2008) Pediatric Cardiology, Blackwell, p.142
9. K.Ə.Balakişiyev. (1979) İnsanın normal anatomiyası. Cild II, "Maarif" Nəşiriyyatı, Bakı, səh.58-60
10. E.Y.Ertürk. (2016) Ordu Üniversitesi Tıp Fakültesi, Çoçuk Sağlığı ve Hastalıkları Anabilim Dalı, s.12-25
11. K.Ə.Balakişiyev. (1982) İnsanın normal anatomiyası. Cild III, Bakı, səh.77

## CONGENTIAL HEART DEFECTS

**Z.Z.Ahmedova, I.A.Akhundov**

## SUMMARY

This work presents a detailed information about complications, symptoms, examination and treatment methods of congential heart defects.

## ВРОЖДЕННЫЕ ПОРОКИ СЕРДЦА

**З.З.Ахмедова, И.А.Ахундов**

## РЕЗЮМЕ

В статье представлена подробная информация об осложнениях, симптомах, методах обследования и лечении врожденных пороков сердца.

*Məqalə redaksiyaya 20 may 2024 tarixində daxil olmuş, 22 may 2024 tarixində isə çapa qəbul olunmuşdur.*

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2024 - № 63

UOT № 159.9

# UŞAQLARIN SOSİAL İNTELLEKTİNİN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

**S.H.Əlizadə**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Bakı, Ü.Hacıbəyli küçəsi 68
e-mail: sabina.az@gmail.com

***Açar sözlər:*** sosial intellekt, emosional intellekt, qabiliyyət, təlim mühiti, mədəniyyətin təsirləri
***Keywords:*** social intelligence, emotional intelligence, abilities, learning environment, cultural influences
***Ключевые слова:*** социальный интеллект, эмоциональный интеллект, способности, среда обучения, культурные влияния

İnsanın digər insanlarla necə ünsiyyət qurması, başqalarına empatik münasibəti, sosial davranış imkanları onun sosial intellektinin göstəricisidir. Psixoloqların apardığı araşdırmalardan məlumdur ki, sosial intellektə insanın doğulduqdan sonra həyat təcrübəsi zamanı müxtəlif fəaliyyət proseslərində əldə etdiyi vərdiş və bacarıqlar daxildir. Daha dəqiq ifadə etsək, sosial intellekt anlayışına subyektin özünü və başqalarını tanıması, sosial münasibətlərini və sosial mühitdə üzləşdiyi vəziyyətləri məqsədəuyğun şəkildə idarə etməsi, özünü mədəniyyət normalarını mənimsəməklə inkişaf etdirməsi kimi keyfiyyətlər daxildir. Ontogenezdə bu keyfiyyətlərin necə inkişaf etməsi, müxtəlif yaş dövrlərində necə formalaşması və ona mədəniyyətin necə təsir göstərməsi məsələlərini öyrənmək bizə prosesin hansı mərhələdə ləngiyib-ləngimədiyini, yaxud düzgün qurulub-qurulmadığını aydınlaşdırmağa imkan verir.

J.Piajeyə görə, inkişaf prosesində uşağın ətraf aləmə bələdləşməsi zamanı baş verən assimilyasiya, akkomodasiya və adaptasiya kimi mərəkkəb proseslər dərketmə komponentlərində, o cümlədən uşaq şəxsiyyətində ciddi keyfiyyət dəyişiklikləri əmələ gətirir (1). Bu zaman uşağa olan təsirlər onun intellektual imkanları və yaş qanunauyğunluqları ilə tarazlaşdırılmalıdır. J.Piaje intellektə onun fiziki və ya sosial mühitə uyğunlaşması imkanları baxımından yanaşır. Sosial intellektin başlıca təyinatı da insanın mühitdə qarşılıqlı münasibətlərə uyğunlaşması sayılır. İntellektin inkişafı onun çətin proseslərdə müvafiq əməliyyatların aparılmasına hazır olması ilə müəyyən edilir. Eyni zamanda, uşaq psixologiyasında sosial inkişafla bağlı məsələlərin özünəməxsus problemləri vardır. Həmin problemlər aşağıdakı mühüm məsələləri əhatə edir: fərdin inkişafının spesifik qanunauyğunluqları, şüurlu, məqsədyönlü fəaliyyətin formalaşması, real və xəyali obyektlərlə əməliyyat bacarığının yaranması, uşağın daxili mövqeyinin möhkəmlənməsi və s.

Bunları əsas götürərək, N.Yudina və E.Romanova sosial intellektin üç səviyyəli strukturu konsepsiyası üzərində dayanırlar: “Konsepsiyaya görə, intellekt üç əməliyyat komponentindən ibarətdir: praktik intellekt, məntiqi intellekt, sosial intellekt. Əgər intellektin praktiki və məntiqi komponentləri subyektin ətraf aləmə münasibətlər sferasını təmsil edirsə, intellektin sosial komponenti subyekt-subyekt münasibətləri sferasını əks et-

dirir" (2, 53). İntellektin subyekt-subyekt münasibətləri onun münasibətlər sferasında xüsusi yer tutur və özünəməxsusluqları ilə fərqlənir. Hətta bir çox hallarda subyekt-subyekt münasibətləri insanın digər münasibətlər sferasında aparıcı rola malik ola bilir. Bu baxımdan sosial intellektin formalaşması və inkişafı uşaqlıq dövründən xüsusi diqqət mərkəzində olmalıdır.

Ə.Əlizadənin təbirincə desək, uşaqlıq dövründə sosial intellektin əsasında intellektual bacarıqlar durur. "İntellektual bacarıqların başlıca funksiyası fikri əməliyyatların eksteriorizasiyası ilə əlaqəlidir: idrak fəaliyyətinin məzmunu fikri əməliyyatlarla şərtlənir, onların fəaliyyət prosesində reallaşması isə bilavasitə intellektual bacarıqların səviyyəsindən asılıdır" (3, 96). Bu o deməkdir ki, hələ kiçik yaşlarında uşağın idrak fəaliyyətinə cəlb edilməsi, onun fikri əməliyyatlarının fəaliyyət prosesində reallaşması üçün sosial inkişaf şəraitinin yaradılması intellektual bacarıqların formalaşmasına və inkişafına yol açır. Ə.Əlizadə intellektual bacarıqlara aşağıdakıları daxil edir: ümumi intellektual bacarıqlar, psixi fəaliyyətin təşkili üçün zəruri olan intellektual bacarıqlar, xüsusi intellektual bacarıqlar (3, 97).

Uşaq psixologiyası ilə bağlı ədəbiyyatların təhlilində sosial intellektin inkişafı müxtəlif nöqteyi-nəzərdən izah edilir. A.Bandura, C.Rotter onu "sosial öyrənmə" (4), E.Kapustina "sosial intellektin kommunikativ kmponentlərlə qarşılıqlı əlaqəsi" (5), Ə.Bayramov bu prosesi "əqli keyfiyyətlərin inkişafı" (6), R.Qədirova və T.Babayeva "öyrənmə fəaliyyəti" (7), U.Sak "intellektin inkişafı" (8), O.Arşanskaya "ontogenezdə sosial intellektin inkişafı" (9), İ.Kudinova "sosial intellekt şəxsiyyətin özünüreallaşdırma şərti kimi" (10), A.Molokostova "şəxsiyyət tiplərinə görə sosial intellektin xüsusiyyətləri" (11) baxımından təhlil edirlər. Hansı nöqteyi-nəzərdən yanaşılmasından asılı olmayaraq, sosial intellektin formalaşması və inkişafı qanunauyğun olaraq baş verir və bu qanunauyğunluqda fərdi, yaş, cinsi, sosial-psixoloji fərqlər özünü göstərir.

Bir sıra tədqiqatçılar uşaqlıq dövründə baş verən böhran mərhələlərində sosial intellektin inkişafının daha çox intensivləşdiyini bildirirlər (J.Piaje, L.Vıqotski, S.L.Rubinşteyn, Q.Krayq, D.Bokum və b.). Hesab edirlər ki, bu fenomenin inkişafındakı böhran mərhələlərində baş verən qanunauyğunluqlar bir tərəfdən onun proqramlaşmış genetik mənşəyindən xəbər verir, digər tərəfdən, "tələbatların ierarxiyası", "motivləşmə" (A.Maslou), "sosial öyrənmə" (A.Bandura), "yaxın və aktual inkişaf zonası" (L.Vıqotski) eləcə də digər psixoloji nəzəriyyələrdə öz izahını tapan öyrənmə və inkişaf tələbatları ilə bağlı olur.

Psixi inkişafın böhran mərhələlərinin tədqiqi gostərir ki, bu mərhələlərdə uşağın təəssüratları dəyişir. Məsələn, "L.Vıqotskiyə görə, yeddinci yaşın böhranı ərəfəsində ciddi və dərin çevrilmələr yaradan bir sıra müsbət dəyişikliklər baş verir. Uşağın davranışında baş verən bu mədəni çevriliş, özünütəşkiletmə bacarığı məktəbəqədər yaşda fərqlənir. L.Vıqotski bir və üç yaşın böhranı ilə müqayisədə yeddi yaşın böhranının daha ciddi proseslərlə müşayiət olunduğunu göstərir" (12, 294).

R.J.Strenberq, C.Forsayt və C.Çedland intellektin sosial şəraitdə, praktik fəaliyyətdə daha yaxşı formalaşması fikrini müdafiə edən tədqiqatçılardır (13). Onların izahına görə, daxili və xarici qüvvələrin yaradıcı fəaliyyətə təsirinin reallaşması və materiallaşması üçün yalnız məhsuldar fəaliyyətə yönəlmək kifayət etmir. Burada psixi və fiziki aləmin ahəngdar fəaliyyəti uğurlu nəticələr əldə etməyə imkan verir. A.A.Rean bu mərhələdə yaranan problemlərin, həmçinin şəxsiyyətin inkişaf səviyyəsi ilə əlaqəli olduğunu göstərir. "Mən"in həqiqiliyinə münasibətdəki ziddiyyətlər problemli uşağın orta

uşaqlıq dövründən başlayaraq, şəxsiyyətin bütün psixoloji quruluşunda özünü göstərir. Məsələn, "xarici Mən"in neqativ təsiri sosial məqsədlərdə və prinsiplərdə dominantlıq edir. Frustrasiya zamanı tələbatlarda stereotip qaydada hiddət, nifrət baş qaldırır. Bundan əlavə, belə şəxsiyyət üçün patoloji hövsələsizlik və tənqidə qarşı dözümsüzlük xasdır" (12, 294).

A.A.Reanın izahında uşaqlarda "Mən" təsəvvürünün yaranması mərhələsi sosial intellektin ilk məhsuldar dövrü kimi səciyyələndirilir. Bu dövr sosial normalara yiyələnmənin geniş imkanları ilə diqqəti cəlb edir. 1,5-2,5 yaş mərhələsində özünütanıma prosesi mürəkkəbləşərək, xarici məzmundan daxili məzmuna keçir. Uşaq əşyaları yalnız xarici əlamətlərinə görə deyil, öz tələbatını ödəmək baxımından qiymətləndirir. Ona görə də bu dövr "özünəməxsusluq" kimi səciyyələndirilir. 1,5 yaşdan başlayaraq uşaq ailə üzvlərini, əşyaları tanıyaraq fərqləndirir. "Mən-təsəvvür"ünün davamlı elementləri sadə formalarla üzə çıxır. 1-3 yaşlı uşaqlarda "Mən" məhdud xarakter daşıyır.

Q.Krayq, D.Bokum (14), L.Əmrahlı, N.Rzayeva (15), S.Urğan, Ş.Sevim (16), İ.Bayeva, L.Qayazova, İ.Kondakova, E.Laktionova (17) və b. sosial intellektin əsas formalaşma mərhələsini sosial motivlərin yaranması ilə əlaqələndirirlər. Müəlliflər bu dövrdə sosial intellektin inkişafı üçün ən mühüm amil olan münasibətlər məsələsini də diqqət mərkəzinə gətirirlər. İzahlardan belə aydın olur ki, üç yaşlı uşaqda artıq öz yaşıdları və yaşlılarla ünsiyyətə, münasibətlərə xüsusi tələbat yaranır. Bu münasibətlər fərqli qurulsa da, uşaq üçün yaşıdı ilə ünsiyyət daha əlverişli olsa da, yaşlılarla ünsiyyət nizamlayıcı, müfdafiəedici və öyrədici təsirə malik olur.

T.Savenkova uşaqlarda sosial intellektin inkişafında müxtəlif tədqiqatçılar tərəfindən işlənib hazırlanmış modelin strukturunu açıqlayır. Şəxsiyyətin sosial intellekti üç qrupda cəmləşir: koqnitiv, emosional və davranış. Birinci hissə struktur və funksional əlaqələri əks etdirir. Modelin bu hissəsinin əsas funksiyası inkişaf üçün təməl olmaqdır. Modelin ikinci və üçüncü hissəsində isə mərhələlər, şərtlər, məzmun, forma, müxtəlif birgəfəaliyyət üsulları əhatə edilir: "Sosial intellekt modelinin quruluşu kubu ifadə edir. Kubun birinci tərəfi - sosial intellektin bazasını, ikinci və üçüncü tərəfi isə sosial intellektin təzahür etdiyi davranışı xarakterizə edir" (18, 32) .

T.Savenkova təklif edir ki, təhsil mühitində bu tərəflərdən hər hansı birini götürərək ona uyğun təlim-tərbiyə işi qurmaqla uşaqlarda sosial intellekti inkişaf etdirmək olar. Ancaq bu iş hər bir yaş dövründə özünəməxsus şəkildə qurulmalıdır.

Bundan başqa, istər T.Savenkova, istərsə də digər tədqiqatçıların (D.Sabirova, G.Səidnəzərova, N.Yudina və b.) gəldiyi nəticə budur ki, məktəbəqədər yaşda sosial intellektin inkişafında ən mühüm amil onların yaşlı və yaşıdlarla birgəfəaliyyətinin səmərəli təşkilidir. Bu dövrdə yaşlının sosial intellektə ən mühüm təsiri də ünsiyyət və münasibətlərdə mədəniyyət nümunələrinin uşağa aşılanması dərəcəsi ilə müəyyən edilməlidir.

Uç yaşlı uşaqların psixi inkişafında onun ətraf mühitlə qarşılıqlı münasibəti ön planda durur. Bu münasibətlər sistemində insanlarla qurulan münasibətin xüsusi rolu var. Burada uşağa öz rolu ilə bağlı olaraq öyrədilənlər mühüm əhəmiyyət kəsb edir, çünki, o öz münasibətlərini tələb olunan rola münasib qaydada tənzimləməyə çalışır. "Beləliklə, uşaq tədricən mühitin öz həyatındakı rolunu qiymətləndirir. Bu baxımdan ətraf mühit komponentlərilə düzgün davranma və onları qavrama, dərketmədə sosial həssaslığın mühüm tərəfi kimi qiymətləndirilir" (15, 164).

Üç yaşdan başlayaraq uşaqda davranışın real tərəfləri ilə yanaşı formal tərəfləri möhkəmlənir. O, öz davranışını əsasən formal planda hazırlayaraq özündə sosial müdafiə olunmuş qaydaları qoruyub saxlayır. Tərbiyə prosesində mühitin mədəni təsirləri davamlı olduqda sosial intellektin də mədəni tərəfləri möhkəmlənir. "Uşağın hərəkəti çox zaman yaşlıların rəğbətini qazanmağa yönəldilmiş özünəhörmət cəhdi ilə şərtlənir. Üç yaşlı uşaq ətraf mühitlə əlaqələr qurmaq üçün kifayət qədər sosial təcrübəyə malik olur. Bu təcrübəni müxtəlif sosial təsirlərlə fərdi qaydada mənimsəyir. Sosial motivlərin ilkin forması əxlaqi-mənəvi motivlərdir" (15, 164).

Məktəbəqədər yaş dövrünün dördüncü ilində uşaqlarda sosial intellektin ixtiyari tərəfləri özünü göstərməyə başlayır. Uşaq bu dövrə qədər daxili qüvvələrin təsiri altında, ciddi şəkildə götür-qoy etmədən, əvvəlcədən planlaşdırmadan, situativ hisslərlə hərəkət etdiyi halda, sosial motivlərin ilk elementləri özünü göstərir, yaşlının tələb və məsləhətləri ilə hesablaşır, onları nəzərə alır, ona uyğun hərəkət edir.

E.Erikson (19), Q.Ollport (20), E.Subbotski (21), A.A.Rean (12) bu qənaətdədirlər ki, sosial intellektlə bağlı olanların inkişafı bir sıra mərhələlərdən keçir:

− uşağın şəxsi təcrübəsində ən sadə təəssuratlar və rol davranış elementləri də çoxsaylı hərəkətlərdə təcrübədən keçirilir;

− hələ kiçik yaşlarından formalaşmağa başlayan xəyali fəaliyyət motivlərinin əxlaqi davranış motivlərinə çevrilməsi prosesi sistemli şəkildə baş verir;

− ona xoş gələn hisslərin təkrarlanaraq fərdi təəssürat yaratması, müsbət hiss və emosiyalar əmələ gətirməsi təmin olunur;

− müstəqil hərəkətlərin, fəaliyyət nəticələrinin müqayisəsi, qiymətləndirilməsi, bəyənilməsi və qəbul edilməsi gedir və s.

Dördyaşlıların sosial intellekti artıq onların davranışlarında xarakterizə olunur, onlar fəaliyyət və ünsiyyətdə tələbatlarını ödəməyə daha çox maraq göstərir, yaşlı və yaşıdlarla birgə olmağa üstünlük verir, daha intensiv şəkildə sosiallaşırlar. Bu dövrdə uşağın fəaliyyətində əsas diqqət insanlarla qarşılıqlı münasibətlərdə özünütəsdiqə, özünüinkişafa və özünütənzimləməyə yönəlir. İnsanlarla, əşyalarla davranma təcrübəsi sonrakı yaş dövrlərində də təkmilləşməkdə davam edir. O artıq həyatı üçün xüsusi əhəmiyyət kəsb edən əşya və hadisələri tanıyır. Əlamət və xüsusiyyətlərinə bələd olmaqla, bir çox avtomatlaşmış hərəkət sistemini mənimsəmiş olur. Dörd yaşın sonunda uşağın fəaliyyəti yalnız insanlarla deyil, əşyalarla, təbiətlə də yeni münasibətin yaranmasını zəruri edir. Onlarda əşya və oyuncaqlara maraq oyanır, həmin obyektə xüsusi diqqətlə yanaşırlar, ondan istifadə qaydalarını bilirlər. O.Arşanskaya bu mərhələdə sosial intellektin inkişafını uşağın təfəkkür imkanları ilə müəyyənləşdirməyi daha düzgün hesab edərək sosial intellektin idraki quruluşunun bu imkanlarını səciyyələndirir:

1) sinkretik obrazlarla düşünmə ("hər şey hər şeyə bağlıdır" prinsipinə əsaslanan təsadüfi təəssürat əsasında ümumiləşdirmə);

2) komplekslərlə düşünmə (uşağlın birbaşa təcrübədə əldə etdiyi obyektiv, konkret, vizual-məcazi əlaqələrə əsaslanan birləşmə);

3) konseptlərlə düşünmə (ümumiləşdirmə və sözlərdən istifadə edərək abstraksiya, fərdi konsepsiyanın digər anlayışlarla əlaqəsi, düşüncədə ümumidən-xüsusiyə, xüsusidən-ümumiyə hərəkət etmək) (9, 25).

Bütün bunlar inkişafın yeni mərhələsinin başlanmasının, iradi hərəkətlər kompleksinin yaranmasının, koqnitiv imkanlar baxımından uşağın fəaliyyət subyektinə çevrilməsinin göstəriciləridir:

- uşaq üzərinə mürəkkəb sosial rollar götürür, onların öhdəsindən gəlmək üçün səy göstərir;
- o belə səylər nəticəsində diqqətini ixtiyari olaraq planlaşdırmış iş və hərəkətlər, yaxud onların elementləri üçün vacib onlan obyekt və hadisələr üzərində saxlayır;
- onun ətraf aləmə bələdləşmə reflekslərinin yaranma prosesi sürətlənir;
- uşağın fəaliyyətdə iradi mərkəzləşmə təcrübəsi dinamik hal alır, duyğu analazatorlarının hər birində təkmilləşmə gedir, üçyaşlılarla müqayisədə əlaqəli işi tənzimlənir.

Bu baxımdan dördyaşlı uşaq müxtəlif fəaliyyət sahələrində özünü müstəqil iş və tapşılıqları yerinə yetirə bilən şəxsiyyət kimi göstərə bilir. Dörd yaşda sosial-empatik sistemi xarakterizə edən xususiyyətlər aşağıdakılardır: hərəkətlərdə iradilik; fəaliyyətin düşünülərək qurulması; idrak proseslərinin məqsədəyönəlişliyi; hərəkətlərin iradi tənzimlənməsi.

Beş-altı yaş dövründə uşağın sosial intellektində baş verən inkişafın ən əsası tərəddüddən qismən yaxa qurtarması, etimadsızlıq, çəkingənlik və qorxu hissinə üstün gəlməsidir. Uşağın süjetli oyunlarında, onun icra tərzi təmsil etdiyi cəmiyyətin mədəniyyətinin yeni şəraitə uyğunlaşdırılması baş verir. Ona görə də beşyaşlıların oyunları nəsillərin sosial mübadiləsi kimi təsvir olunur.

Məktəbəqədər yaşın sonunda uşaqlarda sosial intellektin aktuallaşması onların öz hərəkətlərinin bu və ya digər tərəflərinin təkmilləşməsinin nəticəsidir. Belə təkmilləşmə fəaliyyət vasitəsilə yerinə yetirilir. Hər bir hərəkətin kamillik səviyyəsi, sosiallaşma prosesinin inkişaf səviyyəsinə uyğun gəlir. T.Savenkova "Məktəbəqədər yaşlı uşaqların birgə fəaliyyətində sosial intellektin inkişafı" adlı dissertasiya işində göstərir ki, "məktəbəqədər yaşlı uşaqların sosial intellektinin inkişafına pedaqoji təsir iki böyük amil vasitəsi ilə həyata keçirilir: şəxsiyyətdaxili və şəxsiyyətlərarası. Şəxsiyyətdaxili (intropersonal) amilə psixofizioloji xüsusiyyətlər (qabiliyyət, temperament, xarakter və s.), o cümlədən, onun özünün sosial təcrübəsində əldə etdiyi formasiyalar daxildir. Şəxsiyyətlərarası əlaqələr müxtəlif olub daha böyük amilləri əhatə edir: təhsil mühiti (mikro-, mezo-, meqa- və makro-mühit), aparıcı fəaliyyətin təşkilinin müxtəlif növləri və formaları, həmyaşıdları və böyüklərlə birgə fəaliyyəti" (18, 165).

İnsanlarla əlaqələr sistemində hər bir insan digərindən mövqeyinə görə fərqləndirilir. Yuxarı yaş mərhələlərinə keçdikcə yeni münasibətlər ön plana keçir. Beləliklə də məhz insanlarla qarşılıqlı münasibətlər zəminində uşaqda özünün və dünyanın dərki sürətlənir. Tədricən, məktəbəqədər yaşın sonunda insan münasibətlərinin diferensiasiyası baş verir. Belə diferensiallaşmanın köməyilə o hansı situasiyada kimdən nələri gözləmək lazım gəldiyini müəyyənləşdirir. "Mən"in kimliyi, imkanları və maraqları haqqında aydın təsəvvür yaranır. Nəticədə bütün aspektlərdə inteqrasiya əldə olunduqda sosial intellektin inkişafında dinamika baş verir. Bu dinamika insanın inkişafının yeni mərhələsində, özünəməxsusluğu ilə fərqlənən kiçik məktəb yaşı dövründə öz təzahürünü tapır.

Ə.Əlizadə kiçikyaşlı məktəblilərin intellektual imkanlarının məktəbəqədər yaş dövründən fərqli cəhətlərini belə izah edir: "Kiçik məktəb yaşı dövründə yeni psixi keyfiyyətlər əmələ gəlir: fəaliyyətin daxili planı formalaşır, psixi proseslər tədricən ixtiyariləşir, refleksiya təşəkkül tapır. Bu zəmində də artıq sinifdə ümumi intellektual bacarıqların, xüsusilə planlaşdırma və özünənənəzarət bacarıqlarının formalaşması üçün əlverişli şərait yaranır. Şagirdin sosial təcrübəsi genişləndikcə tədricən kitab üzərində iş

bacarıqlarına yiyələnir, tədris materiallarını oxumağın, məzmunu danışmağın və sistemləşdirməyin texnologiyasını mənimsəyir" (3, 97).

Ə.Əlizadə kiçikyaşlı məktəblilərdə sosial intellektin inkişafını şərtləndirən ümumi intellektual bacarıqların inkişafında müəllimlərin rolunu önə çəkərək bildirir ki, onlar şagirdlərə bu bacarıqların aşılanmasına diqqət yetirirlər.

İ.Yemelyanova və İ.Kulaqina kiçik məktəb yaşı dövründə sosial intellektin inkişaf xüsusiyyətlərindən bəhs edərkən bu dövrdə də yaşlı və yaşıdlarla əlaqələrin əhəmiyyətini vurğulayırlar. Onlar hesab edirlər ki, ibtidai siniflərdə təhsil alan şagirdlərdə bu əlaqə artıq yaşıdlarla yeni sosial əlaqələrin qurulması ilə şərtlənir. "Əsas məqsəd sosial intellektin kifayət qədər geniş sosial bacarıqlar səviyyəsində inkişafıdır. Fəal məktəb həyatında zəruri an sosial bacarıqların inkişafı və mənimsənilməsi şagird qrupunda əlverişli sosial statusun qazanılmasına həlledici təsir göstərir. Müəllimin uşaqla bağlı müsbət gözləntiləri onun sinif yoldaşları ilə münasibətlərinə, qrupda statusunun artmasına kömək edir" (22, 100).

İ.Yemelyanova və İ.Kulaqinanın apardıqları tədqiqatın nəticələri göstərir ki, kiçikyaşlı məktəblilərdə sosial intellektin inkişafı aşağıdakı amillərlə şərtlənir:

1) birincisi, uşaqlarda sosial və emosional intellektin inkişafı öyrəmə (təlim) prosesi ilə sıx bağlıdır, çünki təhsildən təcrid edilmiş uşaqlarda bu göstəricilər təhsil mühitində olan uşaqlardan fərlənir, onlar yaşıdları ilə uğurlu qarşılıqlı əlaqə qura bilmirlər, inkişaf etmiş sosial və ünsiyyət bacarıqları olmur, dəyişikliklərə qarşı dözümsüz olur, özünün emosional vəziyyətini idarə etməkdə çətinlik çəkirlər;

2) ikincisi, ibtidai siniflərdə uşaqlar üçün ən mühüm sosial bacarıqlar öz diqqətini müəlimə yönəltmək, ehtiyclarını başqalarına çatdırmaq, təlim prosesində çalışqan olmaq, göstərişlərə əməl etmək, başqalarına hörmətlə yanaşmaq, özünü qrupun üzvü kimi aparmaqdır;

3) üçüncüsü, ibtidai təhsildə dəyişən şərtlərə uyğunlaşmaq, eyni zamanda, münasibətlərdə nəzakətli olmaq, sabitliyin nisbi olduğunu anlayaraq özünü buna hazırlamaq, həm emosional, həm də davranış səviyyəsində bu dəyişikliklərə cavab verə bilmək;

4) dördüncüsü, rollu, işgüzar və sosial dramatik oyunlarda iştirak edərək müvafiq rolları yerinə yetirmək, problemlərin həlli yollarına bələd olmaq, sosial vəziyyətlərlə tanış olmaq, fəaliyyətlə bağlı strategiya və davranış modellərindən istifadə etmək, öyrəndiyi bilikləri fəal şəkildə fəaliyyətə tətbiq etmək.

Müəllimlər və valideynlər uşağa sosial və mədəni dəyərlər sistemini ötürür, ünsiyyət çətinliklərində köməklik edir, bunlara həyati nümunə göstərirlər. İbtidai təhsilin sonunda uşaqlarda kifayət qədər sosial intellekt imkanlarının olduğu nəzərə alınaraq şəxsiyyətin formalaşmasında bu sahədəki bacarıqların möhkəmləndirilməsinə diqqət yetirmək lazım gəlir. Başqa insanlarla müsbət emosional əlaqələr, optimal davranış modelləri ilə tanışlıq şəraitində, uşaqda məmnunluq hissi yaradan yaradıcı fəaliyyətlər bu proses daha uğurla gedir.

O.Arşanskaya bütövlükdə uşaqlıq və yeniyetməlik dövründə sosial intellektin inkişafını aşağıdakı mərhələlərlə təsvir edir (9, 24):

1) eqosentrik səviyyə (5 yaşa qədər): uşaq hələ daxili və xarici vəziyyətləri kifayət qədər ayırd edə bilmir, onun üçün dostluq kortəbii baş verən, birgə fəaliyyətdə yaranan qısamüddətli təmasdır;

2) subyektiv səviyyə (5-9 yaş): uşaq artıq özünün və başqalarının təcrübəsini ayırd edə bilir, lakin onun təsirini başa düşmür, onların hərəkət və vəziyyəti digər insanlarla eyniləşdirilir, dostluq isə neytral münasibətlər deməkdir;

3) qarşılıqlı səviyyə (9-12 yaş): uşaq digər insanların hiss və təcrübələrini başa düşməyi, səbəb və nəticəni qurmağı bacarır, özü ilə başqalarının hərəkətləri arasında əlaqə yaradır;

4) qarşılıqlı səviyyə (12-15 yaş): uşaq nə düşündüyünü anlaya bilir, başqa bir şəxsin onun haqqında nə düşündüyü ilə maraqlanır, dostluğun uzunmüddətli münasibətlər olduğunu, ehtiyacların qarşılıqlı şəkildə nəzər alınmalı olduğunu anlaya bilir, hərəkətlərində, məqsədlərində qarşılıqlı asılılqların olduğunu başa düşür;

5) sosial-simvolik səviyyə (15 yaşdan yuxarı): yeniyemə artıq dayışıcısı başqa bir şəxs olan nəzəri ideyalar, dəyərlər və konsepsiyaları anlayır, onlar üçün dostluq qarşılıqlı anlama, qarşılıqlı yardımın əsas götürüldüyü münasibətdir.

Sosial intellektinin psixoloji xüsusiyyətləri istiqamətində aparılan tədqiqatları təhlil edərək aşağıdakı qənaətlərə gəlmək mümkündür:

Məktəbəqədər və kiçik məktəb yaşı dövründə uşaqlarda sosial intellektin formalaşması prosesi özündə bir çox inkişafetdirici komponentləri - yeni tələbatları, differensiallaşmış sosial motivləri, yeni vərdiş və bacarıqları, refleksivlik dərəcəsini, empatik quruluşu, şəxsiyyətin yeni maraq və meyllərini, özünüinkişaf fəallığını özündə birləşdirir.

Uşaqlarda sosial intellektin inkişafında əlverişli mədəni təsirlərlə və psixopedaqoji prinsiplərlə qurulmuş təlim-tərbiyənin rolu böyükdür. Təkmil formada qurulmuş təlim-tərbiyə psixi xassələrin fiziki tərkibinə nüfuz edir. Yaranan yeni xassələrin özləri də daxili və xarici fəaliyyətin psixi cəhətdən yenidən qurulmasında mühüm şərtlərdən birinə çevrilir. Bu zəmində inkişafın hər bir mərhələsində ətraf aləmə münasibətdə köklü dəyişikliklər əmələ gəlir. Təlim şəraitinə adaptasiya təmin olunur.

Uşaqların tədricən mədəniyyət nümunələrini mənimsəyərək sosial intellektin məzmununda yer tutması onun fəaliyyət, ünsiyyət və davranışında təzahür edir. Uşaq oyun, təlim, əmək fəaliyyətində verilən tapşırıqlarda, qarşılıqlı münasibətlərdə, həmçinin rol davranışlarında özünün sosial intellekt bacarıqlarını nümayiş etdirir. Bu prosesdə interiorizasiya və eksteriorizasiyanın roluna xüsusi əhəmiyyət verilərək həmin hadisələr əqli inkişafın psixofizioloji mexanizmi kimi səciyyələndirilir. Həmin hadisələri uşağa verilən tələb və tapşırıqların sadə hərəkətlər fonunda çoxsaylı təkrarı, nəticələrin fərdi təəssürat yaratması, yeni hiss və emosiyalar əmələ gətirməsi, bəyənilməsi, yaxud inkar edilməsi formasında, sistemli baş verən, bir-biri ilə qanunauyğun əlaqəsi olan psixi hadisələrin məcmusu kimi qəbul etmək lazımdır.

## Ədəbiyyat

1. Пиаже Ж. (2003) Психология интеллекта. СПб.: Питер, 192 с.
2. Юдина Н.Ю. (2021) Активные формы развития социального интеллекта старшеклассников // Н.Ю.Юдина, Е.Ю.Романова / Социальные явления, №2, с.52-59
3. Əlizadə, Ə.Ə. (2006) İdrak prosesləri və hisslər. Psixopedaqoji məsələlər. Bakı, ADPU-nun mətbəəsi, 345 s.
4. Бандура А., Роттер Дж. (1997) Социально-когнитивное направление в теории личности // Теории личности. СПб.: Питер, с.373-431
5. Капустина Е.А. (2004) Взаимосвязь социального интеллекта и коммуникативной

компетентности личности // Дисс...сис. учен. степ. психол. Барнаул, 22 с.
6. Bayramov Ə.S. (1967) Şagirdlərdə əqli keyfiyyətlərin inkişaf xüsusiyyətləri / Ə.S. Bayramov. – Bakı, Maarif, 350 s.
7. Qədirova R.N. (2004) Psixologiya praktikumu / R.N.Qədirova, T.T.Babayeva. - Bakı: - Ulu, 122 s.
8. Sak U. (2016) Zeka ve Gelişimi. Eğitim Psikolojisi // Anadolu Üniversitesi Basımevi, s.102-124
9. Аршанская О.В. (2018) Психологические условия становления социального интеллекта: история и современность. Монография / О.В.Аршанская. Тамбов: Консалтинговая компания Юком, 85 с.
10. Кудинова, И.Б. (2006) Психологические условия становления социального интеллекта личности: на примере старшеклассников и студентов / Новосибирск: дисс. кандидат психологических наук, 226 с.
11. Молокостова А.М. (2007) Особенности социального интеллекта студентов с различным психологическим типом личности // Автореф. дисс…на соис. уч. степ. канд. психол. наук, Самара, 24 с.
12. От рождения до смерти (2002) // Под ред. А.А.Реана. М.: Алма-пресс, 652 с.
13. Р.Дж.Стернберг, Дж.Б.Форсайт, Дж.Чедланд и др. (2002) Практический интеллект – Спб.: - Питер, 220 с.
14. Крайг Г., Бокум Д. (2005) Психология развития. - СПб. : Питер, 940 с.
15. Əmrahlı L.Ş. (2015) Uşaq psixologiyası. Bakı: Nurlar, 364 s.
16. Urğan S. (2019) Kültürel Zeka / Eğitim Yayınevi, 180 s.
17. Баева И.А. (2021) Психологическая безопасность и социальный интеллект подростков и юношей // Психологическая наука и образование, Том 26, №2, с.5-16
18. Савенкова Т.Д. (2019) Развитие социального интеллекта у старших дошкольников в процессе совместной деятельности / Дисс. на соискание ученой степени кандидата педагогических наук / М., 190 с.
19. Эриксон Э., Фромм Э., Хорни Л. (1997) Эго-психология и связанные с ней направления в теории личности // Теории личности. СПб.: Питер, с.214-246
20. Allport G.W. (2013) Pattern and growth in personality. NY. Holt, Rinehart and Winston //American Journal of Applied Psychology, Vol. 1 No. 1, p.7-13
21. Субботский Е.В. (2011) Совместимы ли социальный интеллект и мораль? // Национальный психологический журнал, № 1(5), с.8-13
22. Емельянова И.В., Кулагина И.Ю. (2020) Особенности развития социального интеллекта в младшем школьном возрасте // Психолого-педагогические исследования, том 12, №2, с.91-107

## PSYCHOLOGICAL TRAITS OF SOCIAL INTELLIGENCE IN CHILDREN

**S.H.Alizadeh**

**SUMMARY**

This work focuses on the characteristics of children's social intelligence. The content of child's personality is also characterized by his social intelligence, the author claims.

## ПСИХОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ СОЦИАЛЬНОГО ИНТЕЛЛЕКТА У ДЕТЕЙ

**С.Х.Ализаде**

**РЕЗЮМЕ**

В статье говорится об особенностях социального интеллекта детей. Автор отмечает, что содержание личности ребенка характеризуется в том числе его социальным интеллектом.

*Məqalə redaksiyaya 27 may 2024 tarixində daxil olmuş, 28 may 2024 tarixində isə çapa qəbul olunmuşdur.*

# HÜQUQ, TARİX VƏ SİYASİ ELMLƏR BÖLMƏSİ

2024 - № 63

UOT № 327

# YAXIN VƏ ORTA ŞƏRQ REGİONUNUN GEOSİYASİ ƏHƏMİYYƏTİ VƏ ABŞ-IN BU REGİONDA MİLLİ MARAQLARI

**K.M.Şıxiyeva**
AR DTX-nin Heydər Əliyev adına Akademiyası
Bakı, Ələsgər Qayıbov küçəsi 6
e-mail: konul_politoloq@mail.ru

***Açar sözlər:*** Yaxın Şərq, geosiyasi mövqe, neft amili, milli maraqlar, Amerika xarici siyasəti
***Keywords:*** Middle East, geopolitical position, oil factor, national interests, US foreign policy
***Ключевые слова:*** Ближний Восток, геополитическое положение, нефтяной фактор, национальные интересы, внешняя политика США

## Giriş

Yaxın və Orta Şərq regionu dünya regionları içərisində həm təbii enerji resurslarının zənginliyi, üzərində yerləşən əhəmiyyətli nəqliyyat-kommunikasiya (istər dəniz, istərsə də quru) xətlərinin çoxluğu, milli-dini baxımdan rəngarəng olması və müxtəlif siyasi kataklizmlərin cərəyan etməsi ilə fərqlənir. Bu region imperialist dövlətlərin daim diqqət mərkəzində olmuşdur. Bugün də region siyasi-iqtisadi baxımdan dünyanın supergüc və ya qlobal güc hesab edilən dövlətlərinin maraqlarındadır. Regiona bu qədər marağın olmasının və dövlətlərin həyata keçirmiş olduğu, yaxın və uzaq onilliklər üçün nəzərdə tutduğu xarici siyasət konsepsiyalarında və layihələrdə əhəmiyyətli yer almasına səbəb təbii ki, enerji resursları, xüsusilə neft-qaz amilidir. Region məhz bu səbəbdən Amerikanın hələ I dünya müharibəsi illərində, xüsusilə də burada neft-qaz yataqları kəşf edildikdən sonra marağında olmuşdur.

Tədqiqatımızda regionun geosiyasi əhəmiyyəti və yuxarıda qeyd etdiyimiz kimi enerji reruslarına sahiblənmək üçün Amerikanın müxtəlif zaman kəsiyində "don geyindi-rilmiş siyasi strateji başlıqlarla" həyata keçirdiyi milli siyasətinə diqqət yetirəcəyik.

### 1. Yaxın və Orta Şərq məhfumunun formalaşmasına tarixi-siyasi yanaşmalar

Bəşəriyyətin və sivilizasiyanın beşiyi hesab edilən Yaxın və Orta Şərq ta keçmişdən bugünkü günədək diqqətləri öz üzərinə çəkən və güc sahibi olan dövlətlərin hədəfində olan regiondur. XIX əsrin sonu-XX əsrin əvvəllərində meydana çıxan Yaxın və ya Orta Şərq anlayışına dünyada gedən siyasi proseslərdən və bu regiona hansı baxış bucağından baxılmasından asılı olaraq yanaşmalar dəyişilmişdir. Yaxın və Orta Şərq məhfumun ortaya çıxması haqqında müxtəlif versiyalar, yanaşmalar mövcuddur. Hazırda bütün dünyada və hətta region dövlətləri tərəfindən qəbul olunan bir bölgü vardır. Yaxın, Orta Şərq regionu və onun geosiyasi üstünlüklərindən danışmazdan əvvəl, Şərqin yaxın, uzaq və ən sonda orta regionlara bölünməsinin tarixi-siyasi aspektinə nəzər salaq.

Yaxın Şərq Avropada (daha çox fransızlar tərəfindən) Osmanlı torpaqlarına verilən bir ad kimi qeyd olunurdusa, Uzaq Şərq deyildiyində Britaniya imperatorluğunun XIX əsr-də Çin, Yaponiya və Hindistana yayılması nəzərdə tutulurdu. Orta Şərq isə XX əsrə qədər istifadə edilməyən bir ifadədir. Hətta bunun ingilis-amerikan planı olduğu da qəbul edilir.

Çünki bir çox ədəbiyyatlarda bu region sonradan ortaya atılan, ingilis məqsədlərinə xidmət edən maraq zonası kimi qeyd olunur.

Yaxın Şərq Şərq ilə Qərbi, Aralıq dənizi ilə Hind Okeanı, Rusiya ilə isti dənizləri bir-birinə bağlayan, eyni zamanda Şərq ilə Qərb arasındakı bütün ticarət və mədəni əlaqələrin qurulduğu bir bölgədir. Yer üzünün ən əhəmiyyətli quru və su yollarını buradan keçməsi regionun özünə qazandırdığı bənzərsiz geosiyasi dəyərdir. Yaxın Şərq tarixin ilk dövrlərindən bu yana dünyaya ağalıq etmək istəyən qüvvələrin əsas hədəfinə çevrilmişdir. Qara qızıl kimi təyin olunan neftin XX əsrin ilk yarısından etibarən dəyər qazanması ilə Yaxın Şərqin və buradan keçən quru və dəniz yollarının strateji əhəmiyyəti dünyanın heç bir yeri ilə müqayisə edilə bilməyəcək dərəcədə artmışdır [4, s.1].

Orta Şərq (Middle East) termini ilk dəfə olaraq 1902-ci ildə Londonda nəşr olunan "National Review" jurnalında Amerika dəniz tarixçisi və geopolitik Alfred Mehen tərəfindən "The Persian Gulf and International Relations" adlı məqaləsində istifadə edilmişdir. Mehenin dərc olunan "Fars körfəzi və beynəlxalq münasibətlər" adlı məqaləsində aşağıdakı məsələlər ön plana çəkilir :

- Uzaq Şərq və Hindistana gedən yolların nəzarəti məqsədilə bu bölgələrə açılan yolların tam təhlükəsizliyi təmin edilməlidir.
- Xüsusilə Rusiyanın Sibirdə, Orta Asiyada, Qafqazda üstünlüyü İngiltərə maraqlarına olduqca ziddiyyət təşkil edir və lazım gələrsə, rusların qarşısını kəsmək üçün almanlarla işbirliyinə girmək mümkündür. Bu səbəbdən Fars körfəzi Süveyş kanalından sonra ən önəmli bölgədir, əsas məqsəd olaraq ruslar bu regiondan uzaq tutulmalıdır.

Mehenin fikirlərinə əsasən, Orta Şərq dediyimiz ərazi məhz bu zonadır (Fars körfəzi və ətrafı) və rusların bu regionda siyasəti nəzarətdə saxlanılmalıdır.

Bu termin daha sonra "The Times" qəzetində Valentino Çirolun məqalələrində yer almağa başladı və nəticədə 1903-cü ildə bu məqalələr "Orta Şərq problemi və ya Hindistanın müdafiə problemləri" (The Middle East Question or Some Problems of India Defence) adlı kitabda birləşdirildi. Çirola görə Orta Şərq daha geniş bölgəni əhatə edir, o, Hindistana gedən bütün yolları Orta Şərq, Anadolu və Balkanları isə Yaxın Şərq adlandırır. Məhz bu dövrdən etibarən Orta Şərq əvvəlcə İngiltərənin, daha sonra isə Amerikanın maraq bölgəsi olaraq xüsusi əhəmiyyət kəsb etməyə başlayır [2, s.2 ].

"World History Encyclopedia"da Yaxın (Orta) Şərq arxeoloqlar və qədim tarixçilər tərəfindən Cənub-Qərbi Asiya regionunu (xüsusilə Aralıq dənizi, Qara dəniz, Xəzər dənizi, Qırmızı dəniz) və Fars körfəzi ilə əhatə olunan ərazini əhatə edən bölgə hesab olunur. Bu gün bu bölgəyə Fələstin, Livan, Suriya, Türkiyə, İordaniya, İraq və İran (qərb hissəsi) kimi ölkələr daxildir. Bəzi alimlər Yaxın Şərqin tərifinə Kipr və Zaqafqaziya (Gürcüstan, Ermənistan, Azərbaycan) da daxil edirlər, lakin bunlar ayrı-ayrılıqda "Şərqi Aralıq dənizi" və "Qafqaz" kimi nəzərdən keçiril- məlidir. Misir şübhəsiz ki, Yaxın Şərqin qədim tarixində əsas aktor olsa da, çox vaxt Yaxın Şərqin tanış klassik təriflərindən xaric edilir. Müasir politoloqlar və jurnalistlər üçün Orta Şərq termini eyni coğrafi bölgəyə istinad etmək üçün istifadə olunur. Yaxın Şərq tez-tez "sivilizasiyanın beşiyi" hesab olunur, çünki o, bəşər tarixində ən qədim kənd təsərrüfatı, yazı və şəhərlərin bu bölgədən qaynaqlandığına əlamət olan məkandır.

Beləliklə, Orta Şərqdən əvvəl Yaxın Şərq anlayışı vardır. Bu həm də regionun siyasi adlandırmasıdır və ingilislər uzun müddət bundan istifadə etmişdilər. Əgər I Dünya Müharibəsi Yaxın Şərq konsepsiyası ilə aparılmışdırsa, II Dünya Müharibəsi zamanı Orta

Şərq anlayışı icad edildi. Orta Şərq dedikdə Cənub-Qərbi Asiya, daha dəqiq desək Fars körfəzi və buraya daxil olan (İran, İraq, Səudiyyə Ərəbistanı, BƏƏ, Küveyt, Bəhreyn, Oman, Qatar) dövlətlər nəzərdə tutulur. Doğrudur, qərb ədəbiyyatlarında Şərqin Yaxın və Orta Şərqə bölünmür və bütün bu region Orta Şərq (Middle East) kimi ehtiva olunur [12].

## 2. Yaxın və Orta Şərq regionunun geosiyasi əhəmiyyəti

Regionun dünya miqyasında əhəmiyyəti, Şərqlə Qərb arasında təkcə sadəcə ticarət mallarının deyil, eyni zamanda mədəniyyələrin, etiqadların da mübadiləsi də bu region daxilində təmin edilməsi ilə ölçülür. Sənaye inqilabı dövrü xaric, bu hərtərəfli ticarət Yaxın Şərqi dünya tarixini ən çox maraqlandıran inkişaf və dəyişiklərin olduğu bir region halına gəlmişdir. Bu səbəbdən dünyaya ağalıq etmək istəyən hər bir dövlət üçün Yaxın Şərqə sahiblənmək ən vacib bir addım və məsələ olmuşdur.

Soyuq müharibə dövründə dünyanın iki supergücünün nüfuz mübarizəsinə səhnə olan Orta Şərq, bu gün də maraqların toqquşduğu və nüfuz dairələrinə sahiblənmək uğrunda mübarizə meydanıdır. Orta Şərq istər iqtisadi, istərsə də geopolitik olaraq böyük əhəmiyyətə malik olması ilə bərabər, təkallahlı dini sistemin meydan gəldiyi və hazırda dünyanın hər tərəfinə yayılan iudaizm (musavilik), xristianlıq və islam kimi səmavi dinlərin beşiyi olmuşdur.

Həbibə Soltanova və Cabir Məmmədovun "Yaxın və Orta Şərq ölkələrinin iqtisadi və sosial coğrafiyası" adlı dərsliyində göstərilmişdir: "On səkkiz dövlətin (o cümlədən, 13 ərəb dövlətinin) daxil olduğu Yaxın və Orta Şərq regionunun ərazisi 7,3 mln. kv.km, əhalisi 350 mln. nəfərdir. Yaxın və Orta Şərqin dünya mədəniyyəti, siyasəti və iqtisadiyyatında mühüm rol oynaması onun geosiyasi mövqeyinin üstünlüyü, maye yanacağı sərvətlərilə zəngin olması ilə izah olunur.Yaxın və Orta Şərq regionu üç qitə-Asiya, Avropa, Afrika və iki okean hövzəsinin qovşağında yerləşir. Enlik istiqamətində 4400 km (Pamir dağlarından Aralıq dənizindəki İmroz adasınadək), meridian boyu 3300 km (Qara dənizdəki Sinop burnundan Bab-əl-Məndəb boğazınadək) məsafədə uzanır. Yaxın və Orta Şərq regionunun Aralıq, Xəzər, Qara və Qırmızı dənizlərə çıxışı vardır. Bu isə bir tərəfdən onun Cənubi Qafqaz bölgəsinə, Rusiyanın daxili rayonlarına təsirinin artmasına imkan yaradır, digər tərəfdən regionu Rusiyanın geosiyasi marağının "hədəfinə" çevirir".

Mesopotamiya ilə Misir arasında quru tranzit keçid əlverişli coğrafi mövqeyə malik olan sahədir. Bu sahə Anadolu yaylası və Fərat çayının orta axınından Sinayadək uzanan dağlararası dərələr və dağ ətəklərini əhatə edir.

Üç qitə arasındakı regionun vasitəçilik rolu "Bərəkətli Aypara" adlanan bu sahədə daha qabarıq nəzərə çarpır. Dünyanın qədim vasitəçilik-ticarət mədəniyyəti (Finikiya) məhz burada meydana gəlmişdir. Finikiyalıların ticarət-vasitəçilik və sələmçilik fəaliyyətindəki məharətini sonralar Fələstində məskunlaşmış yəhudilər, levantlılar əxs etmişlər. Coğrafi mövqeyin əlverişliliyi səbəbindən baş verən müharibələr bu bölgənin sakinlərini dünyanın digər regionlarına "dərbədər" etmiş, iki əsas qüvvə - yəhudi və ərəb diasporu yaranmışdır [3, s.5].

Neft ehtiyatlarının əhəmiyyətli hissəsinin Səudiyyə Ərəbistanı və İraq kimi ölkələrdə olması Yaxın Şərq üçün xüsusi əhəmiyyət yaradır. Bu gün Yaxın Şərq çirkli müharibənin obyektinə çevrilmişdir. Biz çox geniş və vacib bir coğrafiyadan bəhs edirik və müəyyən mənada bu coğrafiyanın sonu yoxdur. Amma onun müəyyən sərhədləri var və əsrlər boyu bu sərhədlər daxilində bölgəni bir yerdə saxlayan yalnız bir dövlət var idi: Os-

manlı İmperiyası. Bu imperiya Yaxın Şərq bölgəsini birləşdirdi və təxminən 5 əsr boyunca bir yerdə saxlamışdır. Bu gün isə ABŞ regionda hökmranlıq uğrunda mübarizənin əsas aktoru kimi görünür. Birinci Dünya Müharibəsindən 100 il sonra ABŞ regionun yenidən müəyyənləşdirilməsi üçün açıq və gizli əməliyyatlar həyata keçirir ki, bu da xalqların həyatını kökündən dəyişdirir, bölgəni cəhənnəmə çevirmişdir.

## 3. Regionun "həyati zonaya" çevrilməsi və qlobal güclərin maraqları

Bütövlükdə XX əsrin sonu və XXI əsrin əvvəllərində dünya birliyi regionun nefti, qondarma "neftdən gələn dollar"dan istifadə xarakteri uğrunda həm burada, həm də dünya bazarlarında sərt beynəlxalq, indi isə silahlı mübarizənin şahidi olmuşdur. Orta Şərq yüz ildən artıq bir müddətdir ki, narahatlıq, gərginlik, qarşıdurma, müharibə və işğalların, təzyiq və tapdaq sahəsi olmuş və hazırda da bu durum davam etməkdədir. Əsrlər əvvəl Şərq-Qərb xətti üzrə dünya ticarətinin əsas coğrafiyası və neft başda olmaqla zəngin təbii mənbələrinə malik olması səbəbindən region güc dairələrinin rəqabət və münaqişə arenası olmuş, hegemonluq münaqişələrində önəmli yer tutmuşdur.

II dünya müharibəsindən sonra Orta Şərq soyuq müharibənin qütb qarşıdurmasının tərkib hissəsi olaraq beynəlxalq siyasətdə daha çox yer tutmuş və 1948-ci ildən etibarən sürəkli müharibələr içərisində olmuşdur. 1948, 1956, 1967, 1973-cü illər Ərəb-İsrail münaqişəsi, 1980-89-cu illər İran-İraq müharibəsi regionun təhlükəsizliyi və sabitliyinə təsir etmişdir. İkinci Dünya Müharibəsindən sonra region soyuq müharibə illərində iki super güc ABŞ və SSRİ-nin nüfuz mücadiləsi arenası olmuşdur.1990-ci illərin əvvələrindən etibarən Soyuq müharibənin başa çatması, Sovet İttifaqının tarixi missiyasının bitməsi və beynəlxalq platformada tək supergüc olaraq ABŞ-ın qalması Orta Şərq regionunda ABŞ siyasətinin qələbə çalmasına səbəb olmuşdur. Region soyuq müharibədən sonra dünya siyasətinin ağırlıq mərkəzlərindən birini təşkil etmiş, İraqın Küveytin işğal etməsı və sonra Körfəz müharibəsi ilə ABŞ-ın eyni zamanda İraq və İranı qoruma, mühafizə etmə strategiyası ilə 1990-cı illərə öz damğasını vurmuşdur [4, s.3].

Orta Şərq bölgəsi ABŞ üçün xüsusilə, İkinci Dünya Müharibəsi zamanı strateji və iqtisadi baxımdan önəm qazanmış kimi görünsə də, ABŞ-ın regiona olan siyasəti əslində Birinci Dünya Müharibəsindən dərhal sonrakı müddətdə başlamışdır. Xüsusilə, 1920-ci illərdən sonra Amerika neft şirkətlərinin regiondakı neft rezervlərinin fərqinə vararaq, Orta Şərq ölkələri ilə bağladıqları neft sazişləri ABŞ-ın regiondakı varlığının ilk önəmli addımları olmuşdur. II Dünya Müharibəsindən sonrakı Soyuq Müharibə illəri müddətində isə Orta Şərq ABŞ ilə SSRİ arasında güc nümayiş etdirdiyi bir region halına gəlmişdir [5, s.125].

## 4. ABŞ-ın Yaxın Şərq regionunda maraqları və "Böyük Orta Şərq" planı üzrə həyata keçirdiyi siyasət

ABŞ-ın Orta Şərq regionuda maraqları və buraya yönəlməsinə bir çox əsaslı faktorlar var və bunlar əsasən aşağıdakılardır:

- neft amili;
- II dünya müharibəsindən sonra region üzərində SSRİ və ABŞ arasında hegemonluq etmək uğrunda mübarizə;
- İsrailin təhlükəsizliyinin təmini;
- şiə təhdidi;

- 11 sentyabr terror aktından sonra terrorçuluqla mübarizə adı altında regiondakı fəaliyyət və nüfuz dairələrinin genişlənməsi, bölgədə öz mənfəatinə və strategiyasına uyğun istiqamətlərin təsis edilməsi [8, s.11].

11 sentyabr 2001-ci il tarixinə qədər ABŞ yuxarıda müəyyənləşən hədəflər və mənafelərinin reallaşdırılması üçün siyasət düşünərkən, 11 sentyabr terror aktı xüsusilə region siyasəti nöqteyi-nəzərindən bir təkan nöqtəsi oldu. 11 sentyabr 2001-ci ildə Dünya Ticarət Mərkəzi və Pentaqonu vuran təyyarə ABŞ tərəfindən Əl-Qaidənin həyata keçirdiyi terror aktı olaraq qəbul edilmişdir. "Dünyanın yenidən nizamlanması"nda başlanğıc olan bu hadisə Orta Şərqi yeni siyasi arenaya çevirmişdir. Bundan sonrakı mərhələdə region ABŞ xarici siyasətində terrorla mübarizə məkanına döndü. Beləliklə, Orta Şərq yeni minilliyə 11 sentyabr terror hadisəsindən sonra döyüş plasdarmına çevrilmiş və 2003-cü ildə ABŞ-ın İraqı işğal etməsi isə regionun güc tarazlığında radikal dəyişikliklərə səbəb olmuşdur.

2001-ci illərin 11 sentyabr terror hadisələrindən sonra ABŞ-ın Yaxın Şərqin xəritəsinin dəyişdirilməsini bağlı yeni plan hazırlanmışdır ki, bu da "Böyük Orta Şərq" layihəsi adlanırdı. Ancaq kifayət qədər mübahisəli olan və hətta bir sıra hallarda inkar olunan bu layihə Qərbdən Mərakeşin Atlantik sahillərindən başlayaraq Şərqdə Pakistanın şimalındakı əraziləri, şimalda Türkiyənin Qara dəniz sahillərindən cənubda Ədən və Yəmənə qədər uzanan bölgəni əhatə edir. Layihənin məqsədi müsəlman ölkələrində demokratik şərait yaratmaq və azad ticarət bazarları formalaşdırmaqdır. Böyük Yaxın Şərq layihəsi ABŞ-da 2001-ci il sentyabrın 11-də "Əl-Qaidə" tərəfindən törədilmiş terror hücumlarının ardınca hazırlanmışdır. Layihənin Corc Buşun prezidentliyi dövründə (2001-2009-cu illərdə) Vaşinqtonun regional siyasətində yer aldığı qeyd olunur [4, s.207].

Bu layihənin mahiyyəti Yaxın Şərqin ABŞ tərəfindən yenidən öz milli maraqlarına uyğun şəkildə dəyişdirilməsindən ibarətdir. "Böyük Orta Şərq layihəsi"nin hədəfi müsəlmanlar yaşayan və əsasən Osmanlı İmperiyasının ərazisi olmuş ərazilərdir ki, bu da yeni dövlətlərin yeni sərhədlərinin müəyyən olunması deməkdir. Böyük Orta Şərq layihəsi ilk olaraq, 2003-də ABŞ-ın NATO nəzdindəki Daimi Təmsilçisi R.Nikolas Börns tərəfindən Praqada, ABŞ Dövlət KatibiKöməkçisi Mark Grosman, o zamankı ABŞ prezidentinin milli təhlükəsizlik üzrə məsləhətçisi, sonralar isə dövlət katibi olmuş Kondoliza Rays tərəfindən ifadə olunmuşdur. Keçmiş dövlət katibi Kondoliza Rays çıxışların birində əsas hədəfin "Mərakeşdən Çin sərhədlərinə qədər 22 ölkənin siyasi və iqtisadi coğrafiyasının dəyişdirilməsi" olduğunu demişdir [8, s.3] .

"Böyük Orta Şərq Layihəsi"nin əhatə etdiyi ərazidə Mavritaniya, Mərakeş, Əlcəzair, Tunis, Liviya, Misir, İsrail, İordaniya, Livan, Suriya, Səudiyyə Ərəbistanı, Yəmən, Oman, Birləşmiş Ərəb Əmirlikləri, Qətər, Bəhreyn, Küveyt, İraq, İran, Əfqanıstan, Pakistan və Türkiyə də daxil olmaqla 23 ölkə yerləşir. Təməli Yeni Mühafizəkarlar (neokonservatorlar) tərəfindən qoyulmuş "Böyük Orta Şərq" adı ilə həm siyasi, həm də publisistik ədəbiyyatlarda özünə populyarlıq qazanmış layihənin meydana çıxmasına tarixi proseslərin obyektiv inkişafı şərait yaratmışdır."Böyük Orta Şərq Layihəsi" haqqında ilkin fikirlər yəhudiəsilli tarixçi Bernard Levisə aiddir. Levis Amerika administrasiyasında olan Yeni Mühafizəkarların (NeoCons) ən etbarlı məsləhətçisi olmuşdur. "Böyük Orta Şərq" layihəsi ABŞ-ın rəsmi sənədlərində bütöv göstərilməsə də, bu planın ayrı-ayrı hissələri ABŞ-ın rəsmi nümayəndələrinin və Mərkəzi Kəşfiyyat İdarəsi tabeliyində fəaliyyət göstərən beyin mərkəzlərinin hesabatlarında, bəyanatlarında və s. sənədlərdə verilmişdir. "Demokratiya və insan hüquqlarının qorunması" şüarı ilə meydana

atılmış bu planın əsasında daha konkret məqsədlər güdülür:

- Yaxın və Orta Şərqin neft və qaz mənbələrini tam nəzarət;
- bu ölkələrin "liberal iqtisadiyyat"a (azad bazar) keçirilməsi ilə imperalizmin bazarlarına çevrilməsi;
- regionda İsrailə qarşı münasibətin yumşaldılmasını təmin etmək;
- bununla da hər il İsrailin təhlükəsizliyinə ayrılan 2 milyard dollar yardım paketini digər sahələrə istiqamətləndirmək;
- İraq müharibəsindən sonra antiamerikan düşüncə tərzini demokratiya" termini ilə neytrallaşdırmaq;
- Fundamentalizm əleyhinə maarifçiliyə dəstək vermək.

Yaxın və Orta Şərqin siyasi xəritəsindəki dəyişiklikləri nəzərdə tutan təkliflər aşağıdakılardır:

- Bütün Ərəb Afrikası əhəmiyyətsiz milli sərhədlərlə parçalanacaq və böyük bir konfederasiyada birləşdirildikdən sonra siyasi baxımdan Orta Şərq Katibliyinə, iqtisadi baxımdan isə Orta Şərq İnkişaf Bankına tabe ediləcəkdir.
- Yeni yaradılacaq dövlətlər Azad Kürdüstan, Sünni İraqı, Şiə Ərəb dövləti, Müqəddəs İslam dövləti, Azad Bəlucistan dövlətləridir.
- İran öz ərazisinin böyük hissəsini Kürdüstan, Azərbaycan, Bəlucistan və Şiə Ərəb dövlətinin xeyrinə itirməlidir. Tükiyə Kürdüstanın xeyrinə, Səudiyyə Ərəbistanı isə Sünni İraq, Şiə Ərəb dövləti, Böyük İordaniya, Müqəddəs İslam dövləti və Yəmənin xeyrinə öz torpaqlarının bir hissəsindən əl çəkməlidir. İsrail isə 1967-ci ilə qədərki sərhədlərinə qaytarılacaq, Fələstin torpaqları isə beynəlxalq nəzarətə veriləcəkdir [5, s.6].

11 sentyabr terror aktı ABŞ-ın xarici siyasətinə yeni bir özünəməxsusluq gətirmişdir. O hadisəyə qədərki siyasətin əskinə olaraq, ABŞ artıq təkbaşına hərəkət edəcəyi haqqında sinqnallar vermişdir. Söhbət əgər ABŞ-ın milli təhlükəsizliyindən gedirsə, o, qlobal əməkdaşlıq və çoxtərəfli əlaqələrindənsə, təktərəfli hərəkətə keçməyə üstünlük vermişdir.

ABŞ-ın 70 ildən artıqdır ki, regiondakı siyasi hədəfləri aşağıdakılardır:

- Əvvəllər SSRİ-nin regiondakı nüfuzunu azaltmaq, daha sonra isə digər qlobal gücləri regiondan uzaq tutmaq;
- regionun neft mənbələrini müttəfiq və ya dost hesab etdiklərinin əllərində qalmasını təmin etmək, ucuz və güvənli bir şəkildə Qərbə axınını sığortalamaq, neftdən gələn gəlirlərin Amerika iqtisadiyyatının inkişafı üçün təmin etmək;
- İsrailin təhükəsizliyini qorumaq;
- regiondakı Amerikan yönümlü hökumətləri qorumaq;
- Qərb yönümlü status-kvonu poza biləcək qüvvə və İsrailin təhlükəsizliyini təhdid edə biləcək hər cür millətçi, radikal və inqilabçi hərəkatlara mane olmaq;
- Qərb yönümlü status-kvonu qorumaq naminə region ölkələri arasında sağlam iş birliyi və koordinasiyanın yaranmasını əngəlləmək [11, s.74].

11 sentyabrdan sonra təktərəfli hərbi əməliyyatlarının yolunun açılması beynəlxalq hüququnun təsrini azaltmış, ABŞ düzgün olmayan yollarla təhdid ünsürü gördüyü ölkələri hədəf halına gətirərək, hərbi müdaxilə etmək üçün zəmin hazırlamışdır. Nəticədə, beynəlxalq hüquqa zidd hərəkətetmə, İraqda var olduğu iddia edilən kütləvi qırğın silahlarının əslində olmadığının anlaşılması, Orta Şərqdə tarazlığın dəyişməsi və İraqda cərəyan edən narahatlıqlar, ABŞ-ın maddi olaraq böyük itkilərə uğraması, minlərcə günahsız insanın həyatını itirməsindən sonra Corc Buşun İraqı işğal etməsinin ardından ABŞ hə-

qiqətən beynəlxalq ictimaiyyətdə ciddi mənada etibarı itirmişdir.

Obama dövründə ABŞ-ın Orta Şərq siyasəti isə Klintonun inteqrasiya və Buşun seçici yanaşmasından fərqli olaraq, ABŞ-ın xarici siyasətində yeni və çox fərqli bir xətlə daha kompromis və əməkdaşlıq imicinin yaradılmasına çalışılmışdır.

ABŞ Obama adminstrasiyasının regionda daha aşağı bir mövqe nümayiş etdirmişdir. Obama dövründə ABŞ region ölkələrinin öz problemlərini özlərinin həll etməsini təşviq etməyə, özünün çox bahalı hərbi müdaxilələrinin etməsindən qaçmaq, daha az və ya ucuz başa gələn həll yollarınına üstünlük vermişdir. Obama doktrinası olaraq tanınan bu yanaşma ABŞ-ın gücünü Uzaq Şərq və Çinə yönəlməsi, Orta Şərqin məsuliyyətini region ölkələrinin üzrərinə buraxilması ilə fərqlənir. Ancaq bu qətiyyən ABŞ-ın regiondakı mənafelərindən vaz keçməsi mənasına gəlmir. 1945-ci ildən etibarən həyata keçirdiyi siyasət regiondakı status-kvonun ABŞ-ın əleyhinə dəyişməsinə, xüsusilə də Rusiyanın Şərqi Ağdənizdəki mövcudluğunun daimi hala gətirilməsinə və daha da güclənməsinə icazə verməməkdir. Buş administrasiyasının təktərəfli və müharibəni istisna etməyən siyasətinin əksinə olaraq, Obamanın Orta Şərq siyasəti də regionda narahatlığı davam etmişdir. Buş administrasiyasının dövründə İraq və Əfqanıstan müharibələrinin xərcləri səbəbindən ağırlaşan iqtisadi krizis, Obama hakimiyyətini isti müdaxilələrdən uzaq durmağa məcbur etmişdir. Siyasi mövqelər dəyişsə də, ABŞ-ın Orta Şərqə illərdir yönəlmiş olduğu siyasətin dəyişməsi mümkün deyildir. Regiondakı öz çəkisini hiss etditməyə, enerji və ticarət yollarının təhlükəsizliyini güvən altına almağa, özünə yaxın olan iqtidarlara dəstək verməyə, İsraili regiondakı ən yaxın müttəfiqi olaraq görməyə, region xaricin də aktorların regionda böyük oyunçu olmalarını əngəlləməkdə davam etməkdədir [4, s.208].

ABŞ prezidenti Donald Trampın dövründə də ABŞ-ın Yaxın Şərqlə bağlı planından da elə də böyük kənara çıxmalar olmasa da, Tramp sələflərindən fərqli bir siyasət həyata keçirirdi. Məsələn, Trampın Suriya və Əfqanıstanla bağlı qərarı (ordunun geri çəkməsi ilə əlaqədar açıqlaması Vaşinqton administrasiyasında şok effekt yaratmışdır. Belə olan halda ağıllara belə bir fikir gəlir həqiqətənmi ABŞ-ın Yaxın Şərqlə bağlı planlı siyasəti varmı?! Trampın hakimiyyətinin ilk dövrlərində ilk işi sələfi Obama tərəfindən təyin olunmuş bütün səfirləri vəzisindən uzaqlaşdırmaq oldu ki, bu da Amerikanın xarici siyasətində dərin böhran yaratmış oldu.

Trampçılıq eynilə Avropadakı radikal sağçı partiyalar kimi hər hansı bir düşüncəyə sahib olmayan, təkcə mövcud sistemə qəzəbinin və qloballaşmaya qarşı populist millətçi reaksiyanın ifadəsidir.Yəni Amerika yenidən böyük və güclü etmək kimi xalqın qulağına xoş gələn boş vədlərdən başqa öz daxilində tutarlı və üzərində baş sındırılmış hər hansı bir siyasət yoxdur. Öz daxilinə qapanmış və Obama əleyhinə bir xətt tutmuşdur .

ABŞ hakimiyyətinin, konkret olaraq prezident Donald Trampın Yaxın Şərqdəki addımları regionda onsuz da uzaq olan sülh ümidlərini azaltmış oldu. Xüsusən də prezident Tramp qərarları Yaxın Şərqdəki münaqişələri bir az da alovlandırmışdır. Məsələn, Donald Tramp prezident səlahiyyətlərinin icrasına başladıqdan dərhal sonra İranla uzun bir prosesdən sonra əldə olunmuş nüvə sazişindən çıxdı və ardınca Tehrana qarşı sanksiyalar qəbul etdi. Eyni zamanda Vaşinqton Yaxın Şərqdəki ənənəvi ərəb müttəfiqlərini İrana qarşı qoymaqla regionda münasibətləri daha da gərginləşdirdi.

Eyni zamanda ABŞ prezidenti Tramp ərəb ölkələrinin öz arasında da nifaq saldı. 2017-ci ilin mayında Səudiyyə Ərəbistanına səfər edən Tramp bu ölkə ilə 110 milyard dollarlıq silah satışı müqaviləsi imzaladı. Bu anlaşmadan və Ər-Riyadda keçirilən qlobal an-

titerror konfransından 15 gün keçməmiş Səudiyyə Ərəbistanı, BƏƏ, Küveyt, Bəhreyn və və Misir kimi ölkələr Qətəri terrorçuluğa dəstək verməkdə ittiham edərək bu ölkəni blokadaya aldılar [10, s.3].

ABŞ Dövlət Katibi Hillari Klinton 2011-ci ildə "Foreign Policy" jurnalında "Amerikanın Sakit Okean Əsri" adlı imzalı məqalə dərc etdikdən sonra Obama administrasiyası Asiya-Sakit Okean regionunda yenidən balanslaşdırma strategiyası həyata keçirsə də, ondan 5 ildən sonra Trampın hakimiyyətə gəlməsi və Çin ilə ABŞ arasında strateji rəqabətin güclənməsi ilə ABŞ Yaxın Şərqdə strateji daralma siyasəti aparır. Bayden administrasiyası hakimiyyətə gəldikdən sonra Trampın yürütdüyü Yaxın Şərq siyasəti Trampın Yaxın Şərq siyasəti ilə müqayisədə müəyyən dəyişikliklərə məruz qalmiş, lakin miras qalan hissələr də vardır. Bayden administrasiyasının Yaxın Şərqdəki siyasəti əsasən Baydenin manifestinə əsaslanır. Baydenin seçki manifestində ilk diqqət İranın nüvə məsələsi olan nüvə silahının yayılması məsələsidir. Bayden İranın nüvə sazişinə qayıtmağı təklif edir. İkinci diqqət müharibə və ABŞ-ın Yaxın Şərqdəki hərbi gücü məsələsidir. ABŞ Yəməndəki vətəndaş müharibəsini dayandıracaqdır. Üçüncüsü, müttəfiqlərlə münasibətdir. Bayden ABŞ və regional müttəfiqləri arasında ABŞ-ın insan haqlarına və digər demokratik dəyərlərə vurğunu ehtiva edən münasibətləri yenidən qurmağa çalışır [1, s.67].

Bayden administrasiyası Tramp administrasiyası kimi, Yaxın Şərqdə hərbi xərcləri azaltmağa sadiqdir. Bayden administrasiyasının Yaxın Şərqdəki əsas problemləri dəyişməmişdir. Məsələ İranın nüvə problemi və İranın İraq və Suriyada genişlənməsi məsələsi olaraq qalır. Əsas məsələ müəyyən edildikdə, Bayden administrasiyası da əvvəlki administrasiya kimi terrorizmi ABŞ-ın hədəfi hesab edir. Bayden administrasiyasının Trampın Yaxın Şərq siyasətinə etdiyi dəyişikliklərin gələcəyi qeyri-müəyyəndir. ABŞ-ın Yaxın Şərq siyasətinin əsas məsələsi ondan ibarətdir ki, ABŞ daralma strategiyasını rəhbər tutaraq Yaxın Şərqdə sabitlik axtarır. Bununla belə, Yaxın Şərqdəki nisbətən sabit vəziyyət ABŞ-ın hərbi gücünün söz sahibi olmaqda effektivliyinin aşağı düşdüyü və ABŞ-ın söz gücünə sahib olmaq üçün Yaxın Şərqin tikintisinə, xüsusən də onun inkişaf dinamikası sərmayə qoyması deməkdir.

Baxmayaraq ki, Bayden administrasiyası İranın nüvə problemini həll etmək və ABŞ-ın mövcud milli şərtləri ilə məhdudlaşan regional insan hüquqları məsələlərinə diqqət yetirmək üçün çoxtərəfli əməkdaşlıq çərçivəsini yenidən müdafiə edir, Bayden administrasiyasının sərmayəsi hələ də kifayət deyildir. Bundan əlavə, Bayden administrasiyası İrana qarşı sanksiyalardan əl çəkmədiyi üçün İranın nüvə problemi kimi hələ də ciddi problemlərlə üzləşir. Baydenin Yaxın Şərqdəki insan haqları siyasəti Yəmən və Suriyaya yardımdan əlavə, Səudiyyə Ərəbistanına təzyiq və Tramp dövründən bəri ABŞ-Səudiyyə münasibətlərinin yenidən qurulmasına bənzəyir. Bu siyasət Yaxın Şərqdəki amerikalı tədqiqatçılar tərəfindən tənqid edilmişdir və ABŞ-Səudiyyə münasibətlərinin pisləşməsinə səbəb ola bilər [10, s.4].

Birləşmiş Ştatlar üçün Yaxın və Orta Şərqi tərk etmək çətindir, həmçinin Birləşmiş Ştatlar üçün Yaxın Şərqdə daha böyük nailiyyətlər əldə etmək və irəliləyiş əldə etmək çətindir.

## Nəticə

Beləliklə, Orta Şərq regionunda hər bir dövlətin olduğu kimi ABŞ-ın da öz milli maraqları vardır. ABŞ regionda İranın geosiyasi ambisiyalarının azalmasında maraqlıdır və

radikal şiəliyə qarşı radikal sünniliyə əsaslanan terroru bəsləyir. Eyni zamanda mövcud vəziyyətdən istifadə edərək, "Böyük Orta Şərq" layihəsinə əsasən "Kürdüstan" dövləti yaratmaq istəyir. İslam fundamentalizmi adı altında siyasətinin tərkib hissəsi olan məzhəb qarşıdurması yaradaraq sünnilərlə şiələri üz-üzə qoymaqla İslam dinini gözdən salmağa çalışır. ABŞ-ın "Böyük Orta Şərq" lahiyəsi Avrasiya bölgəsinə inkişaf, sabitlik və tərəqqi yox, dağıntı və qətliamlar gətirdiyinə şahid oluruq. Bu layihə regiona sabitlik, ən başlıcası isə demokratik dəyərlər gətirmək əvəzinə Orta Şərqə qurtula bilinməyən məzhəb müharibəsi gətirdi və müsəlman dünyası sanki bir poliqona çevrilmişdir.

Yaxın və Orta Şərqin xəritəsinin yenidən cızılması beynəlxalq hüquq normalarına qarşı həqarətdir. 1975-ci ildə qəbul olunmuş Helsinki Yekun Aktında İkinci Dünya müharibəsindən sonra formalaşmış dövlət sərhədlərinin dəyişməməsi məsələsi qərarlaşdırıldı və beynəlxalq hüququn ən ali prinsipinə çevrildi. Ancaq qərb yönümlü mətbuatlarda analitiklər belə çəkinmədən Yaxın (Orta) Şərqdə 14 yeni dövlətin yarana biləcəyi haqqında proqnozlar verirlər. Yaxın Şərqdə ən ciddi məsələ Fələstin problemi olsa belə, Fələstin problemindən də daha ağır olan sivilizasiyaların bölünüb parçalanması və bir-birinə qarşıdurması siyasəti mövcuddur.

Hazırda baş verənlər proseslər hardasa Amerikanın "Böyük Orta Şərq layihəsi"nin baş tutmaması kimi görünsə belə, regionda baş verən proseslərdə, xüsusilə də Həmas-İsrail münaqişəsində İsrailə siyasi və hərbi cəhətdən dəstək verməsi ABŞ-ın regionla milli maraqlarının planlı surətdə həyata keçirdiyini dünyaya açıq aydın nümayiş etdirir.

Yaxın və Orta Şərq regionun ən böyük problemlərindən bir də demokratik idarəetmə sistemlərinin olmamasıdır. Ərəb Baharı ilə başlayan və bu günə qədər uzanan "demokratikləşmə dalğası" bölgənin bir çox ölkəsini əhatə edərək təsir dairəsini genişləndirmədə və dərinləşdirməkdə davam edir. Region xalqlarının demokratikləşmə tələbi və totalitar idaəretməyə qarşı çıxması regionun nahartlıq, qarşıdurma və anlaşılmazlıqlarla dolu tarixində dönüş nöqtəsi ola biləcəyi önəmdədir.

## Ədəbiyyat


1. Abbasov M. (2023) Baydenin Yaxın Şərq siyasəti: Trampın Yaxın Şərq siyasətindəki miras və dəyişikliklər // Qədim Diyar. Beynəlxalq onlayn elmi jurnal. Cild:5, səh:65-70 https://aem.az/index.php?newsid=3002
2. Aydınlı F. (2022) Yaxın yoxsa Orta Şərq: tarixi baxış, statistik analizlər, "Böyük Orta Şərq" dalğası //https://www.academia.edu/31723423/Yax%C4%B1n_yoxsa_Orta_%C5%9E%C9%99rq_Tarixi_bax%C4%B1%C5%9F_statistik_analizl%C9%99r_B%C3%B6y%C3%BCk_Orta_%C5%9E%C9%99rq_dal%C4%9Fas%C4%B1
3. Soltanova H, Məmmədov C. (2008) Yaxın və Orta Şərq ölkələrinin iqtisadi və sosial coğrafiyası (dərslik). Bakı: "Bakı Universiteti" nəşriyyatı, 304 səh.
4. Bostancı M. (2018) Jeopolitik ve Jeostratejik bir mücadele alan olarak Ortadoğu: "ABD, Rusiya Federasiyonu, Avrupa Birliği və Türkiye Açısından Bölge Analizi // Journal of current Reseaches on Social Sciences, JO cress, səh.206-220
5. Erceylan M. (2007) Büyük Orta Doğu Projesində İranın önemi. Kocaeli: Kocaeli Ünversitesi basımı, 134 s. //https://www.jocress.com/dergi/jeopolitik-ve-jeostratejik-bir-mucadele-alani-olarak-ortadogu-abd-rusya-federasyonu-avrupa-birligi-ve-turkiye-acisindan-bolge-analizi20220503104611.pdf

6. Kepsutlu B. (2016) Amerikanın Ortadoğu Politikası.İstanbul, İnkılap Kitabevi, 312 s.
7. Sakin S., Deveci C. (2011) Ortadoğu kavramı və sınırları üzerine bir değerlendirme// History studies.International journal of history, special issue // https://www.historystudies.net/indir.php?yol=dergi&dosya=tar2015126b34d
8. Абхара М. (2019) Внешняя политика США на Ближнем востоке: особенности формирования в рамках доктрины политического реализма // Politbook-2019-1 https://cyberleninka.ru/article/n/vneshnyaya-politika-ssha-na-blizhnem-vostoke-osobennosti-formirovaniya-v-ramkah-doktriny-politicheskogo-realizma
9. Белозеров В.К. (2015) Стратегия национальной безопасности США как новый манифест глобальной гегемонии // Власть, том 23, № 4, с.9-24
10. Хлопов О.А. (2021) Проблемы безопасности и стратегия США на ближнем востоке при администрации Д.Трампа// https://cyberleninka.ru/article/n/problemy-bezopasnosti-i-strategiya-ssha-na-blizhnem-vostoke-pri-administratsii-d-trampa
11. The Middle East and American national security: forever wars and conflicts? (2011) By Donald M.Snow, Lanham, MD: Rowman and Littlefield, 256 p.
12. https://www.worldhistory.org/

## GEOPOLITICAL IMPORTANCE OF MIDDLE EAST AND U.S. NATIONAL INTERESTS IN THIS REGION

**K.M.Shikhiyeva**

### SUMMARY

This paper studies the geopolitical importance of the Middle East and the historical and political aspects of this region as a center of political interests. Special focus is given to the national interests of the United States in this region and some aspects of the planned political missions based on these interests.

## ГЕОПОЛИТИЧЕСКОЕ ЗНАЧЕНИЕ РЕГИОНА БЛИЖНЕГО И СРЕДНЕГО ВОСТОКА И НАЦИОНАЛЬНЫЕ ИНТЕРЕСЫ США В ЭТОМ РЕГИОНЕ

**К.М.Шыхиева**

### РЕЗЮМЕ

В статье исследуется геополитическое значение Ближнего Востока, а также историко-политические аспекты этого географического пространства, являющегося центром политических интересов. Особое внимание уделено национальным интересам США в этом регионе и некоторым аспектам планируемых политических задач, реализуемых на основе этих интересов.

*Məqalə redaksiyaya 22 aprel 2024 tarixində daxil olmuş, 26 aprel 2024 tarixində isə çapa qəbul olunmuşdur.*

# DİLÇİLİK, FİLOLOGİYA VƏ PEDAQOJİ ELMLƏR BÖLMƏSİ

UOT № 821.111

# QƏDİM İNGİLİS POEZİYASININ MÜASİR DİLƏ TƏRCÜMƏSİNİN XÜSUSİYYƏTLƏRİ HAQQINDA

**L.S.Əliyeva**
Azərbaycan Turizm və Menecment Universiteti
Bakı, Koroğlu Rəhimov küçəsi 822/23
e-mail: lalaaliyeva830@mail.ru

***Açar sözlər:*** qədim ingilis poeziyası, tərcümə, Beovulf
***Keywords:*** Old English poetry, translation, Beowulf
***Ключевые слова:*** древнеанглийская поэзия, перевод, Беовульф

Bildiyimiz kimi, tərcümə həm sinxron, yəni bir dildən digər dilə, həm də müəyyən bir dil daxilində diaxron şəkildə həyata keçirilə bilər. Dillərarası tərcümələr adətən tədqiqatçıların diqqətini cəlb etsə də, diaxronik tərcümənin mürəkkəblikləri hələ də tam şəkildə izah və dərk edlməmişdir. Çünki diaxronik tərcümə dilin bir mərhələsinə aid olan, lakin müasir mərhələ üçün anlaşılmaz hesab edilən konkret mətnlərin müasir dilə linqvistik eynilik şəraitində həyata keçirilən tərcüməsi olduğundan, sinxron tərcümə ilə müqayisədə xeyli ağırdır.

Məlumdur ki, şifahi ədəbiyyatdan yazılı ədəbiyyata keçidlə xarakterizə olunan qədim ingilis ədəbiyyatı təxminən VIII əsrdən başlayan və ingilislərin tarixində dönüş nöqtəsi hesab edilən Norman istilası (1066) dövrünə qədər davam edən xüsusi bir mərhələni əks etdirir. Bu dövr ingilis poeziyasının ilkin yaranma mərhələsi olmaqla yanaşı, onun dili müasir ingilis dilindən bir sıra xüsusiyyətləri ilə ciddi və əsaslı şəkildə fərqlənir. Belə ki, müasir dillə müqayisədə qədim ingilis dilini başa düşmək olduqca çətindir. Müasir ingilis ədəbi dilində olan sözlər mənşəyini qədim ingilis dilindən götürsə də, ana dili ingilis dili olanlar belə onun qədim formasını oxuyub anlamaqda çətinlik çəkirlər. Qədim ingilis dilinə aid bir çox yazı nümunələrini müasir dövrdə ancaq müəyyən ekspertlər oxuyub-başa düşə bildiyindən, bu dövrə məxsus nümunələrin müasir dilə tərcüməsi zərurəti ortaya çıxır.

Mütəxəssislərin qənaətincə, anqlosakson poeziyasının müasir ingilis dilinə tərcümələrinin diaxronik tərcümə sahəsinə aid olduğu aşkardır. On beş əsrdir ki, bir sistem kimi ingilis dilinin, eləcə də onun ayrı-ayrı komponentlərinin ənənəsi heç vaxt kəsilməmişdir. Həmçinin, qədim və müasir ingilis dillərinin arasındakı fərqlər yalnız bu iki sinxron dilin müvəqqəti məsafəsindən qaynaqlanır [4, s.285].

Qədim ingilis poeziyası şifahi ənənələrdən bəhrələnən, eyni zamanda öz dövrünün mədəniyyəti və tarixi ilə sıx bağlı olan poeziyadır. Klassik ingilis poetik formasının ən əlamətdar xüsusiyyətlərinə alliterasiya, epik variasiya, formul ifadələri, zəngin sinonimik silsilələr, mürəkkəb sözlər və parafrazlar daxildir. Bir çox tədqiqatçılar bu poeziyanın leksik zənginliyini qeyd edirlər. Bu leksik zənginliyi - qədim ingilis poeziyasının üslubi orijinallığını tərcümədə, o cümlədən müasir ingilis dilinə çevirmədə orijinala uyğun təqdim etmək çox çətindir. O.A.Smirnitskayanın fikrincə, tərcüməçi qədim abidələrin linqvistik zənginliyini çatdırmağa çalışarkən, “onlara xas olan “german” koloritini məcburi

şəkildə folklor və ya qədim ingilis poeziyasına məxsus, bugünkü oxucuya aydın olmayan dil elementləri ilə təqdim etməyə çalışır" [5, s.285]. Ona görə də qədim ingilis ədəbiyyaı nümunələrinin müasir dilə tərcüməsi sahəsində bir sıra problemlər meydana çıxır.

Luberinqə (2011) görə, ingilis dilində ən erkən ədəbiyyat nümunələri insanları əyləndirmək üçün bir araya gətirilən şifahi dastanların davamı kimi yazılmışdır. Bu hekayələrdə tez-tez cəsur cəngavərlərin, gözəl qadınların, qorxunc canavarların və sirli ruhların mifik obrazları yaradılırdı. Əsrlər boyu dildən dilə keçən bu narrativlər ingilis ədəbiyyatının təməlində dayandığından qədim ingilis ədəbiyyatında epik şeirlər geniş vüsət almış, həmin əsərlərin bir çoxu bu günümüzə qədər qorunub saxlanılmışdır.

Qədim ingilis dilində yaranmış müharibə və cəngavərlik mövzulu bu əsərlərin erkən german şeirlərinə əsaslandığı, oxşar poeziya nümunələrinin İngiltərəyə gəldiyi vaxt artıq şifahi halda nəsildən-nəslə keçməkdə olduğu göstərilir. H. Maqsudoğlunun sözləri ilə desək, *"İliada"ilə Homer cəmiyyətini, "Beowulf" əsərində əksini tapan cəmiyyəti, "Beder Meye" hekayəsində əks etdirilən cəmiyyəti o dövrdə yaşamasaq da, oxuduqca təsəvvür və təsvir edə bilirik* (Husein Maqsudoğlu "Regional varieties of the Eng.lang, Baku 2012, Science and Education, s. 144-145. ümumi 230 səh. s. 144). Ona görə də folklor – xalq yaradıcılığı dildə özünü göstərən ənənəvi linqvokulturoloji amillərin, eləcə də bunların daşıyıcıları olduğu adət-ənənələrin dildə öz əksini necə tapdığını göstərən, təqdim edən və aydınlaşdıran mənbə toplusu hesab edilir. Malinovski haqlı olaraq göstərir ki, hər hansı dildən götürülmüş bir sözün o dildə yerini, işlənmə məqsədini və dilə gəlmə səbəbini göstərmək mümküm olmasa, həmin söz özü də anlaşılmaz qalar. Müəllifin düzgün iddiasına görə, dil mahiyyət baxımından qəbilə həyatının, mədəniyyətin, insanların adət-ənənəsinin əksi olduğundan xalq ədəbiyyatına və folklora istinad edilmədən dildəki müəyyən söz və ifadələr də izah edilə bilməz (Gaziyeva M.Y., Aghabayli V.E., Mehdiyeva S.M, Culture and Communication, Baku – 2015, 252 p.36). Ona görə də qədim ingilis ədəbiyyatı nümunələrini müasir dilə tərcümə edənlər qədim ingilis dili folklor nümunələrində istifadə olunan spesifik sözlərin məna çalarlarına, onların fərqli emosional incəliklərinə bələd olmalı, bu istiqamətdə dərin bilik sahibi olmalıdırlar.

Qədim ingilis ədəbiyyatının müasir dilə tərcüməsindən danışarkən, təbii ki, ağla ilk gələn "Beovulf" poeması olur. Çünki ingilis ədəbiyyatının xristianlıqdan əvvəlki ən məşhur əsəri kimi tanınan "Beovulf" qədim ingilis poeziyasına məxsus ədəbi xüsusiyyətləri özündə əks etdirən spesifik unikal mədəni fenomen kimi tanınmışdır. Digər diqqət çəkən nüans ondan ibarətdir ki, "Beovulf" ingilis ədəbiyyatında ilk epik poema hesab olunur.

Bugün dünyanın bir çox dillərində müşahidə etdiyimiz kimi, ingilis dilinin də qədim forması müasir daşıyıcıları üçün anlaşılmazdır, onu oxuya bilmək üçün akademik biliyə ehtiyac duyulur. "Beovulf" müasir ingilis dilinə bir çoxları tərəfindən çevirilmişdir. "Beovulf"un sonrakı həyatına dair biblioqrafik məlumat bazasına **(The Beowulf's Afterlives Bibliographic Database)** görə, bu epik poemanın qədim ingilis dilindən 300-dən çox tərcüməsi vardır. Qeyd etmək lazımdır ki, ilk yazılmasından keçən əsrlər ərzində poemanın mindən çox parafraz, tərcümə, illüstrasiya və digər adaptasiyaları olmuşdur [2].

Əsərin ilk transkripsiyaçısı island tədqiqatçısı Qrimur Jonson Torkelin olmuşdur. O, Danimarkada hökumət tarixini araşdıran komissiya heyətində işləyərkən 1786-cı ildə "Beovulf" poemasının ilk transkripsiyasını etdi. Torkelinin hazırladığı bu əlyazmanın hansı dərəcədə oxunaqlı olması hələ də dəqiq müəyyən edilməmişdir. Lakin Torkelin hazırladığı transkripsiyalardan "Beovulf"un ilk dəfə latınca tam nəşri zamanı əsas kimi is-

tifadə edilmişdir. 1805-ci ildə tarixçi Şeron Turner tərəfindən “Beovulf’un seçilmiş ayələri müasir ingilis dilinə tərcümə edildi. 1814-cü ildə Con Josias Conybeare "İngilis dilində parafraza və latın dilinə tərcüməsi" əsərini nəşr etdirdi. 1815-ci ildə N. F. S. Qrundtviq Thorkelin nəşrini nəzərdən keçirərək üzərində xeyli işlədi və 1820-ci ildə Danimarka dilində əsərin ilk və tam ayə tərcüməsini hazırladı.

1837-ci ildə C.M. Kemble ingilis dilində zəruri hərfi tərcüməni, 1895-ci ildə Villiam Morris və A. J. Vyat doqquzuncu ingiliscə tərcüməni nəşr etdirdilər. 1909-cu ildə Frensis Barton Qummerin "İngiliscə imitativ metr"də tam tərcüməsi çap olundu. 1922-ci ildə Frederik Klaeber əsər “Beovulf” və “Finnsburqda döyüş” adları ilə nəşr edildi ki, bu nəşr əsərin öyrənilməsi baxımından aspirantlar və digər tədqiqatçılar üçün əsas mənbə kimi böyük rol oynadı. Nəşrin bir mühüm cəhəti də bundan ibarət idi ki, burada qədim ingilis dili terminlərindən ibarət geniş lüğət verilmişdi.

Qeyd olunan tərcümələrin hər biri, sözsüz ki, “Beovulf’un müasir ingilis oxucusuna təqdimi sahəsində irəliləyiş və bugünkü mükəmməl tərcümələrinə gələn yolun başlanğıcı kimi əhəmiyyət daşımaqla yanaşı, qədim ingilis dilindən tərcümənin çətinliklərini də üzə çıxarır. Britaniya Kitabxanası da əsərin nəşri sahəsində mühüm işlər görmüş, “Beovulf” əsərinin Kevin Kiernan tərəfindən hazırlanmış elektron versiyası ilk dəfə 1999, dördüncü dəfə isə 2014-cü ildə nəşr olunmuşdur.

Göründüyü kimi, qədim ingilis poeziyasının çətin strukturu “Beovulf’un tərcüməsində ciddi texniki problemlər yaratsa da, əsərin şeir və nəsrlə müxtəlif vaxtlarda həyata keçirilən çoxsaylı tərcümə və uyğunlaşdırmaları mövcuddur.

Bu tərcümə mətnlərindən aydın olur ki, “Beovulf” canavarı öldürən və sonra qədim Skandinaviya xalqı qetlərin kralı olmuş Beovulf adlı gənc döyüşçüdən bəhs edir. Hekayənin əvvəlində Beovulf danimarkalıların kralı Hrodqara məxsus ziyafət sarayı olan Heorota yollanır. Heorot uzun illərdir ki, Qrendel adlı canavarın mühasirəsindədir və Hrodqar öz xalqını necə qoruyacağını bilmir.

*The fortunes of war favoured Hrothgar (1. 64) the highest in the land, would lend advice (1. 172) and find friendship in the father's embrace (1. 188)* [3, s.29].

Beovulf çılpaq əlləri ilə Qrendeli öldürür, daha sonra oğlunun ölümünün qisasını almaq istəyəndə onun anasını öldürür. Hrodqar səxavətlə Beovulfu mükafatlandırır və o, evə qayıdır. Hekayə daha sonra Beovulfu öz xalqını xilas etmək üçün əjdaha ilə döyüşən yaşlı, lakin çox hörmətli bir kral kimi göstərmək üçün əlli il irəli atılır.

Beovulf döyüş zamanı ölümcül yaralanır, lakin əjdahanı öldürməyi bacarır. Poema onun dəfn mərasimi ilə bitir [2].

İngilis ədəbiyyatının ən dəyərli incilərindən biri olan “Beovulf’un daha bir diqqət çəkən mühüm özəlliyi onun qadın obrazlarıdır. Belə ki, onlar ya sülh yaradıcıları olur, ya da müharibəyə səbəb olurlar. Bu yolda bəzən onlar hiyləyə əl atır, bəzən isə özləri qurbanlara çevrilirlər. Məsələn, Vilsou ərinin ölümündən sonra uşaqlarının təhlükəsizliyini təmin etmək üçün kral Hodqarın arvadı kimi öz mövqeyindən istifadə etməyə çalışır. Hiqd adlı qadın isə dul qalandan sonra özünün və uşaqlarının təhlükəsizliyini təmin etmək üçün Qotland torpağını Beovulfa tabe edir, Modtirto isə çox sayda kişilərin həyatını yox edən bir caniyə çevrilir [1, s.217].

Elmi ədəbiyyatın təhlili göstərir ki, irlandiyalı şair, alim, ədəbiyyat üzrə Nobel mükafatı laureatı Simus Hini tərəfindən ərsəyə gələn tərcümədə adıçəkilən epik poemanın daha əlçatan, rəvan və cəlbedici versiyası yaradılmışdır.

S.Hini daha müasir dili daxil etməklə, eləcə də qetlərin və danimarkalıların mədəniyyətləri ilə müasir cəmiyyətlər arasında bəzi müqayisələr apararaq orijinallığa sadiq qalmışdır. O, şeirin linqvistik bütövlüyünü qorumağa çalışmış, əsəri yeni oxucular üçün əlçatan etmək məqsədi ilə öz tərcüməsində bəzi maraqlı qərarlar qəbul etmişdir.

Elmi ədəbiyyatın araşdırılması zamanı diqqət çəkən mühüm məsələlərdən biri də ondan ibarətdir ki, "Beovulf" ilk dəfə yazılan zaman yazıçılar hər sətrin sonunda qafiyədən istifadə etməmişlər, əvəzində şeirin quruluşunu və axınını təmin etmək üçün alliterasiyadan geniş istifadə olunmuşdur. Bir çox başqa tərcüməçilər alliterasiyanı qafiyə ilə əvəz etsələr də, S.Hiniyin misrası qafiyəsizdir və alliterasiyanı qorumağa yönəlmişdir. Həmçinin şair illər ərzində ingilis dilini əhəmiyyətli dərəcədə dəyişdirən fransız təsirindən qaçaraq mümkün olduqca anqlosakson mənşəli sözlərdən, həmçinin poemada yer alan hadisələri çatdırmaq üçün birbaşa dil və emosional realizmdən istifadə etmişdir [2]. Məsələn: *Far and wide through the world, I have heard, orders for work to adorn that wallstead were sent to many peoples. And soon it stood there, finished and ready, in full view, the hall of halls. Heorot was the name he had settled on it, whose utterance was law.*

*Nor did he renege, but doled out rings and torques at the table* [3, s.29].

"Beovulf"un orijinal variantına xas olan bəzi mühüm elementlərini saxlamaq məqsədilə Simus Hiniyin müraciət etdiyi yollardan biri də kenninqlərdən isitfadə etmək olmuşdur. Anqlosakson poeziyasında kenninqlər məcazi məna daşıyan söz birləşmələridir. Məsələn, Hini dənizi ifadə etmək üçün "balina yolu" **(whale-road),** krala aid etmək üçün "üzük verən" **(ring-giver),** "üzük dəfinəsi" **(ring-hoard)** və Qrendelə istinad etmək üçün "cəsəd yaradan" **(corpse-maker)** ifadələrindən istifadə edir:

*... Bands of retainers galloped in excitement to the gabled hall to see the marvel; and the king himself, guardian of the* ***ring-hoard****, goodness in person, walked in majesty from the women's quarters with a numerous train, attended by his queen and her crowd of maidens, across to the mead-hall* [3, s.61].

Poema bu kenninqlər ilə zəngindir və S.Hini öz tərcüməsində onlardan mümkün qədər çox istifadə etmişdir. Ümumiyyətlə, kenninqlər şeirə mədəniyyət və intensivlik hissi verməyə kömək edir, onu digər əsərlərdən çox fərqləndirir və oxuculara keçmişə nəzər salmağa imkan verir. Simus Hiniyin bu tərcümədəki fövqəladə bacarığı onun bu ifadələri oxucuları özündən uzaqlaşdırmadan istifadə etmək bacarığında idi.

Simus Hini öz tərcüməsi ilə bir daha göstərir ki, "Beovulf" ingilis ədəbiyyatı tarixində mühüm əhəmiyyət kəsb edir, çünki özündə onun başlanğıcını ehtiva edir. Adıçəkilən poema müasir oxuculara bəzi qədim insanların özlərini və dünyanı necə gördüklərini göstərən sənət əsəridir. "Beovulf" eyni zamanda din ilə arasında əlaqəsiylə diqqət çəkir. Onun fikrincə, poemanın günümüzədək gəlib çatan mətni, ehtimal ki, iki xristian rahib tərəfindən, xristianlıqdan əvvəlki mənbələrdən köçürülmüşdür. Nəticə etibarı ilə mətndə xristianlığa çoxlu müraciətlər olduğu kimi, mənəviyyat və ədalət haqqında fərqli düşüncə tərzinə malik olan tamamilə başqa dünyagörüşünə də işarələr vardır [3, s.18].

"Beovulf"un Simus Hini tərəfindən müasir ingilis dilinə çevrilmiş versiyası qeyri-adiliyi, digər tərcümələrdən ciddi şəkildə fərqlənən müsbət tərəfləri ilə poemanın "bestseller" olmasına zəmin yaratmışdır. O, tənqidçilər tərəfindən bəyənilmiş və indiyə qədər yazılmış poemanın ən əlçatan versiyalarından biri kimi təriflənmişdir. Nadir hallarda belə tərcümə işlərinin cəmiyyətə çatdırılması bu qədər təsirli nəticələr verə bilir. Simus Hi-

ninin diqqət çəkən daha bir mühüm addımı ondan ibarətdir ki, şair poemanın müasir ingiliscə olan mətnini köhnə ingilis dili ilə yanaşı təqdim edir, bu da oxuculara iki versiya arasındakı fərqləri görməyə imkan verir.

Mətndə poemanın müxtəlif epizodlarında baş verənləri izah edən qeydlər də vardır. Qeyd edək ki, bu elementlərin hər ikisi digər tarixi əsərlərin müasir dilə tərcümələrindən fərqli olaraq, "Beovulf"un tərcümələri arasında nisbətən geniş yayılmışdır. Hiniyin tərcüməsində onlar mətnin oxunaqlılığını yaxşılaşdırdılar və bir çox oxucuya materialı yenidən öyrənməyə kömək edirlər.

Sonda vurğulayaq ki, alimlər hələ də "Beovulf"un təsvir etdiyi mədəniyyətlərlə necə əlaqəli olduğunu müzakirə edirlər. İngilis dilində danışanlar və ədəbiyyat tarixi ilə maraqlanan hər kəs üçün bu poema mühüm əhəmiyyət kəsb edir.

## Ədəbiyyat

1. Hüseynova Z. (2015) Dədə Qorqud və Beovulf eposunda qadın obrazlarının sosial mərkəziyəti // "Kitabi-Dədə Qorqud" və türk dünyası. "Kitabi-Dədə Qorqud"un tərcüməsi və nəşrinin 200 illiyinə həsr olunmuş beynəlxalq elmi konfransın materialları, Bakı, s.216-219
2. Beowulf Translated by Seamus Heaney // (2022) https://study.com/learn/lesson/beowulf-translated-seamus-heaneylanguage-importance-analysis.html
3. Heaney S. (2000) Beowulf: A New Verse Translation. New York-London, 252 p.
4. Матюшина И.Г. (2017) О переводе древнеанглийской поэзии на современный язык // Новый филологический вестник, № 4 (43), с.284-301
5. Полякова Е.А. (2018) Особенности перевода наименований земли в древнеанглийской поэме "Беовульф" // Вестник КГУ, № 4, с.215-219

## ON THE FEATURES OF TRANSLATION OF OLD ENGLISH POETRY INTO MODERN LANGUAGE

**L.S.Aliyeva**

### SUMMARY

This article provides information on various popular translations of Beowulf and the main differences between them. The advantages and disadvantages of these translations are explained, and those that attract attention with their compatibility with the original are discussed.

## ОБ ОСОБЕННОСТЯХ ПЕРЕВОДА ДРЕВНЕАНГЛИЙСКОЙ ПОЭЗИИ НА СОВРЕМЕННЫЙ ЯЗЫК

**Л.С.Алиева**

### РЕЗЮМЕ

В статье представлена информация о ряде популярных переводов «Беовульфа» и их основных отличиях. Объяснены преимущества и недостатки этих вариантов перевода, а также рассмотрены переводы, привлекающие внимание своей совместимостью с оригинальным произведением.

*Məqalə redaksiyaya 29 aprel 2024 tarixində daxil olmuş, 6 may 2024 tarixində isə çapa qəbul olunmuşdur.*

# M Ü N D Ə R İ C A T

## İ Q T İ S A D İ Y Y A T  E L M L Ə R İ  B Ö L M Ə S İ

**T.R.Aghayeva.** Assessment of the efficiency of attracting foreign investments to the economy of Azerbaijan........................................................................................................ 6
**S.R.İbrahimova, M.M.Orucov.** İlham Əliyevin prezidentliyi dövründə Azərbaycan iqtisadiyyatı: 20 ildə qət olunmuş uzun yol.............................................................................. 13
**M.M.Orucov, E.E.Kasimov.** Dünya iqtisadiyyatının uzunmüddətli proqnozunun parametrləri............................................................................................................................ 23
**S.R.İbrahimova, M.M.Orucov.** Kənd təsərrüfatında innovasiya fəaliyyətinin inkişafının stimullaşdırılmasının xarici təcrübəsi........................................................................ 30
**M.S.İsgəndərova.** Startapların inkişaf və genişlənmə dinamikasının təhlili........................ 44
**M.M.Orucov, E.E.Kasimov.** Theoretical and methodological aspects characterizing innovative development of agricultural industry......................................................... 54
**E.M.Adishirinzadeh.** Ways to optimize monetary policy in Azerbaijan............................ 60
**T.R.Ağayeva.** Xarici investisiyalar haqqında qərarın qəbul edilməsini müəyyən edən müasir nəzəri konsepsiyalar........................................................................................... 70
**Э.Э.Гамидов.** Влияние монетарной и фискальной политики на инновационное развитие в Азербайджане……………………………………………………………….. 76
**Ф.А.Байрамов.** Возможности внедрения конвергенции как направления экономического развития стран Южного Кавказа…………………………………………….. 82
**M.E.Mustafayev.** Impact of artificial intelligence on labor market.................................... 89
**H.Z.Əliyeva, L.R.İsmayılova, N.R.Yunusova.** Azərbaycan Respublikasında sahibkarlığın inkişafında işgüzar etikanın zəruriliyi.......................................................................... 95
**F.Ş.Rüstəmli.** Bankların maliyyə hesabatlarında ədalətli dəyər metodunun həddindən artıq istifadəsi..................................................................................................................... 100
**A.A.Novruzov, S.B.Mamedova, F.G.Velizadeh.** Digital economy: essence and development prospects..................................................................................................................... 106
**L.R.Hasanova.** Rank reversal problem and sensitivity analysis in portfolio selection under Z-information......................................................................................................... 112
**Ш.В.Асланов.** Методы оценки влияния образования на экономический рост……… 120
**P.E.Heydərov.** Dövlət xərclərinin idarə edilməsi və bunun iqtisadi proseslərə təsiri........... 127
**S.F.Yusifova.** Sosial təminat: rifahın müdafiəsi və cəmiyyətin inklüziv inkişafı üçün iqtisadi və sosial şərtlər............................................................................................................ 133

## T İ B B,  B İ O L O G İ Y A  V Ə  P S İ X O L O G İ Y A  E L M L Ə R İ  B Ö L M Ə S İ

**H.O.Seyhan.** 44 günlük İkinci Qarabağ müharibəsi sonrası travma almış qazilərə psixoloji yardımın əhəmiyyəti...................................................................................................... 140
**H.O.Seyhan.** İkinci Qarabağ müharibəsi sonrası qazilərin post-travmatik stress vəziyyətləri...................................................................................................................................... 145
**Ş.S.Səfərova, G.M.Seyidova.** Süd məhsullarından alınan süd-turşu bakteriyalarının xüsusiyyətləri və onların bağırsaq patogenlərinə təsiri.............................................................. 150
**R.R.İsmayılzadə, M.Ə.Səfərova.** Azərbaycanın dərman bitkiləri: itburnu......................... 156

**Ə.İ.Tağızadə, M.Ə.Səfərova.** Sinir sistemi pozğunluğu olan nevrozlar, onların yaranma səbəbləri və stressin nevroza təsiri........................................................................................ 161
**V.R.Musayev.** Bəsitçay Dövlət Təbiət Qoruğunda yayılmış Şərq çinarının (*Platanus Orientalis L.*) ekoloji xüsusiyyətləri........................................................................................ 166
**F.S.Quliyeva, M.Ə.Səfərova.** Azərbaycanda meyvəçilik və ekologiyanın meyvəçiliyə təsiri........................................................................................ 171
**E.K.Aslanova, N.A.Həsənli.** Kür-Araz ovalığında xırda buynuzlu heyvanların sestodlarının (*Cestoda Rudolphi,* 1808) ekoloji analizi........................................................................................ 178
**İ.Ə.Musayeva, M.Ə.Səfərova.** Daxili sekresiya vəziləri və onların orqanizmin neyrohumoral tənzimində rolu........................................................................................ 184
**S.A.Əlizadə, E.M.Rəsulov.** Sanfilippo sindromunun C tipinin genetik tədqiqi.................. 190
**Z.Z.Əhmədova, İ.A.Axundov.** Anadangəlmə ürək qüsurları............................................. 196
**S.H.Əlizadə.** Uşaqların sosial intellektinin psixoloji xüsusiyyətləri................................... 202

HÜQUQ, TARİX VƏ SİYASİ ELMLƏR BÖLMƏSİ

**K.M.Şıxiyeva.** Yaxın və Orta Şərq regionunun geosiyasi əhəmiyyəti və ABŞ-ın bu regionda milli maraqları........................................................................................ 212

DİLÇİLİK, FİLOLOGİYA VƏ PEDAQOJİ ELMLƏR BÖLMƏSİ

**L.S.Əliyeva.** Qədim ingilis poeziyasının müasir dilə tərcüməsinin xüsusiyyətləri haqqında 224

# C O N T E N T S

## S E C T I O N   O F   E C O N O M I C   S C I E N C E S

**T.R.Aghayeva.** Assessment of the efficiency of attracting foreign investments to the economy of Azerbaijan........................................................................................................ 6
**S.R.Ibrahimova, M.M.Orucov.** Economy of Azerbaijan during the presidency of Ilham Aliyev: a long way covered in 20 years (*in Azeri*)………………………………………….. 13
**M.M.Orucov, E.E.Kasimov.** Parameters of long-term forecast of the world economy *(in Azeri)*............................................................................................................................... 23
**S.R.Ibrahimova, M.M.Orucov.** Foreign experience of stimulating the development of innovation activity in agriculture (*in Azeri*)………………………….............................. 30
**M.S.Iskanderova.** Analysis of the dynamics of development and expansion of startups *(in Azeri*)……………………......................................................................................... 44
**M.M.Orucov, E.E.Kasimov.** Theoretical and methodological aspects characterizing innovative development of agricultural industry.................................................................... 54
**E.M.Adishirinzadeh.** Ways to optimize monetary policy in Azerbaijan............................ 60
**T.R.Aghayeva.** Modern theoretical concepts determining foreign investment decisions *(in Azeri)*…………………………………………………………………………………... 70
**E.E.Hamidov.** Impact of monetary and fiscal policy on innovative development in Azerbaijan *(in Russian)*…………………………………………………………………….. 76
**F.A.Bayramov.** Possibilities for implementing convergence as a direction for economic development of South Caucasus countries *(in Russian)*……………………………………. 82
**M.E.Mustafayev.** Impact of artificial intelligence on labor market.................................... 89
**H.Z.Aliyeva, L.R.Ismailova, N.R.Yunusova.** Importance of business ethics in development of entrepreneurship in the Republic of Azerbaijan (*in Azeri*)………………………… 95
**F.Sh.Rustamli.** Excessive use of fair value method in financial statements of banks *(in Azeri)*…………………………………………………………………………………... 100
**A.A.Novruzov, S.B.Mamedova, F.G.Velizadeh.** Digital economy: essence and development prospects...................................................................................................................... 106
**L.R.Hasanova.** Rank reversal problem and sensitivity analysis in portfolio selection under Z-information.................................................................................................................. 112
**Sh.V.Aslanov.** Methods of assessing the impact of education on economic growth *(in Russian)*………………………………………………………………………………... 120
**P.E.Heydarov.** Managing government expenditure and the impact of this on economic processes (*in Azeri*)………………………………………………………………………… 127
**S.F.Yusifova.** Social security: socio-economic conditions for protection of welfare and inclusive development of society (*in Azeri*)…………………………………………………... 133

## S E C T I O N   O F   M E D I C I N E,   B I O L O G Y   A N D   P S Y C H O L O G Y

**H.O.Seyhan.** The importance of psychological assistance to the injured veterans of the 44 days Second Karabakh War (*in Azeri*)…………………………………………………… 140
**H.O.Seyhan.** Post-traumatic stress disorder in veterans after Second Karabakh War (*in Azeri*)…………………………………………………………………………………... 145
**Sh.S.Safarova, G.M.Seyidova.** Characteristics of lactic acid bacteria obtained from dairy products and their effect on intestinal pathogens (*in Azeri*)…………………….………. 150

**R.R.Ismailzadeh, M.E.Safarova.** Medicinal plants cultivated in Azerbaijan: roseship *(in Azeri*)……………………………………………………………………………………... 156
**A.I.Taghizadeh, M.E.Safarova.** Neuroses as disorders of nervous system, their reasons, and the effect of stress on neurosis (*in Azeri*)……………………..……………………... 161
**V.R.Musayev.** Ecological characteristics of Oriental plane tree (*Platanus Orientalis L.*) in Besitchay State Nature Reserve (*in Azeri*)……………………..………………………....... 166
**F.S.Guliyeva, M.E.Safarova.** Fruit growing in Azerbaijan and ecological impact *(in Azeri)*………………………………………………………………………………………. 171
**E.K.Aslanova, N.A.Hasanli.** Ecological analysis of cestodes (*Cestoda Rudolphi*, 1808) of small horned animals in Kura-Araz lowland (*in Azeri*)………………………………….. 178
**I.A.Musayeva, M.E.Safarova.** Endocrine glands and their role in neurohumoral regulation of human body (*in Azeri*)……………………..……………………........................... 184
**S.A.Alizadeh, E.M.Rasulov.** Genetic study of Sanfilippo syndrome type C (*in Azeri*)…... 190
**Z.Z.Ahmedova, I.A.Akhundov.** Congential heart defects (*in Azeri*)……………………... 196
**S.H.Alizadeh.** Psychological traits of social intelligence in children (*in Azeri*)…………… 202

## SECTION OF LAW, HISTORY AND POLITICAL SCIENCE

**K.M.Shikhiyeva.** Geopolitical importance of Middle East and US national interests in this region (*in Azeri*)……………………..……………………........................................ 212

## SECTION OF LINGUISTICS, PHILOLOGY AND PEDAGOGY

**L.S.Aliyeva.** On the features of translation of Old English poetry into modern language *(in Azeri)*……………………………………………………………………………. 224

# “ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ” JURNALINA TƏQDİM OLUNAN MƏQALƏLƏRİN TƏRTİBAT QAYDALARI

1. Jurnalda nəşr olunmaq üçün təqdim olunan məqalə ilk öncə plagiat yoxlanışına, daha sonra isə 2 gizli rəyə göndərilir. Hər iki rəyçidən məqalə ilə bağlı müsbət rəy gələrsə, məqalə redaksiya heyəti tərəfindən nəzərdən keçirilir və jurnalın tələblərinə tam cavab verdiyi təqdirdə məqalə çapa qəbul olunur.

2. Jurnala təqdim olunan məqalənin strukturu ümumdünya miqyasında elmi məqalələrə şamil edilən tələblərə cavab verməlidir. Yəni, məqalədə toxunulan problem ümumi şəkildə müəyyənləşdirilməli, onun mühüm elmi və praktiki məsələlərlə olan əlaqəsi göstərilməli, müəllifin bu problem üzrə istinad etdiyi ən son işlərin təhlili verilməli, məqalənin həsr olunduğu problemin həll olunmamış hissələri, habelə alınan nəticələr və onların perspektivləri göstərilməlidir.

3. Mövzusunun səthi və tezissayağı olduğu, elmi baxımdan kifayət qədər əsaslandırılmadığı məqalələr qəbul edilmir.

4. Məqalənin başlığı qısa olmalı, məzmunu əks etdirməli və 100 işarədən artıq olmamalıdır. Məqaləyə üç dildə (Azərbaycan, ingilis və rus dillərində) açar sözlər və UOT indeksi əlavə olunmalıdır (UOT indeksinin dəqiqliyinə görə redaksiya heyəti məsuliyyət daşımır). Azərbaycan dilində təqdim olunan məqalənin sonunda ingilis və rus dillərində, ingilis dilində təqdim olunan məqalənin sonunda Azərbaycan və rus dillərində, rus dilində təqdim olunan məqalənin sonunda Azərbaycan və ingilis dillərində eyni məzmunlu xülasələr verilməlidir.

5. Məqalə elektron variantda journal@oyu.edu.az ünvanına göndərilməlidir.

6. Məqalədə digər mənbələrə edilən istinadlarda və istifadə olunan ədəbiyyat siyahısının hazırlanmasında APA standartları rəhbər tutulmalıdır
(bax https://oyu.edu.az/uploads/elmi%20jurnal%20tertibat.pdf).

7. Məqalənin mətni Microsoft Word proqramında Times New Roman şrifti ilə yığılmalıdır. Şriftin ölçüsü 12, sətirlərarası interval 1 olmalıdır. Sol və sağ tərəfdən məsafə 2,8 sm, yuxarı və aşağıdan isə 3 sm olmalıdır. Birinci sətirdəki boşluq 1,25 sm, düstur, rəsm və cədvəllərdə interval məsafələri (yuxarı və aşağıdan) 6 punkt olmalıdır. Şəkillər (rəsmlər) 11 ölçülü rəsmaltı yazılarla müşayiət olunmalı və mətnə skan edilmiş şəkildə (yəni skannerdən keçirilmiş şəkildə) daxil edilməlidir. Cədvəllərdə şriftin ölçüsü 11 olmalıdır. Düsturlar Word Equation redaktorunda yığılmalıdır.

8. Təqdim olunun məqalə 5-15 səhifə həcmində olmalıdır. Həcmi 15 səhifəni aşan məqalə yalnız redaksiya heyətinin razılığı ilə qəbul olunur. Mətnin qrammatik cəhətdən düzgünlüyü müəllif tərəfindən yoxlanılmalıdır.

9. Qoşma səhifədə müəllifin adı, soyadı, atasının adı, elmi dərəcəsi (varsa), iş yeri, iş yerinin ünvanı, müəllifin e-mail ünvanı və əlaqə telefonları göstərilməli, habelə əlyazmanın əvvəllər heç bir elmi nəşrdə dərc olunmadığı və elmin hansı sahəsinə aid olduğu qeyd olunmalıdır.

*əlaqə telefonu: (+994 55) 465 85 27*
*email: journal@oyu.edu.az*
*ünvan: Bakı AZ1072, Koroğlu Rəhimov küçəsi 13, Odlar Yurdu Universiteti, Ümumi şöbə*
*http://www.journal.oyu.edu.az*

## GUIDE FOR AUTHORS

1. Every newly submitted article is first checked for plagiarism, and then sent to two anonymous reviewers. If positively assessed by both reviewers, the article is then considered by the editorial staff and, in case of full compliance with journal guidelines, the article is accepted for publication.
2. The contents of an article must meet generally accepted international scientific norms. The aim and the purpose of the article as well as its feasibility must be clearly indicated. It should deal with innovative ideas, developments, directions, misdirections, areas which need to be explored, future outlook, prior errors, problems, personnel, funding, or trends in the chosen field.
3. The manuscript with incomplete coverage of the subject will not be accepted.
4. The title of the article must be concise not to exceed 100 characters and be in full conformity with the contents. The article should include keywords and subject index (UDC). Also, an abstract is required consisting of 50-100 words.
5. Authors are advised to submit their articles electronically to journal@oyu.edu.az.
6. APA citation style should be used for in-text citations and reference list (see https://oyu.edu.az/uploads/elmi%20jurnal%20tertibat.pdf).
7. Microsoft Word is the only preferred input program. The font used should be Times New Roman of 12 points. Text must be single spaced with 2.8 cm left/right margins and 3 cm top/bottom margins. Figures must be scanned and captioned in 11-points Times New Roman. Formulas should be input using Word Equation. And tabular data should be input using 11-points Times New Roman.
8. Authors are encouraged to submit articles ranging from 5-15 pages (including appendixes, references, figures and tables). Sanction of editorial board is required for the acceptance of manuscripts exceeding 15 pages. The author should check the text for grammar.
9. Each article should include title, name, patronymic, current affiliation, postal address, e-mail and phone numbers of the author who should also provide a written evidence that the presented manuscript has been never published before. Also, the author must indicate the field of science to which his (her) manuscript belongs.

*Tel.: (+994 55) 465 85 27*
*email: journal@oyu.edu.az*
*Postal Address: General Department, Odlar Yurdu University, 13 K.Rahimov St., Baku AZ1072, Azerbaijan*
*http://www.journal.oyu.edu.az*

## ПРАВИЛА ДЛЯ АВТОРОВ

1. Каждая новая статья, поступившая в редакцию, сперва отправляется на проверку на плагиат, а потом пересылается двум независимым рецензентам для экспертной оценки. Если мнение обоих рецензентов о статье положительно, статья рассматривается редколлегией журнала и, в случае полного соответствия требованиям журнала, статья принимается к публикации.
2. Структура представляемой в журнал статьи должна отвечать общемировым требованиям к научным статьям. То есть, статья должна включать определение проблемы в общем виде, её связь с важными научными и практическими задачами; анализ последних достижений и публикаций по данной проблеме, на которые опирается автор; выделение нерешённых частей проблемы, которым посвящается данная статья; формирование целей статьи (постановка задачи); содержание основного исследования с полным обоснованием полученных научных результатов; выводы из проведенного исследования и перспективы в данном направлении.
3. Рукопись, в которой материал изложен поверхностно, тезисно, без достаточного научного обоснования - не принимается.
4. Заголовок должен быть кратким, отражать содержание статьи и не превышать 100 знаков. Статья должна содержать ключевые слова на трёх языках (азербайджанском, английском и русском) и индекс УДК. Если язык статьи – азербайджанский, в конце приводятся идентичные по содержанию резюме на английском и русском языках. Аналогично, англоязычная статья сопровождается азербайджанским и русским, а русскоязычная – азербайджанским и английским резюме (идентичного содержания).
5. Рукопись присылается в редакцию журнала в электронном варианте по адресу journal@oyu.edu.az.
6. Для внутритекстовых ссылок и списка литературы должен быть использован стиль APA (см. https://oyu.edu.az/uploads/elmi%20jurnal%20tertibat.pdf).
7. Текст статьи должен быть набран в программе Microsoft Word шрифтом Times New Roman 12 размера с одиночным междустрочным интервалом. Верхние и нижние поля – 3 см, левые и правые – 2.8 см. Отступы: первой строки (абзац) – 1,25 см, интервалы (выше и ниже) от формул, рисунков, таблиц – 6 п.т. Рисунки и фото сопровождаются подрисуночными текстами в шрифте Times New Roman 11 размера и вставляются в текст в отсканированном виде. Формулы набираются в редакторе Word Equation с полуторным междустрочным интервалом.
8. Объём представляемой статьи должен быть в пределах 5-15 страниц. Статьи большего объема принимаются только по согласованию с редколлегией журнала. Текст должен быть проверен на грамматические ошибки, вычитан и просмотрен автором.
9. На отдельной странице указываются фамилии, инициалы автора, учёная степень (если имеется), место работы, почтовый адрес места работы, а также электронный адрес и контактные телефоны автора. В сопроводительном письме следует указать, что рукопись ранее нигде не публиковалась. Также необходимо указать принадлежность статьи к той или иной научной сфере.

*контактный телефон редакции: (+994 55) 465 85 27*
*email: journal@oyu.edu.az*
*адрес: Баку AZ1072, ул.Кёроглу Рахимова 13, Университет Одлар Юрду, Общий отдел*
*http://www.journal.oyu.edu.az*

Jurnal Azərbaycan Respublikası Mətbuat və İnformasiya
Nazirliyində qeydiyyatdan keçmişdir

This Journal is registered at the Ministry of Press
and Information of the Republic of Azerbaijan

********

Odlar Yurdu Universitetinin poliqrafiya mərkəzində çap olunmuşdur

Printed in Odlar Yurdu University Publishing Center

********

Lisenziya №138
10 fevral 1999-cu il

License No. 138
February 10, 1999

Yığılmağa verilmişdir: 06.06.2024. Çapa imzalanmışdır: 11.06.2024
Formatı: 60x84 1/8. Həcmi: 29.5 ç.v. Ofset çap üsulu. Tiraj: 100

Sent for print: 06.06.2024. Authorized for printing: 11.06.2024
Format: 60x84 1/8. Volume: 29.5 p.l. Offset printing. 100 copies